# ELMİ TƏDQİQAT

Beynəlxalq onlayn elmi jurnal

# SCIENTIFIC RESEARCH

International online scientific journal

aem.az

AEM

e-ISSN: 2789-6919

**AZƏRBAYCAN RESPUBLİKASI**

**THE REPUBLIC OF AZERBAIJAN**

# ELMİ TƏDQİQAT

**Beynəlxalq onlayn elmi jurnal**
**İmpakt Faktor: 0.543**

**Cild: 2 Sayı: 4**

# SCIENTIFIC RESEARCH

**International online scientific journal**
**Impact Factor: 0.543**

**Volume: 2 Issue: 4**

**Bakı – Baku**
**2022**

Jurnal 01.03.2021-ci ildə
Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi
Mətbu nəşrlərin reyestrinə
daxil edilmişdir.
Reyestr № 4336

On 01.03.2021, the journal was
included in the register
of Press publications of the
Ministry of Justice of the
Azerbaijan Republic
Registration № 4336

**Redaksiyanın ünvanı:**
Az1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
"Azərbaycan" nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address:**
Az1073, Baku,
Matbuat avenue, 529,
"Azerbaijan" Publishing House,
6-th floor

**Tel.:** +994 50 209 59 68
+994 55 209 59 68
+994 99 807 67 68
+994 12 510 63 99

**e-mail:**
tedqiqat1707@aem.az

## Beynəlxalq indekslər / International indices

**e-ISSN: 2789-6919**
**DOI: 10.36719**

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© https://aem.az
© info@aem.az

**Təsisçi və baş redaktor:**
**Mübariz HÜSEYİNOV**
tədqiqatçı
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCID ID 0000-0002-5274-0356

**Founder and Editor-in-Chief:**
**Mubariz HUSEYINOV**
researcher
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCID ID 0000-0002-5274-0356

**Redaktor:**
**Dürdanə HÜMBƏTOVA**
filologiya üzrə fəlsəfə doktoru, dosent
durdanahumbatova@gmail.com

**Editor:**
**Durdana HUMBATOVA**
phd in philology, docent
durdanahumbatova@gmail.com

**Redaktor köməkçisi:**
**Dilbər Camali**
dilber.mehdiyeva@gmail.com

**Assistant editor:**
**Dilber Djamali**
dilber.mehdiyeva@gmail.com

**Dillər üzrə redaktorlar**

**Assoc. Prof. Dr. Nəriman SEYİDƏLİYEV** / Azərbaycan dili
**Prof. Dr. Abbas ABBASOV** / İngilis dili

**Language editors**

**Assoc. Prof. Dr. Nariman SEYIDALIYEV** / Azerbaijani language
**Prof. Dr. Abbas ABBASOV** / English language

**Elmi sahələr üzrə redaktorlar**

**Assoc. Prof. Dr. Xatirə HÜSEYNOVA /** Humanitar və ictimai elmlər
**Prof. Dr. Şəhla SƏMƏDOVA /** Humanitar və ictimai elmlər
**Assoc. Prof. Dr. Elza ORUCOVA /** Təbiət elmləri
**Dr. Fuad RZAYEV /** Təbiət elmləri
**Dr. Əli ZALOV /** Təbiət elmləri
**Assoc. Prof. Dr. Ramiz ƏHLİMANOV /** Təbiət elmləri
**Prof. Dr. Yaşar MEHRƏLİYEV /** Dəqiq elmlər
**Assoc. Prof. Dr. Şahlar BABAYEV /** Texnika elmləri

**Editors in scientific fields**

**Assoc.Prof.Dr.Khatira HUSEYNOVA /** Humanities and social sciences
**Prof. Dr. Shahla SAMADOVA /** Humanities and social sciences
**Assoc. Prof. Dr. Elza ORUJOVA /** Nature sciences
**Dr. Fuad RZAYEV /** Nature sciences
**Dr. Ali ZALOV /** Nature sciences
**Assoc. Prof. Dr. Ramiz AHLIMANOV /** Nature sciences
**Prof. Dr. Yashar MEHRALIYEV /** Exact sciences
**Assoc. Prof. Dr. Shahlar BABAYEV /** Technical sciences

## REDAKSİYA HEYƏTİ

### Humanitar və ictimai elmlər bölməsi

**Prof. Dr. Nərgiz AXUNDOVA**, AMEA Tarix İnstitutu / Azərbaycan
**Prof. Dr. Yerden KAJIBEK,** Qazax dili Akademiyası / Qazaxıstan
**Prof. Dr. İrina KREYDİÇ**, Ukrayna Milli Texniki Universitetinin İqor Sikorski adına Kiyev Politexnik İnstitutu / Ukrayna
**Prof. Dr. Qəzənfər KAZIMOV**, AMEA Dilçilik İnstitutu / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN,** Monqolustan Dövlət Universiteti/ Monqolustan
**Prof. Dr. Natalya MİŞİNA**, Odessa Hüquq Akademiyası / Ukrayna
**Prof. Dr. Svetlana KOJIROVA,** L.N.Qumilyov adına Avrasiya Milli Universiteti/ Qazaxıstan
**Prof. Dr. Masumə DAEİ**, Təbriz Payame Noor Universiteti / İran İslam Respublikası
**Prof. Dr. Şəhla SƏMƏDOVA,** Bakı Dövlət Universiteti / Azərbaycan

**Prof. Dr. Yelena ŞIŞKİNA,** Həştərxan Dövlət Memarlıq-İnşaat Mühəndisliyi Universiteti / Rusiya
**Prof. Dr. Şikar** QASIMOV, Azərbaycan Texniki Universiteti/ Azərbaycan
**Prof. Dr. Müseyib İLYASOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Assoc. Prof. Dr. Rəşid CABBAROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Asiman QULİYEV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Kulaş MAMİROVA**, Qazaxstan Milli Qadın Pedaqoji Univeristeti / Qazaxıstan
**Assoc. Prof. Dr. Andrey RAGULİN,** Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Elza ALIŞOVA**, Girne American Universiteti / Türkiyə
**Assoc. Prof. Dr. Dürdanə MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Gülnoz SATTOROVA**, ÖREA Özbək Dili, Ədəbiyyatı və Folkloru İnstitutu / Özbəkistan
**Dr. Hacer DOLANBAY**, Muş Alparslan Universiteti / Türkiyə
**Dr. Rövşən RAMİZOĞLU**, Selcuk Universiteti / Türkiyə

### Təbiət elmləri bölməsi

**Prof. Dr. Eldar QASIMOV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Onur URAL,** Selcuk Universiteti / Türkiyə
**Prof. Dr. Nikolay BRİKO**, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti / Rusiya
**Prof. Dr. Duyğu KILIÇ**, Amasya Universiteti / Türkiyə
**Prof.Dr. İlham ŞAHMURADOV**, AMEA Botanika İnstitutu / Azərbaycan
**Prof. Dr. Zöhrab QARAYEV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Mehmet ÜNLÜ**, Marmara Universiteti / Türkiyə
**Prof. Dr. İlham KAZIMOV**, M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi / Azərbaycan
**Prof. Dr. İbadulla AĞAYEV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. David MENABDE**, Kutaisi Dövlət Unversiteti / Gürcüstan
**Prof. Dr. Elxan NURİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Dr. Asif MANAFOV**, AMEA Zoologiya İnstitutu / Azərbaycan
**Dr. Əli ZALOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Dr. Elçin HÜSEYN**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
**Prof. Ali AZQANİ**, Taylerdəki Texas Universiteti / ABŞ
**Dr. Xanzoda YULDAŞEVA**, Tibb İşçilərinin Peşə Kvalifikasiyasının İnklişafı Mərkəzi / Özbəkistan
**Assoc. Prof. Dr. Şəkər MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Şikar ƏHMƏDOV**, Əkinçilik Elmi-Tədqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Mahir HACIYEV**, Heyvandarlıq Elmi-Tedqiqat institutu / Azərbaycan
**Assoc. Prof. Dr. Arif HÜSEYNOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Ramiz ƏHLİMANOV**, Bakı Dövlət Unversiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Aytəkin AXUNDOVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
Dr. **Svetlana QORNOVSKAYA**, Beloserkovsk Milli Aqrar Universiteti / Ukrayna
**Dr. Fuad RZAYEV**, AMEA Zoologiya İnstitutu / Azərbaycan

### Dəqiq elmlər bölməsi

**Prof. Dr. Yusif MƏMMƏDOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Eldar VƏLİYEV,** Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. Yaşar MEHRƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Eldar MƏSİMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Maarif CƏFƏROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Səadət KƏRİMİ**, Kral Texnologiya İnstitutu / İsveç

### Texnika elmləri bölməsi

**Prof. Dr. Cəlaləddin MƏMMƏDOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Prof. Dr. Valeriy LİSENKO**, Ümumrusiya Metroloji Xidmət Elmi-Tədqiqat İnstitutu / Rusiya
**Assoc. Prof. Dr. Şahlar BABAYEV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Univeristeti / Özbəkistan
**Assoc. Prof. Dr. Zəfər CƏFƏROV**, Azərbaycan Dövlət Memarlıq və İnşaat Universiteti / Azərbaycan

## EDITORIAL STAFF

### Humanities and social sciences section

**Prof. Dr. Nargiz AKHUNDOVA**, Institute of History of ANAS / Azerbaijan
**Prof. Dr. Erden Kajibek,** Kazakh Language Academy/ Kazakhstan
**Prof. Dr. Irina KREIDYCH**, National Technical University of Ukraine «Igor Sikorsky Kyiv Polytechnic Institute» / Ukraine
**Prof. Dr. Gazanfar KAZIMOV**, Institute of Linguistics of ANAS / Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAWA**, Nicolaus Copernicus University / Poland

**Prof. Dr. Uugunbayar MYAGMARSUREN,** Mongolian State University / Mongolia
**Prof. Dr. Natalya MISHINA**, Odessa Law Academy / Ukraine
**Prof. Dr.Svetlana KOJİROVA,** L.N. Gumilyov Eurasian National University/ Kazakhstan
**Prof. Dr. Masuma DAEI**, Payame Noor University of Tabriz / Islamic Republic of Iran
**Prof. Dr. Shahla SAMADOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Yelena SHISHKINA,** Astrakhan State University of Architecture and Construction Engineering / Russia
**Prof. Dr. Shikar GASIMOV**, Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Museyib ILYASOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia
**Assoc. Prof. Dr. Rashid JABBAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Asiman GULIYEV**, Azerbaijan State University of Economics / Azerbaijan
**Assoc. Prof. Dr. Kulash MAMIROVA**, Kazakhstan National Woman Pedogogical Institute / Kazakhstan
**Assoc. Prof. Dr. Andrey RAGULIN,** Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Elza ALISHOVA**, Girne American University / Turkey
**Assoc. Prof. Dr. Durdana MAMMADOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Gulnoz SATTOROVA**, Institute of Uzbek Language, Literature and Folklore of the Uzbekistan Academy of Sciences / Uzbekistan
**Dr. Hajer DOLANBAY**, Mush Alparslan University / Turkey
**Dr. Rovshan RAMIZOGLU**, Seljuk University / Turkey

## Natural sciences section

**Prof. Dr. Eldar GASIMOV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Onur URAL**, Seljuk University / Turkey
**Prof. Dr. Nikolai BRICO**, First Moscow State Medical University named after I.M.Sechenov / Russia
**Prof. Dr. Duygu KILIC**, Amasya University / Turkey
**Prof.Dr.Ilham SHAHMURADOV**, Institute of Botany of ANAS / Azerbaijan
**Prof. Dr. Zohrab GARAYEV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Mehmet UNLU**, Marmara University / Turkey
**Prof. Dr. Ilham KAZIMOV**, Scientific Surgery Center named after M.Topchubashov / Azerbaijan
**Prof. Dr. Ibadulla AGAYEV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. David MENABDE**, Kutaisi State University / Georgia
**Prof. Dr. Elkhan NURIYEV**, Baku State University / Azerbaijan
**Dr. Asif MANAFOV**, Institute of Zoology of ANAS / Azerbaijan
**Dr. Ali ZALOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Dr. Elchin HUSEYN**, Azerbaijan State University of Oil and Industry / Azerbaijan
**Prof. Ali AZGANY**, University of Texas at Tyler / USA
**Dr. Khanzoda YULDASHEVA**, Center for Professional Development of Medical Workers / Uzbekistan
**Assoc. Prof. Dr. Shakar MAMMADOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Shikar AHMADOV**, Agricultural Scientific Research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Mahir HAJIYEV**, Cattle-breeding Scientific research institute / Azerbaijan
**Assoc. Prof. Dr. Arif HUSEYNOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Ramiz AHLIMANOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Aytekin AKHUNDOVA**, Baku Slavic University / Azerbaijan
**Dr. Svetlana GORNOVSKAYA,** Beloserkovsk National Agrarian University / Ukraine
**Dr. Fuad RZAYEV**, Zoology Institute of ANAS / Azerbaijan

## Exact sciences section

**Prof. Dr. Yusif MAMMADOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. Yashar MEHRALIYEV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Eldar MASIMOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Maarif JAFAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Saadat KARIMI**, Royal İnstitute of Technology / Sweden

## Technical sciences section

**Prof. Dr. Jalaladdin MAMMADOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Prof. Dr. Valery LISENKO**, All-Russian Metrological Service Research Institute / Russia
**Assoc. Prof. Dr. Shahlar BABAYEV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan
**Assoc. Prof. Dr. Zafar JAFAROV**, Azerbaijan State University of Architecture and Construction / Azerbaijan

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

## HUMANITIES AND SOCIAL SCIENCES

DOI: https://www.doi.org/10.36719/2789-6919/08/6-10

**Ayan Vüqar qızı Mənəfova**
Bakı Dövlət Universiteti
magistrant
ayann207@gmail.com

# İNSAN HÜQUQLARININ NƏSİLLƏRƏ BÖLÜNMƏ KONSEPSİYASI VƏ YENİ NƏSİL İNSAN HÜQUQLARININ AZƏRBAYCAN RESPUBLİKASINDA TƏTBİQİ PROBLEMLƏRİ

**Xülasə**

Hazırki məqalədə, İnsan Hüquqlarının nəsillərə bölünməsi Konsepsiyasının Azərbaycan Respublikası Konstitusiyasında tətbiqi əks etdirilmişdir, və nəticədə Azərbaycan Respublikası Konstitusiyasının "İnsan Hüquqlarının üç nəsli" konsepsiyasına uyğunluğu göstərilmişdir. IV nəsil İnsan Hüquqlarının bir hissəsinin Azərbaycan Respublikası Qanunvericiliyində hansı problemlərlə qarşılaşdığı və bu problemlərin hansı nəticələrə gətirib çıxara bilməsi haqqında fikir bildirilmişdir. IV nəsil İnsan Hüquqlarının Azərbaycan Respublikasında tətbiqi problemlərinin həlli metodları təklif olunmuşdur.

***Açar sözlər:*** *İnsan hüquqları, İnsan hüquqlarının nəsilləri, I nəsil İnsan Hüquqları, II nəsil İnsan Hüquqları, III nəsil İnsan Hüquqları*

**AyanVugar Manafova**

## The concept of division of human rights into generations and the application problems of new generation of human rights in the Republic of Azerbaijan

**Abstract**

This article reflects the application of the Concept of Division of Human Rights to Generations in the Constitution of the Republic of Azerbaijan, and as a result shows the compliance of the Constitution of the Republic of Azerbaijan with the concept of "Three Generations of Human Rights". Opinions were expressed on the problems encountered in the legislation of the Republic of Azerbaijan by a part of the IV generation Human Rights and the consequences of these problems. The methods of solving the problems of the implementation of the fourth generation of human rights in The Republic of Azerbaijan are proposed.

***Key words:*** *Human Rights, Generations of Human Rights, I Generation of Human Rights, II Generation of Human Rights, III Generation of Human Rights*

## Giriş

İnsan hüquqları hər bir fərdin ləyaqətinin və azadlığının qorunmasını təmin edən qaydalardır. Birlikdə İnsan Hüquqları fərdin hüquqi statusunun əsasını təşkil edir.

İnsan Hüquqları Nəsilləri Konsepsiyası. İnsan Hüquqlarının nəsillərə bölünmə Konsepsiyası 1977-ci ildə YUNESKO-nun İnsan Hüquqları və Sülh bölməsinin direktoru, çex hüquqşünası Karel Vasak tərəfindən təqdim edilmişdir. K.Vasak Böyük Fransa İnqilabının devizini - "Azadlıq, Bərabərlik, Qardaşlıq" şüarını əsas götürərək insan hüquqlarını üç nəslə ayırmışdır:

1. vətəndaş və siyasi hüquqlar ("azadlıq hüquqları");
2. iqtisadi, sosial və mədəni hüquqlar ("bərabərlik hüquqları"); Və
3. kollektiv hüquqlar ("həmrəylik hüquqları") [Kapitsın V. M., 2003, s.42]

K. Vasakın modeli, beynəlxalq insan hüquqlarının son dərəcə mürəkkəb olan, tarixi inkişaf yolunun sadələşdirilmiş ifadəsidir.
Bu model həm də bir nəsil insan hüquqlarının digərlərindən üstünlüyünü və ya daha az vacibliyini nəzərdə tutmur. Üç nəsil (və insan hüquqlarının müvafiq kateqoriyaları) həmişə bir-biri ilə əlaqəli, bir-birindən asılı və bir-birini tamamlayan kimi qəbul edilir.

**İnsan hüquqlarının Nəsilləri.** Birinci nəsil İnsan Hüquqları - mülki və siyasi hüquqlar nəsli. XVII-XVIII əsrlərin C.Lokk, Ş.Monteskye, T.Hobbes, J.J.Rousseau kimi mütəfəkkirlərinin dövlət, siyasi hakimiyyət, insan hüquqları və azadlıqları haqqında təsəvvür və konsepsiyalarından irəli gəlir. [Vasak K.,1977, s. 7] Birinci nəsil insan hüquqları neqativ hüquqlar sistemi kimi səciyyələndirilir ( Neqativ hüquqlar - şəxsiyyəti dövlətin onun sərbəst hərəkət etməsinə mane olan məhdudiyyətlər, məhrumiyyətlər və məcburetməsindən qoruyan hüquqlar hesab olunur)

Hüquqi demokratik dövlət prinsiplərinin yaranması, inkişafı və praktikada tətbiqi birinci nəsil insan hüquqlarının tanınması və həyata keçirilməsi ilə bağlıdır[ Vitruk N.V., 2008, 40].

İnsan hüquqlarının birinci nəsli AR Konstitusiyasının II bölmə III fəslində toxunulmuşdur və aşağıdakı əsas hüquq və azadlıqlardan ibarətdir:

1. yaşamaq hüququ, azadlıq hüququ, fərdin şəxsi toxunulmazlığı hüququ; (maddə 24-28; 32).
2. köləlikdən və qulluqdan azad olmaq hüququ; (maddi 24-28; 46).
3. işgəncə və qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftardan və cəzadan azad olmaq hüququ; (maddə 31; 46)
4. əsassız həbsdən, həbsdən və ya sürgündən azad olmaq hüququ; (maddə 63-64)
5. ədalətli və açıq məhkəmə baxışı hüququ; (maddə127 (IV)).
6. hərəkət və yaşayış yeri seçmək azadlığı; (maddə 28)
7. mülkiyyət hüququ; (maddə 29)
8. fikir və söz azadlığı; (maddə 47)
9. din azadlığı; (maddə 48)
10. dinc toplaşmaq və birləşmək azadlığı; (maddə 49)
11. bilavasitə və ya sərbəst seçilmiş nümayəndələr vasitəsilə ölkənin idarə olunmasında iştirak etmək hüququ. (maddə 55)

Mülki-siyasi hüquqlar ilkin olaraq Fransanın İnsan və Vətəndaş Hüquqları Bəyannaməsində (1789) daha sonra Amerikanın Hüquqları Billində (1791) ifadə edilmişdir. Müasir dövrdə bu hüquqlar dünyanın əksər ölkələrinin konstitusiya və qanunlarında, eləcə də beynəlxalq konvensiyalarda - 1948-ci il Ümumdünya İnsan Hüquqları Bəyannaməsində (maddə 3-21) və 1966-cı il Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktında öz əksini tapmışdır. Regional Avropa səviyyəsində 1950-ci il İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında Avropa Konvensiyası və onun əlavə protokolları əsasında bu hüquqların müdafiəsi üçün hüquqi mexanizmlər yaradılmışdır: Avropa Şurası və Avropa İnsan Hüquqları Məhkəməsi sistemləri.

**İnsan hüquqlarının ikinci nəsli.** İkinci nəsil, ilk növbədə, 19-cu əsrin əvvəllərində Fransanın Sen-Simon hərəkatının tərəfdarları arasında məşhur olan sosialist ənənələrindən irəli gələn iqtisadi, sosial və mədəni hüquqlar nəslidir. İkinci nəsil İnsan Hüquqları kapitalist inkişaf yolundan və onun fəhlə siniflərinin və müstəmləkəçi xalqların istismarına imkan verən və hətta qanuniləşdirən fundamental və mahiyyətcə məsuliyyətsiz fərdi azadlıq konsepsiyasından sui-istifadələrə cavab olaraq yarandı. Tarixən iqtisadi, sosial və mədəni insan hüquqları birinci nəsil, vətəndaş və siyasi hüquqlarla zidd qoyulur və ilk növbədə pozitiv hüquq sistemi kimi qəbul edilir (Pozitiv hüquqlar dedikdə dövlətin, cəmiyyətin insana müəyyən rifahın (əmək, təhsil, istirahət, sosial yardım hüquqları və s. hüquqlar) təqdim olunması vəzifəsi anlaşılır.) Əgər birinci nəsil insan hüquqlarının mahiyyəti insanın dövlətdən azadlığı, fərdin muxtariyyəti, dövlətin insan həyatının müəyyən sahələrinə qarışmamaq öhdəliyini öz üzərinə götürməsidirsə, ikinci nəsil insan hüquqları, əksinə , sosial ədalətin təmin edilməsi, resursların ədalətli bölüşdürülməsi və imkanların bərabərləşdirilməsi üçün cəmiyyətin sosial-iqtisadi və mədəni həyatında dövlətin fəal iştirakını nəzərdə tutur. [Kovalev A.A., 2013, s. 62]

İkinci nəsil İnsan Hüquqları aşağıdakılardır:

1. sosial təminat hüququ; (maddə 38)
2. işləmək hüququ, ədalətli və əlverişli əmək şəraiti və işsizlikdən müdafiə hüququ; (maddə 35)

3. istirahət və asudə vaxt hüququ; (maddə 36-37)
4. təhsil hüququ; (maddə 42)
5. sağlamlığın qorunması hüququ; (maddə 41)
6. cəmiyyətin mədəni həyatında sərbəst iştirak etmək hüququ; (maddə 40)
7. yaradıcılıq hüququ; (maddə 51)

İkinci nəsil insan hüquqlarını təsbit edən əsas beynəlxalq müqavilələr 1948-ci il Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (22-27-ci maddələr) və 1966-cı il İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktıdır. [Malinova O. Y., 2003, s. 43]

**Üçüncü nəsil İnsan Hüquqları.** Nəhayət, üçüncü nəsil, kollektiv və ya həmrəylik hüquqlarının nəsli 20-ci əsrin ikinci yarısında geniş tanındı. Nəzəri (liberalist və sosialist) təlimlər əsasında formalaşmış birinci və ikinci nəsillərdən fərqli olaraq, üçüncü nəsil insan təcrübəsinin və real həyatın praktiki tələblərinin nəticəsidir. Məsələn, indiyə qədər bəşəriyyətin ətraf mühitlə bağlı problemi olmasa da, bu gün gündəmin aparıcı yerlərindən birini tutur. Üçüncü nəslin hüquqları ilə onun üzərinə qoyulan öhdəlikləri yerinə yetirmək üçün artıq bir dövlətin hərəkətləri kifayət etmir. Onların həyata keçirilməsi yalnız "sosial səhnənin" bütün iştirakçılarının: dövlətlərin, beynəlxalq və qeyri-hökumət təşkilatlarının, ictimai birliklərin və ayrı-ayrı şəxslərin birgə səyləri ilə mümkündür.

Birinci nəslin hüquqları insanı dövlət tərəfindən düzgün olmayan rəftardan qorumaq üçün nəzərdə tutulmuşdur, ikinci nəslin hüquqları ona dövlətdən sosial dəstək və yardım göstərmək üçün xüsusi dövlət proqramlarının həyata keçirilməsini tələb etmək imkanı verir. Lakin insanın rifahı onun cəmiyyət həyatında iştirakı olmadan mümkün deyil. Layiqli həyat üçün insana təkcə azadlıq, bərabərlik yox, həm də qardaşlıq lazımdır. Üçüncü nəsil hüquqlar bir-biri ilə rəqabət aparan fərdlərin muxtariyyətini dəf etməyə kömək edir və insanların mənsub olduqları müxtəlif icmaların sosial həyatında birgə iştirak etməklə öz potensiallarını tam şəkildə reallaşdırmağa imkan verən sosial həmrəyliyi təmin edir.

İnsan hüquqlarının üçüncü nəsli aşağıdakılardır:

1. siyasi, iqtisadi, sosial və mədəni öz müqəddəratını təyin etmək hüququ; (maddə 56 – Seçki Hüququ; maddə 15 – İqtisadi İnkişaf və Dövlət; maddə 59 – Azad Sahibkarlıq Hüququ; maddə 16 – Sosial İnkişaf və Dövlət; maddə 77 – Tarix və Mədəniyyət abidələrinin qorunması)
2. iqtisadi və sosial inkişaf hüququ; (maddə 15 – İqtisadi İnkişaf və Dövlət; maddə 16 – Sosial İnkişaf və Dövlət)
3. "bəşəriyyətin ümumi irsindən" istifadədə iştirak etmək hüququ;
4. sülh hüququ; ( Sülh hüququnun təmini AR Konstitusiyasının giriş hissəsində bəyan edilmişdir : **- ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək.**)
5. təmiz və sağlam ətraf mühit hüququ (maddə 39)
6. humanitar yardım hüququ. (AR Konstitusiyasına əsaslanaraq bu sahə üzrə Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köcürülmüş şəxslərin) statusu haqqında», «Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında» Qanunlar qəbul edilmişdir.)

Üçüncü nəsil hüquqlar çoxlu sayda beynəlxalq sənədlərdə, xüsusilə də 1986-cı il BMT-nin İnkişaf Hüququ Bəyannaməsi, Ətraf Mühit və İnkişaf üzrə 1992-ci il Rio Bəyannaməsi, Vyana Bəyannaməsi və 1993-cü il Fəaliyyət Proqramı kimi yumşaq hüquq siyasətini təşviq edən sazişlərdə təsbit edilmişdir. 2007-ci il BMT-nin Yerli Xalqların Hüquqları Bəyannaməsi.

Hər bir konsepsiya kimi, "İnsan Hüquqlarının üç nəsli" Konsepsiyası da inkişaf edərək yeniliklərə məruz qalmışdır. Bu yeniliklərdən biridə, dördüncü nəsil İnsan Hüquqlarının əmələ gəlməsi ilə əlaqələndirilir.

**Dördüncü nəsil İnsan Hüquqları.** İnsan hüquq və azadlıqlarının gələcək inkişafı, artıq qəbul edilmiş müddəaların konkretləşdirilməsinə, dərinləşdirilməsinə və genişləndirilməsinə, onlara hüquqi qüvvəyə malik, dövlət səviyyəsində icra statusunun verilməsinə, onların həyata keçirilməsinə və qorunmasına beynəlxalq və regional nəzarətin təşkilinə yönəlmişdir.

Son illərdə genetika və biologiya sahəsində klonlaşdırma, orqan və toxuma transplantasiyası, surroqat analıq və digər kəşflərlə bağlı dördüncü nəsil insan hüquq və azadlıqları fəal şəkildə inkişaf edir. [Gluxareva L.I., 2003, s.55]

Bugünkü elmin nailiyyətləri və uğurları, yeni texnologiyalar, tibbin ayrı-ayrı sahələrinin, xüsusən də transplantologiya, farmakologiya, reanimasiya, genetikanın inkişaf səviyyəsi yaşamaq hüququ ilə bağlı bir sıra yeni problemlərə səbəb olur və onların qanunvericiliklə tənzimlənməsini tələb edir. Digər bir deyimlə, dördüncü nəsil İnsan Hüquqları Tibb sahəsində innovasiyalar və yeniliklərlə birbaşa əlaqəlidir.

Bugün biz klonlaşdırma və transplantologiya problemləri ilə bağlı analiz aparacağıq və qanunvericilikdə hansı tənzimləmələrin mütləq olduğu haqqında danışacağıq.

**Klonlaşdırma nədir? Nəyə görə qanuni tənzimlənməyə ehtiyac duyulur və bu cür tənzimlənmə olmadığı halda hansı nəticələrə gətirib çıxara bilər?**

Klonlaşdırma - canlıların gen xəritələrini kopyalayaraq onların həm süni, həm də təbii surətlərinin yaradılması prosesidir. Bu gün klonlaşdırmanın iki növü məlumdur: reproduktiv və müalicəvi. Reproduktiv, genetik olaraq digər (yaşayan və ya ölmüş) şəxslə eyni olan bir insanın yaradılmasını nəzərdə tutur. Belə bir əməliyyat zamanı insan somatik hüceyrəsinin nüvəsi öz nüvəsindən məhrum olan qadın cinsi hüceyrəsinə köçürülür. Terapevtik klonlama yetkin insan hüceyrəsindən embrion yaradır. Bu zaman embrionun inkişafı iki həftə ərzində dayanır və kök hüceyrələrin alınması üçün məhsul kimi istifadə olunur. Belə hüceyrələr bir insanı müxtəlif xəstəliklərdən müalicə etməyə imkan verir [Romanovski G.B., 2015, s. 11]

İnsanın klonlaşdırılması niyə qadağan edildi?

İnsanın klonlaşdırılması bəşəriyyətin cavabı olmayan bir sıra nəzəri və texniki suallara gətirib çıxarır. İnsanların surətlərini yaratmaq üçün ən əsas məhdudiyyət şüurun təkrarlanmasının qeyri-mümkünlüyüdür, yəni biz fərdlərin tam şəxsiyyəti haqqında danışa bilmərik və ya bu şəxsiyyətin formalaşmasında hansı faktorların rol aldığı haqqında fikir yürüdə bilmərik.

Klonlaşdırma ilə əlaqəli uğursuz nəticələrin yüksək faiz göstəricisi ilə bağlı narahatlıqlar da var. Bu səbəblə klonlaşdırılmış insanların gələcək nəsil üçün təhlükə kəsb etdiyini qeyd etmək lazımdır, çünki uzun müddətdə genetik dəyişikliklərin nəticələri öyrənilməmişdir. Uğursuz klonlaşdırılmanın nəticəsi sadəcə fiziki qüsurla deyil, psixoloji qüsurla da nəticələnə bilər, və bu da öz növbəsində bəşəriyyət üçün təhlükə təşkil edə bilər.

Onu da nəzərə almaq lazımdır ki, bir çox dinlər, o cümlədən dünya dinləri - xristianlıq, islam, buddizm canlıların süni şəkildə yaradılmasının ilahi qanunlara zidd olmasına istinad edərək, insanların klonlaşdırılmasına qarşı çıxırlar.

Lakin, reproduktiv klonlaşdırmanın artıq insan üzərində tətbiq edilib edilməməsi sual altındadır, çünki bir çox insan üzərində aparılan təcrübələr, mediyaya sızdırılmadan tətbiq edilmişdir [Romanovski G.B., 2012, s. 9]

Gələcəkdə klonlaşdırma məhdudiyyətləri qalxdıqdan sonra klonların və DNT nümunəsi alınaraq klonlaşdırılan insanların hüquqi statusu necə tənzimlənəcək və hansı nəticələrə gətirib çıxaracaq? Hələ də sual olaraq qalır.

Bizim aspektimizdən müalicəvi klonlaşdırılmanın qanuni tənzimlənməsi ilə birlikdə reallaşdırmaq bəşəriyyətin xeyirinə ola bilər, belə ki reproduktiv klonlama müalicəsi olmayan bir çox xəstəliyin və ya müalicəsi üçün uzun müddət uyğun donor gözləməsində olan bir çox şəxsin müalicəsi üçün böyük əhəmiyyət kəsb edir.

Klonlaşdırma haqqında Qanunvericiliyin Qəbul edilməsi artıq bir çox ölkədə tamamlanmışdır.

İnsanın klonlaşdırılması haqqında qadağa nə zaman qəbul edilib?

1998-ci il yanvarın 12-də Parisdə insan klonlamasını qadağan edən Protokol imzalandı. İmzalanmada 19 ölkə iştirak edib. Azərbaycan Respublikası bu Protokola qoşulmamışdır.

Transplantologiya və hüquqi aspektdən tətbiqi problemi.

Transplantologiya tibb elminin orqan transplantasiyası problemlərini (xüsusən böyrəklər, qaraciyər, ürək, yumurtalıq, toxuma), eləcə də süni orqanların yaradılması perspektivlərini öyrənən bir sahəsidir.

Transplantologiyanın Azərbaycan Respulikasında donorluqla bağlı əmələ gələn hüquqi problemlərinə nəzər yetirək:

Bizim nöqteyi-nəzərimizdən ən çox problem yaşanan sahə məhz yumurtalıq donorluğu sahəsində baş verir. Teoretik olaraq bu sahədə heç bir problem yaşanmasa da, praktik baxımdan gələcək nəsillər üçün ciddi problemlər yaradacaq çatışmazlığlar vardır. AR- da transplantasiyanın hüquqi tənzimlənməsi "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" Azərbaycan Respublikasının

20 oktyabr 2020-ci il qanunu ilə tənzimlənir. Sözü gedən qanunda hər hansı boşluq və ya ziddiyət müşahidə edilmir. Tətbiqi isə kifayət qədər problemlidir.

Problem nədən ibarətdir? Sözü gedən qanunun 3-cü maddəsinin (Qanunun tətbiqi dairəsi) 3-cü bəndində deyilir: 3.3. Bu Qanun reproduksiya vasitələrinə və bu məqsədlə istifadə edilən orqanlara, onların hissələrinə və (və ya) toxumalara (yumurta hüceyrələri, sperma, yumurtalıq, xaya və ya embrion), eləcə də qan və onun komponentlərinə şamil edilmir**.**

Lakin, əfsuslar olsun, bu norma müəyyən tibbi müəssəsilər tərəfindən kobud şəkildə pozulur. Belə ki, dəfələrlə sosial şəbəkələrdə klinikalar qadınları maddi dəyər qarşılığında yumurtalıq donorluğuna çağırış edirlər.

Belə bir qanun pozuntusu gələcək nəslin genofondu üçün böyük təhlükə daşıyır, belə ki, bacı-qardaş nikahlarına belə səbəb ola bilər.

Anlaşılan məsələdir ki, hər kəsin təhsil səviyyəsi bu problemləri anlamağa yetməyə bilər və bu cür biliklər transplantasiyanı təşkil edən qurumlar tərəfindən donorlara ötürülmür, ki bu da ikinci norma pozuntusuna yol açır, yəni İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında Qanununun 12ci maddəsinin (Maddə 12. Həkim-transplantoloqun vəzifələri) pozuntusuna: **12.2.2. transplantasiya və onun mümkün nəticələri barədə resipiyentə ətraflı məlumat vermək)**

## Nəticə

Yumurtalıq transplantasiyasını qanunla qadağan olunmasına baxmayaraq qeyri-qanuni şəkildə həyata keçirən müəssisələrin, reyestr qeydləri aparmadığı da gözləniləndir və bu da 3cü hüquq pozuntusuna gətirir çıxarır.

Bu məsələyə fərqli aspektlərdən yanaşaraq aşağıda təklif olunan metodlar tətbiq oluna bilər:

1. Təhsil müəssisələrində, o cümlədən, Məktəblərdə, Kolleclərdə və Ali Təhsil müəssisələrində donorluğu və transplantasiyanı, surroqat analığı ətraflı izahla əhatə edən proqramların hazırlanması və şagirdlərə və tələbələrə yeridilməsi.
2. Azərbaycan Respublikası müvafiq İcra Orqanı nəzdində transplantologiya prosesini həyata keçirən qurumlara nəzarət mərkəzinin yaradılması və hər bir transplantologiya həyata keçirən müəssəsilərə mərkəz nümayəndələrinin yerləşdirilməsi.

## Ədəbiyyat


1. Vasak, K. (1977) İnsan Hüquqları: Otuz İllik Mübarizə: Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qüvvəyə minməsi üçün davamlı səylər // UNESC O Courier. Paris: UNESCO.
2. Kapitsın, V. M. (2003) İnsan hüquqlarının tarixi, nəzəriyyəsi və müdafiəsi, Moskva: İstehlak Kooperativləri Universiteti Nşriyyatı. Moskva
3. Vitruk, N.V. (2008) Şəxsin hüquqi statusunun ümumi nəzəriyyəsi, Moskva : Norma hüquqi nəşriyyatı.
4. Kovalev, A.A. (2013) İnsan Hüquqlarının Beynəlxalq Müdafiəsi: Tədris Bələdçisi. Moskva: Statut Nəşriyyatı.Moskva.
5. Malinova, O. Y.(2003) İnsan hüquqlarının üç nəsli, Moskva : Pçela Nəşriyyatı
6. Qluxareva, L.İ. (2003) Müasir dünyada insan hüquqları (sosial-fəlsəfi əsaslar və dövlət-hüquqi tənzimləmə) Moskva: Humanitar Universiteti Nəşriyyatı..
7. Romanovski, G.B. (2015) Hüquq, genetika, klonlaşdırma // Vətəndaş və Qanun Moskva: Nauka Nəşriyyatı.
8. Romanovski, G.B. (2012) Müasir biotexnologiyaların inkişafı şəraitində vətəndaşların hüquqi şəxsiyyəti / G.B. Romanovski // Vətəndaş və Hüquq. Moskva: Nauka Nəşriyyatı.


**Rəyçi : h.ü.f.d. Nəsib Şükürov**

Göndərilib: 04.03.2022 Qəbul edilib: 11.04.2022

ELMİ TƏDQİQAT Beynəlxalq online elmi jurnal. İmpakt Faktor: 0.543. 2022/ Cild: 2 Sayı: 4
SCIENTIFIC RESEARCH International online scientific journal. Impact Factor: 0.543. 2022 / Volume: 2 Issue: 4 e-ISSN: 2789-6919

DOI: https://www.doi.org/10.36719/2789-6919/08/11-14

**Maya Ağamirzə qızı Abdullayeva**
ADPU-nun Ağcabədi filialı
müəllimi
magamirzeqizi@gmail.com

# İSMAYIL SARYALIN "BAKI RÜZGARI" MEMUAR ROMANINDA MİLLİ İSTİQLAL HƏRƏKATININ İNİKASI

**Xülasə**

Məqalədə mühacirət ədəbiyyatının az tanınan nümayəndələrindən olan İsmayıl Saryalın mühacirətdə yazdığı "Baki rüzgari" romanı haqqında məlumat verilmişdir. Roman xatirə təsiri bağışlayır və milli istiqlal hərəkatınının ən incə məqamlarını real faktlarla bizə açıb göstərir. Yazıçı öz timsalında o dövrün siyasi vəziyyətini son dərəcə bədii boyalarla təsvir etmişdir. Xalqımızın tarixində istiqlal mücadiləsinin bütün mərhələləri, ermənilərin xalqımıza qarşı törətdiyi qırğınlar, Nuru Paşanın başçılığı ilə Qafqaz İslam ordusunun Azərbaycana gəlişi, xalqımızın onu böyük sevinclə qarşılaması, müstəqil Azərbaycan dövlətinin yaradılmasında Osmanlı türklərinin iştirakı kimi tarixi faktlar bədii dillə daha da qürurlandırıcı bir tərzdə təsvir olunmuşdur.

***Açar sözlər:*** *İsmayıl Saryal, roman, Bakı rüzgarı, mühacirət ədəbiyyatı*

**Maya Agamirze Abdullayeva**

## Reflection of the national independence movement in İsmayil Saryal's memoir novel "Baku ruzgari"

**Abstract**

The article provides information about the novel "Baku Wind" written by Ismail Saryal, one of the lesser-known representatives of emigration literature. The novel is a memorable novel and reveals to us the most subtle aspects of the national independence movement with real facts. The writer described the political situation of that time in a very artistic way. All stages of the struggle for independence in the history of our people, the massacres committed by Armenians against our people, the arrival of the Caucasian Islamic Army led by Nuru Pasha in Azerbaijan, the great joy of our people, the participation of Ottoman Turks in the establishment of an independent Azerbaijani state are described in more artistic terms.

***Key words:*** *Ismail Saryal, novel, "Baku ruzgarı", emigration literature*

## Giriş

Adını vətənpərvərlik qoyduğumuz bir hiss vardır ki,bu hiss onu qəlbində daşıya bilən hər bir insanı yaşamı boyu izləyir, onunla bərabər böyüyür, ülviləşir, güclənir şəxsin özünün də güclənməsində, sözün əsil mənasında bir şəxsiyyət olmasında böyük rol oynayır.Bu hisslə yaşayan hər kəs getdiyi yerdən,düşdüyü mühitdən asılı olmayaraq hər an vətən deyə çırpınır, atdığı hər addımda vətənin xeyrini,zərərini düşünür, ömrü boyu vətəninə, onun tarixi keçmişinə layiq olmağa çalışır. Ən qədimdən belə Azərbaycan bədii düşüncəsi də müxtəlif coğrafiyalarda yaranmasına rəğmən, aradakı siyasi qadağalar, ictimai-siyasi, coğrafi baryerlər belə onun geriyə-vətənə və xalqa dönməsinə mane ola bilməmişdir [Əhmədov B., 2017, s.6]. Peşəsindən,yaşayış tərzindən asılı olmayaraq bu şəxslərin göstərdiyi ən kiçik fəaliyyətdə belə vətənpərvərlik hissinin ülviliyi,ucalığı görünür. Bu hissi ürəklə daşıyan şəxslərdən biri də, onun öz sözlərilə qeyd etsək, "daima xəstə vətənin yaralarını sarımaq, sağaltmaq üçün yaşayan" ömrünə gününə canından cox sevdiyi vətəndən həmişəlik ayrı qalmaq yazılan mühacir ziyalımız İsmayıl Saryaldır. Mühacirət ədəbiyyatı tariximiz üçün son dərəcə əhəmiyyətlidir. Bu dövr bir çox tədqiqatçılar- N.Cabbarlı, B.Əhmədov və b. tətərfindən araşdırılsa da İ.Saraylının taleyi və yaradıcılığı bundan kənarda qalmışdır [4], [7].

İ. Saryal 1896-cı ilin fevralında qədim mədəniyyət mərkəzlərimizdən olan Gəncədə vəqflər müdiri Mir Hacı Seyyid Əhmədin ailəsində dünyaya göz açmışdır. İlk təhsilini Gəncədə alan İsmayıl Seyidzadə Lənkərana gedib gimnaziyada oxuyur. Onun gimnaziya təhsili dövründə milli şüurun inkişafı, xalqın oyanışı nəzərə çarpır,mətbuat sahəsində inkişaf özünü göstərirdi. İsmayıl gimnaziyanı bitirdikdən sonra Kiyev Politexnik İnstitutunun mühəndislik fakültəsinə daxil olsa da 1917-ci il inqilabı onu təhsilini yarımçıq qoymağa məcbur edir. Bakıya dönən İsmayıl Milli hökümət tərəfindən Almaniyaya Berlin Texniki Universitetinə təhsil almağa göndərilir. Burda təhsilini başa vuran İsmayıl Seyidzadə çox sevdiyi alman qızı Helena Holfman ilə ailə qurur və doğma vətəninə dönür. Min bir çətinliklə Bakı-Sabunçu-Suraxanı elektrik dəmir yolunda mühəndis kimi, həmçinin N.Nərimanov adına Politexnik Texnikumunda və M.Əzizbəyov adına Politexnik İnstitutunda çalışmışdır. Stalin dövrünün amansız repressiyasının ondan yan keçməyəcəyini açıq-aşkar duyan İsmayıl Seyidzadə ölkəsini birdəfəlik tərk etməyə məcbur olur. O,1929-cu ilin sentyabrında yaxın yoldaşları və ailəsi ilə bərabər İrana,1930-cu ilin yayında isə Türkiyəyə köçür. Ömrünün sonuna kimi Türkiyədə yaşayır. Onun oğlu da Türkiyənin məşhur Universitetlərinin birində çalışıb-yaratmış dəyərli alimlərdən olmuşdur [6]. Bakı Rüzgarı romanı da məhz sadaladığımız bu həyat materialları əsasında qələmə alınmışdır. İsmayıl Seyidzadənin uşaqlığından tutmuş,öz doğma vətənindən ayrılmağa məcbur olmasına qədər olan illəri tamlığı ilə əhatə edir. Bu romanda İsmayıl Seyidzadə bizə Oğuz Qayalı kimi təqdim edilir. Onun ətrafında olan insanların bəzilərinin adları dəyişdirilsə də,əksəriyyəti real həyatda olduğu kimi öz adları, vəzifələri, yaşayış tərzləri ilə canlandırılmışdır. Roman başdan-başa millilik və azadlıq sevdası ilə yazılmışdır. Əsər böyük həcmdə olan hekayə təsiri bağışlayır. Təsvir olunan hadisələrin əksəriyyəti müəllifin şahidliyi ilə təqdim olunur. Əsərin hər səhifəsində müəlliflə bərabər oxucu da həyəcan keçirir, narahat olur, sevinir və ya kədərlənir. Bu da əsərin canlı təhkiyəsi və koloritli təsviri ilə əlaqədardır. Ziyalı, vətənpərvər bir gəncin canlı həyat hekayəsi olan romanda hərəkatlar, ixtişaşlar,inqilablar kimi sıxıcı həyat faktları belə oxucunu yormur, əksinə böyük maraq yaradaraq lakonik şəkildə çatdırılır . Oğuz Qayalının hələ Kiyevdə təhsil aldığı dövrdə böyük Rusiya imperiyası daxili narahatlıqlarla, küçə nümayişləri ilə çalxalanırdı. Çox yaxşı təşkilatlanan komunistlərin gizli təxribatları güclənir,qurluşa sarsıdıcı zərbələr endirir, küçələri meydanları adamlarla doldururdular. Hər bir xalq öz azadlığını qazanmaq, müstəqil olmaq üçün gizli təşkilatlar yaradır, səylə çalışırdılar. Oğuz Qayalıdan fərqli olaraq bir çox tələbə də kommunistlərin yalançı vədinə aldanır və onlara qoşulurdu.Oğuz isə daima bu qarmaşadan uzaq durmağa çalışır, millət sevgisini vətənpərvərlik hissini bir an olsun itirmirdi. Oğuzun bütün cəhdləri millətini müstəqil görmək arzusu və müstəqil vətəninə xidmətdə birləşirdi. Ona kommunist olmağı təklif edən dostu Mustafaya cavabı maraqlıdır: "Kommunizmin əsas prinsiplərini izah elədiniz, bu mənlik deyil. Mən anacaq öz millətim barədə düşünürəm ona faydalı olmaq üçün də əvvəlcə məktəbi bitirməliyəm" [Saryal İ.,2017, s.52]. Belə keşməkeşli, silahlı qan-qadalı bir mühitdə təhsil almaq mümkün olmadığından Oğuz öz yoldaşları ilə birgə vətəninə qayıdır. Lakin gördüyü mənzərələr heç də ürəkaçan olmur qırmızı inqilab özünü artıq Oğuzun ana yurduna-Gəncəyə də yetirmişdir. Daima rusların əmrinə müntəzir dayanan erməni vandalları burda qırğın törətməyə başlamışdılar. Xalqımız həmişə olduğu kimi yaşadığı çətin vəziyyətdən asılı olmayaraq milli mücadilə ruhunu itirmir,milli istiqlalı uğrunda ölüm-dirim mübarizəsi aparırdı. Roman boyu biz bu şanlı mübarizənin şahidi oluruq. Müəllif müxtəlif həmyerlimizin simasında bu mücadilənin bəzən gizli, bəzən aşikar aparıldığını, "Azərbaycan davasının", milli istiqlalın nə qədər önəmli nə qədər vacib olduğunu nəzərə çatdırır. "Azərbaycan mühacirət ədəbiyyatının demokratik dövlət quruluşu uğurunda mübarizəsində biri digəri ilə sıx bağlı olan iki istiqamət aydın nəzərə çarpır. Birincisi, totalitar rejimlərin, diktaturanın, müstəmləkəçiliyin ifşası yolu ilə demokratik dəyərlərin, milli istiqlalın təsdiqi; ikincisi isə, açıq cəmiyyətə dair baxışların bədii sözün gücü ilə bilavasitə təbliği" [Cabbarlı N., 2011, s.102] İ. Saryalın Bakı Rüzgarı romanını mühacirətşünas alim N. Cabbarlının qeyd etdiyi bu istiqamətlərdən birincisinə aid etmək olar. Belə ki romanın hər səhifəsində mövcud rejimə qarşı etiraz duyulur, onun mənfilikləri ifşa olunur,xalqımıza qan udduran bu rejimə qarşı isə milli istiqlalın labüdlüyü ideyası qoyulur. Oğuz Qayalı ilə birlikdə, onun kimi dərdi vətən dərdi,arzusu vətənin istiqlalı olan hər bir gənc kiçik bir fəalliyyətini bu yolda əsirgəmir böyük səy və iradə təlqin edir. Nizamı pozulan Rusiyanın caynağına aldığı bütün xalqlar kimi Oğuz Qayalının mənsub olduğu xalq da iflic vəziyyətə düşmüş, inqilabların,vətəndaş müharibələrinin qoynuna atılmışdır. Xalqımızın tarixində şanlı

səhifə açan İstiqlal mücadiləsinin bütün mərhələləri, Rusiyadakı inqilabların,vətəndaş müharibələrinin,ermənilərin xalqımıza qarşı törətdiyi qırğınların bu mücadiləni necə alovlandırdığı romanda müəllifin canlı şahidliyi ilə nəzərə çatdırılır. Memuarda Nuru Paşanın Qafqaz İslam ordusu başında Azərbaycana gəlişi xalqımızın onu böyük sevinc və təntənə ilə qarşılaması, Müstəqil Azərbaycan Dövlətinin yaradılması və AXC-nin yaradılmasında Osmanlı türklərinin iştirakı, Azərbaycanın əsil xəritəsinin yaradılması kimi tarixi faktlar bədii dillə daha da qürurlandırıcı bir tərzdə təsvir olunmuşdur. "Axırki, Nuri Paşa və birliyi İrandan keçib, Azərbaycana gəldi, sevinclə, alqışlarla qarşılandı" [Saryal İ., 2017, s.81]. "Gələn türk zabitlərinin ilk işi Azərbaycan sərhədlərini müəyyənləşdirmək oldu. Ölkənin hər tərəfindən yurdunu yaxşı tanıyan ağsaqqallar Gəncəyə çağrıldılar. Rəngli rəqəmlərlə azəri xalqının yaşadığı yerlər nöqtə-nöqtə işarələndi. Azərbaycanın əsil xəritəsi yarandı" [Saryal İ., 2017, s.82]. Romanda milli istiqlalın ən önəmli mücahidlərindən M.Ə. Rəsulzadə, Ə.Topçubaşov, N.Yusifbəyli, Ə.Hüseynzadə, Nuru Paşa, Ə. Ağaoğlu, X. Məlikaslanov və ömrünün sonuna kimi qələmi ilə xalqına, millətinə xidmət edən mübariz şairimiz Ə. Cavadın obrazlarının görünməsi əsərin milli mücadilə ruhunu artırır onu daha da maraqlı edir. Müəllif əsərindəki bütün obrazları real həyatlarına, fəaliyyətlərinə uyğun təqdim edir, kimiləri özünün azadlıq müstəqillik yolundan sarpmadan addımlayır, kimiləri isə bolşevizmin şirin vədlərinə aldanaraq onun ən güclü təbliğatçısına çevrilir, müəyyən vaxt keçdikdən sonra isə yanıldığını anlasa da gec olur, onun ideya davamçısı olan başqa bir rejimin qurbanına çevrilir. Sadalanan bu xüsusiyyətləri müəllif bizə Mustafa Quliyevin, Dadaş Bünyatzadə və Nəriman Nərimanovun timsalında göstərir. Xalqdan, millilikdən xəbərsiz, vəzifəsindən savayı heç nəyi olmayan Dadaş Bünyatzadə və onun dostu "altıbarmaqlı" Ələkbərlərin simasında isə mövcud rejimi idarə edənlərin nə qədər savadsız olduğu,sadəcə yazıb oxumaqdan başqa heç nəyi bacarmasalar da dövlət idarələrində yüksək mövqe tutduqları göstərilir. "Çar və Milli Azərbaycan hakimiyyəti dövründə Dadaş Bünyatzadə belindəki dolu bidonlarla küçələri gəzib qaz yağı satırdı.Bir az yazıb oxumaq bacarırdı.Bolşeviklər gələndə onun gizli fəaliyyətini dəyərləndirib Kənd Təsərrüfatı komissarı kürsüsündə əyləşdirdilər" [Saryal İ. 2017, s.216]. Bu cür xalqdan uzaq, yalnız şəxsi mənafeləri üçün yaşayanlara qarşı müəllif şəxsi həyatını öz millətinin gələcəyinə onun istiqlalına qurban vermis Dadaş Həsənzadə obrazını qoyur. Dadaş Həsənzadə müəllifin çox sevdiyi məhəbbətlə təsvir etdiyi bir obrazdır. O, mövcud rejimə qarşı yaradılan gizli təşkilatın ən fəallarından biri idi. Güclü iradəsi, sağlam əqidəsi və dönməzliyi ilə diqqət çəkən D. Həsənzadə apardığı gizli mücadiləyə baxmayaraq iyirmiyə yaxın silahdaşı ilə birgə həbs olunur. "Dustaqların bəziləri M.Ə. Rəsulzadəni qaçıranın Dadaş olduğunu etiraf eləyiblər.Dadaş isə bunu boynuna almır". [Saryal İ., 2017, s.199-200]. Sonunun güllələnmə ilə bitəcəyini bilsə də böyük əzimkarlıq göstərən Dadaş milli istiqlal yolunda atdığı heç bir addım üçün peşiman olmur,yolundan dönmür, elə bu səbəbdən də Oğuz Qayalı kimi vətənsevərlər tərəfindən daima böyük məhəbbətlə yad edilir

Oğuz Qayalı nə qədər doğma vətənində qalıb, xalqı üçün yararlı olmaq, milli mücadiləni davam etdirmək istəsədə bu mümkün olmur. Dadaş Həsənzadə və İzzət Yaquboğlu kimi millət sevərlərin aqibətini görən Oğuz Qayalının yalnız bir yolu qalır canından çox sevdiyi yurdunu tərk etmək. "Dadaş Həsənzadə vətənini yadların hakimiyyətindən qurtarmaq üçün quruluşa qarşı etiraza başladı və öldürüldü. İzzət Hacı Molla Yaquboğlu sülh yolu ilə xalqına yardım göstərmək istədi, partiyaçı cildinə girdi, rəhbərlərin işinə qarışdı ancaq şübhə oyandırdı və nəzarət altına alınmışdı, təhlükə içindədir. Qurtuluşu qaçmaqda görmək fikri Oğuza da münasib göründü. Bəli qaçmaq, ancaq bu yolla azadlığa, müasir həyata, istədiyi işi görməyə qovuşa bilər" [Saryal, İ., 2017, s.250] Yetmiş ildən artıq bir müddətdə milli istiqlal uğrunda mübarizə aparmış Azərbaycan xalqının tarixinə və taleyinə yazılmış bu qanlı və şanlı səhifələr demək olar ki romanboyu Oğuz Qayalının taleyi fonunda sərgilənir. Nəinki təkcə Oğuz Qayalının vətənində, Rusiyanın tabeçiliyində olan hər yerdə narazılıq, kədərli xalq, dilənçi vəziyyətinə salınmış, səfil həyatı yaşayan insanlar görmək olurdu. Qayalı ailəsinin səyahət etdiyi bütün şəhərlərdə gəldiyi bir nəticə vardı: Rusiyadakı bütün xalqların eyni şəraitdə yaşaması. Saratov, Kazan, Nijni-Novqorod kimi böyük şəhərləri gəzərkən Qayalı ailəsi yalnız sönük həyat tərzi, kədərə batmış əhali, süpürülməmiş küçələr, dilənçilərin çoxluğu ilə qarşılaşırdılar. Bu bədbəxt vəziyyət bütün tabe xalqları mübarizə yolları axtarmağa vadar edirdi. Bütün tabe edilmiş xalqlar kimi bizim xalqımızın da apardığı gizli və ya açıq mübarizənin yalnız bir məqsədi vardı özünün milli istiqlalını bərpa etmək dünya səhnəsində özünü bir xalq kimi təsdiq etmək. Romanın ilk səhifələrindən tutmuş son səhifələrə

qədər xalqın bu ali məqsədi təbliğ olunur. Azərbaycanın istiqalı üçün atılmış hər kiçik addım belə böyük sevgiylə qarşılanırdı. Çünki bir millətin varoluşunu şərtləndirən əsas amillər onun milli dövlət qurması və onu qorumaq üçün daima mücadilə etməsidir. İsmayıl Saryalın "Bakı Rüzgarı" memuar romanında vətənpərvər Azərbaycan gəncinə aşıladığı əsas həqiqət xalqımızın ruslara qarşı apardığı mücadiləsinin əsas məqsədini anlatmaq və Azərbaycanın istiqlalı ideyasını təbliğ ibarətdir. Milli istiqlal hərəkatının inikası Azərbaycan mühacirət ədəbiyyatında hər zaman başlıca istiqaməti təşkil etmişdir. Doğrudur, geniş mənada yanaşdıqda, bütövlükdə XX əsr mühacirət ədəbiyyatımız «Azərbaycan davası»nın mühüm tərkib hissəsi kimi yaranıb inkişaf etmişdir. Bu ədəbiyyat Azərbaycan Xalq Cümhuriyyətini tərənnüm edəndə də, Anadolu istiqlal savaşını əks etdirəndə də, türk birliyi ideyasını təbliğ edəndə də, macar xalqının rus imperializminə qarşı mübarizəsini dəstəkləyəndə də, Quzey Kipr olaylarını təsvir edəndə də onun əsas hədəfi Azərbaycan istiqlalı olmuşdur" [Cabbarlı N., 2011, s.48.]

Böyük mühacirətşünas alim N.Cabbarlının yuxarıda qeyd olunan müdəası İsmayıl Saryalın Bakı Rüzgarı romanının da əsas xüsusiyyəti kimi verilə bilər. Belə ki, romanın əsas leytmotivi milli istiqlal və Azərbaycançılıq ideologiyasıdır. Zəngin yaradıcılıq yolu keçməsə də istər ideya-siyasi görüşləri, istər vətəninin düşdüyü bədbəxt vəziyyət və bu vəziyyətdən qurtulmaq üçün milli istiqlala böyük ümidlə baxması, mühacir həyatı yaşamağa məcbur olub vətənə dönə bilməməsi, ömrünün sonuna dək "nostalgiyanın" acısı ilə yaşaması İ. Saryaldan da mühacirət ədəbiyyatı nümayəndəsi kimi söhbət açmağımıza və "Bakı Rüzgarı" romanını da mühacirət ədəbiyyatımızın "qızıl fonduna" layiq əsər kimi qiymətləndirməyimizə əsas verir. Buna əsərin həm ideya-siyasi tutumu həm də bədii-estetik dəyəri şərait yaradır. Əsər bu yaxınlarda bilmədiyimiz bir çox tarixi hadisədən, xüsusilə 1910-1930-cu illərdə Azərbaycandakı istiqlal mübarizəsindən, 1917-ci il inqilabının gətirdiyi bəlalardan, necə qanlı terror yuvası yaratdığından bəhs edən bu dəyərli əsər ölkəmizdə ilk dəfə nəşr olunmuşdur [8]. N.Əbdürrəhmanlı kitabı türk dilindən Azərbaycan dilinə uyğunlaşdıraraq nəşrinə nail olmuşdur [5].

## Nəticə

Mühacirət ədəbiyyatının qaranlıq qalan nümayəndələri araşdırılmalı və ən nəhayət onlara bədii dəyər verilməlidir. İ. Saryalın da həyat və yaradıcılığı təəssüf ki, araşdırılıb tədqiq edilməmişdir. Gələcəkdə əsər təhlili və tədqiqi o dövrə aid bir çox gizli qalan məqamları bizə açıb göstərəcəkdir.

## Ədəbiyyat

1. 1.Saryal, İ., (2017) Bakı Rüzgarı, Bakı: "Xan".
2. Cabbarlı, N. (2011)Azərbaycan mühacirət nəsri, Bak: "Elm və təhsil".
3. Vəkilova, N.(2017) Bakı Rüzgarı romanına ön söz, Ədəbiyyat qəzeti, 24 iyun 2017.
4. Əhmədov, B. (2017), Mühacirət ədəbiyyatı: təşəkkülü, problemləri, şəxsiyyətləri, Bakı: Elm və təhsil http://shirvan.cls.az/front/files/libraries/2474/books/497783780.pdf
5. 5.http://www.anl.az/down/meqale/yeni_az/2017/iyun/548558.htm
6. https://report.az/diaspora/turkiyenin-meshur-universitetinin-azerbaycanli-kecmis-rektoru-vefat-edib/
7. http://www.anl.az/down/meqale/edebiyyat/2017/iyul/550036.htm
8. https://manera.az/index.php?newsid=4209

**Rəyçi: fil.ü.f.d. Vaqif Allahverdiyev**

Göndərilib: 06.03.2022 Qəbul edilib: 12. 04.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/08/15-19

**Saleh Qasım oğlu Nağıyev**
Bakı Dövlət Universiteti
Coğrafiya üzrə fəlsəfə doktoru.
abbasova.xatira98@mail.ru
**Xatirə Nəriman qızı Quliyeva**
Bakı Dövlət Universiteti
magistrant
abbasova.xatira98@mail.ru

# NAXÇIVAN İQTİSADİ RAYONUNDA ŞƏHƏRLƏRİN DEMOQRAFİK İNKİŞAF PROBLEMLƏRİ

**Xülasə**

Məqalədə Naxçıvan iqtisadi-coğrafi rayonunda şəhər məskunlaşmasının formalaşması və inkişafı inzibati rayonlar üzrə urbanizasiya səviyyəsinin dinamikası təhlil edilmişdir. Regionun şəhər məntəqələrində demoqrafik proseslərin tədqiqi göstərir ki, son illər əhali arasında təbii artım, doğum və nikahların dinamikasında azalma, ölüm, körpə ölümü və boşanma proseslərində artım müşahidə edilmişdir. Regionda şəhərlərin demoqrafik inkişaf problemləri və onların həlli istiqamətləri üzrə təkliflər və tövsiyələr verilir.
***Açar sözlər:*** *şəhər məskunlaşması urbanizasiya demoqrafik proses təbii artım doğum, ölüm, nikah, boşanma*

**Saleh Gasım Nagıyev**
**Khatira Nariman Guliyeva**

## Problems of demographic development of cities in Nakhchivan economic region

**Abstract**

The article analyzes the dynamics of the level of urbanization in the administrative regions, the formation and development of urban settlement in the Nakhchivan economic-geographical region. The study of demographic processes in urban areas of the region shows that in recent years there has been a natural increase in the population, a decrease in the dynamics of births and marriages, an increase in deaths, infant mortality and divorce. Suggestions and recommendations are given on the problems of demographic development of cities in the region and their solutions.
***Key words:*** *urban settlement, urbanization, demographic process, natural increase, birth, death, marriage, divorce.*

## Giriş

Naxçıvan iqtisadi-coğrafi rayonunda şəhər məskunlaşmasının geodemoqrafik şəraiti və inkişafının ni- zamlanması ölkədə aparılan dayanıqlı sosial-iqtisadi siyasətin müəyyən hissəsini təşkil edir. Regionda istehsalın və əhalinin daha səmərəli ərazi təşkili üçün şəhərlərin demoqrafik şəraitinin öyrənilməsi zəruriliyi ortaya çıxır. Geodemoqrafik şərait əhalinin təbii hərəkəti, onun strukturu və yerləşdirilməsi qanunauyğunluqlarını əks etdirir. Hazırda Naxçıvan iqtisadi-coğrafi rayonunda əhalinin 34,5%-i, sənaye və sosial-iqtisadi potensialının böyük hissəsi şəhər məntəqələrində cəmləşir. 2021-ci ildə regionda əsas sahələr üzrə məhsulun ümumi həcmində sənayenin payı artaraq 23% təşkil etmişdir. Respublika iqtisadiyyatının formalaşmasında regionun Şahbuz, Culfa, Şərur və d. şəhərləri mütərəqqi rol oynasalar da, lakin urbanizasiyanın inkişafında onların mövqeyi zəif hiss edilmişdir. Bu səbəbdən region 2009-2021-ci illər ərzində təbii artımın inkişafına görə ölkə səviyyəsindən xeyli geri qalmışdır.

Şəhər məntəqələrinin demoqrafik inkişafında qarşıya çıxan problemlərin həlli üçün elmi təhlillərin aparılması və onların nəticələrinə görə dövlət səviyyəsində tədbirlər planının hazırlanması olduqca zəruridir. Ölkə əhalisinin sağlamlığının qorunması və sosial təminatı, məşğulluq probleminin həlli və digər istiqamətlər də aparılan tədbirlər demoqrafik proseslərin inkişafında mühüm rol oynayır. [Nağıyev S.K. 2009,s.76-79.]

## 1. Təhlil və müzakirə.

1 yanvar 2021-ci ilə olan rəsmi məlumatlara əsasən Muxtar Respublikası inzibati cəhətdən səkkiz rayon və Naxçıvan şəhər inzibati ərazi dairəsindən ibarətdir; Muxtar Respublikada 6-i şəhər (Naxçıvan, Ordubad, Culfa, Şərur, Şahbuz və Babək), 9-u qəsəbə, 206-sı kənd olmaqla ümumilikdə 219 yaşayış məntəqəsi yerləşir. Muxtar Respublikanın inzibati mərkəzi qədim Naxçıvan şəhəridir. Muxtar respublikanın 461,5 min əhalisi var (2021). Əhalinin 163,4min nəfəri, yaxud 34,5 %-i şəhər, 298 min nəfəri, yaxud 65,5 %-i isə kənd əhalisidir . Naxçıvan MR-in yarandığı 1924-cü ildən keçən dövr ərzində bütünlükdə Azərbaycanda olduğu kimi, burada da əhalinin doğum, ölüm və təbii artım göstəricilərində, həmçinin miqrasiyası prosesində tədricən müəyyən müsbət dəyişikliklər yaranmağa başlamış və bu dəyişikliklər əhalinin artımına zəmin yaratmışdır.

Muxtar respublikada 1970–1990-cı illərdə əhalinin sayı 48,6 % artaraq 205,7 min nəfərdən 305,7 min nəfərə, o cümlədən şəhər əhalisi 99,2 % artaraq 51,0 min nəfərdən 101,6 min nəfərə, kənd əhalisi isə 31,9 % artaraq 154,7 min nəfərdən 204,1 min nəfərə çatmışdı. 1990-cı illərin sosial-iqtisadi çətinliklərinə baxmayaraq, bu dövrdə burada əhalinin sayı 26,8% artaraq 305,7 min nəfərdən 461,5 min nəfərə çatmışdır. Orta sıxlıq 1 km²-də 84 nəfərdir (2021, yanvar). [Azərbaycanın əhalisi.2021, DSK.]

Azərbaycanın Naxçıvan Muxtar Respublikasının əhalisinin sayı 2021-ci olan statistikaya əsasən 461,5 min nəfərə çatıb.

*Cədvəl 1*

**Naxçıvan iqtisadi rayonunun inzibati ərazi tərkibinin dinamikası 2021**

| Göstəricilər | 1979 | 1989 | 1999 | 2009 | 2021 |
|---|---|---|---|---|---|
| Ərazi min km² | 5,5 | 5,5 | 5,5 | 5,5 | 5,5 |
| Əhali min nəfər | 238,8 | 293,9 | 354,1 | 402,4 | 461,5 |
| Şəhər əhalisi | 62,5 | 87,7 | 95,1 | 115,4 | 163,4 |
| Şəhər əhalisi % | 26,6 | 29,8 | 26,9 | 29,0 | 34,5 |
| Rayonların sayı | 5 | 5 | 7 | 7 | 7 |
| Şəhərlərin sayı | 6 | 6 | 6 | 6 | 5 |
| Qəsəbələrin sayı | 2 | 2 | 8 | 8 | 8 |

*Mənbə : azstat.gov.az*

*Cədvəl 2*

**Naxçıvan iqtisadi rayonunda şəhər əhalisinin dinamikası 2021**

| Göstəricilər | 1979 | 1989 | 1999 | 2009 | 2021 |
|---|---|---|---|---|---|
| Şəhərlərdə və qəsəbələrdə əhalinin ümumi sayı | 61,2 | 87,7 | 95,1 | 115,5 | 163,4 |
| Naxçıvan | 39,6 | 58,8 | 63,2 | 73,9 | 84,4 |
| Şərur | 3,3 | 5,9 | 6,5 | 6,6 | 7,4 |
| Culfa | 6,9 | 8,9 | 10,1 | 11,9 | 13,5 |
| Ordubad | 7,9 | 9,5 | 9,9 | 10,5 | 11,3 |
| Şahbuz | 1,7 | 2,3 | 2,6 | 3,7 | 5,3 |
| Sədərək | | | 0,5 | 1,6 | 2,3 |
| Babək | | | | 3,3 | 33,0 |
| Kəngərli | | | | 4,6 | 6,2 |

*Mənbə : azstat.gov.az*

Naxçıvan iqtisadi-coğrafi rayonunda urbanizasiya səviyyəsi inzibati rayonlar üzrə müxtəlifliyi ilə seçilir, belə ki, əhalinin 35.4 %-nin şəhərlərdə yaşadığı Naxçıvan bu baxımdan fərqlənir. İqtisadi rayonda ən aşağı urbanizasiya səviyyəsi Babək rayonunda müşahidə olunur. Belə ki, burada əhalinin 7,7% -i şəhərlərdə yaşayır.

Son illər regionda aparılan dayanıqlı sosial-iqtisadi siyasətin nəticəsi olaraq yeni müəssisələr yaradılmış və məşğulluğun artmına təkan verilmiş, bu səbəbdən şəhərlərə kənd yerlərindən miqrasiya sürətlənmiş və onlarda demoqrafik şərait xeyli yaxşılaşmışdır.

Təhlillər göstərir ki, iqtisadi-coğrafi rayonda 2005-2021-ci illər ərzində şəhər əhalisi sayının dəyişməsində artım baş vermişdir. Bu dövrlərdə şəhərlərdə şəharyaradıcı təsərrüfat sahələrinin ləng inkişaf etməsi ilə əlaqədar əhali sayı zəif artmış, bu şəhərlərdən miqrasiya edənlərin sayı çoxalmışdır.

İqtisadi-coğrafi rayonda demoqrafik proseslərin təhlili göstərir ki, ölkə səviyyəsi ilə müqayisədə burada şəhər əhalisinin payı aşağı olduğu üçün, demoqrafik inkişaf özünəməxsus spesifik xüsusiyyətə malik olmuşdur. Belə ki, kənd yerlərindəki yüksək təbii artım prosesi, şəhər yerlərinə nisbətən sürətli və əmsal göstəricisinə görə böyük olması ilə fərqlənirdi. Müstəqillik dövründə şəhər məntəqələrində əhali sayının inkişafında təbii artımın rolu çox böyük olmuşdur. Lakin son illər təbii artım prosesinin zəifləməsi şəhər yerlərində sosial-iqtisadi inkişafın vəziyyəti və 1990-cı illərdə olan demoqrafik proseslərlə bağlı idi. [6]

Cəmiyyətdə sosial qruplar arasında həyat şəraiti və tərzinin, milli-mədəni dəyərlərin, xüsusilə gənc ailələrin övlada münasibət baxışının dəyişməsi təbii artım prosesinin gedişinə təsir edir. Regionun şəhər məskənlərində geodemoqrafik şəraitin formalaşmasında əhalinin təbii hərəkətinin rolu böyükdür.

Demoqrafik proseslərdə baş verən mənfi hal, son illər ölkədə xüsusilə Naxçıvan iqtisadi-coğrafi rayonunda doğulan uşaqların ümumi sayında rəsmi qeydə alınmamış nikahdan doğulan uşaqların xüsusi çəkisinin artımının çoxalmasıdır. İqtisadi-coğrafi rayonunda 1990-cı illərdə rəsmi qeydə alınmamış nikahdan doğulan uşaqların xüsusi çəkisinin çox aşağı olması səciyyəvi olsada, 2000-ci ildə artıq bu göstərici xeyli artmışdır.Buna səbəb olaraq yetkinlik yaşına çatmayan qız uşaqlarının erkən nigaha cəlb olunmasınıda göstərə bilərik.[7] XXI əsrin əvvəllərindən böyük işçi qüvvəsinin, xüsusilə gənclərin Rusiya və Türkiyə ölkələrinə iş dalınca miqrasiya etməsi rəsmi nikah bağlanmasına mənfi təsir etmişdir. 2005-2021-ci illərdə bu pay göstəricisi və rəsmi qeydə alınmamış nikahdan doğulan uşaqların xüsusi çəkisinin ölkə üzrə payı sürətlə artmışdır. Nikahdan kənar doğulan uşaqların ən yüksək göstəricisi Şərurda, ən aşağı isə Şahbuzda müşahidə olunur.

Cəmiyyətdə yaranan bu mənfi tendensiyanın qarşısının alınması üçün tədbirlər proqramının hazırlanması vacibdir. Maraqlı cəhətdir ki, Azərbaycanda rəsmi dövlət nikahları olmadan kəsilən dini nikahların bağlanmasına 2002-ci ildən qadağan qoyulmuş, lakin bu işlər qanunsuz olaraq icra edilsə də, digər tərəfdən cəmiyyətdə əxlaqsız yaşam tərzi genişlənir.

Ölkənin şəhər əhalisinin ən böyük demoqrafik problemlərindən biri körpə ölümüdür. Bu problem Naxçıvan MR-da da son illər böyük artımla yüksələrək, ölkə səviyyəsini keçmişdir. Uşaq ölümünün dinamikasının təhlili göstərir ki, 1990-cı ildə ölüm əmsalı rayonların şəhər əhalisi üzrə aşağı olsada sonrakı dövrdə sürətlə artmış ölkə üzrə orta göstəricini üstələmişdir. 2010-2021-ci illər ərzində 1 yaşadək ölümün mütləq sayı və nisbi əmsal göstəricisi Naxçıvan MR və ölkənin şəhər yerləri üzrə 2 dəfədən çox artmışdır. Bütün rayonlarda bu mənfi proses baş vermişdir. 2021-ci ildə 1 yaşadək ölümün nisbi əmsalın ən yuxarı göstərici ilə xüsusilə Naxçıvan və Ordubad şəhərlərində müşahidə olunmuşdur.

Şəhər yerləri üzrə əhalininin təbii artımında körpə ölümünün yüksək olması qidanın keyfiyyətinin aşağı olması, qadınlarımızın sağlam həyat tərzi keçirməməsi, tibbi sığortanın olmaması və digər amillərlə bağlıdır. Bütün rayonlarda son illər dövlət proqramlarına uyğun görülən tədbirlər səhiyyə sahəsini də əhatə etmiş, çox sayda yeni doğum evləri açılmış, lakin görünür kadrların səviyyəsinin aşağı olması bu problemin çözülməsinə mənfi təsir göstərir. Beləki yaxşı həkimlər daha çox maaş almaq üçün özəl klinikalara gedir.

Şəhər yerləri üzrə əhalinin hər 1000 nəfərinə görə nikah və boşanma dinamikası

*Cədvəl 3*

| İnzibati rayonlar | Nikah | | | Boşanma | | |
|---|---|---|---|---|---|---|
| | 2010 | 2015 | 2020 | 2010 | 2015 | 2020 |
| Naxçıvan | 584 | 514 | 281 | 101 | 68 | 136 |
| Şərur | 847 | 539 | 375 | 56 | 67 | 102 |
| Ordubad | 344 | 317 | 141 | 31 | 41 | 48 |
| Culfa | 395 | 326 | 169 | 34 | 23 | 47 |
| Şahbuz | 195 | 146 | 85 | 24 | 27 | 27 |
| Kəngərli | 299 | 216 | 118 | 22 | 21 | 30 |
| Babək | 617 | 494 | 275 | 59 | 70 | 65 |
| Sədərək | 116 | 81 | 41 | 6 | 5 | 7 |

Əhalinin təbii artımına təsir edən ən mühüm amillərdən biri nikah və boşanmadır. Bu proseslərin dinamikasının təhlili göstərir ki, 2005-cı ildə hər 1000 nəfərinə görə nikah göstəricisi iqtisadi-coğrafi rayonda və tərkibində olan rayonlarda ölkə göstəricisindən yüksək, boşanma isə aşağı olmuşdur. 2010-2015-ci illərdə rayonlar üzrə nikah göstəricisi yüksək səviyyəyə çatmış, 2015-2021-ci illərdə yenidən azalma prosesi ilə səciyələnmişdir. 2021-ci ildə nikahın yüksək göstərici ilə Naxçıvan,Şərur şəhərlərində aşağı göstərici isə Ordubad və Şahbuz rayonları üçün səciyyəvi olmuşdur. [8]Boşanmanın yüksək göstəricisi Naxçıvanvə Şərur şəhərlərində, aşağı göstərici Ordubad, Culfa və Şahbuzda müşahidə edilmişdir. Boşanmanın yüksək göstəricisi olan rayonlarda təbii artımın aşağı düşməsinin əsas səbəblərindən biri də bu proses olmuşdur. Boşanma prosesinin qarşısını almaq üçün gənc ailələrə dövlət qayğısı güclənməli, onların həyat və yaşayış şəraitinin yaxşılaşdırılması və sonsuzluğa qarşı tibb elminin nailiyyətlərindən istifadə üçün davamlı proqramlar hazırlanmalı və həyata keçirilməlidir. Ailələrdə bütün uşaqlara 18 yaşına kimi uşaq pulu verilməsi bütün sivil ölkələrdə olduğu kimi bizim ölkədə də həyata keçirilməlidir. Bu tədbirlər sağlam ailələrin yaranmasına və formalaşması üçün şərait yaradar.

## Nəticə

Naxçıvan MR iqtisadi rayonunda şəhər məskunlaşması və şəhərlərin demoqrafik inkişaf proseslərində müşahidə olunan meyilləri tədqiq edərkən gəldiyimiz nəticələr, verilən təkliflər aşağıdakı kimi ümumiləşdirilə bilər:

✓ İqtisadi rayonda 1999-2021-ci illər ərzində şəhər əhalisi sayının artımında ən mühüm rol oynayan amil təbii artım olmuşdur. Bu dövr şəhərlər üçün mənfi miqrasiya saldosu səciyyəvi idi.

✓ Müstəqillik dövründə şəhərlər arasında ən yüksək əhali sayının artımı Naxçıvan və Şərurda olmuşdur. 2010-2021-ci illərdə regionun şəhər əhalisinin orta illik artımı Naxçıvan, Şərur və Ordubadda nisbətən daha çox olmuşdur.

✓ Regionun şəhər məntəqələrində son illər demoqrafik proseslərin tədqiqi göstərir ki, əhalinin təbii artım və nikah dinamikasında azalma, körpə ölümü, doğumda rəsmi qeydə alınmamış nikahdan doğulan uşaqların xüsusi çəkisində və boşanmalarda artım müşahidə edilmişdir.

Region şəhərlərində demoqrafik inkişaf problemlərinin nizamlanması üçün, onlarda məşğulluq, sosial müdafiə, tibb və digər sahələrdə davamlı tədbirləri həyata keçirmək lazımdır. İqtisadi rayonun inkişafı üçün aşağıdakı təklifləri tövsiyə edirik.

- Şəhər ərazilərinin yeni şəhərsalma infrastrukturuna uyğun genişləndirilməsi yaxşı olardı.
- Şəhərlərə şəhər infrastrukturuna uyğun yenilənməsi vacib məsələdir.
- İqtisadi rayonda böyük kəndlərə qəsəbə, böyük qəsəbələrə isə şəhər statusunun verilməsi məqsədəuyğundur.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"
2. Azərbaycanın demoqrafik göstəriciləri (2021) Bakı:DSK
3. Azərbaycanın əhalisi. (2021) Bakı: DSK.
4. Azərbaycanın Regionlari. (2021) Bakı: DSK
5. Azərbaycan Respublikasının coğrafiyası (2013) II cild, Bakı: Avropa
6. Əfəndiyev, V.Ə., Nağıyev S.Q. (2017) Geourbanistika, 271
7. Eminov, Z.N. (2005) Azərbaycanın ahalisi. Bakı: Çıraq.
8. Əfəndiyev, V.Ə. Müasir mərhələdə Azərbaycanın şəhər əhalisinin sayının dinamikası. "Coğrafiya va təbii resurslar". N 1. 2015
9. Mammadov, R. M., Eminov Z.N., Əyyubov N.H. (2016) Əhali coğrafiyasının reallıqları: inkişaf dinamikası, məskunlaşma, resurslar və perspektivlari. Müstəqillik yollarında.Bakı-:Şərq-Qərb
10. Nağıyev, S.K. (2009) Azərbaycanın məskunlaşma sistemində kiçik və orta şəhərlər RQS <<İzvestiya, Sankt-Peterburq, s.76-79.
11. 10.Nağıyev, S. K. (2014) Böyük Bakıda qəsəbənin inkişafının son tendensiyaları.Rizvan Pirisvanın anadan olmasının 90 illiyinə həsr olunmuş elmi konfransın materialları. Bakı: s. 197-202
12. 11.Nağıyev, S. K. (2005) Azərbaycanda Demoqrafik Vəziyyət RGS <<İzvestiya Sankt-Peterburq. 2005 s. 71-77.
13. 12.Nağıyev, S. K. (2009) Azərbaycan əhalisinin ərazi hərəkətliliyinin regional xüsusiyyətləri. Azərbaycan Coğrafiya Cəmiyyətinin məqalələri. 14-cü cild, s. 230-234

Göndərilib: 02.03.2022 Qəbul edilib: 08.04.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/08/20-25

**Aygun Soltanaga Sadigova**
Baku State University
master's degree
aygun.samedli@mail.ru

# ENVİRONMENTAL SECURİTY AND TRANSNATİONAL ENVİRONMENTAL CRİMES

**Abstarct**

The aim of this study is to examine the transformation process that started to occur in security in terms of environment and to deal with environmental crimes in this direction. The starting point of the examination is that in the 21st century, parallel to the increase in population and technological developments, the security of the environment has not remained and the crimes against the environment have increased. Depending on the rapid change process in the world, today's living conditions are also changing rapidly and new problems and needs are emerging. One of the places where the change is most striking is the international areas where security is felt more and more. An increasing trend is observed in crime rates and the nature of the crimes committed is changing. Parallel to globalization, it is observed that environmental crimes have also become globalized and exceeded the borders of the country. Crimes have moved from an individual basis to a global dimension; women, organs, immigrants, drug trade, which are included in transnational crimes; terrorism, cyber-crimes, environmental crimes are also added.
***Key words:*** *SecurityEnvironmental Security, Crime and Transnational Environmental Crime.*

**Aygün Soltanağa qızı Sadıqova**

## Ekoloji təhlükəsizlik və transmilli mühit cinayətləri

**Xülasə**

Məqalədəki əsas məqsəd təhlükəsizlikdə baş verməyə başlayan transformasiya prosesini ətraf mühit baxımından araşdırmaq və bu istiqamətdə ekoloji cinayətlərlə mübarizə aparmaqdır. Ekspertizanın çıxış nöqtəsi XXI əsrdə əhalinin artmasına və texnoloji inkişafa paralel olaraq ətraf mühitin təhlükəsizliyinin qalmaması və ətraf mühitə qarşı cinayətlərin artmasıdır. Dünyada gedən sürətli dəyişiklik prosesindən asılı olaraq bugünkü həyat şəraiti də sürətlə dəyişir və yeni problemlər və ehtiyaclar meydana çıxır. Dəyişikliyin ən çox diqqət çəkdiyi yerlərdən biri təhlükəsizliyin getdikcə daha çox hiss olunduğu beynəlxalq sahələrdir. Cinayətlərin sayında artım tendensiyası müşahidə olunur və törədilmiş cinayətlərin xarakteri dəyişir. Qloballaşmaya paralel olaraq ekoloji cinayətlərin də qloballaşaraq ölkə hüdudlarını aşması müşahidə olunur. Demək olar ki, cinayətlər fərdi əsasdan qlobal ölçüyə keçir: transmilli cinayətlərə daxil olan qadınlar, orqanlar, immiqrantlar, narkotik ticarəti və s.
***Açar sözlər:*** *təhlükəsizlik, ekoloji təhlükəsizlik, cinayət və transmilli ekoloji cinayət.*

## Introduction

In the 21st century, rapid changes based on information technology are witnessed in all areas of life. The globalization process, which is caused by the new social and economic structures formed as a result of the wars the world has gone through, and in which a cooperation and integration between countries in the social, political, cultural and economic fields is ensured, continues at full speed. Information age, transportation, communication, construction etc.

While creating opportunities for facilitating human life in many subjects such as; Globalization causes the globalization of opportunities, possibilities, problems and crimes.

This process is most clearly felt in the environment we live in. It has been understood that environmental problems, which accelerated with industrialization, are not limited to the country that is the source of pollution, but are a global problem.

Environmental problems have grown so much that countries cannot solve them alone. The size and complexity of the problems have come to threaten the life of humanity; has created a problem of trust for the future and has become a crime against humanity. It is even stated that it is necessary to consider international environmental crimes as genocide.

Therefore, it would not be correct to look at the security problem only from the perspective of crime and violence. Security now includes not only the existence of states, but also the preservation of values, social relations and people's lifestyles. People consider their environment with their security situation; they want life, vacation, settlement and artistic activities to be safe. The preservation of environmental values is possible by seeing that environmental values and human beings have an integrated structure that cannot be separated from each other [Aksar, 2005, p. 44]. For this reason, the scope of threats and dangers to security has expanded and the need to consider environmental factors has emerged, and the concept of environmental security has come to the fore.

In summary, this study examines the perspectives that will serve security in the process of interaction between the environment and crime, and the reflection of the latest developments on the transboundary environment. The hypothesis of this study is that environmental crime is a globalized security problem.

## Security concept

Security, which is based on the word trust, is defined depending on external factors and has a passive content rather than an active concept. Security is defined as the condition that the legal order is carried out without interruption in the life of the society, and that people can live without fear.

Security is expressed as the state of being safe, free of danger, and being safe and comfortable. Being safe means that people are protected against all kinds of attacks, threats and possible accidents. In short, it means the absence of dangers and threats to people's life, honor and property [Alqan N. 2002, p. 13].

Security is the ability of society and individuals to live without being harmed by various factors. Therefore, the word security also evokes the words safety and security. Safety is defined as the place where trust, belief, trust and security are carried out. Safety is the state of being safe, that is, not in danger; it has a narrower, concrete and positive content than security.

Security is abstract and negative. If there is a situation of danger in a place, if we do not feel safe, then there is a security problem there. Therefore, security is a feeling and a perception. A person is worried about what will happen tomorrow, if he does not know what he will face; If he does not perceive the environment he is in as a place of peace, he will not feel safe. Security is the state of not being harmed and not afraid.

Arnold Wolfers divides this definition into two components: Security, objectively, is the absence of a threat to the values at hand; In a subjective sense, it means not having the fear of an attack on these values.

The word security should be considered together with public order. Public order means orderliness, the condition of a place being in order and security. Public order is the state of being free from fear and anxiety, the existence of law, order and dominance, peace, orderliness and tranquility [Alqan N., 2005, p. 56].

## Environmental safety

Environment is the environment and conditions in which a living thing exists. It is an environment where the chemical and physical functions are in balance between living and non-living elements in which living things continue their life functions. In this sense, the environment is an environment in which all living beings continue their lives and are affected and affected in different ways. The boundaries of the environment are flexible.

Because the environment is not determined by itself, but according to the thing in the center, and the mean environment is the environment outside, limiting or surrounding that thing.

In a narrow sense, the environment can be expressed as air, water and soil, which constitute the common living spaces of all living things. Looking at the environment in a broad sense, there is only one environment: the world we live in. The environment is now defined as everything outside the individual. It covers everything animate and inanimate; It includes both natural and artificial values and the social environment.

Environment is a set of universal values. Plants, animal communities, inanimate beings, the civilization created by man throughout history and the products of this civilization are the common property of all people.

Environmental problems have emerged as a result of damage to environmental values due to various human activities. The deteriorating quality of air, water and soil over time and losing their livability, the disappearance of plant and animal communities due to changes in living environments or excessive consumption for the sake of human needs are indicators of the loss of environmental values.

Environmental problems are mostly seen as environmental pollution. Environmental pollution is all kinds of negative effects that occur in the environment that can disrupt the health, environmental values and ecological balance of living things [Alqan N., 1998, p. 185].

Damage caused by environmental pollution and degradation is widespread. Especially when its long-term effects are considered, it affects not only a single person, but also other people, everyone, even future generations, not only a single nation, but all nations, not only people, but also all organisms and the ecological balance.

Environmental protection includes the maintenance and protection of resources that we quickly lose and cannot replace. Environmental protection aims both to prevent the ongoing situation from changing and to eliminate the harmful situation.

Environmental destruction, borders, ethnic and national rivalries, resource shortages, water wars are interrelated. Therefore, the reasons for peace and security in the world have changed. Today, the environment is evaluated together with the concepts of security, peace, tranquility, justice and rights [Axworthy A.L., 2006 p.356]

The concept of security, in the traditional sense, has been perceived and explained as military security for a long time. Security is not defined in purely military terms today; Military power balances are not perceived to be related to the use of coercion and violence to settle international disputes. The absence of war between states is not considered a guarantee for international peace and security.

The fact that security concerns came to the fore due to terrorist acts pushed environmental concerns into the background and brought political concerns forward. But it is known that when we cannot ensure environmental and life security, political security will have no meaning. Because the sustainability of life comes before all other concerns and forms the basis of security.

Instability in economic, social, humanitarian and environmental issues poses a threat to world peace and security. In this case, domestic security; It is not considered separately from the rapid population growth, internal migration to large settlements, the decline in agricultural production, singular and plural terror, and includes the protection of the living environment.

In foreign security, natural assets such as water and oil take the most important place on the basis of the unrest and political debates between countries in terms of the threat of foreign countries.

Many issues, from the passage of heavy ships through the straits, the ecological risks of oil transportation, the use of common streams and the sky, and the fact that the natural gas used for heating is supplied from foreign countries, clearly shows the links between foreign policy and environmental issues [Alqan N., 1998, p. 67].

## Environmental crime and environmental transmissions

Crime and guilt are violations of legal norms. Penalties to be imposed in case of violation of these norms have been determined through penal laws. It is an intentional act punishable as a felony or minor offense. Crimes can be against persons, society, nation, state and international.

There is a wide variety of crime and delinquency; smuggling, theft, sexual crimes, violent crimes, pickpocketing, crimes against property, crimes against public order, professional crimes, organized crimes, etc. Crime is a universal, general event; It has existed since the earliest times of history and will continue to exist. A society without guilt is considered a dream.

As long as there are various social contradictions and incompatibilities caused by people living together in society, crime will also exist. Crime is relative. The acts constituting the crime are variable according to time and place. Crime is a social disharmony, and social dissonance is more common in dynamic societies than in a static society [Axworthy A.L., 2006 p. 34].

Some of the theories that try to explain crime have approached from biological and psychological aspects (with an individual focus), while others have tried to provide a sociological (with social and environmental factors) explanation for crime. Sociological theories have focused on the interaction between the environment and people in explaining crime. There is no theory that fully explains the behaviors that qualify as crimes, their occurrence and scope. Crime theories are descriptive for a particular group, not for a single person.

Today, sociological theories are used to explain the characteristics and effectiveness of the areas where crime events take place, especially for social, cultural and economic reasons, in the processes that are experienced in local and global dimensions. Crime is a problem that must be tackled and prevented with its numerous effects on individuals, society and public order.

The negative effects of crime are actually much greater than they appear. The impact of crime is pervasive. These damages start from the material and moral damages directly caused by the crime and extend to the losses of the victims directly, then indirectly to their relatives and the whole society [Alqan N. 2002, p. 56].

There is a criminal-justice system established for the prosecution and punishment of criminals in the fight against crime and criminals and after the crime. When the criminal-justice system is also considered, it is seen that even after a simple crime, there is a huge cost to society: loss of police workforce and other related expenses in the framework of judicial investigations, court costs and other costs caused by punishment and correction mechanisms.

In addition to material damages, the social shock, fear and insecurity caused by crime are among the most difficult damages to repair. Because the social cost caused by the fear of crime is much higher than the cost caused by the crime itself.

People's trust in each other decreases day by day due to the crisis of trust caused by crime. In this context, "fear of crime" should be considered as one of the most important criteria for the quality of security services, how safe people feel.

Some measures have been taken in the international arena against the risks threatening environmental security. The control of international environmental crimes, which is a part of the fight against global environmental problems, is becoming a problem that attracts more and more attention.

The most important tool for keeping these crimes under control is the multilateral environmental agreements prepared for the relevant problem area. Multilateral environmental agreements are legally binding intergovernmental documents that aim to protect the environment, manage human impact on natural resources and prevent their harm.

With the rules in the contracts, it is aimed to control and prevent activities that will threaten environmental security. The most important basis of global environmental management is multilateral environmental agreements.

However, the success of multilateral environmental agreements in the control of related crimes depends on the strength and effective implementation of the agreements. As the number of multilateral environmental agreements increased, so did the number of such crimes. Such agreements have also made these crimes attractive.

The growth seen in the illegal trade of environmentally sensitive products is due to the weakness, insufficient implementation or the ineffectiveness of the parties due to implementation problems of the environmental agreements prepared to prevent these crimes. International environmental crimes can occur in different forms and styles, and they generally carry low risk, and the process that includes the follow-up, investigation and punishment of these crimes is full of deficiencies [Alqan N., 1998, p. 14].

Although many countries have financial, police and judicial measures to prevent illegal revenues from leaking into legal sectors, the existence of some countries that serve as money laundering centers for criminal organizations constitutes an important dimension of the transboundary organized crime problem.

Different legal regulations of countries, the facilities provided by technology and globalization in the transfer of people, goods and money, and permeable national borders are within the scope of abuse by criminal organizations. In addition, the failures and inadequacies in coordination and information

sharing between the combatant units of the countries turn into gaps where criminal organizations take advantage of themselves.

On the other hand, when we look at the general developments in the world, the environment has been one of the most flexible subjects. Regulations subject to international conventions are multidimensional due to the flexible nature of the environment [8].

Wherever there has been pollution on the earth, an international convention has been created or tried to be established. However, since states' becoming a party to the convention is possible by their own will, the effectiveness of the convention decreases from the very beginning. Another problem is that after the signing of the contract, the problem of implementation and supervision of the contract has not been fully resolved [Barnet J. 2003, p.7-17].

The feature of international conventions on the environment is that they bring wide opportunities for action for states. The implementation of international environmental conventions is largely left to national governments [Alqan N, 2005, p. 199].

The ultimate responsibility lies with the state's parties. If the states wish, they can withdraw from the treaty after a certain period of time. Giving such an opportunity to the state that is a party may cause various inconveniences in terms of environmental protection. This is the weak point of the contracts made. The fact that developing governments lack the infrastructure to fulfill the requirements of these conventions makes it difficult to control crime.

Local weaknesses in the implementation of contracts make implementation difficult. Although international environmental crimes, which are becoming increasingly widespread and the most important crime after international illegal drug and arms smuggling, are an extremely important problem that can have global effects, their controls remain largely inadequate. Border inspections can be overlooked when due care is not taken in permit and license works. It is seen that such agreements are insufficient in the solution phase as well.

In fact, in international contracts, it is also stated how the problem will be solved in case of any problem related to the contract. While some contracts do not suggest any other way of solving problematic issues by negotiating among themselves, some contracts provide for the establishment of arbitral committees or commissions with sanctions for the solution of the problem.

As a result, even international treaties do not show much of an obstacle when evaluated in terms of environmental protection. Nevertheless, it is necessary to increase the capacity of implementing the agreement in terms of both strengthening the agreements on the fight against environmental crimes and overcoming the implementation problems of the state's parties [Alqan Y., 2005, p. 56].

## Conclusion and Evaluation

Security means that order is carried out without interruption in social life, people can live without fear and be safe. The world has entered a new era with a multi-headed disordered environment from the old bipolar order. With the globalization process, security problems have also started to become global; old security perceptions have also changed.

While the meaning of security is expanding, the clarity and tangibility of the focus of threats is gradually disappearing. Now, national and international security problems are intertwined; the distinction between them becomes blurred. New perceptions are emerging about the concepts of international security and homeland security.

These new security perceptions include terrorism, social violence, ethnic conflicts, poverty, climate change, energy, job and food safety, threats in the virtual environment, communication security problems, etc. New security concerns in many areas have risen above the territorial integrity security of countries.

The bad and irreversible effects of human activities on the environment have reached a level that threatens the future of all living things and brought the concept of environmental security to the agenda. The effects of events that harm the environment are not limited to a specific region, but also have global effects.

At a time when global environmental destruction is no longer a foresight, the climate changes, natural life disappears, and the understanding of consumption pervades our lives, war and violence are

increasing, and the culture of destruction is spreading rapidly all over the world. One of the areas where destruction is most evident and has a global impact is the environment. Natural and environmental threats, transboundary crimes have taken precedence over military threats today.

Therefore, environmental and humanitarian and moral issues, which previously had a very limited place in global security, have now become central. International environmental crimes threaten humanity, societies, countries and the world. For this reason, the necessity of establishing a global perspective against international environmental crimes has arisen; Global and regional studies have started to be carried out to protect the environment.

Everyone has agreed that the unlimited use of resources in the economic, social, humanitarian and ecological fields has begun to threaten peace and security. In order to cope with new security problems and fight transnational crimes, the need for cooperation between countries based on mutual trust is increasing day by day. But the most effective way to overcome these new problems that countries cannot fight alone is institutionalization.

It is necessary to look at the security issue in a global and holistic approach by making it an integral part of foreign policies and developing a long-term perspective. In essence, states, international organizations and individuals have to be more sensitive by abandoning their selfish thinking systems in the fight against environmental threats and crimes.

## References

1. Aksar, Y. (2005). "Uluslararası Suçlar, Uluslararası Cəza Məhkəməsi ve Yeni Türk Cəza Qanunu", Uluslararası Hüquq və Politika, C. 251 s.
2. Alqan, N. (2002). "Türk Boğazlarında Çevrəsəl Güvənlik", Mülkiyə Dərgisi, C: XXVI, S: 234/21-34, Mayıs Haziran.
3. Alqan, N. (2005). "Kirlilikdən Ulusal Güvənliyə", http://www.yesilufuklar.info/rec-bulten/rec-turkiyə/, 640 s.
4. Alqan, N. ve Künçək, Ö. (1998). "Transboundary Population Movements: Refugees, Environment and Politics", The Turkish Yearbook of International Relation (Milletlerarası Münasebetler Türk Yıllığı), No: XXVIII, 344 p.
5. Axworthy, A.L. and Fallick, K. Ross (2006). "The World Urban Forum 2006 Vancouver Working Group Discussion Paper", The Liu Institute for Global Issues at the University of British Columbia, İngiltere, 433 p.
6. Barnett, J. (2003). "Security and Climate Change", Global Environmental Change, C.13, N.1/ 7-17.
7. Barnett, J. and Dovers, S. (2001). "Environmental Security, Sustainability and Policy", Pacifica Review: Peace, Security and Global Change, Vol. 13, Num. 2, June, 233 p.
8. https://dergipark.org.tr/tr/download/article-file/738039 – güvenlik ve çevre sorunları 2022.
9. https://dergipark.org.tr/tr/download/article-file/313713 – güvenlik ve çevre sorunları 2022.

**Rəyçi: h.ü.f.d. Bəxtiyar Hacıyev**

Göndərilib: 06.03.2022 Qəbul edilib: 17.04.2022

ELMİ TƏDQİQAT Beynəlxalq online elmi jurnal. İmpakt Faktor: 0.543. 2022/ Cild: 2 Sayı: 4
SCIENTIFIC RESEARCH International online scientific journal. Impact Factor: 0.543. 2022 / Volume: 2 Issue: 4 e-ISSN: 2789-6919

DOI: https://www.doi.org/10.36719/2789-6919/08/26-31

**Nərmin Ələddin qızı Qədimova**
Azərbaycan Dövlət İqtisad Universiteti
magistrant
ngadimov99@gmail.com

# RƏQƏMSAL İQTİSADİYYATDA İSTEHLAKÇI DAVRANIŞININ XÜSUSİYYƏTLƏRİNİN TƏHLİLİ

**Xülasə**

Pandemiya dövrünün gətirdiyi çətinliklərlə birlikdə internet üzərindən alış-verişin əhəmiyyəti daha çox anlaşıldı. Epidemiyadan təsirlənmək istəməyən insanların istər öz təşəbbüsləri ilə, istərsə də onlayn alış-verişin gətirdiyi məhdudiyyətlərin təsiri ilə evdən çölə çıxmaması ehtiyaclarının ödənilməsinin ən mühüm mənbəyinə çevrildi. Onlayn alış-veriş xüsusilə pandemiya dövründə həm sosial, həm də iqtisadi məhdudiyyətlərin gətirdiyi çətinliklərlə birlikdə istehlakçıların və müəssisələrin ilk seçiminə çevrildi.

Virusun sürətlə yayılmasına baxmayaraq, bir çox ölkələrdə olduğu kimi Azərbaycanda da gündəlik həyatın davamı üçün onlayn tədqiqatlar aparılmağa başlanılıb və nəticədə rəqəmsal mediadan istifadə yüksək səviyyəyə çatmışdır. E-ticarət, eyni zamanda fiziki qarşılıqlı əlaqəni minimuma endirən bir üsul hesab olunur. Virus izdihamlı mühitlərdə daha sürətli yayıldığı üçün insanlar getdikcə e-ticarət və onlayn alış-verişdən daha çox istifadə etməyə üstünlük verməyə başladı.

***Açar sözlər:*** *rəqəmsal iqtisadiyyat, e-ticarət, istehlakçı, sosial-media marketinqi, istehlak kanalı*

**Narmin Aladdin Gadimova**

## Analysis of characteristics of consumer behavior in the digital economy

**Abstract**

Despite the difficulties caused by the pandemic period, the importance of online shopping has become more understood. The fact that people who do not want to be affected by the epidemic do not leave their homes, either on their own initiative or under the influence of restrictions imposed by online shopping, has become the most important source of meeting their needs. Online shopping has become the first choice of consumers and businesses, especially during the pandemic, with the challenges posed by both social and economic constraints.

Despite the rapid spread of the virus, online surveys have begun to be conducted in Azerbaijan, as in many other countries, to maintain daily life, and as a result, the use of digital media has reached a high level. E-commerce is also a way to minimize physical interaction. As the virus spreads faster in crowded environments, people are increasingly opting for e-commerce and online shopping.

***Key words:*** *digital economy, e-commerce, consumer, social media marketing, consumer channel.*

## Giriş

İstehlakçı davranışının təhlili nəticəsində bizlərə aydın olur ki, istehlak vərdişləri və davanışının formalaşmasında mütləq rasionallıq deyil, o cümlədən istehlakçıların yaşadığı cəmiyyətə xas olan ideyalara sadiqlik də kifayət qədər mühüm rol oynayır. Başqa sözlə desək, istehlakçı davranışı bir çox hallarda şəxsin yaşadığı sosial sistemə, iqtisadi inkişaf mərhələsinə uyğun gəlir ki, bu da onları sanki istehlakçı kimi daxil olduqları sosial şəraitə tabe edir. Nəticədə insan biososial varlıq olaraq fərqinə varmadan axının bir hissəsinə çevrilir və istehlakçı davranışında onun şəxsiyyətini müəyyən edən dəyərlərə əməl edir [Zemskova E.S. 2019, s.56] .

Son otuz ildə İnformasiya və Kommunikasiya Texnologiyalarının təkamülü ədəbiyyatlarda tez-tez "rəqəmsal iqtisadiyyat" kimi etiketlənən yeni iqtisadi modelin yüksəlməsinə səbəb olmuşdur. Sözügdən model biznes və istehlakçıların rifahı arasında rəqabəti stimullaşdırmaq potensialına malikdir. İnternetin geniş bir auditoriya üçün getdikcə daha çox əlçatan olmasını nəzərə alsaq, model qlobal miqyasda

diqqətəlayiq bir sürətlə yayılır, belə ki, Avropa Komissiyası bəzi sektorlarda ümumi gəlirlərinin bir il ərzində təxminən iki dəfə artdığını bildirir.

**Rəqəmsal iqtisadiyyatda istehlakçı davranışının xüsusiyyətlərinin təhlili.** Rəqəmsal iqtisadiyyatın xüsusiyyətləri istehlakçılara almaq istədikləri məhsullar və xidmətlər haqqında daha çox məlumat toplamaqda kömək edə biləcək qiymət müqayisəsi veb saytları və digər onlayn imkanlar – müvafiq təcrübənin olduğu satıcıların reytinq sistemləri və ya istehlakçılar arasında paylaşma və qarşılıqlı əlaqənin mümkün olduğu onlayn forumlar vasitəsilə rəqabəti təşviq etməyə borcludur [World Bank 2016].

Dünya Bankının məlumatına görə, rəqəmsal texnologiyalardan istifadənin fiziki şəxslərə, şirkətlərə və dövlət sektoruna verdiyi əsas faydalar bunlardır: a) onlar informasiya xərclərini azaldır, beləliklə, əməliyyatların xərclərini azaldır; b) yeniliyi təşviq edirlər; c) onlar daha sürətli və daha rahat fəaliyyətlər və xidmətlər vasitəsilə səmərəliliyi artırırlar; d) əvvəllər əlçatmaz olan xidmətlər daha çox istehlakçı üçün əlçatan olduğu üçün inklüzivliyi artırır; e) iş imkanları yaradırlar [Goncharuk I.V., 2021 p.66].

Birləşmiş Millətlər Təşkilatının Ticarət və İnkişaf Konfransının təqdim etdiyi perspektivə görə, rəqabətin tənzimlənməsi və stimullaşdırılması ilə yanaşı, istehlakçıların səlahiyyətlərinin artırılması istehlakçıların müdafiəsi istiqamətində real irəliləyiş gətirə bilər. Savadlı istehlakçı innovasiyaları, məhsuldarlığı və hətta bazarda fəaliyyət göstərən subyektlər arasında rəqabəti stimullaşdırır. Səlahiyyətli istehlakçılar satın alarkən öz qərarlarından xəbərdar olan istehlakçılardır (qiymətləri müqayisə edirlər, şərtləri oxuyurlar, məhsulların etiketlərini yoxlayırlar), özləri məlumat əldə edirlər və hər hansı bir vəziyyətdə istifadə edə biləcəkləri vəkillik və bərpa mexanizmlərinə çıxış əldə edirlər [Lascu, D-N. and Clow. K.E. 2004, p.64]. Bundan əlavə, Rəqabət və İstehlakçıların Hüquqlarının Müdafiəsi İdarəsinin göstərdiyi kimi, rəqəmsal mühitə çıxışı olan istehlakçılar bazarda fəal iştirak etmək, "istehlakçı" olmaq və ya brendlər və məhsullar haqqında məlumat toplayan istehlakçılara çevrilmək imkanına malikdirlər. Bu davranış daha çox yayılmış satınalmalardan əvvəl olan diskret qərar vermə proseslərinə, eyni zamanda uzunmüddətli qərar qəbul etmə proseslərinə təsir göstərir (OCCP, 2009). Bu şəkildə davranan istehlakçı artıq passiv benefisiar, bazar sui-istifadələrinin və ya səhv rəqabətin qurbanı deyil, bazarda mərkəzi rolu olan real oyunçu hesab olunur [Madill, J. and Mexis, A., 2009 p.24].

Hədəflənmiş fərdi istehlakçılarla birbaşa ünsiyyət qurmaq, onlardan çevik şəkildə cavablar almaq və davamlı müştəri münasibətlərini inkişaf etdirmək məqsədilə birbaşa marktinq anlayışına müraciət edilə bilər. Birbaşa marketinqdə kütlə əvəzinə müştərilər və ya potensial müştərilərlə bir-bir əlaqə qurulur. İnteraktiv, ölçülə bilən və hər yerdə baş verən xüsusiyyətlərə malikdir . Birbaşa marketinq vasitələri aşağıdakı alt başlıqlar altında araşdırılır [Kurtz, D. 2008,], [Lascu, D-N. and Clow. K.E. 2004.] , [Sohn, D. 2005].

- Birbaşa poçt marketinqi
- E-poçt marketinqi
- Telemarketinq
- İnternetdə marketinq
- Kataloq üzrə marketinq
- Üz-üzə satış
- Avtomatik satış maşınlar.

21-ci əsrdə kommunikasiya texnologiyalarının sürətli inkişafı insanların internetdən və veb alətlərindən daha çox istifadə etməsinə səbəb olur. Bu vasitələrdən ən önəmlisi sosial mediadır. Sosial media istifadəçilərin özlərini ifadə etdikləri və digər istifadəçilərlə əlaqə saxladıqları yeni virtual məkandır. Buna görə də istehlakçılar sosial media vasitəsilə bir-birlərinə təsir etməklə qalmayıb, eləcə də şirkətlərin tanıtım məqsədi ilə hazırladıqları reklamlardan təsirlənirlər. Bu nöqteyi nəzərdən, sosial media marketinqdə mühüm rol oynayır.

Sosial media marketinqi istehlakçının yeni mediada interaktiv iştirakına əsaslanan müasir marketinq yanaşmasıdır. Sosial media alətlərindəki məzmunlar istehlakçı davranışını və sosial media marketinqini formalaşdırır. Alış-veriş zamanı istifadəçi və ya şirkət tərəfindən sosial mediada yaradılan məzmun istehlakçılara təsir edir. Beləliklə, sosial mediada bir məhsulun və ya xidmətin nə qədər və necə

danışılacağı bizneslər üçün əhəmiyyətli olur. Deməli, sosial medianın istehlakçı davranışına təsirini araşdırmaq olduqca vacibdir [Evans. D. 2008., p.21].

Hazırda sosial media saytları sayəsində istehlakçılar bir-birləri ilə qarşılıqlı əlaqədə olaraq müxtəlif məzmunlu paylaşımlar edə və bir-birlərinə təsir edə bilirlər . Facebook, Twitter, Instagram, YouTube, LinkedIn, Wikipedia kimi sosial şəbəkələr insanların ünsiyyət qurmasına şərait yaradır. Ümumilikdə isə istehlakçı davranışına təsir edən müxtəlif səbəblər mövcuddur. İlk olaraq onu qeyd etmək lazımdır ki, istehlak prosesi məhsulun əldə edilməsi ilə başlayır. İstehlak qərarının verilməs isə tək bir şəxs və ya müəyyən bir qrup tərəfindən baş tuta bilər. İstehlakçı davranışına bazar vəziyyəti, sosial mühit, alternativ məhsulların qiymətləri və s. kimi xarici amillər təsir edir. Məhz bu səbəbdən, ətraf mühitə, iqtisadi vəziyyətə, sosial qrupa, məşğuliyyətə və təhsil səviyyəsinə görə istehlakçı davranışının fərqli olması diqqətəlayiq məsələlərdən biri hesab edilir [Kurtz, D. 2008, p.114].

İnternetin yüksək interaktiv strukturu bir çox digər mərhələlərdə olduğu kimi satış sonrası dəstəyin göstərilməsi baxımından istehlakçıya mühüm rahatlıq və üstünlüklər təqdim edir. Narazı istehlakçı internet üzərindən bizneslə əlaqə saxlayaraq problemin tez və ucuz həllini tələb edə bilər. Bundan əlavə, istehlakçı biznesin problemin həllində qeyri-kafi olduğunu düşünürsə, daha əvvəl qeyd etdiyimiz internetin sosial media aspekti vasitəsilə müxtəlif platformalarda narazılığını ifadə edə bilər [Rakhmanov, F.P. Suleymanov, E.B. Gojayeva, E.M., 2020, p.68].

Aparılan araşdırma nəticəsində bir qrup istehlakçı üçün onların demoqrafik xüsusiyyətləri və alış-verişlərində hansı kanallardan istifadə etdikləri, onlayn alış-verişdə hansı növ məhsula üstünlük verdikləri, məhsullarla ilk dəfə harada tanış olduqları, onlayn alış-veriş etdikləri internet saytında istehlakçı üçün nəyin vacib olduğu haqqında məlumatlar əldə edilmişdir.

İnternet və sosial medianın istehlakçı davranışına təsirini müəyyən etmək üçün hazırlanan sorğu 15-30 yanvar 2022-ci il tarixlərində təsadüfi seçilmiş 18 və daha yuxarı yaşda olan subyektlər arasında test şəklində keçirilmişdir. Sorğuda 104 nəfər iştirak etmiş, lakin verilən cavablardan 3-ü qeyri-effektiv olduğu üçün sorğuda nəzərə alınmamışdır.

Aparılan araşdırmanın nəticəsi olaraq, tədqiqat obyektini təşkil edən qrupun demoqrafik xüsusiyyətləri aşağıdakı cədvəldə əks olunmuşdur.

***Cədvəl 1.***

**İstehlakçıların (sorğuda iştirak edən) demoqrafik xüsusiyyətləri.**

| Cins | N | % |
|---|---|---|
| Kişi | 41 | 40,59% |
| Qadın | 60 | 59,41% |
| Yaş | N | % |
| 18-25 | 58 | 57,4% |
| 25-35 | 27 | 26,7% |
| 35-50 | 8 | 7,9% |
| 50 yaş və yuxarı | 8 | 7,9% |
| Aylıq gəlir | N | % |
| 300-500 azn | 52 | 51,48 |
| 500-1000 azn | 26 | 25,74 |
| 1000 azn və yuxarı | 20 | 19,8 |
| Cavabsız | 3 | 2,97 |

Cədvəldən də göründüyü kimi tədqiqat qrupunun böyük əksəriyyəti, yəni 57,4% -i 18-25 yaş aralığı olan şəxslərdir. Sorğuda iştirak edən lərin 51,48%-nin aylıq gəliri 300-500 azn təşkil etdiyi halda, aylıq gəliri 1000 azn və daha çox olanlar 19,8% təşkil edir. Bununla yanaşı, sorğuda iştirak edən 3 nəfər qeyd olunan sualı cavabsız qoymuşdur.

Növbəti cədvəldə isə istehlakçıların alış-veriş aktını hansı üsulla icra etməyə üstünlük verməsi təhlil edilmişdir. Əldə edilən nəticələrə görə sorğuda iştirak edənlərin böyük bir qismi, 44,6%-i həm internet üzərindən, həm də ənənəvi şəkildə alış-veriş etməyə üstünlük verir.

*Cədvəl 2.*

**İstehlak kanalına görə sınaq qrupunun təsnifatı.**

| Sınaq qrupunun istehlak kanalları | Say | Faiz |
|---|---|---|
| Mağaza | 33 | 32,7% |
In the law of the Republic of Azerbaijan "On advertising" are divided into three places, being unfair, inexact and hidden advertising [2015, p. 6].

However, in our opinion, we can divide false advertising, such as copyright infringement, by summarizing advertising activities and copyright laws, international treaties, agreements, conventions as follows:

1. Unfair advertising
2. Inexact advertising
3. Hidden advertising
4. Subliminal advertising
5. Deceptive advertising

**Unfair advertising as copyright** − Article 6 of the law of the Republic of Azerbaijan "On advertising" states in what cases advertising is considered unfair. Pursuant to Article 6.1 of this law, when a comparison is made between the advertised commodity and the one that performs or performs the same functions, the qualitative or quantitative indicators of the goods of other manufacturers or sellers by naming or indicating the commodity by other market participants, by mocking the persons who do not use the advertised commodity or, when other goods are plagiarized by advertising materials, when the advertised product is viewed as confusing to other manufacturers and sellers, when information about the negative impact of the advertised product on health and the environment is deliberately concealed, it is considered unfair advertising. When legal approach to this issue, it becomes clear that persons who make unfair advertising at the same time earn money and compete unjustly, causing harm to the honor and dignity of another seller [2015, p. 4]. One of the most common examples is the advertising of detergents and other sanitary hygiene products on television. For example: any popular detergent makes a comparison with another detergent to prove the quality of its product. In this case, unfair advertising calls into question the quality of another product and degrades the honor and dignity and business reputation of a market competitor by various means and methods. Another unfair advertising regulated by law is the knowingly inappropriate advertising of a commodity.

Article 6.1.5 of the law of the Republic of Azerbaijan "On advertising" states that in case of illegal use of copyright and related rights, plagiarism of advertising materials of other goods is considered unfair advertising. The use of unfair advertising is not allowed. In cases where it is used, it is brought to liability provided for by the legislation [1, 2015, p. 4].

Article 9 of the law of the Republic of Azerbaijan "About unfair competiton" use unfair, inexact and the hidden advertising of goods of methods which influence liberty of choice of the consumer in case of their acquisition or in case of the conclusion of the transaction [2, 1995, p. 5].

**Inexact advertising as copyright infringement** - One of the deceptive advertisements as a copyright infringement is inexact advertising. Features of inexact advertising are reflected in Article 7 of

the Law of the Republic of Azerbaijan "On Advertising". The connection of inexact advertisements with copyright is reflected in Article 7.1.7 of this Law [1. 2015, p. 8]. Thus, advertising that is reflected in an distorted form, such as the official symbols of states and international organizations, trademarks of legal entities, the right of individuals to use intellectual property rights is considered inexact.

**Hidden advertising as copyright infringement** - According to Article 8 of the law of the Republic of Azerbaijan "On Advertising" in order to attract attention to the advertising object by influencing the consciousness of the advertising consumer, the information provided by the advertising carriers as an advertisement, without the advertising "or" on the basis of advertising rights note is classified advertising. In general, advertising is not allowed to be hidden. If hidden advertising violates any copyright, it is considered false advertising and entails legal liability. Sometimes subliminal advertising with hidden advertising is mixed. In our opinion, although hidden advertising directly forms an idea of the advertised object in consumers by influencing human consciousness, subliminal advertising indirectly delivers information to any object.

**Subliminal Advertising as copyright infringement** − What is Subliminal Advertising? Subliminal messages are visual or auditory stimuli that the conscious mind cannot perceive, often inserted into other media such as TV commercials or songs. This kind of messaging can be used to strengthen or heighten the persuasiveness of advertisements, or to convey an altogether different message entirely.

True subliminal messages cannot be observed or discovered by the conscious mind, even if you are actively looking for them. This is because stimuli to which we respond every day – the things we see and hear around us – are above the threshold of conscious perception, unlike subliminal messages, which are below this threshold [Gardner D.M., p.42].

**Deceptive Advertising as copyright infringement –** False advertising has several purposes. One of those goals is creating a false or misleading impression. Businesses are not allowed to make statements that are inexact or likely to create a false impression.

This rule applies to their advertising, their product packaging, and any information provided to you by their staff or online shopping services. It also applies to any statements made by businesses in the media or online, such as testimonials on their websites or social media pages. It makes no difference whether the business intended to mislead you or not. If the overall impression left by a business's advertisement, promotion, quotation, statement or other representation creates a misleading impression in your mind - such as to the price, value or the quality of any goods and services then the behaviour is likely to breach the law.

Some examples of business behaviour that might be misleading are:

- a mobile phone provider signs you up to a contract without telling you that there is no coverage in your region
- a real estate agent misinforms you about the characteristics of a property by advertising "beachfront lots" that are not on the beach
- a jewellery store advertises that a watch was $200 and is now $100 when the store never sold the watch for $200
- a business predicts the health benefits of a therapeutic device or health product but has no evidence that such benefits can be attained

**Current developments in deceptive advertising on the internet -** This paper examines three categories of misleading advertising on the internet (hidden advertisement, misleading quality labels, and misleading pricing information). However, the internet fosters all kind of new and fast-changing marketing techniques, which also involve all kinds of new market players. It would require further study to examine all possible developments and legal consequences. developments. It also has to be stressed that besides some peculiarities, misleading advertising on the internet has to fulfill the same legal requirements as offline advertising [Hill, T. E., 1991, p. 18].

False advertisings such as copyright infringement can take several forms:

Fine print and qualifications **-** It is common practice for advertisements to include some information in fine print. This information must not contradict the overall message of the advertisement. For example, if an advertisement states that a product is "free" but the fine print indicates some payment must be made, the advertisement is likely to be misleading.

Comparative advertising - Some advertisements or sales material may compare products or services to others on the market. These comparisons may relate to factors such as price, quality, range or volume.

Bait advertising - Bait advertising takes place when an advertisement promotes certain (usually "sale") prices on products that are not available or available only in very limited quantities. It is not misleading if the business is upfront in a highly visible, clear and specific manner about the particular product 'on sale' being in short supply or on sale for a limited time.

Environmental ("green") claims - Environmental claims may appear on small household products such as nappies, toilet paper, cleaners and detergents through to major white goods and appliances. They may include statements about environmental sustainability, recycling, energy and water efficiency or impact on animals and the natural environment, for example "green", "environmentally safe" or "fully recycled" [Jacoby, J., Small C.1975, p. 68].

Article 2 of the European Union's directive on deceptive and comparative advertising states that "deceptive advertising, including its presentation, is likely to mislead or mislead in any way those to whom it is directed or delivered and because of this false nature, it may affect their economic behavior or thereby harm or harm an opponent.

Legal entities or individuals who advertise lying as copyright infringement are subject to legal liability. Legal liability is divided into several categories, being civil, administrative and criminal legal liability.

## Conclusion

Thus, the use of false and deceptive advertising violates both copyright and unfair competition laws. To prevent this, the draft "Competition Code" should include paragraphs about false advertising, take measures to prevent copyright infringement, and be regulated by the code of legal responsibility. In this case, copyright rights will develop, support for raising the economic and social welfare of society and fight against unfair competition.

## References

1. Law of the Republic of Azerbaijan (2015) On Advertising", № 1281-IVQ, Baku
2. The Republic of Azerbaijan (1996) On Copyright and Related Rights", № 115-IQ, Baku
3. Law of the Republic of Azerbaijan (1995) About unfair competiton", № 1049, Baku
4. İmanov, K.(2016) İntellectual property and moral rights", Baku 2016.
5. Imanov, K. (2016) The role of intellectual property rights in the Azerbaijan, Baku.
6. Civil Code of the Republic of Azerbaijan, № 779-IQ, Baku, 1999.
7. Code of Administrative Offenses of the Republic of Azerbaijan, (2016) № 96-VQ, Baku.
8. Criminal Code of the Republic of Azerbaijan, № 787-IQ, Baku, 1999.
9. Gardner, D. M.: (1975) "Deception in Advertising: A Conceptual Approach", Journal of Marketing 39, 40–46.
10. Hill, T. E.:(1991) "Autonomy and Benevolent Lies", inAutonomy and Self-Respect (Cambridge University Press, Cambridge).
11. Jacoby, J. and C. Small: (1975) 'The FDA Approach to Defining Misleading Advertising',Journal of Marketing 39, 65–73.
12. Carson, T. L., R. E. Wokutch and J. E. Cox Jr.: (1985) "An Ethical Analysis of Deception in Advertising",Journal of Business Ethics 4, 93–104.

**Rəyçi: h. ü.f.d. Azər Səfərov**

Göndərilib: 13.03.2022 Qəbul edilib: 17. 04.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/08/46-50

**Elbrus Adil oğlu İbrahimov**
Bakı Dövlət Universiteti
magistrant
elbrus629@gmail.com

# PREZİDENT İLHAM ƏLİYEVİN BBC VƏ FRANS 24 TV-YƏ VERDİYİ MÜSAHİBƏLƏRDƏ SİYASİ GERÇƏKLİK VƏ ETİK PROBLEMLƏR

**Xülasə**

Məqalədə Prezident İlham Əliyevin BBC kanalına verdiyi müsahibə zamanı jurnalistin etik davranış qaydalarından bəhs edilir. Qeyd edilir ki, jurnalist öz vəzifəsini yerinə yetirərkən insan hüquqlarını və etik davranış qaydalarını nəzərə almalıdır. Amma çox təəssüflər ki, jurnalistikanın qanununun pozulması hallarına bu gün cəmiyyətdə rast gəlirik. Jurnalistlər bilavasitə ictimai rəyə və şüurlara təsir imkanları olan adamlardır. Demokratik cəmiyyət düzənində mətbuat və söz azadlığı KİV nümayəndələrinə əlavə hüquq və səlahiyyətlər verdiyi kimi, onun üzərinə həm də əlavə məsuliyyət qoyur. Bu məsuliyyəti dərk edən jurnalist həm peşə etikasına riayət etmiş olacaq, həm də peşə ləyaqətini yüksək tutmuş olacaq.

***Açar sözlər:*** *jurnalist, etik davranış, müsahibə, mətbuat, demokratiya*

**Elbrus Adil İbrahimov**

## Political realities and ethical issues in president İlham Aliyev's interviews with bbc and france 24 tv

**Abstract**

The article discusses the rules of ethical conduct of a journalist during an interview with President BBC by President Ilham Aliyev. It is noted that a journalist must take into account human rights and ethical conduct in the performance of his or her duties. But, unfortunately, today we come across violations of this golden rule of journalism in society. Journalists are people who have the ability to directly influence public opinion and consciousness. In a democratic society, freedom of the press and freedom of speech gives additional rights and responsibilities to the media, as well as additional responsibilities. A journalist who understands this responsibility will have both professional ethics and high professional dignity.

***Key words:*** *journalist, ethical behavior, interview, press, democracy*

## Giriş

Demokratik prinsiplərin geniş yayıldığı ölkələrdə jurnalistika üçün zəruri olan bütün imkanlar şərtdir, əsas da söz və mətbuat azadlığı. Jurnalistika hər zaman reallığı üzə çıxarmağa xidmət etməlidir. Amma bu zaman etik kodekslər əsas götürülməlidir [Rəhimova S.İ 2007,s.89]. Təbii ki, jurnalist insandır və peşə fəaliyyəti zamanı dilemmalar, hətta polilemmalar qarşısında qala bilər. Bu vəzifənin gerçəkləşdirilməsi əsl media amacının daşıyıcılarını güc və qüdrət yiyələri ilə üz-üzə qoyur, çünki məlumat sahibi olmaq hər hansı güc və qüdrəti aşmaq, onu xalqın xeyrinə yönəltmək deməkdir. Aşkar etdiklərini, üzə çıxardıqlarını, tapşırıqlarını ictimaiyyətin diqqətinə yetirməklə qərarı onların öhdəsinə buraxmaq şərtdir.

Jurnalist etikası məhz mediaya inam problemini, bu baxımdan peşə standartlarının vacibliyini, peşəkarların razılaşdığı və ictimaiyyətə açıqladığı davranış qaydalarını diqqətdə saxlayır və daim aktuallığını qoruyur. Jurnalist-bloqçu ona verilən azadlıqdan və geniş meydandan şəxsi maraqları üçün deyil, ictimaiyyəti maraqlandıran aspektdən çıxış etməli və balans, obyektivlik, dəqiqlik, dürüstlük prinsiplərinə riayət etməlidir [Vətən Müharibəsi, 2021 ,s.76].

Balanslı və obyektivlik prinsipinə riayət olunmaması 44 günlük Vətən Müharibəsi dövründə Qərb mətbuatının timsalında daha aydın nəzərə çarpıb. Xüsusən də BBC və Frans 24 Azərbaycanın apardığı

haqq savaşına birtərəfli, qeyri-obyektiv yanaşması ilə diqqət çəkib. Bu müddət ərzində müharibə və həqiqətlər haqqında informasiyalar yayılarkən jurnalistikanın qızıl prinsipləri kobud şəkildə pozularaq Qarabağ mübahisəli və ermənilərin çoxluq təşkil etdikləri anklav kimi təqdim edilib. Nümunə kimi Ros Atkinsin oktyabrın 1-də təqdim etdiyi proqram da ABŞ, Rusiya və Fransanın təkidlərinə baxmayaraq, hər iki tərəfin "mübahisəli" ərazi olan Qarabağda münaqişəyə son qoymamalarından, məsələnin regional münaqişəyə keçəcəyi narahatlığından danışmasını göstərmək olar.

Oktyabrın 16-da kanalın beynəlxalq müxbirləri Orla Querin, prodüser Zeynəb Erdim və operator Goktay Koraltanın Bərdədən hazırladıqları reportaj isə müəyyən qədər həqiqətə yaxınlığı ilə seçilib. "Dağlıq Qarabağ: Ermənistan-Azərbaycan "informasiya müharibəsi" adlı məqalədə isə qeyd olunub ki, həqiqi informasiyanı əldə etmək çətin olduğundan sosial mediada yayılan xəbərlərə, videolara müraciət olunub, buna görə də çoxlu sayda yanlış xəbərlərə, vaxtı keçmiş materiallara rast gəlinir. Elə bu ərəfədə BBC-nin Ərəb bürosunun araşdırmalarının birində Azərbaycan sərhədində hərbi məntəqələrin qorunmasının ərəb muzdluya həvalə olunduğu gündəmə gətirilib. Həmçinin, məşhur "Arma 3" hərb oyununun videogörüntülərindən də yanlış olaraq Qarabağ müharibəsinin kadrları kimi Facebook, Twitter, YouTube, TikTok şəbəkələrində istifadə olundu. Məqalədə sosial platformaların azərbaycanlılar və ermənilər üçün mübarizə meydanına çevrildiyinə diqqət çəkilib.

Noyabrın 8-də BBC-nin saytında dərc olunan digər bir yazı Azərbaycan üçün tarixi əhəmiyyət daşıyan Şuşa şəhərinin işğaldan azad olunması ilə bağlı olub. Yazıda Şuşada 1980-1990-cı illərdə daha çox azərbaycanlıların yaşaması, müharibə nəticəsində yüz minlərlə insanın öz doğma dədə-baba ocaqlarından didərgin düşməsi ilə bağlı həqiqətlər yer alıb.

Azərbaycan Prezidentindən müsahibə alan KİV-lər fərqli ölkələrin fərqli informasiya siyasəti yürüdən və təbii ki, ölkəmizə də fərqli münasibət bəsləyən dövlətlərin, dairələrin media qurumları olub. Ona görə də müsahibələrdə problemə fərqli yanaşma, fərqli niyyətlərin güdülməsi, müəyyən məqamlarda etik normaların pozulması və bəzi hallarda qərəzli sualların ortaya çıxması xarakterik cəhət kimi görünürdü. Amma bütün hallarda dünyanın ən nüfuzlu telekanallarına, qəzetlərinə və informasiya agentliklərinə verilən bu müsahibələr əhatə dairəsinə görə bütövlükdə beynəlxalq auditoriyaya ünvanlanırdı. II Qarabağ müharibəsinə münasibətini birbaşa Azərbaycan Prezidenti ilə dialoq şəklində ifadə edən xarici KİV-lərin 18-nin telekanal olması çağdaş media sistemində canlı yayımın necə böyük önəm daşıdığının əyani sübutudur. Yerdə qalan xarici kütləvi yayım vasitəsinin 5-i informasiya agentliyi, 2-si isə qəzetdir. Ümumilikdə Prezident İlham Əliyev 44 günlük Vətən Müharibəsində dünyanın 30-a yaxın tanınmış mediasına müsahibə verib. Yaponiya, ABŞ, Türkiyə, Rusiya və digər ölkələrin mətbuatı Azərbaycan Prezidentinin bəyanatlarını, müsahibələrini işıqlandırıb.

Azərbaycan Prezidentindən müsahibə almaq istəyən kütləvi informasiya vasitələrindən bəzilərinin marağı təkcə müharibə barədə informasiya yaymaq, həqiqətləri işıqlandırmaq deyildi. Bəziləri hətta peşə etikası prinsiplərini kobudcasına pozaraq tərəf kimi çıxış edir, özünü "müstəntiq" mövqeyində tutaraq ittiham dolu suallar səsləndirir, elementar nəzakət qaydalarından, etik normalardan xəbərsiz olduqlarını açıqca nümayiş etdirirdilər. Bu qarayaxma kampaniyasına rəğmən böyük səbir və təmkin nümayiş etdirən prezident İlham Əliyev münaqişənin tarixinə ekskurs edir, 1805, 1813 və 1828-ci il Kürəkçay, Türkmənçay və Gülüstan müqavilələrinə əsasən, ermənilərin bizim əzəli torpaqlarımızda yerləşdirildiklərini söyləyərək tarixi həqiqətləri dilə gətirib.

Qarabağ münaqişəsinin həlli üzrə ATƏT-in BMT mandatlı Minsk qrupunun Rusiyadan savayı, digər iki həmsədri olan ABŞ-ın 2 ("CNN İnternational", "FoxNews" TV) və Fransanın 2 ("France 24" TV, "Figaro" qəzeti) media qurumunun Azərbaycan Prezidenti ilə müsahibə marafonuna qoşulması bu ölkələrin münaqişənin həllinə ermənipərəst münasibətinin göstəricisidir. Amma ədalət naminə burada Fransanın "24 TV" kanalının cəbhədən və cəbhəyanı bölgələrdən hazırladığı obyektiv reportajı və həmin telematerialın müəllifinə erməni lobbisinin insanlığa yaraşmayan münasibətini də qeyd etməliyik. Ümumən, Azərbaycanın haqlı mövqeyini müdafiə etməkdən uzaq olan ABŞ və Fransa mediası ölkəmizin apardığı haqq savaşına öz subyektiv maraqları baxımından yanaşıb. Fransadan fərqli olaraq, Qarabağ münaqişəsinin hərbi yolla həllinə nisbətən təmkin və anlayışla yanaşan Böyük Britaniyanın da iki telekanalı ("BBC News", "Sky News" TV) öz ölkəsindəki ermənipərəst dairələrin maraqları baxımından verdiyi qərəzli suallara Azərbaycan rəhbərindən aydın, dolğun, obyektiv və qınayıcı cavablar alıb.

Müharibə günlərində Prezident İlham Əliyevin təkcə BBC-yə müsahibəsinin sosial şəbəkələrdə baxış sayı 3 milyonu ötüb. İndiyədək Azərbaycandan nə bir yazı, nə bəyanat, nə müsahibə, nə çıxış beynəlxalq aləmdə bu qədər diqqət çəkib. BBC müxbirinin verdiyi suallardan bəziləri qeyri-etik olsa da, prezident İlham Əliyev bu suallara təmkinli cavab verib.

Prezident İlham Əliyevin BBC-yə müsahibəsi həm media mütəxəssislərinin, həm də siyasi ekspertlərin diqqətini çəkib. Çünki müsahibə geosiyasi dəyişikliklər dövründə baş verib. Açığı, bu müsahibə kontur və bəzən əsassız suallar üzərində qurulub.

Bu, çox mühüm coğrafiyada geosiyasi reallığın dəyişdiyi bir vaxtda verilən müsahibədir. Məhz Azərbaycanın Ali Baş Komandanı İlham Əliyev bu reallığı dəyişib. Müxbirin "Bu ərazilər bizim beynəlxalq auditoriya üçün tanış olmadığına görə dəqiqləşdirmək istəyirəm. Siz deyirsiniz ki, Ermənistan rəhbərliyi Dağlıq Qarabağdan kənardakı əraziləri boşaltmağa razılaşsa, siz dayanarsınız və döyüşməzsiniz?" sualına cavabında president İlham Əliyev "Elədir ki, var. Bu, mənim dəfələrlə vurğuladığım mövqedir. Eyni zamanda, bu, danışıqlar masasında olan bütün məsələlər deyil. Əlbəttə ki, bundan sonra biz azərbaycanlı məcburi köçkünlərin Dağlıq Qarabağa qayıtmaları üzərində işləyəcəyik. Çünki müharibədən əvvəl, 1990-cı illərdə Dağlıq Qarabağda 40 min azərbaycanlı yaşayırdı və bu da oradakı əhalinin 25 faizi idi. Onlar onların hamısını qovdular, etnik təmizləmə törətdilər və sonra "müstəqillik" elan etdilər" cavabını verməklə Azərbaycanın öz haqqını tələb etdiyini və müharibədə maraqlı olmadığını bəyan edib. Bununla kifayətlənməyən müxbir "Lakin siz Dağlıq Qarabağ üzərində nəzarəti güc yolu ilə ələ keçirsəniz, sizin də eynilə eyni şeyi törədəcəyinizlə bağlı qorxular var. Ermənistan öz insanlarının etnik təmizləməyə məruz qalacağından çox ciddi qorxduğunu ifadə etməkdədir" sualı tərəfsizliyini ortaya qoyub. Prezident İlham Əliyev isə deyilənləri əsassız ittiham adlandırıb. Sitat: "Birincisi, əgər bu məsələ Ermənistanı həqiqətən də narahat edirsə, nəyə görə onlar əsas prinsiplərlə razılaşmırlar? Çünki əsas prinsiplər təsdiqlənsə və Ermənistan mənim onlardan dəfələrlə tələb etdiyim öhdəliyi üzərinə götürsə, onda hər şey dayanacaq". Müxbirin "Siz onlardan Dağlıq Qarabağı boşaltmalarını xahiş etmirsiniz? Siz onlardan yalnız ətraf rayonları xahiş edirsiniz?" sualına cavabında isə Azərbaycan prezidentinin "Biz BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul olunmuş qətnamələrinin icra olunmasını xahiş və tələb edirik. Bu qətnamələrdə Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb olunur. Dağlıq Qarabağın erməni əhalisinə gəlincə, onlar orada yaşamağa davam edəcək. Onlar bizim vətəndaşlarımızdır və mən dəfələrlə bu mövqeyi ifadə etmişəm" deyib. Bununla da kifayətlənməyən müxbir "Prezident Əliyev, ermənilərin orada Sizin vətəndaşlarınız kimi yaşayacaqlarını deyirsiniz. Siz bu yaxınlarda demisiniz və mən burada sizdən sitat gətirirəm: onlar çıxmasalar, biz onları iti qovan kimi qovacağıq. Bu bəyanatla insanlar çətin ki, özlərini təhlükəsiz hiss etsinlər" sualı ilə qeyri-dəqiqlik nümayiş etdirib. "Xeyr, xeyr, xeyr, xahiş edirəm, mənim bəyanatlarıma dəqiqliklə yanaşın. Mən bunu dedikdə bizim əraziləri işğal etməyə davam edənləri nəzərdə tuturdum. Mən Ermənistanın hərbi-siyasi rəhbərliyini nəzərdə tuturdum. Mən Dağlıq Qarabağın dırnaqarası "hökumətini", bu cinayətkar xuntanı nəzərdə tuturdum, hansı ki, yeri gəlmişkən, artıq qaçıb gedib. Mənə məlumat verilib ki, Dağlıq Qarabağın dırnaqarası "rəhbəri" artıq Yerevandadır. Mən erməni xalqını yox, onları nəzərdə tuturdum" deyən president İlham Əliyev BBC müxbirini dəqiq olmağa çağırıb [Mazanlı İ.A. 2013. s.56].

Bu nümunədən aydın görünür ki, bu müsahibədə jurnalistin etik davranış qaydalarına əməl olunmayıb. "BBC News" müxbirinin suallarının əksəriyyəti Azərbaycana qara yaxmaq, işğalçı Ermənistana haqq qazandırmaq, şər-böhtan üzərində qurulduğundan avropalı jurnalist daha çox ittihamçını xatırladır. Müxbir müsahibəyə qərəzli mövqedən yanaşır, ermənilərin mənafeyini müdafiə edərək jurnalistikanın tərəfsizlik prinsipinə əməl etmir. "BBC News"un müxbiri ilə müsahibədə diqqət çəkən məqamlardan biri də prezident İlham Əliyevin ölkədə kütləvi informasiya vasitələrinin vəziyyəti ilə bağlı suallarına cavabıdır. Müxbir öz vəzifəsini unudaraq ittihama əl atır, dövlət başçısının dediyi kimi, bəzən prokuror kimi çıxış edir. Lakin cavabını yerindəcə alır. Avropalı müxbirin sadaladığı "faktların" feyk-xəbər olduğunu onun diqqətinə çatdıran ölkə başçısı Azərbaycanda azad medianın və azad internetin olduğunu bildirir.

Prezident İlham Əliyev "France 24" televiziya kanalına müsahibəsində isə daha sərt danışıb. Gəncə, Tərtər və Ağdamda mülki şəxslərin artilleriya atəşinə tutulması faktının qarşılığında jurnalistin "Lakin Azərbaycan da atəşi davam etdirib, elə deyilmi? Dünya Dağlıq Qarabağdakı Stepanakertdə mülki

şəxslərin artilleriya atəşinə tutulması görüntülərini görüb" deməsi dünya jurnalistikasının Azərbaycana qərəzini bir daha sübut edib. "Siz deyirsiniz ki, atəşkəs müəyyən olunandan sonra Azərbaycan tərəfindən heç bir zərbə endirilməmişdir? Hətta hərbi hədəflərə də?" sualı isə mülki şəxslərlə hərbi obyektləri eyni tutan jurnalistin, onun simasında təmsil etdiyi media qurumunun və dövlətinin insanlığa verdiyi qiyməti nümayiş etdirdi. Prezident İlham Əliyev bu müsahibəsində Ermənistanın yeni hökumətinin hakimiyyətə gələndən sonra son iki il ərzində qondarma "Dağlıq Qarabağ Respublikasının hökumətini" danışıqlar masasına cəlb etməyə cəhd göstərdiyini diqqətə çatdırıb. "Bunda məqsəd isə danışıqların formatını dəyişmək olub. Halbuki 20 ildən artıqdır ki, Minsk qrupu prosesi çərçivəsində aparılan danışıqlar Ermənistan və Azərbaycan arasında reallaşıb. Beləliklə, hər iki tərəfin humanitar atəşkəs razılaşmasında formatın dəyişməzliyinə sadiqliyi ifadə etməsi də məsələnin əvvəlki mövcud çərçivədə həllinə yönəlib. Lakin indiki hərbi əməliyyatların gedişində Ermənistan tərəfindən bu razılaşma qəsdən pozulub. Azərbaycan isə atəşkəs rejiminə sadiqlik nümayiş etdirib" sitatın sonu [11]. Dövlət başçısı müsahibəsində Azərbaycanın işğal olunan ərazilərdəki yaşayış sahələrində mülki şəxslərin heç vaxt atəşə tutulmadığını, hədəflərin yalnız hərbi qurğular olduğunu, ümumiyyətlə, ordumuz tərəfindən hərbi hədəflərin diqqətlə müəyyənləşdirildiyini diqqətə çatdırıb: Sitat "Biz yalnız insanlarımızın və əsgərlərimizin həyatına təhlükə olan hədəfləri vururuq. Lakin, əfsuslar olsun ki, ermənilər insanların yaşadığı şəhər yerlərində hərbi qurğuları yerləşdirmək taktikasından istifadə edirlər, biz də özümüzü müdafiə etməli idik. Lakin atəşkəs müəyyən olunandan bəri biz ona sadiq idik, ancaq Ermənistan atəşkəsi pozdu, odur ki, biz cavab verməli idik".

Azərbaycan Prezidenti müsahibəsində jurnalistin toxunduğu bir məqama da münasibət bildirib: "Bizdə muzdlular yoxdur. Bu, bizim rəsmi bəyanatımızdır. Toqquşmalar başlayandan artıq 2 həftədən çox vaxt keçib və heç bir ölkə bizə buna dair bir dəlil belə təqdim etməyib. Bundan əlavə, bizim buna ehtiyacımız yoxdur. Bizim 100 mindən çox döyüşçüdən ibarət ordumuz var. Bizim hazırda döyüş meydanında etdiklərimiz ordumuzun öz torpaqlarını özünün azad etməyə qadir olduğunu göstərir".

Bu müsahibədə jurnalistin etik qaydalara riayət etdiyini müşahidə edə bilərik. Öncə ölkə başçısını salamlayan jurnalist "Frans24"ə müsahibə verdiyi üçün prezidentə təşəkkür edir, sonra isə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin müharibə başa çatdıqdan sonra ilk dəfə BMT-də görüşdüyünü qeyd edir. Bu görüşün iki tərəf arasında dialoqun bərpası və sülhə ümid olması barədə sual verən jurnalistə president cavabında deyir:

"Mən belə ümid etmək istərdim. Çünki Azərbaycan Ermənistanla dialoqa başlamağa hazır olduğunu dəfələrlə açıq şəkildə bəyan edib. Söhbət təkcə dialoqa başlamaq deyil, həm də Azərbaycan və Ermənistan arasında gələcək sülh sazişi üzərində işləməkdən gedir. Müharibə bitdi, münaqişə həll olundu. Biz regionu daha proqnozlaşdırıla bilən, sabit və təhlükəsiz etmək üçün yeni addımlar atmalıyıq. İki ölkənin xarici işlər nazirlərinin görüşü bu səylərin yaxşı göstəricisidir. Ümid edirəm ki, bu, sadəcə görüş deyil, yeni prosesin, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması prosesinin başlanğıcı, Cənubi Qafqaz regionunda geniş əməkdaşlığa yeni miqyas verəcək proses olacaq" [Məhərrəmli Q.M.2012, s.67]

Jurnalistin Ermənistanın paytaxtı İrəvanın qədim Azərbaycan torpağı olması haqqında, Ermənistanın müttəfiq olduğu ərazilərlə bağlı Azərbaycanın hər hansı iddiasının olub-olmaması barədə suallar ünvanlayarkən İlham Əliyev tarixi faktları dolğun şəkildə izah edərək 1920-ci ildə sovet hakimiyyəti illərində Azərbaycanın ayrılmaz hissəsi olan Zəngəzurun qoparılaarq Ermənistana birləşdirilməsi ilə bağlı qərardan bəhs edir və qətiyyətlə qeyd edir ki, Azərbaycan sülh əldə olunarsa öz torpaqlarına qayıdacaqdır.

Çoxsaylı müsahibələri Azərbaycanın dövlət başçısının yüksək polemika mədəniyyətini nümayiş etdirir. Məhz bu keyfiyyətləri sayəsində Prezident İlham Əliyev müsahibələrə heç də xoş niyyətlə qoşulmayan özündənrazı və eqoist intervüyerləri asanlıqla məğlub edib. Çünki artıq 1-2 sualdan sonra o, qarşısındakı şəxsin dürüst bilgilər almaq istəyən peşəkar jurnalist, yoxsa tamam fərqli məqsədlər güdən şəxs olduğunu dəqiq müəyyən edərək müsahibənin gedişatını çox ustalıqla dəyişə bilib.

Ümumiyyətlə, Prezident İlham Əliyevin xarici KİV-lərə verdiyi sanballı müsahibələrdən danışarkən bu sorğuları aparan bir çox jurnalistlərin qərəzli və media etikasına uyğun olmayan davranış sərgiləmələrini ayrıca qeyd etməliyik. Bəzən müsahibə zamanı sualların qoyuluşu o qədər bəsit, o qədər ədalətsiz, o qədər qərəzli və birtərəfli, o qədər ermənisayaq, o qədər açıq-aşkar saxta və həqiqəti tam

tərsinə çevirən, o qədər təxribat xarakterli olurdu ki, bunlara hirslənməmək, hövsələdən çıxmamaq mümkünsüz görünürdü. Amma Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vətən müharibəsi dövründə xarici kütləvi informasiya vasitələrinə müsahibələri Prezident İlham Əliyev təmkinini pozmadan, səsinin sakit ahəngini dəyişmədən, yüksək dözüm və nəzakət nümayiş etdirərək həmin suallara da məntiqlə cavab verirdi, sərrast cavablar, məhz təmkinli tərzdə ifadə edildiyi üçün daha effektli alınırdı. Bu baxımdan Prezidentin "Fox News" televiziya kanalına müsahibəsi olduqca xarakterikdir.

Müsahibədən bəhs edən akademik Rafael Hüseynov qeyd edir ki, bu müsahibə Prezident İlham Əliyevin bir dövlət başçısı, diplomat, müsahib kimi məharətlərindən daha birini də üzə çıxardı ki, ona qarşı əks ovqata köklənmiş rəqibi hansısa məqamda dəqiq zərbə ilə ən zəif, ən göynədən nöqtəsindən vurmağı ustalıqla bacarır və həmin andan söhbətin məcrası da dəyişir [Hüseynov R. 2020,s.46].

Prezident yeni hadisələrlə zəngin müsahibələrində 44 günlük müharibənin başlanmasının birinci ildönümündə Ermənistanın işğalçı siyasətindən tam əl çəkmədiyini, qisas almaq üçün uğursuz cəhdlər etdiyini vurğulayıb. Ermənistanın Azərbaycan torpaqlarını otuz ildir işğal etməsinə baxmayaraq, ötən il yeni müharibənin başlaması, eləcə də bir ildən sonra qisas almaq cəhdləri araşdırılmalıdır.

Prezident haqlı olaraq qeyd edir ki, ötənilki müharibənin əsas səbəbləri məsələnin həll olunmaması, ikili standartlar və beynəlxalq riyakarlıqdır. Heç kimə sirr deyil ki, beynəlxalq vasitəçilər müharibənin və insan faciəsinin qarşısını ala bilərdilər. Təbii ki, istəsələr. Bu baş vermədi. ATƏT-in Minsk Qrupu işğalçıya təzyiq göstərdi, əksinə, işğalçını işğalçı ilə bərabər səviyyədə gördü, "dondurma", "reallıqla barışmaq", "qarşılıqlı güzəştlər" xəttini tutdu və müharibənin qaçılmaz olması üçün hər şeyi etdi.

## Nəticə

Prezidentin beynəlxalq auditoriya ilə birbaşa təması müharibənin ideoloji tərəfində uğurumuzu təmin etdi. Ali Baş Komandan imkan vermədi ki, mənfur qüvvələr haqlı işimizə kölgə salsınlar və ondan çirkin məqsədlər üçün istifadə etsinlər. Cənab Prezident istər ölkə daxilində, istərsə də xaricdə obyektiv informasiya mühiti yaratmağa nail oldu. Bu məqsədyönlü siyasət idi.

Prezident İlham Əliyevin media ilə birbaşa ünsiyyəti Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində əvəzsiz addım idi.

Prezidentin müsahibələri informasiya müharibəsinin uğur qazanması üçün ən böyük təkan oldu. Əminik ki, prezidentimizin müsahibələri gələcəkdə daha çox baxış qazanacaq.

## Ədəbiyyat

1. Vətən Müharibəsi Yerli və Xarici Mediada (2021) BDU.
2. Hüseynov, R. (2020) Sadə sualın ağır yükü.
3. Rəhimova, S.İ (2007) Jurnalist etikası. Bakı Universiteti naşriyyatı. Bakı
4. Rüstəmov, A. (2005) Jurnalistika. Bakı.
5. Məmmədli, C. (2003) Müasir jurnalistika. Bakı.
6. Mazanlı, İ.A. (2013) Jurnalistika və müasir dövrün qlobal problemləri: Dərs vəsaiti. Bakı: "Bakı Universiteti" nəşriyyatı.
7. Məhərrəmli, Q.M. (2012) Jurnalistikanın əsasları. Bakı: Qanun .
8. Məhərrəmli, Q.M. (2007) Kütləvi kommunikasiya və dil. Bakı: Çaşıoğlu.
9. Məhərrəmli, Q.M. (2002) Televiziya dili B.: Elm.
10. Məhərrəmli, Q.M. (2005)Televiziya jurnalistikasının əsasları Bakı: Bakı Universiteti.
11. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vətən müharibəsi dövründə xarici kütləvi informasiya vasitələrinə müsahibələri (2021) Bakı Dövlət Universiteti.
12. https://www.bbc.com/azeri/azerbaijan-54870278
13. https://president.az/az/articles/view/43037

**Rəyçi: fil.e.d. Qulu Məhərrəmli**

Göndərilib: 03. 03.2022 Qəbul edilib: 19. 04.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/08/51-57

**Yusif İsrafil oğlu İsmayılzadə**
Azərbaycan Dövlət İqtisad Universiteti
magistrant
yusif.ismayilzade@gmail.com

# ŞUŞANIN TURİZM POTENSİALININ QİYMƏTLƏNDİRİLMƏSİ

**Xülasə**

Azad edilmiş Qarabağ torpaqları bütün imkanları ilə Azərbaycanın ən vacib regionlarından biridir. Yeraltı və yerüstü sərvətlərlə zəngin olan Qarabağın turizm potensialı kifayət qədər genişdir. Burada turizmin bir çox növləri - ekoturizm, dağ turizmi, qış turizmi, ov turizmi, sağlamlıq turizminin inkişafı üçün bütün imkanlar mövcuddur. Qarabağın əsas turizm potensialı Şuşa və Ağdamda çəmlənsə də, regionunun bütün bölgələri müalicə və istirahət üçün yararlı idi. Vaxtilə Şuşa və Ağdam rayonlarında yerləşən məşhur “Şuşa”, “Gülablı” sanatoriyaları, Şuşanın istirahət evləri, məktəblilərin yay tətilində dincəlməsini təmin edən düşərgələr görülən yenidənqurma işlərindən sonra öz füsunkar görkəmlərini tamamilə dəyişəcəkdir. Azərbaycan mədəniyyətinin incisi Şuşa şəhərinin tarixi abidələri, özünəməxsus arxitekturası yeni turizm marşrutlarının yaradılmasına imkan verir. Şuşada Pənahəli xanın sarayı, Yuxarı Gövhər ağa məscidi, Aşağı Gövhər ağa məscidi, Xurşidbanu Natəvanın evi, Molla Pənah Vaqifin məqbərəsi, Şuşa mağara düşərgəsi, Şuşa qalası kimi tarixi abidələr və muzeylər ziyan görsə də, sürətlə bərpa işləri aparılacaq.

***Açar sözlər:*** *Azərbaycan, Şuşa, Qarabağ, turizm potensialı, turist*

**Yusif Israfil Ismayılzade**

## Evaluation of the tourism potential of Shusha

**Abstract**

The liberated lands of Karabakh are one of the most important regions of Azerbaijan with all its capabilities. The tourism potential of Karabakh, rich in underground and surface resources, is quite wide. There are many opportunities for the development of many types of tourism - ecotourism, mountain tourism, winter tourism, hunting tourism, health tourism. Although the main tourism potential of Karabakh was concentrated in Shusha and Agdam, all regions of the region were suitable for treatment and recreation. The famous "Shusha" and "Gulabli" sanatoriums, once located in Shusha and Aghdam districts, Shusha rest homes, summer camps for schoolchildren during the summer holidays will completely change their charming appearance after the reconstruction work. The pearl of Azerbaijani culture, the historical monuments of Shusha, its unique architecture allow the creation of new tourist routes. Although historical monuments and museums such as Panahali khan's palace, Yukhari Govhar aga mosque, Ashagi Govhar aga mosque, Khurshidbanu Natava's house, Molla Panah Vagif's mausoleum, Shusha cave camp, Shusha fortress were damaged in Shusha, restoration work will be carried out rapidly.

***Key words:*** *Azerbaijan, Shusha, Karabakh, tourism potential, tourist*

## Giriş

1990-cı illərin əvvəlləri Dağlıq Qarabağın və ətraf rayonların işğalı Azərbaycanı təkcə ərazi baxımından deyil, həm də iqtisadi, sosial və mədəni itkilərlə üzləşdirdi. Buraya turizm sektorundakı maddi və mənəvi itkiləri də daxil etməliyik. Çünki, Qarabağ Azərbaycanın tarixi –mədəni mərkəzlərindən biri olmaqla yanaşı, həm də gözəl təbiəti ilə seçilirdi. Hələ keçmiş sovetlər zamanında burada yaradılmış kurort zonaları, istirahət və əyləncə guşələrinə hər il dünyanın bir çox yerindən minlərlə turist axın edirdi. Qarabağın təmiz havası, müalicəvi əhəmiyyətli suları bu torpaqları daha da cəlbedici edirdi. Şuşadakı “Şuşa sanatoriyası”, istirahət evləri, məktəblilərin yay tətilində dincəlməsi üçün nəzərdə tutulan pioner düşərgələri və digər turizm məskənləri isə xüsusilə seçilirdi.

Azərbaycanın qeyri-adi təbiətə sahib, ən səfalı guşələrindən olan Şuşanın turizm imkanlarından danışarkən İsa bulağı, Turşsu, Səkili bulağı, Soyuqbulaq, Yüzbulaq, Qırxbulaq, Çarıqbulaq və digər nadir təbiət möcüzələrinin adını xüsusilə çəkməliyik.

Öncə Şuşanın turizm tarixinə qısa nəzər salmaq istərdik. Tarixi mənbələrə görə, Şuşa şəhərində turizm fəaliyyətinin rəsmi təşəkkülü 1935-1936-cı illərə təsadüf edir. Şuşada ilk istirahət evi 1936-cı ildə istifadəyə verilib. Oradakı pansionat isə 1964-cü ildə yaradılıb, 1970-ci ildən sanatoriyaya çevrilib. Sanatoriya mədə-bağırsaq xəstəliklərinin müalicəsi üzrə ixtisaslaşıb. Bütün keçmiş SSRİ-də məşhur olan Şuşa Turşsu turist bazası isə 1970-ci ildən fəaliyyətə başlayıb və tez bir zamanda SSRİ məkanında məşhurlaşıb (S.Rəhmanov, 2021:38).

1971-ci ildə fəaliyyətə başlamış Xankəndi Səyahətlər və Ekskursiyalar Bürosu (SEB) və 1972-ci ildə istifadəyə verilmiş Şuşa "Şəfa" Turist Bazası da bu obyektlər sırasındadır. Turizm və Ekskursiyalar Şurası Qarabağda turizm təyinatlı obyektlərin tikintisini, bütövlükdə bölgənin turizm potensialından istifadə olunması prosesini sonralar yüksələn xətlə davam etdirib. Ardıcıl olaraq 1984-cü ildə Şuşa Səyahətlər və Ekskursiyalar Bürosu, 1986-cı ildə Ağdam Səyahətlər və Ekskursiyalar Bürosu, 1988-ci ildə isə Ağdam "Şahbulaq" Turizm Bazası məhz bu şuranın balansında yaradılıb.

Şuranın rəsmi rəqəmlərinə görə, təkcə 1990-cı ildə Şuşa Turist Bazası 1.178.910 rubl, Şuşa SEB 106.357 rubl, Ağdam Turizm Bazası 1.904 rubl, Ağdam SEB 103.789 rubl həcmində turizm-ekskursiya xidməti göstərib.

Şuşada "Ev turizmi" hələ ötən əsrin ortalarından mövcud olmuşdur. Şuşada respublika və keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinə tabeli 17 pioner düşərgəsi, respublika üzrə 1 ixtisaslaşmış uşaq sanatoriyası yerləşirdi. Ən böyük şəhərlərdə belə bu sayda məktəb düşərgələri olmayıb. Şuşanın təkrarsız təbiəti, təmiz havası düşərgə layihələrinin buraya salınmasında əhəmiyyətli rol oynayıb.

21-ci əsrdə "Ev turizmi" anlayışı Azərbaycanın bölgələrində yeni-yeni təşəkkül tapsa da, Şuşada "Ev turizmi" hələ ötən əsrin ortalarından mövcud olub. Şuşa şəhəri, eləcə də rayonun Xəlfəli və Turşsu kəndlərində təxminən 2 min ailədən artıq rayon sakini mənzillərini turistlərə kirayəyə verilirdi [Bilalov, B.,2015, s.315).

Şuşanın infrastrukturu elə qurulmuşdu ki, gələn turist orada hərtərəfli istirahətini təmin edə bilirdi. Şəhərdə geniş yay kinoteatrı fəaliyyət göstərirdi. Təbii ki, Şuşaya həm də müalicə məqsədilə gəlirdilər. Şuşanın quru və saf havası ağciyər, astma, nəfəs borusu xəstəliklərindən əziyyət çəkənlər üçün əvəzsiz idi. O cümlədən, şəhərin mərkəzinə yaxın Turşsu müalicəvi suyu Şuşaya gələnlərin sevimli yeri idi.

Şuşanın əsas gəlir mənbəyi də turizm biznesi hesab olunurdu. Bu da bədxah erməniləri həmişə qıcıqlandırırdı. Çünki Dağlıq Qarabağda mənzərəli yerlər çox olsa da, Şuşa öz qədimliyi və təmiz havası ilə bütün SRRİ-nin əsas turizm mərkəzlərindən biri hesab olunurdu.

Təəssüf ki, 1990-cı illərin əvvəlləri bədxah qonşularımız olan ermənilərin Azərbaycana qarşı mənfur niyyəti və işğalçılıq siyasəti nəticəsində bütün bu imkanlar məhv edildi. 30 ilə yaxın işğal dövründə Şuşa başda olmaqla, Dağlıq Qarabağ və ətraf rayonlar talan edildi. Tarixi, mədəni abidələr, eləcə də təbii resurslar tamamilə yağmalandı [Nazmiye, Ö. 2013, s.47].

Nəhayət, tam 28 ildən sonra ilahi-ədalət qalib gəldi – Azərbaycan Ordusu yağı düşməni "iti qovan kimi" Qarabağdan, eləcə də onun tacı olan Şuşadan qovdu. Artıq ölkəmizin ərazi bütövlüyü təmin olunub. Şuşa başda olmaqla, işğaldan azad olunan şəhər, rayon və kəndlərimizdə çox sürətlə tikinti-bərpa işləri aparılır.

Tədqiqatın əsas məqsədi işğaldan yeni azad edilmiş Şuşanın turizm imkanlarını tədqiq etməkdən ibarətdir. Nəzəri xarakter daşıyan tədqiqatda Şuşanın işğaldan əvvəlki potensialı, burada mövcud olan turizm obyektləri, turizm növləri və s. araşdırılmışdır. Araşdırma zamanı analiz-sintez, ümumiləşdirmə və qruplaşdırma metodlarından istifadə edilmişdir.

"Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!" - bu sözlər Prezident İlham Əliyevin 8 noyabr 2020-ci il tarixdə Şuşanın azad edilməsi ilə bağlı Azərbaycan xalqına müjdəsidir. Bu müjdədən çox qısa bir müddət keçməsinə baxmayaraq, Şuşa, eləcə də işğaldan azad edilən bütün ərazilər gözümüzün önündə dirçəlir. Şuşa artıq Azərbaycanın mədəniyyət paytaxtıdır, tarixi "Xarıbülbül" festivalı və "Xarıbülbül" oteli yenidən "doğulub". Şəhər tarixi simasını saxlamaqla ən müasir formada bərpa edilir. Burada müasir turizm infrastrukturu yaradılır. Xüsusən də modern memarlıq nümunəsi olacaq yeni məscidin təməlinin qoyulması Şuşanın yaxın gələcəkdəki heyrətamiz simasının işartılarıdır [Növresli T., 2020, s.114].

Şuşanın keçmiş şöhrətini bərpa edib, onu dəfələrlə yüksəltmək əsas məqsəddir. Dövlət Turizm Agentliyinin məlumatına görə, ilkin planlarda nəzərdə tutulur ki, Şuşa şəhərində mədəniyyət tədbirləri və festivallar keçirilsin. Turizm məhz bu istiqamətdə daha çox inkişaf etdiriləcək. Şuşa şəhərinin coğrafi yerləşməsi unikaldir. Şəhərin bütün azərbaycanlılar üçün simvolik mənası var. Bundan əlavə, Şuşa şəhərinin zəngin mədəni, tarixi irsi var ki, bu istiqamətdə də müvafiq turizm məhsulları, turizm marşrutlarının qurulması planlaşdırılır.

Onu da qeyd edək ki, Füzuli, Zəngilan və Laçın rayonlarında beynəlxalq hava limanlarının tikintisi Şərq-Qərb nəqliyyat dəhlizinin, həmçinin, yükdaşımaların və turizmin inkişafına da müsbət təsir göstərəcək. Təbii ki, bütün bunlar Şuşa şəhərinin keçmiş şöhrətini nəinki bərpa edəcək, hətta dəfələrlə yüksəldəcək. Şuşa yenidən nəinki Azərbaycanın, bütün türk və islam dünyasının, Qafqaz coğrafiyasının, eləcə də dünyanın əsas turizm mərkəzlərindən biri olacaq.

Azad edilmiş Qarabağ torpaqları bütün imkanları ilə Azərbaycanın ən vacib regionlarından biridir. Yeraltı və yerüstü sərvətlərlə zəngin olan Qarabağın turizm potensialı kifayət qədər genişdir. Burada turizmin bir çox növləri - ekoturizm, dağ turizmi, qış turizmi, ov turizmi, sağlamlıq turizminin inkişafı üçün bütün imkanlar mövcuddur [Növrəsli T., 2017, s.58]. Turizm mütəxəssislərinin fikrincə, Azərbaycanın qədim tarixə malik olan bu bölgəsi özünün flora və faunası, mətbəxi, tarixi mədəni-dini abidələri, qədim qalaları, körpüləri, meşələri, bulaqları və s. görməli məkanları ilə turistləri cəlb edəcək. Ona görə də bu gün qarşıda duran əsas hədəflərdən biri də məhz işğaldan azad olunmuş ərazilərimizdə turizmin inkişaf etdirilməsidir.

Prezident İlham Əliyevin tapşırığına əsasən, işğaldan azad edilmiş ərazilərin turizm inkişaf strategiyası hazırlanıb. Sözügedən sənədə görə, turizm məhsullarının hazırlanması həmin ərazilərdə turizm infrastrukturunun qurulması ilə paralel aparılacaq. Əlbəttə, turistlərin təhlükəsizliyinin təmin olunması başlıca vəzifədir. Əhalinin geri qayıdışı, yaşayışın və infrastrukturun bərpası ilə paralel olaraq orada turizm məhsulları da yaradılacaq. İnvestisiyalar üçün artıq start verilmişdir. Gələcəkdə Füzuli-Xocavənd-Şuşa-Laçın, Füzuli-Cəbrayıl-Zəngilan, Zəngilan-Qubadlı-Kəlbəcər-Laçın, Bərdə-Ağdam istiqamətlərində turizm marşrutlarının təşkili nəzərdə tutulur [Hümbətov E., 2020,s.25].

Dövlət Turizm Agentliyinin mətbuat katibi Kənan Quluzadə mətbuata verdiyi açıqlamada Azərbaycanın 2030-cu ilə qədər iqtisadi prioritetlərinin müəyyənləşdirildiyini və buna uyğun olaraq turizm strategiyasının hazırlandığını söyləyib. Onun sözlərinə görə, işğaldan azad edilmiş ərazilər - Qarabağ və Şərqi Zəngəzurla bağlı planlar artıq müəyyənləşib: “Burada iki yanaşma var: birincisi klaster yanaşmasıdır. Yəni turizm məhsullarının və potensialının cəmləşdiyi yerlərdə görüləcək işlərə başlanmasıdır. Digər yanaşma dəhlizlər üzrə yanaşmadır. Həmin ərazilərdə əsas dəhlizlər olacaq və bunun üzərində yeni turizm layihələri, infrastruktur, marşrutlar və turizm məhsulları qurulacaq. Bölgənin turizm potensialı çox genişdir. Qarabağda yeni otellər tikiləcək. Amma bundan öncəki mərhələlər təhlükəsizliyin təmin edilməsi, infrastrukturun qurulması və insanların buraya qayıdışıdır. Həmçinin turizmyönlü insan resurslarının, kadrların hazırlanmasına artıq başlanıb”.

Qeyd edilən məlumatlar əsasınnda deyə bilərik ki, turizm marşrutlarına uyğun olaraq, ilk “Yolumuz Ağdamadır” devizi ilə marşrut təqdim olunacaq. Daha sonra “Yolumuz Qarabağadır” konsepsiyası ilə marşrutlar qurulur. Mətbuat katibinin çıxışında qeyd etdiyi kimi: “Yaxın zamanlarda artıq bir neçə marşrut ictimaiyyətə təqdim ediləcək. Bu marşrutlarda xüsusi dəhlizlər üzərindən təhlükəsizlik məsələləri nəzərə alınacaq. İlkin mərhələdə həmin dəhlizlər üzərində sanitar qovşaqların qurulması, tullantılar və qidalanma ilə bağlı məsələlərin həlli nəzərdə tutulur. Bununla da həmin marşrutlar daxili turistlərin istifadəsinə veriləcək”.

Qeyd edək ki, hələ Sovet dövründə də Ümumittifaq əhəmiyyətli marşrutlar içərisində Qarabağ marşrutu çox populyar idi. Şuşa tarixi, sağlamlıq və mədəni turizm mərkəzi kimi tanınırdı. Tarixi mənbələrə görə, Şuşa şəhərində turizm fəaliyyətinin rəsmi təşəkkülü 1935-1936-cı illərə təsadüf edir. Şuşada ilk istirahət evi 1936-cı ildə istifadəyə verilib. Oradakı pansionat isə 1964-cü ildə yaradılıb, 1970-ci ildən sanatoriyaya çevrilib. Sanatoriya mədə-bağırsaq xəstəliklərinin müalicəsi üzrə ixtisaslaşıb. Bütün keçmiş SSRİ-də məşhur olan Şuşa Turşsu turist bazası isə 1970-ci ildən fəaliyyətə başlayıb və tez bir zamanda SSRİ məkanında məşhurlaşıb. 1971-ci ildə fəaliyyətə başlamış Xankəndi Səyahətlər və Ekskursiyalar Bürosu (SEB) və 1972-ci ildə istifadəyə verilmiş Şuşa “Şəfa” Turist Bazası da bu obyektlər sırasındadır. Turizm və Ekskursiyalar Şurası Qarabağda turizm təyinatlı obyektlərin

tikintisini, bütövlükdə bölgənin turizm potensialından istifadə olunması prosesini sonralar yüksələn xətlə davam etdirib [Məmmədov T, 2020, s.65].

Şuşanın təkrarsız təbiəti, təmiz havası düşərgə layihələrinin buraya salınmasında əhəmiyyətli rol oynayıb. 21-ci əsrdə "Ev turizmi" anlayışı Azərbaycanın bölgələrində yeni-yeni təşəkkül tapsa da, Şuşada "Ev turizmi" hələ ötən əsrin ortalarından mövcud olub. Şuşa şəhəri, eləcə də rayonun Xəlfəli və Turşsu kəndlərində təxminən 2 min ailədən artıq rayon sakini mənzillərini turistlərə kirayəyə verirmiş.

Şuşanın infrastrukturu elə qurulmuşdu ki, gələn turist orada hərtərəfli istirahətini təmin edə bilirdi. Şəhərdə geniş yay kinoteatrı fəaliyyət göstərirdi. Təbii ki, Şuşaya həm də müalicə məqsədilə gəlirdilər. Şuşanın quru və saf havası ağciyər, astma, nəfəs borusu xəstəliklərindən əziyyət çəkənlər üçün əvəzsiz idi. O cümlədən, şəhərin mərkəzinə yaxın Turşsu müalicəvi suyu Şuşaya gələnlərin sevimli yeri idi. Şuşanın əsas gəlir mənbəyi də turizm biznesi hesab olunurdu. Bu da bədxah erməniləri həmişə qıcıqlandırırdı. Çünki Dağlıq Qarabağda mənzərəli yerlər çox olsa da, Şuşa öz qədimliyi və təmiz havası ilə bütün SRRİ-nin əsas turizm mərkəzlərindən biri hesab olunurdu.

1990-cı illərin əvvəlləri bədxah qonşularımız olan ermənilərin Azərbaycana qarşı mənfur niyyəti və işğalçılıq siyasəti nəticəsində bütün bu imkanlar məhv edildi. 30 ilə yaxın işğal dövründə Şuşa başda olmaqla, Dağlıq Qarabağ və ətraf rayonlar talan edildi. Tarixi, mədəni abidələr, eləcə də təbii resurslar tamamilə yağmalandı. Nəhayət, düz 28 ildən sonra haqq-ədalət öz yerini tapdı – Azərbaycan Ordusu yağı düşməni "iti qovan kimi" Qarabağdan, eləcə də onun tacı olan Şuşadan qovdu. Artıq ölkəmizin ərazi bütövlüyü təmin olunub. Şuşa başda olmaqla, işğaldan azad olunan şəhər, rayon və kəndlərimizdə çox sürətlə tikinti-bərpa işləri aparılır. Bu ərazilərin tezliklə dünyanın ən məşhur turizm mərkəzlərinə çevriləcəyi şübhəsizdir [.Səfərov,R. 2012. s. 26].

Sözsüz ki, Azərbaycanın Qələbəsi xalqımızın qurub-yaratmaq əzmini də ortaya qoyub. Belə ki, Qarabağda bölgə iqtisadiyyatının dirçəldilməsi yaxın gələcəkdə bu torpağın yenidən bütün Cənubi Qafqazın inkişaf edən mədəniyyət və məşhur turizm mərkəzi olacağını deməyə əsas verir. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyəti və Azərbaycan Ordusunun rəşadəti sayəsində düşmənin diz çökdüyü İkinci Vətən müharibəsində Qarabağın və ətraf rayonların işğaldan azad olunması ölkənin turizm potensialını daha da artırıb. Qarabağın əlverişli iqtisadi-coğrafi mövqeyə, zəngin ehtiyatlara, nadir təbii iqlim xüsusiyyətlərinə malik olması, münbit torpağı, zəngin flora və faunası ölkə turizm sənayesinin inkişafı üçün yeni üfüqlər açır.

İşğaldan azad olunmuş Laçın və Kəlbəcərin unikal relyef müxtəlifliyi burada həm yay, həm də qış turizminin perspektivlərini daha da artırır [Narosli T., 2016, s.51]. Kəlbəcər rayonu Cənubi Qafqazda turizmin inkişafı baxımından azsaylı regional ərazilərdən biri hesab edilir. Bu ərazini yayda və qışda, həm tarixi, dini, həm də müalicəvi cəhətdən turizm istiqamətində inkişaf etdirmək mümkündür. Eləcə də, digər azad edilmiş ərazilərdə də turizm potensialı yüksəkdir. Ən qədim yaşayış məntəqələrindən biri olan Füzuli rayonu yaxınlığında yerləşən Azıx mağarası turistləri cəlb edəcək məkanlardandır.

Turist marağı baxımından dünyada çox populyar olan Xarıbülbülü Şuşada canlı olaraq seyr etmək Qarabağın turizm cazibədarlığını xüsusi olaraq artırır. Vaxtilə Şuşa və Ağdam rayonlarında yerləşən məşhur "Şuşa", "Gülablı" sanatoriyaları, Şuşanın istirahət evləri, məktəblilərin yay tətilində dincəlməsini təmin edən düşərgələr görülən yenidənqurma işlərindən sonra öz füsunkar görkəmlərini tamamilə dəyişəcəkdir. Azərbaycan mədəniyyətinin incisi Şuşa şəhərinin tarixi abidələri, özünəməxsus arxitekturası yeni turizm marşrutlarının yaradılmasına imkan verir. Bu tədbirlər planının bir hissəsi olaraq mayın 12-də Şuşada "Xarıbülbül" hotelinin, avqustun 29-da isə "Qarabağ" hotelinin yenidənqurmadan sonra açılışı olmuşdur. Hotellər qonaqların qalması və rahat istirahət etməsi üçün bütün zəruri infrastrukturla təchiz olunub. Bu cür obyektlərin istifadəyə verilməsi Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşanın turizm potensialının möhkəmləndirilməsində çox mühüm rol oynayacaq.

Qarabağ bölgəsi Azərbaycanın yaşıllıqlarla zəngin olan bir ərazisidir. Belə bir unikal təbii iqlim xüsusiyyətləri ərazidə aqroturizmin və kənd-yaşıl turizmin də inkişafı deməkdir. İşğaldan azad edildikdən sonra burada kənd infrastrukturunun sürətlə yenilənməsi, normal həyat üçün bütün zəruri şəraitin yaradılması bölgə kəndlərini turistlər üçün sevimli istirahət məkanı edəcək. Ermənilər bu illər ərzində işğal altında olan Qarabağ və ətraf rayonları dağıdaraq, infrastrukturu məhv etmiş vandallıq nümayiş etdirmişlər. Bütün bunlara baxmayaraq yaxın gələcəkdə Qarabağ Azərbaycanın əsas turizm istiqamətinə çevriləcək.

Qarabağın turizm potensialı olduqca zəngindir, burada turizmin çox növləri - ekoturizm, dağ turizmi, qış turizmi, ov turizmi, sağlamlıq turizminin inkişafı üçün bütün imkanlar vardır.

Ölkəmizdə qeyri-neft sektorunun inkişafı istiqamətində görülən işlər turizm sahəsində də özünü göstərir. Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində turizm ölkə iqtisadiyyatının aparıcı sahəsinə çevrilir. Belə ki, son illər turizm infrastrukturunun genişləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər Azərbaycanda turizmin inkişafına böyük təkan verir.

Hazırda bütün dünyada turizm iqtisadiyyatın əsas inkişaf və gəlir sahələrindən biri sayılır. Ölkəmizin turizm potensialını dəyərləndirərkən qeyd etmək gərəkdir ki, Azərbaycan turizm sənayesinin inkişafı üçün zəngin ehtiyatlara, əlverişli iqtisadi-coğrafi mövqeyə malikdir. Belə ki, Avropanı Qafqaz və Mərkəzi Asiya ölkələri ilə birləşdirən hava və dəniz daşımaları, magistral avtomobil və nəqliyyat yolları ölkəmizdən keçir. Həmçinin, Azərbaycan nadir təbii iqlim xüsusiyyətlərinə malik bir ölkədir, onun fauna və florası Qafqazın başqa respublikalarına nisbətən xeyli zəngindir. Azərbaycan florasının rəngarəngliyi ölkəmizə ilk dəfə gələn turistləri heyran edir.

Bu il mayın 16-da Birləşmiş Ərəb Əmirliklərin Dubay şəhərində keçirilmiş "ATM 2021" beynəlxalq turizm sərgisində ilk dəfə olaraq Azərbaycanın, işğaldan azad edilmiş Qarabağ bölgəsinin, xüsusilə Şuşa şəhərinin turizm potensialı təbliğ olunmuşdur. Tədbir iştirakçılarına işğaldan azad edilmiş ərazilərin turizm potensialı, mövcud və inkişaf etdirilən turizm məhsulları və yeni turizm təklifləri barədə məlumatlar təqdim edilmişdir.

Çoxsaylı maddi-mədəniyyət abidələrimiz erməni silahlı birləşmələri tərəfindən dağıdılsa da, meşələr yandırılaraq ekoloji terror törədilsə də, həmin ərazilərdə Azərbaycan Prezidentinin fərman və sərəncamları çərçivəsində bərpa işlərinə başlanılıb. Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad edilmiş Ağdama, Zəngilana, Füzuliyə, Cəbrayıla, Qubadlıya, Şuşaya və Hadruta səfərlərində dəfələrlə vurğulamışdır ki, biz erməni vandallarının darmadağın etdiyi şəhər və kəndlərimizi əsl cənnətə çevirəcəyik. Həmçinin, Xocavəndin Hadrut qəsəbəsinin turizm imkanları da geniş və çoxşaxəlidir. Qəsəbədə və onun ətrafında yerləşən yaşayış məntəqələrində çoxsaylı tarixi-mədəni abidələr, o cümlədən qədim alban məbədləri mövcuddur. Onlardan faydalanma qəsəbədə turizm sənayesinin inkişafı üçün mövcud olan potensialları daha da genişləndirir. Böyük turizm potensialının mövcudluğu Hadruta qısa zamanda iqtisadi aktivliyi bərpa etməyə imkan verəcəkdir.

Şuşa şəhərində ilk istirahət evi 1936-ci ildə istifaədə verilmişdi. Şuşa şəhərində 1316 yerlik Şuşa Sanatoriya Kurort birliyi (540 yerlik ana və uşaq sanatoriyası, 460 yerlik böyüklər üçün sanatoriya və 316 yerlik istirahətr evi), 130 yerlik "Şəfa" turist bazası və Agdam rayonunun Gülablı kəndində 100 yerlik, Şelli kəndində 50 yerlik, Şahbulaqda isə 40 yerlik müalicə istirahət mərkəzləri fəaliyyət göstərmişdi.

Şuşa Sanatoriya- Kurort Birliyinin balansına aid 2 və 3 mərtəbəli 17 bina daxil idi. Hazırda Birlik "Kurort" Səhmdar Cəmiyyətinin balansındadır. Əlavə olaraq qeyd edilməlidir ki, 80-ci illərdə Şuşada daha 200 nəfərlik, Agdamda 255 nəfərlik sanatoriya binasının inşası münaqişə başlandığından istifadəyə verilməmiş qaldı.

Şuşa Sanatoriya Kurort birliyinin balansında işçilər üçün nəzərdə tutulmuş 28 yerlik yaşayış komklesidə var idi.

Bütün bunlarla yanaşı, şəhərdə məktəblilər üçün nəzərdə tutulmuş istirahət düşərgələri də fəaliyyətdə idi. Onun ikisi 500 və 300 yerlik respublika səviyyəsində, digəri isə vilayət məktəblilərinə xidmət göstərirdi.

Həmçinin Ağdamın Gülablı kəndində ilk 100 yerlik sanatoriyanın inşa edilərək 1983-cü ilin fevral ayında istifadəyə verildi. Bundan əvvəl isə ərazidə 14 kottec və 4 qırğız çadırı quraşdırılmışdı. İlboyu işləməsi nəzərdə tutulan sanatoriyada həmdə müalicə korpusu fəaliyyət göstərirdi. Sanatoriyanın nəzdində yardımçı təsərrüfatların yaradılması istirahətə gələnlərə yüksək keyfiyyətli ərzaq məhsullarının təqdim edilməsinə, həm də əlavə gəlir əldə etməyə şərait yaratmışdı. Müəssisəyə təqdim edilmiş 5 Qarabağ atının köməyi ilə turistlərın gəzintiyə aparılmasıda maraq doğuran faktlardandır. Yeri gəlmişkən qeyd edək ki, turistlərə atla gəzinti Şahbulaq turist bazasında təklif olunurdu. 40 nəfər turist üçün nəzərdə tutlmuş Şahbulaq turizm bazası isə 1988-ci ildə istifadəyə verilmişdi. Gülablı sanatoriyası hazırda Azərbaycan Kollektiv Təsərrüfatlarası İstirahət mərkəzləri birliyinin balansındadır.

Dövlət Turizm agentliyi bildirir ki, işğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının nəzdindəki İdarələrarası Mərkəzində fəaliyyət göstərən 5 alt İşçi Qruplarına üzv təyin edilib. İşğaldan azad edilmiş ərazilərin turizm resurslarının qiymətləndirilməsi, turizm nümayiş obyektlərinin uçotunun aparılması, turizm potensialdan səmərəli istifadə edilməsi, sağlamlıq, dağ və mədəni turizm resurslarının araşdırılması ilə bağlı "Turizm resurslarının qiymətləndirilməsi" adlı ilkin metodologiya sənədi hazırlanıb.

Agentlik tərəfindən layihə sənədinin genişləndirilməsi və işğaldan azad edilmiş ərazilərdə turizm resurslarının qiymətləndirilməsi ilə bağlı işlərin aparılması planlaşdırılır: "Qarabağ bölgəsində Füzuli hava limanı dayanıqlı turizmin inkişafı baxımından önəmli layihə hesab edilir. Əlavə olaraq, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı əsasında Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun layihələndirilməsi və tikintisi Füzuli, Xocavənd və Şuşanın turistlər üçün əlçatan olmasını təmin edəcəkdir. Bununla yanaşı, Kəlbəcər-Laçın istiqamətinə Göygöl rayonundan başlayaraq magistral yol salınması nəzərdə tutulmuşdur.

Bölgəyə turistlərin əlçatanlığının təmin edilməsi üçün dəmir yol xətlərinin bərpası mühüm hesab edilir və bununla bağlı ümumi uzunluğu 45 kilometr olan Bərdə-Ağdam dəmir yol xəttinin bərpası üzrə işlər həyata keçirilir. İşğaldan azad edilmiş ərazilərdə dayanıqlı turizmin və turizm klasterlərinin inkişafı, təşviqedici və tənzimləyici siyasət mexanizmlərinin işlənilməsi, innovativ texnologiya alətlərinin tətbiqi, turizm infrastrukturu, dövlət-özəl əməkdaşlıq və digər prioritet istiqamətlər əsasında Qarabağ Turizm Strategiya layihə sənədi hazırlanıb.

İşğaldan azad edilmiş ərazilərin geniş turizm potensialını nəzərə alınaraq, Dövlət Turizm Agentliyi tərəfindən "Yolumuz Qarabağa" konseptual turizm marşrutlarının layihələri təqdim edilib. Layihə sənədi əsasında Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyi ilə müvafiq əməkdaşlıq əsasında "Yolumuz Ağdama" turizm marşrutunun təşkili ilə bağlı tələb olunan müvafiq infrastruktur işləri həyata keçirilib. Dövlət Turizm Agentliyi tərəfindən "Şahbulaq Qalası"na dair ilkin memarlıq və turizm inkişaf konsepsiyası hazırlanıb.

"Turizm və rekreasiya zonalarının yaradılması üçün Qarabağ regionunun müxtəlif ərazilərində mühüm turizm potensialı mövcuddur. Şuşanın zəngin təbiət ətrafında yerləşməsi, tarix-mədəni turizm obyektlərinə yaxınlığı, turizm fəaliyyətlərinin mümkünlüyü və əsas magistral yola yaxınlığı baxımından imkanları yüksək qiymətləndirilir. Qarabağ turizm və rekreasiya zonası üçün Kəlbəcərdə İstisu bölgəsinin böyük imkanları mövcuddur. Uzun müddət İstisu bulağından sağlamlıq və kurort məqsəd üçün istifadə edilməsi ərazinin inkişafına zəmin yaradır. Bununla bağlı, Kəlbəcərdə İstisu, Vəng, Zülfüqarlı kimi təbiət ərazilərində rekreasiya imkanları yüksəkdir. Kəlbəcər, Zəngilan, Xocavənd, Qubadlı və Laçın bölgələrində yaradılması planlaşdırılan turizm və rekreasiya zonalarının əraziləri Dövlət Turizm Agentliyi tərəfindən müəyyən edilmişdir. Turizm və rekreasiya zonaları ilə yanaşı, Şuşada Xarıbülbül və Qarabağ mehmanxanaları ən son standartlara uyğun formada təmir edilmişdi.

Dövlət Turizm Agentliyi tərəfindən qəbul edilmiş "İşğaldan azad edilmiş ərazilərdə turizmin inkişafına dair Fəaliyyət Planı"na uyğun olaraq strateji inkişaf, turizmin inkişafı və təşviq olunması, turizm və rekreasiya zonalarının yaradılması, sağlamlıq və qış turizmi resurslarının layihələndirilməsi və digər tədbirlərin icrası nəzərdə tutulmuşdur.

## Nəticə

Azərbaycanda son illər turizmin inkişafı istiqamətində böyük işlər görülsə də, ölkəmizin bu sahədə ən böyük potensiala malik Qarabağ və ətraf rayonları indiyədək işğal altında olduğundan proseslərdən kənarda qalmışdı. İlin dörd fəslində füsunkar təbiəti ilə qonaqları heyran edən, saf havası, müalicəvi suları, tarixi abidələri ilə dillərdə dastan olan bu diyar artıq yağı tapdağından azad edilmişdir. Qeyd etdiyimiz kimi bu gün gündəmdəki əsas mövzulardan biri də işğaldan azad olunmuş ərazilərimizdə turizmin inkişaf etdirilməsidir.

Aparılan təhlillər nəticəsində Şuşada aşağıda adları qeyd edilən turizm sahələrinin inkişaf potensialı həm yüksəkdir, həm də praktik olaraq işğaldan öncəki dövrdə mövcud olmuşdur:

- "Ev" turizmi;
- Mədəniyyət (mədəni) turizmi;
- Eko turizm;
- Otel turizmi.

Ev turizmi, ən ümumi tərifi ilə, öz səyahətlərini təşkil etmək istəyən səyahətçilərə evin qısa müddətli kirayə verilməsidir. Onun əsas məqsədi səyahətçilərə bir neçə gün olsa belə qalacaqları şəhərlərdə olduqlarını hiss etməkdir. Dünyada uzun illər mövcud olan ev turizminin inkişafı Şuşa şəhəri üçün əlverişlidir.

Nəqliyyat və kommunikasiya texnologiyalarının sürətli inkişafı, gəlirlərin bölüşdürülməsinin təkmilləşdirilməsi və istirahət hüququnun geniş kütlələrə yayılması bütün dünyada turizm bazarını artırır. Artan turizm bazarında tələblər şaxələnir və tətil və yerləşdirmə anlayışında müxtəlif alt bazarlar/seqmentlər formalaşır.

Ekonomik paket turlara, kütləvi turizmə və buna uyğun olaraq yerləşdirməyə tələbat artarkən, kütləvi turizmə üstünlük verməyən şəxslərin axtarışı da artıb. Ev turizmi ilk növbədə mədəni turizm üçün səyahət edən, getdiyi şəhərin tarixi dokusunda ev və ya mənzil kirayələyib özlərini orada hiss etmək istəyən, yerlilər kimi alış-veriş etməyi üstün tutan və daha çox təşkilatçılıq edən səyahətçilərin ehtiyaclarını qarşılayır. Yəni ev turizmi ilə otel turizminin hədəf qrupu üst-üstə düşmür, onlar tamamilə fərqli üstünlüklərə malik turistlərdir. Bu kontekstdə ev turizmi otellərə alternativ deyil, fərqli yerləşdirmə və səyahətlərə üstünlük verənlərin ehtiyaclarına cavabdır.

Ekoturizmi ətraf mühitə zərər vermədən həyata keçirilən, təbii mühitin davamlılığını təmin edən və yerli əhalinin sosial-iqtisadi inkişafına töhfə verən turizm növü kimi müəyyən etmək olar. Bu gün dünyada nəqliyyat imkanlarının artması və rifah səviyyəsinin artması ilə turizm sektoru ciddi artım nümayiş etdirib. Bu məqamda turizmin bir alt sahəsi olan təbiət turizmi də ən sürətlə inkişaf edən turizm növlərindən birinə çevrilmişdir. Ancaq toxunulmamış təbii yerlərə edilən bu turizm növündə lazımi qayğı göstərilmədikdə təbii mühitə ziyan dəyməsi qaçılmaz olacaq.

Mədəni turizm təbii və tarixi mədəni sərvətləri, mədəni fəaliyyətləri və müasir sənət əsərlərini, mədəniyyət sənayesinin nəticələrini və bəzi sosial-iqtisadi hadisələri turizm məhsulu şəklində təqdim edən turizm yanaşmasıdır.

Əhalinin geri qayıdışı, yaşayışın və infrastrukturun bərpası ilə paralel olaraq orada turizm məhsulları da zamamla yaradılacaqdır. Gələcəkdə Füzuli-Xocavənd-Şuşa-Laçın, Füzuli-Cəbrayıl-Zəngilan, Zəngilan-Qubadlı-Kəlbəcər-Laçın, Bərdə-Ağdam istiqamətlərində turizm marşrutlarının təşkili nəzərdə tutulmuşdur ki, bu da turizmin inkişafında əhəmiyyətli rol oynayır.

## Ədəbiyyat

1. Rəhmanov, S. (2021), "Dünyada və Azrbaycanda gəlmə turizmin müasir durumu". «Dirçəliş XXI əsr» jurnalı, s.38
2. Bilalov, B. (2015), "Azərbaycan Respublikasında işgüzar turizm". s.315
3. Nazmiy,' Ö. (2013), "Turizm Coğrafyası (Özəlliklər, Bölgələr)". Çantay Kitabevi Yayınları, İstanbul, s.47
4. Növresli, T. (2020) "Azerbaycan Turizm Potansiyelinin Kalkınma Amaçlı Değerlendirilmesi". Doktora Tezi. İzmir, "YÖK", s.114
5. Növrəsli, T. (2017), "Azərbaycan turizm potensialının iqtisadi inkişaf üçün töhfələri". "Beynəlxalq hüquq və inteqrasiya problemləri" elmi analitik jurnalı, №2(34), Bakı, s.58
6. Hümbətov, E. (2020), "Turizm biznesində animasiya xidmətlərinin zəruriliyi". Turizm və qonaqpərvərlik tədqiqatları beynəlxalq jurnalı, №5 (1), Bakı, s.25
7. Səfərov, R., 2012 "Azerbaycan'ın Sosyo-Ekonomik Coğrafi Özellikleri, Gelişim Süreci". Dokuz Eylül Üniv. Eğitim Bilimleri Enstitüsü, Basılmamış Yük. Lisans Tezi, İzmir, s.26
8. Narosli T. (2016), "Analiz sprosa na turizm. Turizm və qonaqpərvərlik tədqiqatları beynəlxalq jurnalı, №5(1), Bakı, s.51
9. Azərbaycan Respublikasının turizm haqqında Qanunu. B., Qanun, 2000
10. "Azərbaycan regionlarının sosial-iqtisadi inkişafının Dövlət Proqramı (2004-2008-ci illər)", Azərbaycan Respublikası Prezidentinin fərmanı, 11 fevral

**Rəyçi: i.ü.f.d. Niyazi Həsənov**

Göndərilib: 02. 03.2022 Qəbul edilib: 11. 04.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/08/58-61

**Həmid İsa oğlu Həsənov**
Azərbaycan Dövlət İqtisad Universiteti
magistrant
hamid.i.hasanov@gmail.com

# COVID-19 PANDEMİYASININ YARATDIĞI BÖHRANIN AZƏRBAYCAN İQTİSADİYYATINA TƏSİRLƏRİ VƏ ANTİBÖHRAN TƏDBİRLƏRİ

**Xülasə**

Bu araşdırma Azərbaycanın daxili və xarici siyasi proseslərini və 2020-ci ildə ölkə iqtisadiyyatında baş verənləri araşdırır. 2020-ci il bütün dünyada olduğu kimi, Azərbaycan üçün də mühüm hadisələrin baş verdiyi il oldu. 2020-ci ilin yanvar ayında Çinin Vuhan şəhərində ortaya çıxan və Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən qlobal pandemiya kimi qəbul edilən Koronavirus (COVID-19) epidemiyası da öz təsirləri ilə qlobal iqtisadi böhrana çevrilib.

***Açar sözlər:*** *Pandemiya, iqtisadiyyat, böhran, neft, qiymət, ixrac*

**Hamid Isa Hasanov**

## The effects of the crisis caused by the covid-19 pandemic on the Azerbaijani economy and anti-crisis measured

**Abstract**

This research examines the domestic and foreign political processes in Azerbaijan and what happened in the country's economy in 2020. 2020 was a year of important events for Azerbaijan, as well as all over the world. The Coronavirus (Covid-19) Epidemic, which broke out in January 2020 in Wuhan, China, and was recognized by the World Health Organization as a global pandemic, has also turned into a global economic crisis.

***Key words:*** *Pandemic, economy, crisis, oil, price, export.*

## Giriş

BMT-nin İqtisadi və Sosial Münasibətlər Departamentinin "World Economic Situation and Prospects as of mid-2020" adı altında dərc etdiyi hesabata əsasən, epidemiyanın qlobal iqtisadiyyatlara vurduğu zərər 2020 və 2021-ci illərdə 8,5 trilyon dollara çataraq ölçü baxımından 2008-ci il qlobal maliyyə böhranını dəf edəcəyi bildirilir [UN DESA, 2020]. Pandemiya ilə əlaqədar məsələnin iqtisadi ölçüsü çərçivəsində aparılan müzakirələrə neft qiymətlərinin birdən-birə ucuzlaşmasının təsiri də əlavə edilib. Bu kontekstdə epidemiyanın yaratdığı iqtisadi problemlərlə yanaşı, neftin qiymətinin tarixən enməsi iqtisadiyyatının, əsasən də neft və təbii qaz hasilatı və ixracının daşıyıcı gücü olan Azərbaycana ciddi təsir edib.

## 1. COVID-19 Pandemiyasının iqtisadiyyata təsirləri

İqtisadiyyatını neft və təbii qaz ixracına əsaslanaraq şaxələndirməyə çalışan Azərbaycan 1991-ci ildə müstəqillik əldə etdikdən sonra ciddi daralma yaşayan iqtisadiyyatına və üzləşdiyi çətinliklərə baxmayaraq, inkişafını davam etdirir. 2014-cü ildən beynəlxalq bazarlarda neftin qiymətinin aşağı düşməsi Azərbaycan iqtisadiyyatını ciddi şəkildə sarsıtdı və ölkə yüksək inflyasiya, 100%-ə çatan devalvasiya və mənfi artım rəqəmləri ilə üzləşdi. Bu kontekstdə 2016-cı ildə təsdiqlənərək həyata keçirilən strateji yol xəritələri çərçivəsində iqtisadiyyatın şaxələndirilməsi istiqamətində fəaliyyətlər sürətləndi və maliyyə, nəqliyyat, telekommunikasiya, turizm və müxtəlif sənaye sahələrində inkişaf müşahidə olundu [İnsamer, 2020].

Ölkə iqtisadiyyatının ən mühüm sərvəti böyük hissəsi Xəzər dənizində yerləşən neft və təbii qaz yataqları, əkin sahələri, SSRİ dövründən miras qalmış iri sənaye obyektləri və sənaye infrastrukturudur. 1994-cü ildə dünya neft şirkətləri ilə imzalanan "Əsrin müqaviləsi" kimi tanınan müqavilə ilə ölkə neftinin hasilatı və ixracı istiqamətində mühüm addım atıldı. Hazırda ixrac gəlirlərinin təxminən 90%-ni

enerjidən əldə edən Azərbaycan 2020-ci il üçün təsdiqlənmiş ehtiyatlarına görə xam neft üzrə 19-cu [Global Fire Power, 2021] və təbii qaz üzrə 23-cü [knoema.com, 2021] yerdədir.

Siyasi müstəqillik əldə etdikdən sonrakı dövrdə siyasi sabitliyin bərqərar olması ilə Azərbaycan makroiqtisadi göstəricilərdə sabitlik və iqtisadi inkişaf baxımından mühüm irəliləyişlər əldə etmiş, COVID-19 epidemiyası isə iqtisadiyyata dərin təsir göstərmişdir. Ölkədə ilk koronavirusa yoluxma 2020-ci ilin fevral ayının sonunda aşkarlanmışdır. Azərbaycan iqtisadiyyatı 1990-cı illərdə yaşanan böhran kimi təsiredici qüvvəyə malik ikinci bir böhranı 2020-ci ildə yaşadı. Hansı ki bu tarixdə enerji sənayesindəki dalğalanmalar və Ermənistanla artan münaqişələr bütün sektorlara öz təsirini göstərdi. Azərbaycan iqtisadiyyatı üçün 2020-ci il ölkədə neftin iki dəfədən çox ucuzlaşması ilə başladı (yerli Azeri Light markalı neftin qiyməti yanvarın 7-də 71,2 dollardan martın 21-dək 26,01 dollara düşdü) və ölkədə koronavirus pandemiyası ilə əlaqədar karantin qaydaları tətbiq edilməsi ilə bu düşüş trendi davam etdi [Kitaçayev B. 2020, s.56].

İqtisadi artıma pandemiyanın təsirlərindən danışarkən ilk öncə səhiyyə sahəsində görülən tədbirlərdən danışmaq böyük əhəmiyyət daşıyır. Prezidentin 19 mart 2020-ci il tarixli Sərəncamı koronavirus pandemiyasının Azərbaycan iqtisadiyyatına, makroiqtisadi sabitliyə, məşğulluğa və sahibkarlığa mənfi təsirinin azaldılması istiqamətində bir sıra tədbirləri tənzimləyir. Prezidentin Sərəncamının icrasına yönəlmiş Tədbirlər Planında genişmiqyaslı və səmərəli tədbirlər öz əksini tapıb. Bu məqsədlər üçün 2 milyard ABŞ dolları ayrılıb. Bu gün Azərbaycanda 20-dən çox dövlət xəstəxanası COVID-19 xəstələrinə xidmət göstərir. Ölkənin ən böyük və ən müasir xəstəxanalarından biri - Yeni Klinika COVID-19-un başlanmasından qısa müddət sonra istifadəyə verilmişdir. Azərbaycan Respublikası Prezidentinin 7 aprel 2020-ci il tarixdə imzaladığı Sərəncama əsasən, əlavə tədbirlər çərçivəsində altı ay ərzində COVID-19 xəstələri üçün 11 modul tipli xəstəxana tikilib. Bu modul tipli xəstəxanalar əlavə 4100 xəstəxana çarpayısı təmin edəcək. Əlavə yeddi modul tipli xəstəxananın tikintisi planlaşdırılır.

Qlobal koronavirus pandemiyası ilə mübarizədə növbəti addım kimi Azərbaycanda üz maskalarının yerli istehsalına başlanılıb. Tibbi maskalarla yanaşı, yerli istehsalda birdəfəlik qoruyucu geyimlər, dezinfeksiyaedici vasitələr və s. öz yerini tutmuşdur. Azərbaycan hökuməti COVID-19 pandemiyası ilə mübarizə üzrə qlobal səylərində və virusdan zərər çəkmiş dövlətlərlə həmrəyliyini ifadə edərək, ÜST-ə 5 milyon ABŞ dolları ianə edib. Qoşulmama Hərəkatının (QHH) hazırkı sədri kimi Azərbaycan tərəfindən ən çox zərər çəkmiş Qoşulmama Hərəkatının ölkələrinə dəstək məqsədilə ÜST-ə əlavə 5 milyon ABŞ dolları ianə edilib. ÜST-ün Baş direktoru 23 mart 2020-ci il tarixli məktubunda ölkəsinin COVID-19-a qlobal reaksiyaya verdiyi töhfəyə və pandemiya ilə mübarizədə Azərbaycanda həyata keçirilən tədbirlərə görə Azərbaycan Respublikasının Prezidentinə minnətdarlığını bildirib. Azərbaycan həmçinin ikitərəfli əsasda zərər çəkmiş 30-dan çox ölkəyə təcili humanitar, o cümlədən texniki və tibbi ləvazimatlar, maliyyə yardımı, nəqliyyat təyyarələri ilə yardım göstərib.

## 2. Neft qiymətlərində yaşanan kəskin düşüşün iqtisadiyyata təsirləri və görülən tədbirlər

Neftin qiymətinin düşməsi – xüsusilə mart və aprel aylarında – iqtisadiyyatda durğunluğu daha da artırdı, çünki ölkə iqtisadiyyatı ÜDM-in 40%-ni və ixracın 90%-ni təşkil edən karbohidrogenlərdən çox asılıdır. Yanvar-iyun dövründə ixrac gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 31,4% azaldı. 2020-ci il aprelin 9-da OPEC+ üzvü olan 23 ölkə pandemiyanın yayılmasının yaratdığı resessiyanı qiymətləndirərək, 2020-ci il mayın 1-dən neft hasilatını azaltmağa razılaşdı. Məhz bu addımla birlikdə:

(i) 2020-ci il mayın 1-dən başlayaraq 2020-ci il iyunun 30-na kimi ilkin iki aylıq dövrdə gündəlik xam neft hasilatı 10 milyon barel azalmalı;

(ii) 1 iyul 2020-ci ildən 31 dekabr 2020-ci ilə qədər gündəlik xam neft hasilatı 8 milyon barel azalmalı.

(iii) 1 yanvar 2021-ci ildən 30 aprel 2022-ci ilə qədər gündəlik xam neft hasilatı 6 milyon barel azalmalı idi [9].

Bu çərçivədə OPEC+ üzvü olan Azərbaycan digər üzv ölkələrlə birlikdə göstərilən məbləğləri azaltmağa razılaşdı. Odur ki, beynəlxalq müqaviləyə əsasən, Azərbaycanda gündəlik hasilatın 2020-ci ilin may və iyun aylarında 554 min bareldən, 2020-ci ilin iyul və dekabr aylarında 587 min bareldən, 2021-ci ilin yanvarından 2022-ci ilin aprelinə qədər isə 620 min bareldən çox olmaması planlaşdırıldı [CESD Research Group, 2020]. Azərbaycanın "Şahdəniz-II" qaz yatağından hasil edilən qazın

Avropaya nəqli üçün tikilən TAP təbii qaz kəmərində fəaliyyətə başlaması ilə qaz hasilatı və ixracının artması, neft hasilatının və qiymətlərinin azalması Türkiyə-Yunanıstan sərhədində TANAP-a, 2020-ci ilin dekabr ayı sonu etibarilə kompensasiya etmir. Səhiyyə tədbirləri tikinti, kənd təsərrüfatı və turizm kimi məhdud diversifikasiya fəaliyyətlərindən faydalanan bir neçə sektora da güclü təsir göstərmişdir.

Beynəlxalq Valyuta Fondunun (BVF) 2020-ci ilin oktyabr ayı Dünya İqtisadi Görünüşü Hesabatının "Uzun və çətin yüksəliş" adlı məlumatlarına əsasən, Azərbaycan cari qiymətlərlə 195 ölkə arasında dünyanın 89-cu ən böyük iqtisadiyyatıdır. Cari qiymətlərlə 2020-ci ildə təxminən 42 milyard dollar olan ÜDM-in 2021-ci ildə 45 milyard dollar olacağı təxmin edilir. 2020-ci ildə sabit qiymətlərlə müqayisədə 4% azalan ÜDM-in 2021-ci ildə 2% artacağı gözlənilir. 2020-ci il üçün cari qiymətlərlə və istehlak qiymətləri ilə adambaşına düşən 4125 dollar milli gəlirə görə illik orta inflyasiya 3 faiz olan Azərbaycanda işsizlərin sayının ümumi işçi qüvvəsinə nisbəti 7% olmuşdur. BVF-nin məlumatına görə, Azərbaycanın xalis dövlət borcu 2019-cu ildə ÜDM-in 17,7%-ni təşkil etdiyi halda, 2021-ci illərdə 20% olacağı proqnozlaşdırılır.

Azərbaycan Dövlət Statistika Komitəsinin açıqladığı məlumatlara görə, 2020-ci ildə Azərbaycanda ÜDM əvvəlki illə müqayisədə 4,3% azalaraq təxminən 72,5 milyard manata (42 607,2 milyon dollar) düşüb; Adambaşına düşən ÜDM 7262,8 manat (4272,2 dollar) olub. 2020-ci ildə Azərbaycanda istehlak qiymətləri indeksi (inflyasiya) 2019-cu illə müqayisədə 2,8% təşkil edib. 2020-ci ilin yanvar-sentyabr aylarında 178 ölkə ilə xarici ticarət fəaliyyəti həyata keçirən Azərbaycanın xarici ticarət həcmi təqribən 18 milyon ABŞ dolları, idxalı 8 milyon ABŞ dolları, ixracı isə 10 milyon ABŞ dolları təşkil edib. 2019-cu ilin eyni dövrü ilə müqayisədə ölkənin xarici ticarət həcminin 22,0 faiz, idxalının 38,7 faiz, ixracının isə 10,0 faiz azaldığı görünür. Azərbaycan Dövlət Gömrük Komitəsinin açıqladığı məlumatlara görə, 2020-ci ildə Azərbaycan ilə Türkiyə arasında ticarət dövriyyəsi 4 milyon dolları keçərək 2019-cu illə müqayisədə 7,7% azalıb. 2020-ci ildə Azərbaycanın ümumi ticarət həcmində 13,54% paya malik Türkiyə İtaliyadan sonra Azərbaycanla ən böyük ticarət həcminə malik ikinci ölkədir.

## 3. Pandemiyada yaranan problemlərin həlli yolları

COFACE-nin son iqtisadi araşdırmasına əsasən, Azərbaycan iqtisadiyyatının üzləşdiyi problemlər aşağıdakı kimidir:

- Karbohidrogenlərdən yüksək asılılıq və iqtisadiyyatda aşağı diversifikasiya
- Neft ehtiyatlarının azalması
- Kövrək bank sistemi (dollarlaşma, aşağı gəlirlilik)
- Rəqabət əleyhinə bazar strukturları (dövlətlə güclü əlaqələri olan çoxsahəli holdinqlər)
- Ermənistanla silahlı münaqişənin genişlənməsi [Cocafe, 2020].

Azərbaycan ən azı bir müddət ərzində pandemiyanın dayandırılmasının və neft qiymətlərinin düşməsinin ümumi iqtisadi bədəlini hiss etməyə davam edəcək. Belə fikirlər var ki, Azərbaycan iqtisadiyyatı qlobal neft bazarından yaranan xarici şoklara daha yaxşı hazır olsaydı, iqtisadi zərərin bir hissəsinin qarşısını almaq olardı.

Mövcud böhran göstərir ki, ölkə 2014-cü il maliyyə böhranından əldə edilmiş dərsləri tam mənimsəməyib və iqtisadiyyatın şaxələndirilməsi və maliyyə sisteminin təkmilləşdirilməsi istiqamətində islahatların sürətləndirilməsinə ehtiyac var. Azərbaycanın iqtisadi dirçəlişi bizneslərin sağ qalmasından və neftin qiymətinin yenidən qalxmasından asılı olacaq. Bununla belə, neftin qiymətinin artması mənfi maliyyə nəticələrini qismən kompensasiya edəcək. Qlobal neft tələbatı son zamanlar qlobal iqtisadi tənəzzül səbəbindən görünməmiş səviyyələrə düşüb. Mütəxəssislər, pandemiyadan əvvəlki səviyyələrə çatmaq üçün bir ildən çox vaxt lazım olacağı ilə razılaşırlar. Bu kontekstdə ortamüddətli perspektivdə artımın gözlənilən şəkildə sürətlənməsi müvəqqəti xarakter daşıyacaq, çünki iqtisadi perspektivlər daha çox xammal ixracından asılı olacaq. Qeyri-neft sahələrinə qoyulan investisiyaların artmasına baxmayaraq, BVF ölkədə enerji sektoru istisna olmaqla, biznes sektorlarının hələ də kifayət qədər zəif göründüyünü vurğulayır. Xüsusən də ölkədə inkişaf etməmiş hüquq sistemi, rəqabət şəraitinə əngəllər və maliyyə sistemindəki problemlər qeyri-neft yataqlarının işlənilməsi qarşısında duran ən böyük problemlərdir. Odur ki, ölkədə özəl sektor investisiyalarının artırılması, dövlət inhisarının qırılması, azad bazarın dirçəldilməsi, rəqabət problemlərinin aradan qaldırılması və insan kapitalının inkişafı üçün daha dərin islahatlara ehtiyac var.

## Nəticə

İşğaldan azad edilmiş rayonların yenidən qurulması yükü, bütün dünyanı bürüyən COVID-19 pandemiyasının yaratdığı problemlər, qlobal iqtisadiyyatda tənəzzül və enerji bazarında qiymətlərin düşməsi, iqtisadiyyatın idarə edilməsi üzrə tərtib edilən planlaşdırma işlərində dəyişikliklərin edilməsini labüd edir. Müharibə Azərbaycan iqtisadiyyatına ciddi mənfi təsir göstərdi. ÜDM-in proqnozlaşdırılan 4% azalmasını nəzərə alsaq, bu göstəricinin son beş ilin ən aşağı göstəricisi olduğu aydın görünür. Səyahət məhdudiyyətləri nəticəsində turizm sektoru ən çox təsirlənən sektorlar arasında olmuşdur. Eyni zamanda, xidmət, qida və içki və nəqliyyat sektorları ciddi itkilərlə üzləşərək epidemiyadan ciddi şəkildə təsirlənmişdir. Bundan başqa, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin təqdim etdiyi məlumatlara və statistik məlumatlara əsasən, ölkənin ixrac və idxal həcmində xeyli azalma müşahidə olunub. Lakin onun yeni status-kvosu Azərbaycanı regionun əsas tranzit ölkəsi kimi şərq-qərb və şimal-cənub logistika xətlərinin tranzit nöqtəsinə çevirib və bu kontekstdə gələcəkdə ölkənin enerji gəlirlərindən asılılığı azala bilər. O da aydındır ki, Qarabağda işğaldan azad edilən ərazilərin kənd təsərrüfatı məhsuldarlığı, Qarabağda qızıl mədəni və SES-in ermənilərdən geri alınması Azərbaycan iqtisadiyyatına töhfə verəcək.

## Ədəbiyyat

1. CESD Research Group, (2020). A preliminary assessment of the impact of the COVID-19 pandemic on Azerbaijani economy.
2. Cocafe, (2020), https://www.coface.com/Economic-Studies-and-Country-Risks/Azerbaijan
3. Global Fie Power. Proven Oil Reserves by Country (2021) https://www.globalfirepower.com/-proven-oil-reservesby-country.asp.
4. İnsamer, Azərbaycan, https://insamer.com/tr/azerbaycan_498.htm.
5. Jafarova, E. (2020). “Azerbaijani Gas in Turkish Market, Perspectives for Partnership”. https://www.euractiv.com/section/energy/opinion/aze rbaijanigas-in-turkish-market-perspectives-forpartnership/.
6. Kitachayev, B. (2020). “Oil and coronavirus – the troubles of the Azerbaijani economy”.
7. Knoema. Proved reserves of natural gas. https://knoema.com/atlas/topics/Energy/Gas/Reserves-of-natural-gas.
8. https://www.stat.gov.az/source/system_nat_accounts/
9. https://www.bbc.com/azeri/azerbaijan-52226080

**Rəyçi: i.ü.f.d. Asiman Quliyev**

Göndərilib: 13. 03.2022 Qəbul edilib: 18. 04.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/08/62-66

**Xəyal Sahib oğlu Abbaszadə**
Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası
magistrant
abbaszadexeyal4@gmail.com

# FÖVQƏLADƏ VƏZİYYƏT ŞƏRAİTİNDƏ İNSAN HÜQUQ VƏ AZADLIQLARININ MƏHDUDLAŞDIRILMASI VƏ PROSESSUAL TƏMİNATLAR

**Xülasə**

Bu məqalədə əsas insan hüquq və azadlıqlarının fövqəladə vəziyyət şəraitində məhdudlaşdırılmasının prinsip və şərtləri təhlil olunmaqla, ümumilikdə fövqəladə vəziyyətin anlayışı, bu vəziyyətdə dövlətin öhdəlik götürdüyü vəzifələrin icrasından geri çəkilməsinin şərtləri, fövqəladə vəziyyət şəraitində hüquqların məhdudlaşdırılmasının xarakterik cəhətləri təhlil edilir, beynəlxalq hüquqi sənədlərdə təsbit olunmuş təminatların növlərinə nəzər salınaraq xüsusilə prosessual hüquqi təminatların mahiyyəti açıqlanır, fövqəladə vəziyyət şəraitində hüquq və azadlıqların məhdudlaşdırılmasında beynəlxalq hüququn yeri və rolu aydınlaşdırılır, normal şəraitdə, eləcə də fövqəladə vəziyyət rejimində yol verilən məhdudiyyətlər və deroqasiya hüququ şərh olunur. Məqalənin məqsədi eyni zamanda, əsas insan hüquq və azadlıqlarının fövqəladə vəziyyət şəraitində məhdudlaşdırılmasının özünə məxsusluğuna diqqəti cəlb etmək, bu istiqamətdə dövlətlərin xüsusi öhdəliklərini və müvafiq təminat mexanizmlərini, eləcə də ekstremal hallarda tətbiq edilən məhdudiyyətlərə dair mövcud beynəlxalq hüquq normalarını təhlil etmək və mövcud çatışmazlıqları müəyyən etməkdən ibarətdir.

***Açar sözlər:*** *Fövqəladə vəziyyət, beynəlxalq hüquq, insan hüquq və azadlıqları, məhdudlaşdırma, öhdəliklər, geriçəkilmə, prosessual təminat, konvensiya*

**Khayal Sahib Abbaszade**

## The restriction of human rights and freedoms in a state of emergency and procedural guarantees

**Abstract**

This article examines the principles and conditions of restriction of human rights and freedoms in a state of emergency, the concept of a state of emergency, the conditions of derogation from their obligations of the states in this situation, the characteristics of the restriction of rights in a state of emergency. The place and role of international law in the restriction of rights and freedoms in a state of emergency, in particular, the essence of procedural legal guarantees is clarified, the restrictions and the right to derogation under normal circumstances, as well as in a state of emergency are explained. The purpose of the article is to draw attention to the specific nature of the restriction of fundamental human rights and freedoms in a state of emergency, to analyze the specific obligations of states and relevant guarantee mechanisms existing in international law and to identify existing shortcomings.

***Key words:*** *A state of emergency, international law, human rights and freedoms, restriction, obligations, derogation, procedural guarantees, convention;*

## Giriş

Qloballaşan dünyamızda istər iqlim dəyişikliklərinin baş verməsi, dünya əhalisi arasında xəstəliklərin yayılması, istərsə də ölkələrin daxilində baş verən siyasi çəkişmələr və gərginliklər, çevriliş və qiyamlar bir sıra hallarda fövqəladə vəziyyət rejiminin tətbiq edilməsini, eləcə də mövcud təhdidlərin qarşısının alınmasına nail olmaq məqsədilə hüquqi tədbirlərin həyata keçirilməsini zəruri edir. Fövqəladə vəziyyətin tətbiqinə gətirib çıxarmış səbəblərin aradan qaldırılması məqsədilə tətbiq olunan tədbirlərdən biri kimi hüquq və azadlıqların məhdudlaşdırılması, o cümlədən dövlətin beynəlxalq hüquq normalarına əsasən üzərinə götürdükləri öhdəliklərdən geri çəkilməsi çıxış edir.

Dövlətlər bəzi hallarda müəyyən bir hüququn, mənafenin qorunması məqsədilə digər hüquq normasının təminatında istisnalar tətbiq edir. Müasir konstitusiyalar insan hüquqlarının məhdudlaşdırılmasına yalnız daha vacib olan hüququn, mənafenin qorunması məqsədi mövcud olduğu təqdirdə yol verir. Ümumiyyətlə, insan hüquqları nəzəriyyəsində mütləq hüquqlar və dövlətlərin müəyyən hallarda geri çəkilə biləcəyi hüquqlar fərqləndirilir. Məsələn, ölkə ərazisində zorakılıqla müşayiət olunan kütləvi iğtişaşlar baş verdiyi təqdirdə insanların həyat və sağlamlığının, yəni təhlükəsiz yaşamaq hüququnun qorunması məqsədilə dövlətlərin fövqəladə vəziyyət rejimini elan etməklə müəyyən hüquq və azadlıqları məhdudlaşdırması mümkündür. Mütləq hüquqlar (Bu hüquqlar sırasına yaşamaq hüququ, işgəncəyə məruz qalmamaq hüququ və s. daxildir) isə heç bir durumda, hətta fövqəladə vəziyyət şəraitində belə məhdudlaşdırıla bilməz. Lakin dövlətlər fövqəladə vəziyyətin tətbiqini əsas gətirməklə məhdudiyyətlərin tətbiqində mütləq sərbəstliyə malik deyildirlər və bir sıra xüsusi öhdəliklər daşıyırlar.

## Fövqəladə vəziyyət şəraitində insan hüquq və azadlıqlarının məhdudlaşdırılması və prosessual təminatlar

Fövqəladə vəziyyət anlayışına tarixdə ilkin olaraq Qədim Roma idarəetmə sistemində rast gəlinmişdir. Belə ki, müharibə, kütləvi iğtişaş və ya üsyanlar baş verdiyi təqdirdə senat tərəfindən vəziyyətin aradan qaldırılması üçün vəzifə müddəti 6 aydən ibarət olan idarəçi təyin edilir və həmin müddət ərzində bütün səlahiyyətlər onun əlində cəmlənirdi. Fövqəladə vəziyyət daha tez yekunlaşdığı təqdirdə, 6 ayın bitməsi gözlənilmədən seçilmiş olan şəxsin vəzifəsi də başa çatırdı. Müasir konstitusiyalar və beynəlxalq qanunvericilik Qədim Romada fövqəladə vəziyyətin yaranması əsaslarını, burada mövcud olan ümumnəzəri qanunauyğunluğu müəyyən qədər mənimsəmiş və özündə əks etdirmişdir. Bununla belə, beynəlxalq qanunvericiliyin fövqəladə vəziyyət anlayışı və onun elementləri barəsində mövqeyi birmənalı deyildir.

Ölkədaxili normativ hüquqi akt kimi nəzərdən keçirdiyimiz 08 iyun 2004-cü il tarixli "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanununun 2-ci maddəsində qeyd olunmuşdur ki, "fövqəladə vəziyyət müvəqqəti tədbirdir və fövqəladə vəziyyətin tətbiq edilməsində məqsəd onun tətbiq edilməsinə səbəb olmuş şəraitin tezliklə aradan qaldırılması, qanunçuluğun bərpa edilməsi, vətəndaşların, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqlarının təmin olunması, müvafiq icra hakimiyyəti orqanları və yerli özünüidarə orqanlarının, mülkiyyət formasından asılı olmayaraq bütün hüquqi şəxslərin normal fəaliyyət göstərməsi üçün şərait yaradılması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun müdafiəsidir". ["Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanunu]

Bununla belə, mövcud olan yanaşmaya əsasən dövlətin bütün və ya onun bir hissəsinə tətbiq edilən fövqəladə vəziyyət yerli özünüidarəetmə orqanlarının, müəssisə, idarə və təşkilatların fəaliyyəti üçün xüsusi hüquqi rejimi özündə əks etdirir. Fövqəladə vəziyyət institutu ölkədə asayişin qorunmasının, müxtəlif ekstremal vəziyyətlərdə vətəndaşların hüquq və azadlıqlarının dövlət tərəfindən təmin edilməsinin vasitəsidir. Bu rejimin tətbiqi dövlət orqanlarının səlahiyyətlərinin genişləndirilməsini, vətəndaşların şəxsi, siyasi, sosial-iqtisadi və digər hüquqları məhdudlaşdırılmasını və onların üzərinə əlavə vəzifələrin qoyulmasını şərtləndirir ki, bütün bu tədbirlər də müvəqqəti xarakter daşıyır. . Fövqəladə vəziyyət, ölkədə və ya ayrı-ayrı regionda vəziyyətin normallaşdırılmasını sürətləndirmək, asayişi bərpa etmək, vətəndaşların təhlükəsizliyinə təhlükəni aradan qaldırmaq və onlara lazımi köməklik göstərmək üçün tətbiq oluna bilər. Fövqəladə vəziyyət rejiminin xarakterik xüsusiyyəti ondan ibarətdir ki, vətəndaşların, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqlarına, hüquqi şəxslərin və təşkilatların hüquqlarına müəyyən məhdudiyyətlər qoyulması və tətbiq edilərkən onların üzərinə əlavə öhdəliklərin qoyulması fərdi xarakter daşımır, konkret subyektlərin qanunsuz hərəkətlər edib-etməməsindən asılı olmayaraq, bütün ərazinin əhalisinə şamil edilir. [Minqazov L.X., 2003., s. 598]

Fövqəladə vəziyyətin tətbiqində əsas məqsəd hüquq və azadlıqların qorunması, normal asayişin bərpası üçün şərait yaratmaqdır. Dövlət bir tərəfdən bəzi insan hüquq və azadlıqlarını məhdudlaşdırmaqla, digər tərəfdən fövqəladə vəziyyətin tətbiqi yolu ilə insanın yaşaması üçün daha əhəmiyyətli və zəruri olan digər hüquq və azadlıqların da qorunub saxlanmasını təmin edir. Odur ki, fövqəladə vəziyyətin tətbiqi təkcə hüquq və azadlıqların məhdudlaşdırılmasının mənfi kontekstində

deyil, həm də insan və vətəndaşın əsas (konstitusion) hüquq və azadlıqlarının təmini və müdafiəsi vasitəsi kimi nəzərdən keçirilməlidir.

İnsan hüquq və azadlıqlarının müdafiəsinə dair beynəlxalq sənədlər fövqəladə vəziyyətin tətbiqi üçün beynəlxalq hüquqi təminatlar müəyyən edir ki, bunlar da ümumi prinsiplər adlanır və onlara riayət edilməsi və hörmət edilməsi təmin edilməlidir. Beynəlxalq hüquqi aktlarda təsbit olunmuş həmin təminatları şərti olaraq iki əsas qrupa bölmək olar: 1) prosessual təminatlar (bəyan etmə, məlumat vermə və nəzarət etmə) və 2) maddi təminatlar (xalqın həyatına müstəsna təhlükə prinsipi, mütənasiblik prinsipi, ayrı-seçkiliyə yol verməmək prinsipi, müvəqqətilik prinsipi, bəzi hüquqlardan geri çəkilmənin yolverilməzliyi prinsipi və digər beynəlxalq hüquq normaları ilə uyğunluq prinsipi).

Qeyd etmək vacibdir ki, yuxarıda qeyd olunan təminatların əksəriyyəti artıq beynəlxalq ümumi hüququn normalarına çevrilmiş, bu səbəbdən də insan hüquqlarının müdafiəsi yönündə qəbul edilmiş beynəlxalq hüquqi razılaşmaların hər hansı birinin iştirakçısı olmayan dövlətlər də, qeyd olunan tələblərə əməl etməyə borcludurlar. [Abdullayev M.K., 2015., s. 152]

Fövqəladə vəziyyətin elan edilməsi dövlətlərin beynəlxalq hüquqla öz üzərlərinə götürdükləri öhdəliklərdən geri çəkilməsinin hüquqiliyinin ən vacib prosessual təminatlarından biridir. Elan etmə prinsipi fövqəladə vəziyyətin rəsmi olaraq bəyan edilməli olması ilə nəticələnir. Bu prinsip dövlətləri daxili qanunvericiliyin müəyyən formal tələblərinə hörmət etməyə sövq etməklə "de-fakto" fövqəladə vəziyyət hallarını azaltmaq üçün tətbiq edilir və dövlətlərin belə bir halı geniş ictimaiyyət qarşısında təsdiq və tətbiq etməsini şərtləndirir. Lakin, nə 1969-cu il İnsan Hüquqları üzrə Amerika Konvensiyasında, nə də insan hüquqlarının müdafiəsi sistemində önəmli rola malik olan 1950-ci il Əsas İnsan Hüquq və Azadlıqlarının Müdafiəsi üzrə Avropa Konvensiyasında bununla bağlı hər hansı qayda yoxdur.

Bununla belə, 1982-ci il tarixində "Cyprus v. Turkey" qərarında Avropa İnsan Hüquqları Komissiyası hesab etmişdir ki, Konvensiyanın 15-ci maddəsi hərbi vəziyyət şəraitində olduğu kimi fövqəladə vəziyyət şəraitində də öhdəliklərindən geriçəkilən dövlətin fövqəladə vəziyyətin və öhdəliklərindən geri çəkilməsinin rəsmi və ictimai bəyanını təmin etməli olduğunu nəzərdə tutur [8]

1969-cu il İnsan hüquqlarına dair Amerika Konvensiyası və 1950-ci il Əsas İnsan Hüquq və Azadlıqlarının Müdafiəsi üzrə Avropa Konvensiyasından fərqli olaraq Mülki və Siyasi Hüquqlar haqqında 1966-cı il tarixli Beynəlxalq Paktın 4-cü maddəsinin 1-ci bəndində dəqiqliklə qeyd olunmuşdur ki, üzv dövlətlər beynəlxalq hüquqi öhdəliklərinin icrasından yalnızca rəsmi elan olunmuş fövqəladə vəziyyət şəraitində geri çəkilə bilərlər. Hətta bütün maddi təminatların mövcud olduğu şəraitdə belə üzv dövlətin səlahiyyətli orqanı tərəfindən fövqəladə vəziyyət rəsmi elan olunmamışdırsa, öhdəliklərdən geriçəkilmə beynəlxalq hüquqi öhdəliklərinin pozuntusu kimi qəbul ediləcəkdir. Digər sözlə, adı çəkilən Paktın 4-cü maddəsinin 1-ci bəndinin tələblərinə əməl olunması insan hüquq və azadlıqlarına tətbiq olunan məhdudiyyətlərin legitimliyini şərtləndirən əsasə əlamət kimi çıxış edir, eləcə də dövlət daxili orqanların, xüsusilə qanunvericilik və məhkəmə hakimiyyəti orqanlarının mövcud vəziyyət üzərində nəzarətinə xidmət edir. [Abdullayev M.K., 2015, s. 185]

Fövqəladə vəziyyətin rəsmi elan edilməsi tələbi tətbiq edilən hüquqi tədbirlərin təsiri altına düşən əhalinin məlumatlandırılması məqsədi daşıyır və cəmiyyət bir mənalı olaraq tətbiq edilən fövqəladə tədbirlərin fəaliyyətinin dəqiq hədləri və bu tədbirlərin onların əsas hüquq və azadlıqlarına təsiri barədə məlumatlı olmalıdır. Bu tələb eyni zamanda dövlətlərin öhdəliklərindən qanunda təsbit olunmamış, faktiki mövcud olan geri çəkilməsi hallarının qarşısının alınmasına yönəlmişdir. [Yevqenyevna Q.E. 2009, s.117]

Fövqəladə vəziyyət şəraitində hüquqların məhdudlaşdırılmasının digər prosessual təminatı isə xəbərdarlıq prinsipidir. Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, öhdəliklərinin icrasından geriçəkilməyə haqq qazandıran dövlət bu barədə müvafiq şəxsə məlumat verməli və ondan iştirakçı dövlətlərə məlumat verməsini xahiş etməlidir. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 4-cü maddəsinin 3-cü bəndinə görə paktın iştirakçısı olan və geriçəkilmə hüquqndan istifadə edən istənilən dövlət bu barədə paktın iştirakçsı olan digər dövlətlərə BMT-nin Baş Katibi vasitəsilə dərhal məlumat verməlidir. Həmin məlumat özündə fövqəladə vəziyyətin xarakterini, geriçəkilən öhdəlikləri, məhdudlaşdırılan hüquqların dairəsini, bunun səbəbini, habelə məhdudiyyətlərin aradan qaldırılacağı tarixi əks etdirməlidir. [BMT. Bakı: 1998.]

Fövqəladə vəziyyət barədə məlumat vermə tələbi mahiyyətcə həm də onda ehtiva olunur ki, beynəlxalq hüquqi aktın iştirakçısı olan digər dövlətlər üzv olduqları razılaşmaya riayət olunmasının qarantı olaraq öz üzərlərinə düşən vəzifələrin icrası icrasını təmin etmək məqsədilə hüquqi tədbirlər tətbiq etmiş dövlətdən əlavə zəruri informasiyaları tələb edə bilsinlər.

Əsas insan hüquq və azadlıqlarının müdafiəsinə dair Avropa Konvensiyası isə Paktdan fərqli olaraq digər üzv dövlətləri deyil, Avropa Şurasının Baş Katibini məlumatlandırmanı öhdəlik olaraq müəyyən etmişdir. Bundan əlavə, geriçəkilən dövlət mümkün qədər tez xəbərdar etməli və məhdudiyyəti dayandırması barədə də "dərhal" məlumat verilməlidir. Eləcə də dövlət tərəfindən gələcəkdə bu tədbirlərin mahiyyətində baş verən hər hansı dəyişiklik, yəni müvəqqəti xarakterli tədbirlərin müddətinin uzadılması, tədbirlərin təsiri altına düşən hüquq və azadlıqların dairəsinin genişlənməsi və digər məsələlər barədə əlavə məlumatı müvafiq beynəlxalq strukturlara bildirməlidir [11]

Prosessual təminatlardan biri olan fövqəladə vəziyyət şəraitinə nəzarət edilməsi xüsusi əhəmiyyət kəsb edən məsələlərdən biridir. Fövqəladə vəziyyətə parlament nəzarətinin olması ilə yanaşı, bir sıra hallarda bu vəziyyətdə icraedici orqanın əlində də çox böyük səlahiyyətlər cəmləşir və bu səlahiyyətlərdən sui-istifadənin mümkünlüyünü nəzərə alaraq, fövqəladə vəziyyətin müəyyən nəzarətə tabe etdirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Parlament nəzarəti prinsipi insan hüquqlarına dair müqavilələrdə öz əksini tapmasa da, bir sıra beynəlxalq forumlarda bu məsələyə toxunulmuş və onlar tərəfindən qəbul edilmiş sənədlərdə parlament nəzarətinin zərurilyi vurğulanmışdır. Avropa Şurasının Venesiya Komissiyasının Fövqəladə vəziyyətə dair Məruzəsində əksər Avropa dövlətlərinin Konstitusiyalarında fövqəladə vəziyyətin elanı, uzadılması və dayandırılması üzərində parlament nəzarətinə dair müddəanın mövcudluğu qeyd olunur. Eləcə də, Paris Minimum Standartlarında göstərilir ki, fövqəladə vəziyyətin elan edilməsi ən qısa zamanda xalqın nümayəndələri və qanunverici orqan tərəfindən təsdiq olunmalıdır. [Bayramova P., 2004, s. 99]

Fövqəladə vəziyyət şəraitinin elan edilməsi üzərində nəzarət olunmasında məhkəmə nəzarəti də xüsusi yer tutur. Bu baxımdan iki aspekti ayırd etmək olar: daxili məhkəmələr tərəfindən məhkəmə nəzarəti və beynəlxalq orqanlar tərəfindən olan nəzarət.

Siyasi təbiəti ilə əlaqədar olaraq fövqəladə vəziyyətin elan edilməsinə məhkəmə nəzarəti müəyyən problemlərə səbəb olur. Bir qrup müəlliflər hesab edir ki, fövqəladə vəziyyətin siyasi təbiətinə görə ona məhkəmə nəzarəti mümkün deyil. Digərləri isə hesab edir ki, fövqəladə vəziyyətin elanına məhkəmə nəzarəti çox əhəmiyyətli olardı. Belə bir fikir də mövcuddur ki, bu məsələ dövlətin daxili hüquq ənənələrinə əsasən həll edilməlidir və beynəlxalq hüquqa heç bir aidiyyəti yoxdur.

İnsan hüquqları haqqında müqavilələrdə nəzarət məsələsi ilə əlaqədar dəqiq standartlar olmadığı üçün bu məsələ BMT-nin Kinqston seminarında müzakirə olunmuşdu. Müzakirələr çox mübahisəli şəkildə keçsə də və əksəriyyət fövqəladə vəziyyətin elan edilməsi üzərində məhkəmə nəzarətinə qarşı olsa da, ümumi bir razılığa gəlinmişdi ki, fövqəladə vəziyyətlə əlaqədar tətbiq edilən bütün tədbirlər məhkəmə yurisdiksiyasına tabe olmalıdır, məhkəmələrə hüquqazidd tədbirləri ləğv etmək səlahiyyəti verilməlidir. Bu səlahiyyəti həyata keçirərkən məhkəmələr hər bir şəraitə uyğun olaraq tətbiq edilən tədbir və ya aktın həmin şəraitə müvafiqliyini müəyyənləşdirmək üçün əsaslılıq prinsipinə uyğun şəkildə fəaliyyət göstərməlidir. Habeas corpus, amparo kimi bütün təminatların qanunsuz məhdudlaşdınlmasına daim nəzarət etməlidir [Kingston, 1967, 51 s.]

Beynəlxalq Hüquqşünaslar Assosiasiyası dövlətdaxili məhkəmələrin funksiyaları sırasında «geriçəkilməsinə yol verilməyən hüquqlara müdaxilə olunmadığına və digər hüquqlardan geriçəkilmə tədbirlərinin mütənasibliyə uyğun şəkildə həyata keçirilməsinə» nəzarət etmək vəzifəsini də göstərirdi. [9]

Təbiidir ki, insan hüquqlan sahəsindəki hər bir beynəlxalq müqavilənin effektivliyi xarici nəzarətdən, müəyyən mənada hökumətlərin ictimai asayiş, milli təhlükəsizlik, fövqəladə vəziyyət və s. münasibətdə fəaliyyətindən asılıdır. [Waldock H., 1985, s. 16] İnsan hüquqlanna dair müqavilələrin müəyyənləşdirdiyi orqanlar tərəfindən fövqəladə vəziyyət üzərində beynəlxalq nəzarət müvafiq müqavilədə əks olunmuş spesifik xüsusiyyətlərdən asılıdır.

## Nəticə

Beləliklə, beynəlxalq hüquq normalarına əsasən, fövqəladə vəziyyətin tətbiqinin şərtləndirdiyi, dövlətlərin öz öhdəliklərindən geri çəkilməsi (deroqasiya) hüququ bütün fəaliyyət müddəti ərzində əsaslandırılmalı və yayınmaların hədləri mövcud təhlükəyə mütənasib olmalıdır. Məhdudiyyətlər dövlətin beynəlxalq hüquq üzrə digər öhdəlikləri ilə ziddiyyət təşkil etməməli və tədbirlər müvəqqəti xarakter daşımalıdır. Qeyd olunanları ümumiləşdirərək, fövqəladə vəziyyət şəraitində tətbiq edilən məhdudiyyətlərin özünəməxsus əlamətlərini aşağıdakı kimi müəyyən etmək olar. Hüquq və azadlıqların məhdudlaşdırılması yarana biləcək sosial gərginliyin qarşısını almaq məqsədilə qoruyucu tədbirlər qismində tətbiq olunur; dövlət daha mühüm hüquq və azadlıqların müdafiəsini təmin etmək məqsədilə digər hüquq və azadlıqların məhdudlaşdırılmasını labüd hesab edir və bir qrup hüquq və azadlıqların məhdudlaşdırılması digər qrup hüquq və azadlıqlarının təmin edilməsi vasitəsi kimi çıxış edir; hüquq və azadlıqların məhdudlaşdırılması nəticəsində dövlət orqanlarının səlahiyyətləri qismən artır və daha geniş manevr qabiliyyətinə malik olmaqla fövqəladə vəziyyətin tətbiqinə gətirib çıxaran halı aradan qaldırmaq üçün geniş imkan əldə etməyə xidmət edir.

## Ədəbiyyat

1. European Convention on Human Rights - 04.11.1950.
2. İnsan hüquqları üzrə Beynəlxalq müqavilələr toplusu. (1998) BMT. – Bakı.
3. "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanunu.
4. Fövqəladə vəziyyət şəraitində insan hüquqlarının müdafiəsi : elmi red. L. Hüseynov, (2004) Bakı: Azərbaycan Universiteti.
5. Abdullayev, M.K.- (2015) Beynəlxalq hüquqda insan hüquq və azadlıqlarının məhdudlaşdırılması (nəzəri və təcrübi problemlər). Monoqrafiya. Bakı, Elm və Təhsil.
6. Yevqenyevna, Q.E. (2009) Beynəlxalq hüquqda insan hüquq və azadlıqlarının hüquqi məhdudlaşdırılması // Dissertasiya, Moskva, 2009.
7. Minqazov, L.X. (2003) Əsas İnsan Hüquq və Azadlıqlarının Müdafiəsinə dair Avropa Konvensiyasında və Rusiya Federasiyasının qanunvericiliyində insan hüquq və azadlıqlarının fövqəladə vəziyyət şəraitində məhdudlaşdırılması (deroqasiya hüququ) problemləri // Rusiya və avropanın hüquq müdafiə sistemləri / Red. Baranova V.M. – Nijniy Novqorod.
8. Cyprus v. Turkey, Applications Nos. 6780/74 and 6950/75, Report of the European Commission of Human Rights, 10 july 1976.
9. International Law Association, Report of the Sixty-First Conference Held at Paris 1984, 65 s.
10. Seminar on the effective realization of civil and political rights at the National Level, in: UN Doc ST/TAO/HR/29. Kingston, 1967, 51 s.
11. Waldock, H. Human H. (1985) Rights in Contemporary International Law and the Significance of the European Convention. London

**Rəyçi: h.e.d. Mehdi Abdullayev**

Göndərilib: 01. 03.2022 Qəbul edilib: 19. 04.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/08/67-71

**Zaur Taleh Bandaliyev**
Baku State University
master degree
zaur.bandaliyevv@gmail.com

# THE HISTORICAL REVIEW OF CRİMİNAL AGAİNST HUMANİTY

**Abstract**

In today's world, there is a greater need to strengthen international control and improve systems for peaceful conflict settlement. To a certain extent, reforming international justice, including increasing the effectiveness of the International Court of Justice can solve this problem. After the first and Second World Wars, the establishment of the UN International Court of Justice (ICJ) was necessary for providing legal assistance to states in order to ensure peace both, at the national and international levels. The International Court of Justice (ICJ), commonly known as the "World Court," is tasked with resolving international law disputes submitted to it by states. The significance of the International Court of Justice's foundation and its historical need will be addressed in this article.

***Key words***: *international, criminal, international criminal, International Court of Justice, history of World Court*

**Zaur Taleh oğlu Bəndalıyev**

## İnsanlıq əleyhinə cinayətlərin formalaşmasına tarixi baxış

**Xülasə**

**İnsanlıq əleyhinə cinayətlər** – qəsdən öldürmə, qəsdən xəsarət yetirmə, işgəncə, əzab və ya əsarət, şəxs azadlığından məhrum etmə, elmi təcrübələrə məruz qalma, cinsi təcavüz, uşaqlara qarşı cinsi istismar, məcburi hamiləlik, məcburi fahişəlik. Bu, cəmiyyətin bir hissəsinə qarşı bir plana uyğun olaraq siyasi, fəlsəfi, irqi və ya dini motivlərin sistematik şəkildə işlənməsidir.

Bu konsepsiya İkinci Dünya Müharibəsindən sonra geniş istifadə olunur. Bu termin ilk olaraq 28 may 1915-də İngiltərə, Fransa və Rusiyanın, Türkiyədəki ermənilərin qətl edildikləri iddiasıyla nəşr etdikləri bəyannamədə yer almışdır. İkinci Dünya Müharibəsindən sonra qəbul edilən Nürnberq Beynəlxalq Hərbi Cinayət Məhkəməsinin yurisdiksiyasında (səlahiyyətində) bəşəriyyətə (insanlığa) qarşı cinayətlər də sayılmışdır. Tərifi və əhatə dairəsi mübahisəli olmasına baxmayaraq, həm beynəlxalq, həm də milli şəkildə cəzalandırılması üçün qaydalar qəbul edilmişdir. İnsanlıq əleyhinə olan cinayətlər quruluş baxımından motivasiya və intensivlik meyarları ilə adi cinayətlərdən fərqlənir, həm də prosedur baxımından fasilələrə məruz qalmırlar.

Roma Statusu 1998-ci ildə Birləşmiş Millətlər Təşkilatının konfransında beynəlxalq səviyyədə kollektiv şəkildə törədilən insanlığa qarşı cinayətləri mühakimə etmək və cəzalandırmaq məqsədi ilə qəbul edilmiş və Beynəlxalq Cinayət Məhkəməsi 2002-ci il iyulun 1-dən vəzifəsinə başlamışdır.

Nürnberq Beynəlxalq Hərbi Cinayət Məhkəməsi, nasistlərin sovet əsirlərinə qarşı etdikləri cinayətlərin insanlığa qarşı cinayətlərə örnək olmasına dair qərar çıxarıb.

***Açar sözlər:*** *beynəlxalq, cinayət, beynəlxalq məhkəmə, Beynəlxalq Ədalət Məhkəməsi, Dünya Məhkəməsinin tarixi*

## Introduction

As a separate form of international crime, crimes against humanity have their own structure. Different perspectives exist on the essence and components of crimes against humanity. In many circumstances, crimes against humanity are identified with actions under national criminal law (for instance, crimes against the person). While crimes against the individual are committed against a certain person or several, crimes against humanity are committed against a broad mass of people, that is, a civilian population. Alongside with it, crimes against the person can be committed without any state plan or policy, and without providing certain methods and resources, but for committing crimes against humanity, there must be a state plan and policy in place, as well as the use of any Beynəlxalq hüququda

insanlıq əleyhinə cinayətlər-(Crimes against humanity in the international law)- 24 methods and resources. To qualify an act as a crime against humanity, two essential conditions are required:

1. the action must be committed as a part of a systematic or widespread attack;
2. the action must be committed in the form of a state or government plan or policy.

Consequently, it can be stated that crimes against the person that are covered by state domestic legislation can in no way be considered crimes against humanity. There are certain cases when the component elements of crimes against humanity, genocide, and war crimes are not distinguishable. However, if there is some similarity between them, each of them is an international crime with a certain structure. Unlike crimes against humanity, genocides and war crimes have been examined at different times and substantial results have been yielded in regard to them. In comparison with them, crimes against humanity have been studied far less, and today their investigation is very relevant. Crimes against humanity have a number of characteristics. This type of international crime [Akar, Y. 2007, s.16]

• has a fairly wide composition; • can be done both in the peace period and during armed conflicts;

• previously did not have a universal contractual basis, and basically relied on the norms of customary international law or on the statutes and regulations of the international tribunals;

• has very rarely been a subject of the national prosecutions;

•is occasionally linked to crimes against humanity. Insanlıq əleyhinə cinayətlər Beynəlxalq hüquqda insanlıq əleyhinə cinayətlər 25 (For example, before the modifications in 2001, crimes against humanity in Azerbaijan's Criminal Code were referred to as "crimes against mankind"); on the other hand, crimes against humanity should be discerned from genocide and war crimes with which they have, to some extent, similar components. To underline, the Nuremberg trial itself was characterized as a crime against mankind. After the World War II, the definition of "crimes against humanity" was reflected in the Article 6 of the Charter of the Nuremberg Tribunal. According to the Article 6 of the Charter, crimes against humanity include murder, extermination, enslavement, deportation, rape, torture, persecution for political, racial or religious reasons committed against the civilians prior to start of the war or during the war. Subsequently, crimes against humanity were widely specified in the statute of the international criminal tribunals for Yugoslavia and Rwanda, which were created in anad hoc form. In the Rome Statute of the permanent International Criminal Court, the scope of crimes against humanity was expanded in a wider format, covering 15 criminal offenses. Accordingly, the states have also expressed the norms relating to crimes against humanity in their national legislation and intensified their struggle against them. (ROSENNE,S 1985, 25) Before the adoption of the Statute of the International Criminal Court, the numerous acts constituting crimes against humanity were not formulated with specific names, and were expressed in terms of "other inhuman acts".As noted above, the generally recognized components of crimes against humanity were first published in the Statute of the Beynəlxalq hüquqda insanlıq əleyhinə cinayətlər 26 ICC. In accordance with the Statute, a number of certain acts, sometimes very distinct from an objective point of view, are classified under the name 'crimes against humanity '.Any of the following actions, when done as part of a widespread or systematic attack intended at any person, are considered "crimes against humanity" for the purposes of this Statute.

1. (a) Murder; (b) Extermination; (c) Enslavement; (d) Deportation or forcible transfer of population; (e) Imprisonment or other severe deprivation of physical liberty in violation of fundamental rules of international law; (f) Agony; (g) Ravishment, sexual slavery, compelled prostitution, enforced pregnancy, imposed sterilization, or any other form of sexual violence of comparable gravity; (h) Persecution against any entire demographic or collectivity in connection with any act referred to in this paragraph or any crime within the Court's jurisdiction on political, racial, ethno-cultural, national, gender, religious, or other bases universally acknowledged as impermissible under international law, as defined in paragraph 3; I Forced disappearances of persons; j) Apartheid crime; k) Other cruel actions of a similar nature that purposefully cause considerable suffering or serious impairment to the body, to mental or physical health.

2. A course of conduct involving the multiple commission of acts remarked in paragraph 1 against any civilian population, according to or in furtherance of a State or organizational policy to commit such attack, is defined as an "attack directed against any civilian population" for the purposes of this paragraph. (b) "Extermination" refers to the deliberate infliction of adverse living circumstances, such as denying access to food and medication, in order to kill a portion of a population; (c) The use of any or all of the powers connected with the right of ownership over a person, including through the use of such authority in

the process of human trafficking, notably of women and children, is referred to as "enslavement." d) "Deportation or forcible transfer of population" is the compelled removal of the individuals involved from the territory in which they are lawfully present by expulsion or other coercive acts, without grounds authorized under international law; (e) "Torture" implies the purposeful infliction of severe pain or suffering, whether physical or mental, on a person in the accused's custody or control; however, torture does not include pain or suffering originating solely from, inherent in, or incidental to legitimate punishment. f) "Forced pregnancy" refers to the illegal confinement of a woman who has been forcibly forced pregnant with the purpose of changing a community's ethnic composition or committing other serious international law violations; (g) "Persecution" refers to the deliberate and serious denial of fundamental rights in violation of international Beynəlxalq hüquqda insanlıq əleyhinə cinayətlər 28 law based on the group or collectivity's identity; (h) “The crime of apartheid” are inhumane acts of a similar nature to those described in paragraph 1, but committed in the context of an institutionalized regime of systematic oppression and domination by one racial group or groups over any other racial group or groups with the intent of maintaining that regime; (i) "Enforced disappearance of persons" refers to the arrest, detention, or abduction of individuals by, or with the authorization, support, or cooperation of, a State or political organization, followed by a refusal to acknowledge the deprivation of liberty or to provide information on the fate or whereabouts of those persons, with the intent of removing them from the protection of the law for an extended period of time [Gill T. 1989, s. 52]

3. The term "gender" refers to the two sexes, male and female, within the context of society for the purposes of this Statute. The term "gender" does not indicate any other meaning than what is stated above.

As a separate type of international crime, crimes against humanity have their own structure. Different perspectives exist on the essence and component elements of crimes against humanity. In many circumstances, crimes against humanity are linked to activities that are criminal under national law (for example, crimes against the person). While crimes against the individual are committed against a single person or a group of individuals, crimes against humanity are committed against a large group of people, such as a civilian population. Along with it, crimes against the person can be committed without the use of a state plan or policy, or the provision of specific methods and resources, but crimes against humanity necessitate the implementation of a state policy as well as the application of any Beynəlxalq hüquqda insanlıq əleyhinə cinayətlər 24 techniques and resources. Two important elements must be provided in order for an act to be classified as a crime against humanity: First, the action must be committed as a part of a systematic or widespread attack; Secondly, the action must be committed in the form of a state or government plan or policy [Walter F. 1952, s.78] Consequently, it can be concluded that crimes against the person provided for in the domestic legislation of states can in no way be considered crimes against humanity. In certain cases, the component elements of crimes against humanity and crimes of genocide and war crimes are not distinguished. However, if there is some similarity between them, each of them is an international crime with a certain structure. Genocides and war crimes have been studied at different times, unlike crimes against humanity, and significant results have been achieved in connection with them.Compared with them, crimes against humanity were studied much less, and today his research is very relevant. Crimes against humanity have a number of characteristics. This type of international crime: • has a fairly wide composition; • can be done both during the peace period and during armed conflicts; • previously did not have a universal contractual basis, and basically relied on the norms of customary international law or on the statutes and regulations of the international tribunals; • has very rarely been a subject of the national prosecutions; • sometimes is identified with crimes against mankind Beynəlxalq hüquqda insanlıq əleyhinə cinayətlər 25 (for example, before the amendments were introduced in 2001, crimes against humanity in the Criminal Code of Azerbaijan were called “crimes against mankind”); on the other hand, crimes against humanity should be distinguished from genocide and war crimes, with which they have, to some extent, the similar components. By the way, the Nuremberg trial itself was characterized as a crime against mankind. After the World War II, the definition of “crimes against humanity” was reflected in the Article 6 of the Charter of the Nuremberg Tribunal. According to the Article 6 of the Charter, crimes against humanity include murder, extermination, enslavement, deportation, rape, torture, persecution for political, racial or religious reasons committed against the civilians prior to the commencement of war or during the war. Subsequently, crimes against humanity were widely specified in the statute of the

international criminal tribunals for Yugoslavia and Rwanda, which were created in anad hoc form. The scope of crimes against humanity was broadened in a larger manner in the Rome Statute of the permanent International Criminal Court, comprising 15 criminal offenses. . Accordingly, the states have also expressed the norms relating to crimes against humanity in their national legislation and intensified their struggle against them. (SPCİJ 1920, 25)Prior to the formation of the International Criminal Court's Statute, the numerous acts that constitute crimes against humanity were referred to together as "other cruel acts." As previously stated, t he general components of crimes against humanity were first published in the ICC's Beynəlxalq hüquqda insanlıq əleyhinə cinayətlər 26 Statute. According to the Statute, a variety of specific acts, sometimes very different from an objective point of view, are classified as "crimes against humanity". "Crime against humanity" is defined as any of the following offenses committed as part of a widespread or systematic attack intended against any civilian population with knowledge of the attack: a) Murder; b) Extermination; c) Enslavement; d) Deportation or forcible population transfer; e) Imprisonment or other severe deprivation of physical liberty in violation of fundamental rules of international law; f) Torture; g) Rape, sexual slavery, forced prostitution, compelled pregnancy, enforced sterilization, or any other form of sexual violence of comparable gravity; h) Persecution against any identifiable group or collectivity on political, [Manley.H, p. 25]. In connection with any act mentioned in this paragraph or any criminal within the Court's jurisdiction;(i)Coerced disappearances; (j) Apartheid crimes; (k) Other cruel actions of a similar character that are intended to cause considerable pain or grievous injury to body, as well as mental or physical harm.2. "Attack directed at any civilian population," for the purposes of paragraph (a), means a course of conduct involving the multiple commission of acts referred to in paragraph 1 pursuant to or in furtherance of a State or organizational policy to carry out such an assault against any civilian population; (b) "Extermination" refers to the deliberate infliction of adverse living conditions, such as denial of access to food and medicine, with the intent of causing the extinction of a population; (c) "Enslavement" refers to the exercise of any or all of the powers attached to the right of ownership over a person, including the exercise of such power in the course of human trafficking, particularly of women and children; (d) "Deportation or forcible transfer of persons"; (e) “Torture”' means the intentional infliction of severe pain or suffering, whether physical or mental, upon a person in the custody or under the control of the accused; [Briely, J.L, 1949, 45] except that torture shall not include pain or suffering arising only from, inherent in or incidental to, lawful sanctions; f) "Forced pregnancy" means the illegal confinement of a woman who has been forcibly made pregnant with the intent of changing the ethnic composition of a community or committing other grave international law violations. This definition shall not be construed to have any effect on national legislation related to pregnancy; (g) “Persecution” means the intentional and severe deprivation of fundamental rights contrary to international Beynəlxalq hüquqda insanlıq əleyhinə cinayətlər 28 law by reason of the identity of the group or collectivity; (h) "Apartheid crimes" are inhumane actions of a similar kind to those mentioned in paragraph 1, but committed as part of an institutionalized regime of systematic oppression and supremacy by one racial group over any other racial group or groups with the goal of maintaining such regime; (i) "Enforced disappearance of persons" means the arrest, imprisonment, or abduction of persons by, or with the authorization, support, or concession of, a State or a political organization, followed by a refusal to acknowledge the deprivation of liberty or to provide information on the fate or whereabouts of those persons, with the intent of removing them from the protection of the law for an extended period of time. (8) The term "gender" is understood to refer to the two sexes, male and female, within the context of society for the purposes of this Statute. The term "gender" does not indicate any other meaning than what is mentioned above. Crimes against humanity are intentional crimes perpetrated by a state or on its behalf as part of a widespread or systematic policy, usually intended against people, in times of war or peace. The name comes from the fact that such activities are regarded as a serious violation of human rights. They are distinct from war crimes in that they are not one-off acts committed by individual troops, but rather acts carried out in support of a governmental or organizational strategy. [1] The Nuremberg trials saw the first prosecution for crimes against humanity. Following the Holocaust, a universal standard of human rights was established in the Universal Declaration of Human Rights, which was extensively used in international law (1948). Political parties or states that violate or provoke violations of the Declaration's human rights norms are expressions of the political pathologies linked to crimes against humanity [Hudson M. 1957, 115]

The Republican Platform for the 1860 election for President of the u. s. used the phrase in its ninth article:

9. We declare the recent reopening of the slave traffic, which was done under cover of our allegory and with the help of perversions of the judicatory, to be a criminal offense against humanity and a source of shame for our nation and age; which we urge Congress to require prompt and effective measures to place an end to the present heinous trade. He term "crimes against humanity" was employed by United States President Williams [8] an American minister, politician and historian, in an exceedingly letter he wrote to the u. s. Secretary of State describing the atrocities committed by Leopold II of Belgium's administration within the Congo Free State in 1890. This was an early, but not the primary, usage of the phrase in its contemporary sense within the English language, contrary to popular belief. In his first annual message in December 1889, U.S. President Harrison spoke about the slave traffic in Africa as a "crime against humanity". Already in 1883, President Williams used the identical term in his reflections about slavery within the United States [Tornaritis C, 1971, s. 63]

## Conclusion

The contextual component determines whether crimes against humanity entail large-scale violence in terms of the number of victims or its dispersion across a vast geographic region (widespread) or methodical violence (systematic). Random, unintentional, or isolated acts of violence are not included. Furthermore, according to Article 7(2)(a) of the Rome Statute, crimes against humanity must be committed in pursuance of a State or organizational policy to carry out an assault. The plan or policy does not need to be explicitly stipulated or formally adopted and can, therefore, be deduced from the circumstances as a whole.

Crimes against humanity, unlike genocide, do not need to target a specific group. Instead, any civilian population, regardless of allegiance or identification, might be the target of an assault. Another crucial distinction is that in the case of crimes against humanity, no proof of general specific purpose is required. With the exception of the act of persecution, which needs extra discriminatory purpose, a mere desire to perform any of the aforementioned crimes is sufficient. The culprit must also act knowing that the assault is against civilians and that his or her actions are part of that attack.

## References

1. Aksar, Y., (2007) Evrensel Yargı Kuruluşları, 2007
2. Rosenne, S., The Law and Practice of the International Court, 1985
3. The International Court of Justice, 1971, pp. 34 ff.\ Rosenne
4. Gill, T., Litigation Strategy at the International Court: A Case Study of the Nicaragua v. United States Dispute, 1989
5. Walter, F., A History of the League of Nations, 1952
6. Statute of the Permanent Court of International Justice, 1920
7. Manley 0. Hudson, Cases and Other Materials on International Law, 1936
8. Briely, J.L., The Law of Nations, 1949
9. http://anl.az/el/Kitab/2018/02/cd/2017-1752.pdf
10. Hudson, M. (1957) The Succession of the International Court of Justice to the Permanent Court of International Justice", AJIL, 51, 1957
11. Collier, J.G. (1996) The International Court of Justice and the peaceful settlement of disputes, Fifty Years Of The International Court Of Justice, 1996
12. United Nations Conference on International Organization,1945, vol 13
13. https://en.wikipedia.org/wiki/Crimes_against_humanity
14. Tornaritis C. (1971)"The Review of the Role of the International Court of Justice/

**Rəyçi: h.ü.e.d Şəhriyar Əliyev**

Göndərilib: 02. 03.2022 Qəbul edilib: 18. 04.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/08/72-76

**Nigar Şakir qızı Əlisoy**
Azərbaycan Respublikası Auditorlar Palatası
Nigar.alisoy1992@gmail.acom

# SƏHMDARLARA, MÜLKİYYƏTÇİLƏRƏ VƏ BÜTÜN MARAQLI TƏRƏFLƏRƏ ƏSASLANDIRILMIŞ İQTİSADİ QƏRAR QƏBUL ETMƏYƏ İMKAN VERƏN MALİYYƏ UÇOT SİSTEMİNİN MÖVCUDLUĞU

**Xülasə**

Qlobal iqtisadiyyatda maliyyə uçot sisteminin düzgün təşkili və idarə edilməsi ən məsuliyyətli və çətin fəaliyyət sahələrindən biri hesab olunur. Bu sahə ilə məşğul olan müvafiq şöbənin əsas işi təşkilatın idarəetmə və maliyyə hesabatlarının tərtibi ilə bağlıdr. Araşdırma göstərir ki, bu sistemin lazimi səviyyədə qurulmaması birbaşa təşkilatın taleyinə təsir etməklə mənfi nəticələr doğurur. Çünki, maliyyə hesabatlarında təqdim olunan məlmatlar investorların və digər maraqlı tərəflərin qərarlarına təsir edir. Buna görə də, maliyyə uçot sisteminin sistemin düzgün təşkili olduqca vacibdir.

Məqalədə maliyyə uçot sisteminin müasir vəziyyəti araşdırılır. Bu məqsədlə, təhlil, müqayisə və ümumiləşdirmə metodlarından istifadə edilir. Tədqiqatın sonunda araşdırmanın nəticələri öz əksini tapır.

***Açar sözlər:*** *Mühasibat uçotu, maliyyə hesabatları, audit, təşkilat, nəzarət*

**Nigar Shakir Alisov**

## Existence of a financial accounting system that allows shareholders, owners and all stakeholders to make justified economic decisions

**Abstract.**

One of the most responsible and demanding areas of activity in the global economy is the proper structure and management of the financial accounting system. The major task of the relevant department in charge of this area is to prepare the organization's management and financial statements. Research shows that the inadequacy of this system has a direct impact on the fate of the organization. This is because the financial statements' information has an impact on the decisions of investors and other stakeholders. As a result, the financial accounting system's correct organization is critical.

The current situation of the financial accounting system is examined in this article. Methods of analysis, comparison, and generalization are employed for this goal. At the end of the study, the results of the study are reflected.

***Key words***: *Accounting, financial statements, audit, organization, control*

## Giriş

Hər bir ölkənin milli mənəvi dəyərləri, ictimai qaydalar və əxlaq normaları mühasibatlıq təcrübələrinə də təsir göstərir. Bu baxımdan katolik və protestant ölkələrdə ticarətin həyata keçirilməsində və bir çox sahələrdə mövcud olan fərqlilikləri misal göstərmək olar [Naciri A., Christian Hoarau, 2001, s. 234].

Mühasibat uçotunun yaradılması haqqında araşdırmaların kökü 1975-ci ilə gedib çıxır. Bu gün həm praktik baxımdan, həm də akademik baxımdan mühasibat uçotu mövzusu trend mövzulardandır. [Safta I.L. 2021,s. 124].

Ölkəmizdə mühasibat uçotu və maliyyə hesabatları ilə əlaqəli bütün prosedurlar "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Qanunda göstərilir ki, Azərbaycan Respublikasında mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq ölkədə fəaliyyət göstərən hüquqi şəxslər, habelə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər tərəfindən mühasibat uçotu təşkil edilməklə aparılmalı, eyni zamanda müvafiq maliyyə hesabatları hazırlanmalı və təqdim edilməlidir "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu, 2004].

Bu qanunun əhəmiyyətli aspektlərilərinin, o cümlədən Qanunun təyinatı, mühasibat uçotunun məcburiliyi və bu sahədə dövlət tənzimlənməsini və nəzarəti, ölkədə tətbiq edilən Mühasibat Uçotu Standartları istiqamətlərini özündə ehtiva etməklə ictimai əhəmiyyətli qurumlarda, mikro, kiçik, orta, iri sahibkarlıq subyeklərində, publik hüquqi şəxslərdə mühasibat uçotunun aparılması və maliyyə hesabatlarının tərtib edilməsi qaydalarını, habelə kommersiya və qeyri kommersiya təşkilatları üçün uçot və hesabat öhdəliklərini müəyyən edir.

Bütövlükdə mühasibat uçotu və maliyyə hesabatlarının məqsədi onun istifadəçilərinin geniş dairəsi tərəfindən mühüm iqtisadi qərarların qəbul edilməsi üçün iqtisadi subyektin maliyyə vəziyyəti, fəaliyyətinin nəticələri və maliyyə vəziyyətindəki dəyişikliklər haqqında əhəmiyyətli hesab olunan informasiyanı təmin etməkdir.

### Maliyyə hesabatları və audit xidmətlərinin əsas xüsusiyyətləri.

Maliyyə hesabatlarının istifadəçiləri müəssisənin rəhbərliyindən, investor, kreditor, əməkdaşlar, ekspert və təhlilçilər, digər maraqlı şəxslər, dövlət, habelə ictimaiyyət qruplarından ibarətdir. Bu qruplar və onların müvafiq informasiya ehtiyacları aşağıdakı kimi təsvir edilə bilər:

1) **İnvestor qrupu.** Bu qrupa mövcud və potensial mülkiyyətçilər və əgər mümkündürsə, konvertasiya olunan qiymətli kağızlar və səhmlər üzrə variantların, opsion müqavilələrinin sahibləri daxildir. Bu qrupun üzvləri sərmayələrin alınması, satılması və ya saxlanılması üzrə düzgün qərarların qəbul edilməsi üçün zəruri olan informasiya ilə təmin olunmalıdır;
2) **Kreditor qrupu.** Bu qrupa veksel və istiqrazların mövcud və potensial sahibləri, təminatlı və təminatsız qısamüddətli borc verən subyektlər daxildir. Borc- verənlər borcların və müvafiq faizlərin vaxtlı-vaxtında ödənilib-ödənilməyəcəyi barədə informasiya ilə təmin olunmalıdır;
3) **Əməkdaşlar qrupu.** Bu qrupa müəssisədə keçmişdə və hazırda çalışan, habelə gələcəkdə fəaliyyət göstərə biləcək əməkdaşlar daxildir. Bu qrupun üzvləri müəssisənin sabitliyinin, onun öz işçilərinə əməkhaqqının və işdən çıxdıqdan sonra pensiyanın ödənilməsinin və işçilərin məşğulluğunun təmin edilməsi imkanları haqqında zəruri informasiyalarla təmin olunmalıdır;
4) **Ekspert və təhlilçilər.** Bu qrupa maliyyə ekspertləri və tədqiqatçılar daxildir. Onlar müəssisənin gələcəkdə mənfəət və pul vəsaitlərini əldə etmək imkanlarını qiymətləndirmək üçün zəruri informasiya ilə təmin olunmalıdır;
5) **Digər maraqlı şəxslər.** Bu qrupa tədarükçülər, istehlakçılar və digər oxşar məqsədli tərəflər daxildir. Bu qrupun üzvləri tələb olunan müvafiq informasiya ilə təmin olunmalıdır;
6) **Dövlət.** Bu qrupa təsərrüfat fəaliyyətinə nəzarət edən bütün müvafiq dövlət və yerli hakimiyyət orqanları daxildir. Bu qrupun üzvləri müəssisənin fəaliyyətini tənzimləmək üçün tələb olunan müvafiq informasiya ilə təmin olunmalıdır;
7) **İctimaiyyət.** Bu qrup müəssisənin fəaliyyəti ilə təmasda olan və ya maraqlanan geniş ictimai qrupları təmsil edən qurumlardır. Maliyyə hesabatları ictimaiyyəti müəssisənin müxtəlif sahələrinin fəaliyyətində mövcud olan tendensiyalar və baş vermiş dəyişikliklər haqqında informasiya ilə təmin etməklə, ictimaiyyətə yardımçı ola bilər.

### Maliyyə hesabatlarının təyinatı

Maliyyə hesabatları müəssisə tərəfindən həyata keçirilən əməliyyatların və maliyyə vəziyyətinin strukturlaşdırılmış maliyyə təqdimatıdır. Bu məqsədin əldə edilməsi üçün müəssisə maliyyə hesabatları üzrə aşağıdakı məlumatları təqdim edir:

- ✓ aktivlər, o cümlədən uzunmüddətli aktivlər, qeyri-maddi aktivlər, torpaq tikili və avadanlıqlar
- ✓ qısa müddətli aktivlər, o cümlədən ehtiyatlar, qısa müddətli debitor borcları
- ✓ pul vəsaitləri və onların ekvivalentləri
- ✓ sair qısamüddətli aktivlər
- ✓ Kapital və öhdəliklər o cümlədən kapital (nizamnamə kapitalı, kapital ehtiyatları, bölüşdürülməmiş mənfəət və ya zərər), öhdəliklər (qısa və uzun müddətli) *(Peşəkar mühasiblərin beynəlxalq etika Məcəlləsi, 2018).*

## Maliyyə hesabatlarının tərkibi

Maliyyə hesabatlarının tam məcmusu aşağıdakılardan ibarətdir:

- Maliyyə vəziyyəti haqqında hesabat;
- Mənfəət və zərər haqqında hesabat;
- Kapitalda dəyişikliklər haqqında hesabat;
- Pul vəsaitlərinin hərəkəti haqqında hesabat;
- Uçot siyasəti və izahlı qeydlər.

Göründüyü kimi maliyyə hesabatlarının tərkibi əsas olaraq dörd növ hesabatdan, eləcə də uçot siyasəti və izahlı qeydlərdən ibarətdir (E.A.Osadchy və başqaları / 2018: 342-345).

Maliyyə hesabatlarının hüquqi bazasını "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının qanunu təşkil edir. Normativ baza isə bu sahədə tənzimləyici qurum olan Azərbaycan Respublikası Maliyyə Nazirliyinin müvafiq normativ metodik sənədləri, habelə Beynəlxalq Mühasiblər Federasiyasının Muhasibat uçotu və Maliyyə hesabatlarına dair standartları (İFRS, İSA, İPSAS və müvafiq etik məcəllə və sair) təşkil edir.

Bütövlükdə Muhasibat uçotu və hesabatlılıq sistemi qanunvericiliyə və qəbul edilmiş qaydalara müvafiq aparılmalıdır. Bu zaman həmin sistemin düzgün təşkili və fəaliyyəti,texniki vasitələrlə və İT proqramları ilə təminatı yüksək rol oynayır. Lakin, mühasibat uçotu kadrlarının peşəkarlıq səviyyəsi işdə həlledici əhəmiyyətə malikdir. Başqa sözlə desək, iqtisadi subyekt uçotunun aparılması üçün bütün şəraiti yaratdığı halda, mühasibat kadırlarının qeyri- peşəkar hərəkətləri (əməliyyatların düzgün təsnifləşdirilməməsi, proqramlara informasiyanın səhv daxil edilməsi və ya heç edilməməsi dövriyyə qalıq cədvəllərinin qüsurlu tərtibi, hesabların qüsurlu müxabirələşməsi) düzgün iqtisadi qərar qəbul etməyə imkan verməyən informasiya sisteminin formalaşmasına gətirib çıxarır. Bu halda aşağıdakıların mövcudluğu zəruridir:

- ➢ Günün tələbləri səviyyəsinə cavab verən mühasibat uçotu proqramlarının mövcudluğu və rəqəmsallaşdırılması;
- ➢ Yüksək peşəkarlığa malik mühasibat kadrlarının mövcudluğu (müntəzəm davamlı peşə təhsilinin olması, Beynəlxalq peşə sertifikatlaşması və sair arzu olunandır);
- ➢ Ciddi daxili nəzarət sisteminin mövcudluğu (idarəetmə, istehsal və uçot sahələri əhatə olunmaqla);
- ➢ Müstəqil kənar audit

(https://audit.gov.az/Upload/Files/2019/shura_323_6_telimat.pdf).

Milli auditin beynəlxalq səviyyədə tənzimlənməsinə və təşkilinə nail olunması məqsədilə Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası tərəfindən 2005-ci ildə ölkədə Beynəlxalq Audit Standartlarının tətbiqinə keçilməsi ilə bağlı qanunvericilik, normativ və metodiki bazanın yaradılması, auditin keyfiyyətinə nəzarət, auditor kadrlarının hazırlanması və təkmilləşdirilməsi sistemlərinin yenidən təşkili, Beynəlxalq Audit Standartlarının tərcüməsi, nəşri, onların təbliği, təşviqi, habelə günün tələblərinə cavab verə biləcək səviyyədə tətbiqi sahəsində kompleks tədbirlərin görülməsi barədə qərar qəbul edilmişdir. Nəzərdə tutulan tədbirlərin uğurla həyata keçirilməsi nəticəsində 2010-cu ilin əvvəlindən etibarən ölkəmizdə Beynəlxalq Audit Standartlarının tətbiqinə başlanılmışdır. Qeyd edilməlidir ki, ötən dövr ərzində Palata tərəfindən böyük həcmli Beynəlxalq Audit Standartları 3 dəfə toplu halında nəşr edilmiş və həmin standartlara əlavələr edildikcə və ya yenu redaksiyada verildikcə Palata tərəfindən operativ olaraq müvafiq işlər aparılmaqdadır. Belə ki, 2021-ci ildə yenilənmiş 5 standartın tərcüməsi, peşə redaktəsi və korrektə edilməsinə başlanımış, 540 nömrəli "Uçot qiymətləndirmələrinin, o cümlədən ədalətli dəyər qiymətləndirmələrinin və əlaqəli açıqlamaların auditi", 250 nömrəli "Maliyyə hesabatlarının auditi zamanı Qanun və qaydaların nəzərə alınması" və 220 nömrəli "Maliyyə hesabatlarının auditinin keyfiyyətinin nəzarət" Beynəlxalq audit standartları Palatanın internet səhifəsində yerləşdirilmiş və digərlərinin də üzərində işlərin cari ildə baça çatdırılması nəzərdə tutulur. hazırda Beynəlxalq Audit Standartlarının tətbiqinə keçilməsi həmin ərəfədə Auditorlar Palatasının Beynəxalq Mühasiblər Federasiyasına (İFAC) assosiativ üzvlükdən tam hüquqlu üzvüyə qəbul edilməsində müsbət rol oynamışdır [AR , 2021].

İFAC-da üzvlük Auditorlar Palatası üçün bir sıra öhdəliklər yaradır. Həmin öhdəliklərə beynəxalq audit standartlarının tətbiqi, auditin keyfiyyətinə kənar və daxili nəzarət, Peşəkar Mühasiblərin Beynəlxalq Etika məcəlləsinin (Beynəlxalq Mühasiblik Standartları ilə birlikdə) mühasibat və audit üzrə

beynəxalq tədris standartlarının, sistemdaxili araşdırma və intizam tədbirlərinin tətbiqi, habelə Beynəxalq Maliyyə Hesabatı Standartlarının (İFRS) və Ictimai Sektor üçün Beynəxalq Mühasibat uçotu Standartlarının (İPSAS) tətbiqi üzrə müvafiq tənzimləyici qurumlara maksimum dəstək göstərilməsi daxildir. Məhz bu istiqamətlər Palatının İFAC qarşısındakı üzvlük tələblərini təşkil edir. Həmin tələblərin yerinə yetirilməsi ilə əlaqədar Palatada mütəmadi tədbirlər həyata keçirilir və ölkə qanunvericiliyindən, ölkə Prezidentinin təsdiq etdiyi müvafiq milli proqramlardan, auditin inkişaf konsepsiyasından irəli gələn vəzifələrlə bərabər, İFAC qarşındakı öhdəliklər Palatının faktiki olaraq qısa və uzunmüddətli strateji planlaşdırmasının əsasını təşkil edir. Beynəxalq peşə tələblərinin icrası ilə əlaqədar palata və müvafiq dövlət orqanları ilə birlikdə İFAC-a şəffaf hesabat təmin edir. Əvvəlki dövrlərdə həmin hesabat İFAC üçün bir il müddətində verildiyi halda ötən il palatanın bu sahədə fəaliyyət planı yüksək qiymətləndirilərək 2024-cü ilədək proqram kimi qəbul edilmişdir. İFAC-la bərabər palata üzv olduğu Avropa Mühasiblər və Auditorlar Federasiyasının, habelə digər nüfuzlu beynəxalq təşkilatlarının tələblərinə öhdəliklərinə əməl edir və həmin öhdəlikləri yerinə yetirməklə, ölkəmizdə milli auditin beynəxalq meyarlara cavab verən səviyyədə təşkilinə və tənzimlənməsinə rəvac verir [8].

Belə sənədlərə misal olaraq, Avropa İttifaqının audit ilə bağlı direktiv və tövsiyələrini göstərmək olar. Əslində auditin məqsədi maliyyə hesabatlarının şəffaflığını təmin etməklə iqtisadiyyatın şəffaflığına nail olunmasıdır. Düzdür, bir sıra hallarda bu şəffaflıq maliyyə hesabatlarının istifadəçilərinə yönəlsə də, investor cəlb etmək və şirkətlərinin işgüzar nüfuzunu yüksəltmək məqsədilə həmin hesabatlar ictimaiyyətə də təqdim edilir. Bütövlükdə isə auditorların fəaliyyəti korrupsiyaya, qeyri-qanuni yollarla əldə edilmiş əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyələşdirilməsinə, iqtisadi subyektlərdə dələduzluğa, aktivlərin mənimsənilməsinə, gəlirlərin gizlədilməsinə, xərclərin əsassız olaraq artırılmasına qarşı mübarizəyə yönəlməklə, bir mənalı olaraq, ölkəmizdə iqtisadiyyatımızın şəffaflığının artırılmasına xidmət edir. Digər mühüm aspekt olan Dövlət büdcəsinə daxilolmaların düzgün hesablanmasının və ödənməsinin təmin edilməsi, habelə kölgə iqtisadiyyatının azadılması sahəsində auditorlarin fəaliyyəti də, nəticə etibarı ilə şəffaflığın artırılmasına xidmət edir [Keyfiyyətə Nəzarət / 2015].

Məhz şəffaflığın artırılması və hesadatlılığın düzgün aparılması təsərrüfat fəaliyyətində risklərin azaldılmasına, səmərəli idarəetmə qərarlarının qəbul edilməsinə, ölkə iqtisadiyyatında real durumun qiymətləndirilməsinə, makroiqtisadi göstəricilərin düzgün proqnozlaşdırılmasına imkan verir.

Şəffaflığın aşağı səviyyədə olması isə əksinə, bir tərəfdən korrupsiyanın yayılmasına, qeyri-qanuni gəlirlərin və əmlakın əldə edilməsinə zəmin yaradır, digər tərəfdən isə iqtisadi sərbəstliyin məhdudlaşdırılmasına və əksinə, idarəetmə heyətinin və məmurların lüzumsuz, tələb olunandan da artıq funksiyalarının möhkəmləndirilməsinə səbəb olur.

## Nəticə

Beləliklə, səhmdaralara, mülkiyyətçilərə və bütün maraqlı tərəflərə əsaslandırılmış iqtisadi qərar qəbul etmə imkanının maliyyə-uçot sisteminin mövcudluğu asılıdır:

➢ Yüksək peşəkarlıq səviyyəsinə malik olan mühasibat uçotu-maliyyə kadrlarının mövcudluğundan;

➢ Mühasibat uçotunun müasir İT proqramları vasitəsiylə aparılmasından və tərtib olunmuş maliyyə hesabatlarının, mühasibat uçotunun müvafiqliyinə əminlik yaradan kənar(müstəqil) auditin aparılmasından.

Müasir şəraitdə, məhs bu şərtlər şəffaf uçot və hesabatlıq sisteminin təminatçısı kimi çıxış edir.

## Ədəbiyyat

1. Naciri, A., Hoarau, C.(2001), A Comparative Analysis of American and Franch Financial Reporting Philosophies: The Case for İnternational Accounting Standarts, Advance in İnternational Accounting, Volume 14, pp.229-247.
2. Safta, I. L., Sabău, A. I., & Muntean, N. (2021). Bibliometric analysis of the literature on measuring techniques for manipulating financial statements. Risks, 9(7), 123.
3. “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının qanunu (29 iyun 2004-cü il№ 716-IIQ).

4. Peşəkar Muhasiblərin Beynəlxalq Etika Məcəlləsi (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) 2018-ci il nəşri.
5. Osadchy, E. A., Akhmetshin, E. M., Amirova, E. F., Bochkareva, T. N., Gazizyanova, Y., & Yumashev, A. V. (2018). Financial statements of a company as an information base for decision-making in a transforming economy.
6. Auditor fəaliyyətində haqsız rəqabət hallarına qarşı mübarizəyə dair təlimathttps://audit.gov.az/-Upload/Files/2019/shura_323_6_telimat.pdf
7. Auditor təşkilatında daxili nəzarətin təşkili və həyata keçirilməsi üzrə metodik göstəriş (Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 18 iyun 2021-ci il tarixli 331/6 nömrəli qərarı ilə təsdiq edilmişdir)
8. https://audit.gov.az/Az/page/45
9. Keyfiyyətə Nəzarət, Audit, Təhlil, digər təsdiqləmə və əlaqəli xidmətlər üzrə Beynəlxalq Standartlar toplusu. 2015-ci il

**Rəyçi: i.e.d. Cəmilə Namazova**

Göndərildi: 15. 03. 2022 Qəbul edildi: 09.04.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/08/77-80

**Songül Ramiq qızı Salahlı**
Azərbaycan Turizm və Menecment Universiteti
magistrant
salahlisongul98@gmail.com

# AZƏRBAYCANIN SAĞLAMLAŞDIRMA TURİZMİNDƏ MÜALİCƏVİ MİNERAL SULARIN ƏHƏMİYYƏTİ

**Xülasə**

Bu məqalədə Azərbaycanın sağlamlaşdırma turizmində müalicəvi mineral suların əhəmiyyəti və onun turizmə yararlılığı araşdırılmışdır. Tədqiqat işində sağlamlaşdırma turizminin müasir vəziyyətinin tədqiqi və müalicəvi suların rolunun təhlil edilməsi tədqiqat işinin əsas məqsədlərindən hesab edilir. Tədqiqatın nəticəsində Azərbaycanın mineral sularının sağlamlaşdırma turizmində tibbi əhəmiyyəti izah edilmişdir. Bu sahədə dövlətin gördüyü işlər və gələcək inkişaf perspektivləri diqqətə çatdırılmışdır. Sağlamlaşdırma turizmində müalicəvi sulardan turizm resurları kimi istifadə edilməsi tədqiqat işinin arşdırılması zamanı qarşıya qoyulan hədəflərdəndir.

Azərbaycanın sağlamlaşdırma turizmində müalicəvi sulardan istifadənin səmərəli qiymətləndirilməsinin aparılması vacibdir. Sağlamlaşdırma turizmində mineral sulardan istifadə edilməsində qarşıya çıxan problemlər tədqiq edilmişdir. Tədqiqat nəticəsində əldə olunmuş məlumatlar sağlamlaşdırma turizmində müalicəvi sulardan gələcəkdə perspektiv istifadə üçün geniş imkanlar verəcəkdir.

***Açar sözlər:*** *sağlamlaşdırma turizmi, kurort-sanatoriya, turizm resursları, mineral sular, termal bulaqlar*

**Songul Ramiq Salahli**

## The importance of medicinal mineral waters in health tourism of Azerbaijan

**Abstract**

This article indicates the importance of medicinal mineral waters in health tourism of Azerbaijan and its suitability for tourism. The study of the current state of health tourism and the analysis of the role of medicinal waters are considered to be the main objectives of the research. As a result of the study, the medical importance of mineral waters in health tourism of Azerbaijan is explained. The work done by the government in this area and the prospects for future development are highlighted. The use of therapeutic waters as health resources in health tourism is one of the goals of the research.

It is important to conduct an effective assessment of the medicinal waters usage in health tourism of Azerbaijan. The problems encountered in the use of mineral waters in health tourism have been studied. The data obtained from the study will provide ample opportunities for future use of therapeutic waters in health tourism.

***Key words:*** *medical tourism, resort-sanatorium, tourism resources, mineral waters, thermal springs*

## Giriş

Qlobal iqtisadi sektorlardan biri olan turizm sənayesində sağlamlıq turizminə duyulan tələbat zaman keçdikcə artmaqdadır. Qobal sağlamlaşdırma turizminin ümumi turizm sənayesində birbaşa payı təxminən 10%-dən çox hesab edilir. Hər il dünya üzrə milyonlarla insan sağlamlığının bərpası üçün müxtəlif destinasiyalara səyahət edirlər. Sağlamlaşdırma turizində resurs kimi istifadə edilən mineral sular öz bioloji aktiv xüsusiyyətləri ilə fərqlənən, tərkibində həll olmuş müxtəlif kimyəvi komponentlər iştirak edən insan orqanizminə fizioloji cəhətdən təsir göstərən yeraltı sular hesab edilir [7].

Azərbaycan Respublikası təbii turizm ehtiyatlarından bərpa, profilaktika və müalicə məqsədi ilə istifadə etmək üçün sağlamlaşdırma turizmində əlverişli şəraitə malikdir. Azərbaycanda 1000-dən çox mineral, termal su yatağı var və onlardan çoxu hələ də istismar olunmayıb. Sahib olduğu resurslara

əsasən söyləmək olar ki, Azərbaycan istər regional, istərsə də qlobal miqyasda özünü müalicə-sağlamlıq turizmi ölkəsi kimi tanıda bilər. Ölkəmiz bu sahədə xammal rolunu oynaya bilən duz mağaraları, palçıq vulkanları ilə yanaşı mineral termal bulaqlarla da zəngindir [Yeganlı S.T. 2006, s. 103].

Azərbaycan Respublikasında mineral termal suların əsas yataqları Abşeron yarımadası, Böyük Qafqaz regionu, Qobustan-Şamaxı, Naxçıvan, Xəzəryanı, Quba, Lənkəran-Masallı zonalarındadır. Mütəxəssislərin fikrincə, son dövrlərdə termal mineral sulardan müxtəlif xəstəliklərin müalicəsində geniş istifadə olunur [Jafarov A. 2014, s.1].

Mineral sular qaz tərkibinə görə aşağıdakı kimi müxtəlif qruplarda təsnifləşdirilir.

*Karbonlu mineral sular-* Karbonlu mineral suların tərkibində karbon qazının (CO2) miqdarı 250-300 mq-a qədər olmaqla Azərbaycanda tədqiq olunmuş müalicəvi mineral su mənbələrinin 35%-dən çoxunu əhatə edir. Bu sular müalicə əhəmiyyətli xüsusiyyətlərinə görə böyrək, həzm sistemi və qaraciyər orqanlarının xəstəliklərində faydalıdır [Kazımov S. M. 2007, s. 138].

*Hidrogen-sulfidli mineral sular-* Bu sular tərkibində olan kükürdün miqdarına görə dəri xəstəliklərinin müalicəsində daha çox effekt verir. Xalq arasında bu sulara kükürdlü mineral sular da deyilir və daha çox Azərbaycan Respublikasının Abşeron, Talış bölgəsində və Naxçıvan MR-da rast gəlinmişdir.

*Azot (N) tərkibli sular-* Yüksək müalicəvi xüsusiyyətlərə malik olan azotlu sulardan sağlamlaşdırma turizmində əhəmiyyətli resurs kimi istifadə edilir. Azərbaycanda yerləşən azot tərkibli mineral sulara Lənkəranda "Alaşa", "Meşəsu", "Bigəvər", Qubada "Xaltan" və s. nümunə göstərmək olar.

*Dəmirli mərgümüşlü sular-* Bu sular öz müalicəvi xüsusiyyətlərinə görə aktiv farmakoloji təsirə malik olmaqla geniş istifadə edilir. Suyun tərkibində olan dəmirin, mərgümüşün miqdarı çox olduğundan mədə-bağırsaq sisteminin xəstəlikləri ilə yanaşı, uroloji xəstəliklərin müalicəsində geniş istifadə edilir. Azərbaycanda dəmirli-mərgümüşlü sulara Şamaxı rayonundakı "Cabanı", "Zarvan", Tovuz rayonundakı "Donuzdam", Naxçıvandakı "Nəhəcir" bulaqlarını aid etmək olar.

*Metan qazlı (CH4) sular-* Metan qazlı sular, əsasən, Azərbaycanın neftli-qazlı rayonlarında geniş yayılmışdır. Metanlı suların müalicə xüsusiyyətləri indiyədək yaxşı öyrənilməmiş amma buna baxmayaraq metanlı suların çoxu yel, dəri, daxili orqanların iltihabı və dayaq-hərəkət orqanlarının müalicəsi üçün geniş istifadə edilir.

*Radon qazlı (Rn) mineral sular-* Yeraltı suların tərkibində radioaktiv elementlərin olması suyun müalicəvi xüsusiyyətini yüksəldir. Kəlbəcər rayonunda yerləşən "Bağırsaq" adlanan mineral su radonlu mineral suların ən geniş yayılmış növüdür. Azərbaycanda mineral suların tərkibində radon qazının yüksək olması gələcəkdə bu suların müalicə turizmində istifadəsinə imkan verir [Health tourism in Azerbaijan. 2021, s. 40].

"Qalaaltı" mineral suyu Azərbaycan Respublikasının Şabran rayonunda yerləşən maddələr mübadiləsi, öd kisəsi, mədə-bağırsaq, böyrək xəstəlikləri kimi bir çox xəstəliklərin müalicəsində istifadə edilən mineral sudur. Suyun tərkibində nafte və bitum turşularının olması onun müalicəvi əhəmiyyətini xüsusilə artırır. "Qalaaltı" suyu həm də soyuqdəymə ilə bağlı bir çox xəstəliklərin müalicəsi üçün faydalıdır. "Qalaaltı" daşəridici xüsusiyyətə malik olmaqla eyni zamanda, iltihab əleyhinə müsbət təsir göstərir.

Azərbaycanın Gədəbəy rayonu ərazisində bir çox mineral sular vardır ki, onlar da öz müalicəvi əhəmiyyətinə görə xüsusilə seçilir. Bu mineral sulardan bu ərazidə yaşayan almanlar və XIX əsrdə ruslar içməli su kimi istifadə etmişlər. "Slavyanka-1" mineral suyu Azərbaycan bazarına yeni daxil olmuş mineral su hesab edilir. Bu suyun tərkibində insan orqanizminə müsbət təsir edən bir çox minerallar vardır. Abşeron yarımadasında yerləşən "Şıx", "Suraxanı" mineral suları tərkibində olan yod-brom və başqa güclü təsiredici maddələrin miqdarına görə yüksək müalicəvi əhəmiyyətə malikdir.

Azərbaycan Respublikasının müalicəvi mineral mənbələrindən olan Masallı rayonunda yerləşən məşhur "İstisu" bulağından müalicəvi əhəmiyyətinə görə mədə-bağırsaq, travmatik ağrılar, oynaq ağrıları və artroz kimi fəsadların müalicəsində istifadə etmək olar. Eyni zamanda suyun müalicəvi xüsusiyyətlərinə görə ondan göbələk, hipertoniya, pisarioz, ekzema, neyrodermit, böyrək, sidik yolları, habelə prostatit, radikulit, öd, qaraciyər və ginekoloji xəstəliklərinin müalicəsində istifadə edilir [6].

Azərbaycan Respublikasının Kəlbəcər rayonu mineral sularla zəngindir. Təkcə Tərtər çayın qolu sayılan Tutquncay dərəsində təxminən 400-ə yaxın müalicəvi mineral sulara rast gəlinir ki, bu da

ərazinin unikallığını artırır. Qarabağ yaylasının şimal-qərb hissəsində 2200 m yüksəklikdə Tərtər çayın sağ sahilində alp çəmənliklərində İstisu balneolji kurortu yerləşir. "İstisu" mineral suyunundan müalicə məqsədilə içilməsi ilə yanaşı, həm də müalicə zamanı vanna kimi istifadə etmək olar. İstisu mineral bulaqlarının suyundan mədə-bağırsaq, maddələr mübadiləsi pozğunluqları, habelə sinir sistemi, dayaq hərəkət orqanları, uroloji və ginekoloji xəstəliklərdə müalicə məqsədilə istifadə olunur. Eyni zamanda mineral bulaqların suyundan əldə edilən duzlardan qaraciyər, öd, qastrit, xroniki qəbizlik və s. kimi xəstəliklərin müalicəsində resurs kimi istifadə olunur. "Turşsu" və "Şırlan" mineral suları qaraciyər, mədə-bağırsaq, öd kisəsi və tərkibindəki dəmirin miqdarına görə qan azlığı xəstəliklərində müalicəvi əhəmiyyətə malikdir [4].

Azərbaycan Respublikasının mineral sular muzeyi hesab edilən Naxçıvan Muxtar Respublikası ərazisində irili-xırdalı təxminən 200-dan artıq mineral bulaqlar vardır ki, onların da əksəriyyəti Şərqi Arpaçay, Əlincəçay, Gilançay, Qaradərə ilə Əylis çaylarının vadilərində yerləşir. Darıdağ mineral bulağı karbonlu, mərgümüşlü, yüksək minerallaşmış xlorlu-hidrokarbonatlı-natriumlu sular qrupuna aid edilməklə dünyada məşhur olan İtaliyadakı "Cənubi Tirol", "Rončenyo", Fransadakı "Lua-bulbul" mərgümüşlü mineral sularından istər keyfiyyət, istərsə də çıxma debitinə görə yüksək olması ilə seçilir. Darıdağ termal mineral suyu əsasında yaradılan müalicəxanada xəstələr ürək-damar xəstəlikləri, dayaq-hərəkət orqanları, periferik əsəb sistemi, dəri, ginekoloji və s. xəstələliklərdən müalicə üçün vanna qəbul etməklə müalicə olunurlar [Bagirov F. 2008, s. 26].

Şahbuz rayonu ərazisində məşhur olan "Badamlı" mineral suyu mədə-bağırsaq, sidik yolları, qaraciyər və öd kisəsi xəstəliklərinin müalicəsində istifadə üçün əhəmiyyətlidir.

"Sirab" mineral suyu həm daxili xəstəliklərin müalicəsində, həm də süfrə suyu kimi əhəmiyyətlidir. Sutka ərzində 0,1-0,2 litr miqdarında mədə-bağırsaq, qaraciyər, qoturluq və digər xəstəliklərin müalicəsi üçün içməyə yararlıdır.

"Vayxır" mineral bulağı daxili xəstəliklərin müalicəsində, xüsusilə qaraciyər hepatiti, öd kisəsi iltihabı, xroniki qastritlər, xroniki kolitlər və s. kimi xəstəliklərin müalicəsi zamanı istifadə edilir. Osmotik qatılığına görə insandakı qan plazmasının qatılığına uyğun gəlməsi onu digər mineral sulardan fərqləndirir [Bagirov F. 2008, s. 32].

Azərbaycan Respublikasında olan mineral sulardan götürülən nümunələrin analizi nəticəsində "İlisu" bulağının suyunun müalicəvi süfrə suyu və vanna müalicəsində istifadəsi üçün əhəmiyyətli olduğu aşkara çıxarılmışdır. Mineral sudan mədə, onikibarmaq bağırsağın yüngül formalı yaraları, mədənin sektor funksiyasının normal və yüksək fəaliyyəti, qaraciyər, öd yollarının xroniki xəstəlikləri, xroniki kolit, enterokolitlər, maddələr mübadiləsi pozuntusu, şəkərli diabet, xroniki pankreatit kimi müxtəlif xəstəliklərin müalicəsində istifadə etmək olar.

"Xaltan" termal bulağının analizinin nəticəsinə əsasən su kimyəvi tərkibinə görə zəif sulfidli olmaqla bərabər, zəif minerallaşmış müalicəvi süfrə suyu kimi təsdiqlənmişdir. Bu suyun temperaturunun 400°C-dən yüksək olması ondan vanna müalicəsində istifadə etməyə imkan verir. Suyun daxilə qəbulu qaraciyərin, öd yollarının xroniki xəstəlikləri, şəkərli diabet, mədənin sektor funksiyasının normal və yüksək fəaliyyəti, piylənmə, xroniki kolit və enterokolitlər, maddələr mübadiləsinin pozulması, mədənin və onikibarmaq bağırsağın yüngül formalı yaraları, xroniki pankreatit kimi xəstəliklərin müalicəsində istifadə üçün yararlıdır [Health tourism in Azerbaijan. 2021, s. 47].

## Nəticə

Azərbaycan Respublikasında mineral suların tərkibinin müxtəlifliyi və onların debitinin yüksək olmasına baxmayaraq onların potensialından müalicə sağlamlıq turizmində zəif istifadə edilir. Mineral suların bir çoxunun ərazisində kurort sanatoriya komplekslərinin inşası onlardan sağlamlaşdırma turizmində gəlir əldə edilməsini məqsədəuyğun hesab edir. Tədqiqatçılar tərəfindən Azərbaycanda olan mineral suların az istifadə edilməsinin səbəbləri araşdırılmışdır. Mineral sulardan sağlamlaşdırma turizmində istifadə üçün yetərli infrastrukturun qurulmaması onun müalicəvi imkanlarından istifadəni azaldır. Azərbaycanda mineral sulardan az istifadə olunmasını nəzərə alaraq aşağıdakı nəticələrə gəlmək olar:

1. Mineral suların infrastruktur sahələrinin olmaması və əksəriyyətinə gedən yolların bərbad olması - Relyefin meyilliliyinin çox və mürəkkəb olması ondan istifadə imkanlarını çətinləşdirməklə yanaşı daha

çox vəsait cəlb olunmasını tələb edir. Dağlıq ərazilərdə yerləşən mineral bulaqların ətrafında infrastruktrun olmaması onlardan az istifadə olunmasına şərait yaradır.

2. Mineral suların ətrafında anti-sanitar vəziyyətin yaranması və bu sahəyə nəzarətin olmaması- Mineral sulardan geniş miqyasda kortəbii vəziyyətdə istifadə olunması, kommunal xidmətlər olmadığına görə ətraf mühitə atılan tullantılar anti-sanitariya vəziyyəti yaradır.

**Ədəbiyyat**


1. "Health tourism in Azerbaijan - current situation and development prospects", report, Baku, 2021, 184 pages.
2. Bagirov F. (2008)"Natural resources of Nakhchivan" Nakhchivan "Sharg qapisi", 2008, 102 pages.
3. Jafarov A. (2014)"The territory of Azerbaijan is rich in thermal, mineral and industrial water resources" (article). Baku, "Zaman" 2014-19 April.-№ 75.-P.13.
4. http://eco.gov.az/en/tebii-servetlerimiz/mineral-sular- Official website of the Ministry of Ecology and Natural Resources.
5. https://tourism.gov.az/ - Official website of the State Tourism Agency of the Republic of Azerbaijan.
6. https://www.azerbaijan-news.az/posts/detail/azerbaycanin-mualicevi-mineral-sulari- "Therapeutic mineral waters of Azerbaijan" (article)
7. https://www.statista.com/statistics/1013813/leading-medical-tourism-countries-value/- Statista's official website.
8. Kazimov SM, Safarov AV, Tagiyev II, Abasov MM (2007) "General hydrogeology" Baku, "ADNA".
9. Medical Tourism Market -Global Industry Analysis, Size, Share, Growth, Trends and Forecast 2017-2025. TMRGL 900. December..
10. Tontuş O.H. Health tourism in the world" Istanbul, "Saturk yayını".
11. Yeganlı S.T., Hacıyev E.M. (2006)"Tourism" Baku: International University.


**Rəyçi: i.ü.e.d. Asiman Quliyev**

Göndərilib: 07.03.2022 Qəbul edilib: 12. 04.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/08/81-86

**Rauf Mərdan oğlu Rzayev**
ADA Universiteti
magistrant
rrzayev2020@ada.edu.az

# AZƏRBAYCANDA ƏLVERİŞLİ İNVESTİSİYA VƏ BİZNES MÜHİTİNİN FORMALAŞDIRILMASI MEXANİZMİ VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**Xülasə**

Biznes mühiti, eləcə də bütövlükdə iqtisadiyyatı inkişaf etdirmək məqsədilə dövlət uyğun iqtisadi siyasət həyata keçirməlidir. Bu iqtisadi siyasət fiskal, elmi-texniki, investisiya, qiymət, ammortizasiya, kredit-pul kimi tədbirləri özündə əks etdirməlidir. İnvestisiya mühitinin formalaşmasında ölkədə qüvvədə olan qanunvericilik bazasının yaxşılaşdırılması xüsusi əhəmiyyətə malikdir. Tədqiqatın məqsədi investisiya mühiti və biznes mühitini yaxşılaşdırılmasının ən əlverişli yollarını ortaya qoymaqdır. Son dövrlərdə müvafiq sahə üzrə reallaşdırılan tədbirlər öz müsbət təsirlərini göstərmişdir. Ölkə ərazisində əlverişli biznes, həmçinin investisiya mühitinin formalaşdırılması üçün əsaslı təkliflər verilmişdir.

***Açar sözlər:*** *Azərbaycan, biznes, investisiya, inkişaf, qanunvericilik*

**Rauf Mardan Rzayev**

## Forming mechanism of favorable environment for investment and business and development directions in Azerbaijan

**Abstract**

In order to develop the business environment, as well as the economy as a whole, the state must implement appropriate economic policies. This economic policy should include measures such as fiscal, scientific and technical, investment, price, depreciation, credit and money. Improving the country's legal framework is of particular importance in shaping the investment climate. The main purpose of the research is to find the best ways to improve investment climate and business environment. Recent measures in this area have had a positive impact. Substantial proposals were made to create a favorable business environment in the country, as well as an investment climate.

***Key words:*** *Azerbaijan, business, investment, development, legislation*

## Giriş

Respublikamızda həyata keçirilən investisiya siyasəti iqtisadiyyatın əsaslı şəkildə inkişafına, onun strukturunun daha da yaxşılaşdırılmasına imkan yaradır. Müəssisənin əsas vəsaitlərinə qoyulmuş investisiyaların istiqamətlərinə baxdıqda müəyyən etmək olur ki, vəsaitlər başlıca olaraq tikinti sektoruna yatırılır. Xüsusilə infrastruktur proyeklərinin reallaşdırılmsından ibarət olan tikinti və yenidənqurma kifayət dərəcədə geniş vüsət alması dövrümüzdə əsas istehsal amillərindən hesab olunan infrasturukturun yaxşılaşdırılmasına istiqamətlənmiş dövlət siyasətinin nəticəsidir.

Ölkəmizdə həyata keçirilən investisiya qoyuluşları üzrə fəaliyyətlərin ümumilikdə hüquqi aspektləri, iqtisadi və sosial şərtləri, həmçinin xarici investorların ölkə ərazisində fəaliyyətləri üzrə investisiya yatırımlarının hüquqiiqtisadi prinsipləri uyğun olaraq Azərbaycan Respublikasının 1995-ci il tarixli "İnvestisiya fəaliyyəti haqqında" eyni zamanda 1992-ci il tarixli "Xarici investisiyanın qorunması haqqında" Qanunları ilə tənzimlənməkdədir.

Maliyyə mənbələrinin təhlili prosesi investisiya mühitinin yaxşılaşdırılması baxımından olduqca vacibdir. İnvestisiyanın tərkibini və əsas strukturunu nəzərə almaqla investisiya mənblərini iki yerə ayırmaq olar:

1. Xarici investisiya mənbələri
2. Daxili investisiya mənbələri

13.01.1995-ci il tarixli, 952 nömrəli "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanununa əsasən investisiyanın müəyyənləşdirilməsində əsas daxili mənbələr aşağıdakılar ola bilər:

1. İnvestorların özlərinə məxsus olan həm maddi, həm də intellektual mülkləri, onların vəsaitləri və təsərrüfat daxili ehtiyatları. Təsərrüfat daxili ehtiyatlara isə mənfəət, amortizasiya fondu üzrə vəsaitləri, hüquqi şəxs və fiziki şəxslərə məxsus pul vəsaitləri, bank da olan depozitləri, təbii fəlakətlər və baş vermiş qəzalar ilə bağlı müəyyənləşdirilmiş ziyan üzrə ödəniş üçün nəzərdə tutulan sığorta ödəmələri və s. daxil edilir.
2. Sərmayədarların borcu hesab olunan müxtəlif vəsaitlər, yəni bankdan, həmçinin də dövlət büdcəsindən əldə edilmiş kreditlər, eyni zamanda istiqrazlar və s. maliyyə vəsaitləri;
3. Sərmayədarların müxtəlif istiqamətlər üzrə cəlb edilmiş vəsaitləri. Bu maliyyə vəsaitlərinə əsas etibarilə əməkdaşların (əmək kollektivi üzrə), həmçinin ölkə vətəndaşlarının, müxtəlif müəssisələrin (hüquqi şəxs üzrə) payları, eləcədə sair haqları və səhm reallaşdırılması ilə əlaqədar vəsaitlər daxildir;
4. Dövlət büdcəsi üzrə və müxtəlif büdcədənkənar fondlar üzrə investisiya təyinatlı vəsaitlər, və eyni zamanda xüsusi prezident fondu və digər fondlar daxildir;
5. Müxtəlif müəssisələrdən, təşkilatlardan, həmçinin vətəndaşlardan daxil olmuş əvəzsiz maliyyə vəsaitləri, eyni zamanda ianələr və digər vəsaitlər.

Respublikanın Statistika Komitəsinə məxsus Statistik məlumat bazasında əks olunan informasiyalar vasitəsilə 2000-2020-ci illər ərzində ölkə iqtisadiyyatına yönəldilən daxili investisiyaların həcminin dəyişməsini təhlil etmək mümkündür.

**Cədvəl 1:** İqtisadiyyata yönəldilən daxili investisiyalar

| | 2000 | 2005 | 2010 | 2015 | 2020 |
|---|---|---|---|---|---|
| Daxili investisiyalar | | | | | |
| Mln. Manat | 149.3 | 460.3 | 2104.9 | 7499.2 | 9058.5 |
| Mln. Dollar | 169.0 | 514.4 | 2225.3 | 9343.6 | 8828.1 |

***Mənbə:*** *Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/source/finance/*

Ölkə iqtisadiyyatına yönəldilən daxili investisiyaların 1995-2015-ci illər intervalında həcminin dəyişməsini özündə əks etdirən Cədvəl 1-ə əsasən 2000-ci ildə ölkə iqtisadiyyatına daxili investisiya qoyuluşu 149.3 milyon manat olmuş və bu ilə nəzərən 2005-ci ildə 3.083 dəfə, 2010-cu ildə 14.098 dəfə, 2015-ci ildə 50.229 dəfə, 2020-ci ildə isə 60.673 dəfə artmışdır.

Xarici mənbələr üzrə əsas investisiya mənbələri:
1. xarici dövlətlərin büdcə vəsaitləri;
2. hüquqi şəxslərə (xarici), eləcə də fiziki şəxslərə (xarici) məxsus maliyyə vəsaitləri;
3. beynəlxalq təşkilatların maliyyə vəsaitləri;
4. kreditlər (dövlətlərarası), həmçinin qrantlar, müxtəlif yardımlar;
5. sərmayədarın beynəlxalq təşkilatlardan əldə etdiyi vəsaitlər, eyni zamanda əldə olunmuş qrant və kreditlər.

Respublikanın Statistika Komitəsinə məxsus Statistik məlumat bazasında əks olunan informasiyalar vasitəsilə 2000-2020-ci illər ərzində ölkə iqtisadiyyatına yönəldilən xarici investisiyaların həcminin dəyişməsini təhlil etmək mümkündür.

**Cədvəl 2:** İqtisadiyyata yönəldilən xarici investisiyalar

| | 2000 | 2005 | 2010 | 2015 | 2020 |
|---|---|---|---|---|---|
| Xarici investisiyalar | | | | | |
| Mln. Manat | 331.4 | 829.5 | 4628.5 | 6619.7 | 10998.9 |
| Mln. Dollar | 375.1 | 927.0 | 4893.2 | 8247.8 | 10719.1 |

***Mənbə:*** *Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/source/finance/*

Ölkə iqtisadiyyatına yönəldilən xarici investisiyaların 2000-2020-ci illər intervalında həcminin dəyişməsini özündə əks etdirən Cədvəl 2-yə əsasən qeyd olunan illər ərzində investisiya məbləğlərində artım tendensiyası mövcud olmuşdur. Belə ki, 2000-ci ildə ölkə iqtisadiyyatına xarici investisiya qoyuluşu 331.4 milyon manat olmuş və bu ilə nəzərən 2005-ci ildə 2.503 dəfə, 2010-cu ildə 13.967 dəfə, 2015-ci ildə 19.974 dəfə, 2020-ci ildə isə 33.189 dəfə artmışdır.

Xarici investisiyalardan səmərəli istifadə etməyin digər bir yolu maliyyə vəsaitlərinin şərti olaraq əks sahələrdə yerləşdirilməsidir. Belə ki, vəsaitin elə sahələrə yatırılması lazımdır ki, bu sahələrdən gələcəkdə hər hansı birində baş verəcək zəifləmə digər sahədə yüksəlişlə nəticələnə bilsin. Misal üçün meşə və mebel sənayeləri arasında investisiyaların bölgüsü elə həyata keçirilir ki, adı çəkilən sahələrdən birində tənəzzül olduğu halda, digərinin inkişaf etməsi nəticə etibarilə sərmayədarın gəlir əldə etməsi mümkün olur [Bayramov A. 2011, s.180]. Xarici mənbələr üzrə sərmayənin ölkə iqtisadiyyatına cəlb edilməsi prosesinin daha da sürətləndirilməsi səviyyəcə bir sıra vəsait mənbələri baxımından fərqli qiymələr alsa belə, qeyd etmək lazımdır ki, ümumiləşdirilməsi mümkün olan vəziyyətlər də mövcuddur. Respublikanın Ümumi Daxili Məhsulunda investisiya qoyuluşları üzrə maliyyə vəsaitlərinin xüsusi çəkisi, ölkənin iqtisadi baxımından inkişafını səciyyələndirən əsas maillərdən biri hesab edilməkdədir.

Müasir praktika onu göstərir ki, Ümumi Daxili Məhsulda investisiya qoyuluşları üzrə maliyyə vəsaitlərinin xüsusi çəkisi otuz və ya otuz beş faiz olduqda iqtisadi artım üçün şəraitin yaranır. Azərbaycan Respublikasının "investisiya fəaliyyəti haqqında" qanununda qeyd edilmişdir ki, müvafiq sahə üzrə mövcud hüquqi bazanın daha da yaxşılaşdırılmasında başlıca hədəf milli iqtisadiyyata sərmayə qoyuluşunu sürətləndirmək, beynəlxalq səviyyədə müxtəlif ölkələrlə iqtisadi sahədə əlaqələr, eyni zamanda inteqrasiya prosesinin sürətlənməsi, mülkiyyət formasına fərq qoymadan hər bir investorun hüquq bərabərliyinin ədalətli şəkildə təmin edilməsidir [Əhmədov A.M., Hüseynov C.A 2011, s.120].

Dövlət öz istehsalçılarının hüquqlarını müdafiəsi ilə bərabər, xarici sərmayədarların da ölkəyə vəsait qoyması və fəaliyyəti üçün əlverişli investisiya mühiti yaratmalıdır. Sözsüz ki, bu zaman xarici kapital marağı və milli iqtisadi mənafeni uyğunlaşdırmaq lazımdır. Bir çox vəziyyətlərdə ölkə iqtisadiyyatında olan real vəziyyəti təhlil etmək və iqtisadi şəraitə təsirləri müəyyənləşdirmək vacib olsa da, başlıca olan ölkədə milli iqtisadi mənafeyə üstünlük verməkdir.

İnvestisiya mühitinin formalaşmasında ölkədə qüvvədə olan qanunvericilik bazasının yaxşılaşdırılması xüsusi əhəmiyyətə malikdir. Son dövrlərdə müvafiq sahə üzrə reallaşdırılan tədbirlər öz müsbət təsirlərini göstərmişdir. Müvafiq sahə üzrə hüquqi bazanın formalaşmasında Azərbaycan Respublikasının 1995-ci il tarixli "İnvestisiya fəaliyyəti haqqında" eyni zamanda 1992-ci il tarixli "Xarici investisiyanın qorunması haqqında" Qanunlarının xüsusi rolunu qeyd etmək vacibdir [Əliyev F.B. 2003, s.89].

İnvestisiya mühitinin inkişaf etməsi uzunmüddətli vəsait qoyuluşundan, rəqabət mühitinin inkişaf etdirilməsindən, antiinhisar tədbirlərinin reallaşdırılmasından istehsal üçün mənfəət gətirmə ehtimalı yüksək olan yatırımların təminindən, onun region və sahələr üzrə sərbəst axınından və digər faktorların təsiri ilə bağlıdır. Qeyd edilməsi vacibdir ki, ölkədə əlverişli investisiya mühiti dövlət tərəfindən həyata keçirilən məqsədli tədbirlərin iqtisadi mühitə təsiri ilə formalaşır.

İnvestisiya mühitinin mahiyyətini, həmçinin ölkə iqtisadiyyatında xüsusi təsirə malik olan sosial və iqtisadi, eləcədə müxtəlif siyasi faktorların məcmusu kimi də izah etmək mümkündür. Ölkə iqtisadiyyatı üçün vacib olan amil istehsalın artımının təmin edilməsi üzrə əlverişli investisiya mühitinin formalaşdırılmasıdır. Təbii ki, bütün bu proseslər də qarışıq və idarəolunmaz formada reallaşmır. Qeyd etmək vacibdir ki, iqtisadi proseslər sübut edir ki, bazar mexanizmi bu qəbildən olan çatışmazlıq və çətinlikləri həll etmək imkanına malik deyil və dövlətin xüsusi tənzimləməsi ilə həyata keçirilən siyasət investisiya prosesinin məqsədyönlü şəkildə sürətləndirilməsində zəruri və həlledici rola malikdir. Başqa bir vacib faktor maliyyə sabitliyi faktorudur. Belə sabitliyin əldə edilməsi xüsusilə investisiya qoyuluşunun həyata keçirilməsi baxımından lazımi maliyyə resurslarının əldə olunması, həyata keçirilməsi nəzərdə tutulan investisiya proyektlərinin rentabelliyinin təmin olunmasının və ümumilikdə əlverişli investisiya mühitinin şərtləridir. Ölkədə investisiya mühitinin inkişafı yüksək dərəcədə özəl sektorun inkişafından, onun xüsusi çəkisindən və eyni zamanda kiçik, orta sahibkarlığın tərəqqisindən asılı olur [Əzizova G.A. 2012, s.212].

İnvestisiya mühitinin əsas xüsusiyyətlərindən irəli gələn mənfi cəhətlər də yox deyildir. Əsasən qiymətli kağızlar bazarının hələ də təşəkkül tapmadığı ölkədə portfel investisiyalarının iqtisadiyyata cəlb edilməsi ciddi çətinliklərlə üzləşir. Xarici investisiyalardan istifadə edilməsinin əsas perspektivli istiqamətlərindən biri də onun ixracyönümlü sektorlara- yeni texnologiyalara, informasiya iqtisadiyyatına yönəldilməsidir. Həmçinin mülkiyyət hüququnun müdafiəsi istiqamətində həyata keçirilən tədbirlər də investisiya mühitinə təsir etməkdədir. Əsas məsələ ondadır ki, xarici sahibkarların hüquqlarının pozulması ölkənin imicinə zərbə vurur, həmçinin hər hansı ciddi layihələrin maliyyələşdirilmə mənbələrinin tapılmasını daha da çətinləşdirir. Belə ki, ölkə qanunvericiliyində xarici investorların mənafeyinə zərbə vura biləcək müxtəlif səviyyəli cinayət tərkibli müdaxilələr üçün müəyyənləşdirilmiş qaydalar daha da sərtləşdirilməlidir.

Ölkədə investisiya mühiti mövcud qanunvericilik bazasından daha çox asılı olur. Xüsusilə istehsalçıların təşkilatlanmasının çoxsaylı formalarının inkişafını dəstəkləyəcək, eyni zamanda korporativ davranışın əsas qaydalarını, normal, eyni zamanda işgüzar investisiya mühitini (məsələn: müəssisələrin, korporativ idarəedilməsi təcrübəsini nəzərə ala bilən, həmçinin hesablaşmalar üzrə müəyyən edilən reytinqlərin dərci) formalaşdıracaq qanunvericilik bazasının işlənib hazırlanması tələb olunur.

## Nəticə

Müasir şəraitdə bazar münasibətlərinin formalaşması və ölkə iqtisadiyyatın sürətli inkişafının təmini müstəqil Azərbaycan Respublikasında dövlət quruculuğu prosesinin mühüm tərkib hissəsidir. Bazar iqtisadi münasibətlərinin formalaşması və dinamik inkişafında, daxili bazarın yerli xammala əsaslanan məhsullarla təmin edilməsində, ölkə əhalisinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasında, yeni iş yerlərinin açılmasında və məşğulluğun səviyyəsinin artırılmasında, azad rəqabət mühitinin formalaşdırılmasında və digər sosial-iqtisadi problemlərin həll edilməsində biznesin və onun mühüm istiqamətlərindən biri olan sahibkarlıq fəaliyyətinin inkişafı müstəsna rol oynayır. Son illərdə ölkəmizdə də sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi istiqamətində bir sıra böyük miqyaslı və strateji əhəmiyyətli tədbirlər həyata keçirilməkdədir.

Azərbaycanda dövlət əmlakının özəlləşdirilməsinin həyata keçirilməsi, aqrar islahatların və institutsional struktur dəyişikliklərinin reallaşdırılması sahibkarlıq fəaliyyətinin, həmçinin bütövlükdə ölkə iqtisadiyyatının formalaşması və inkişafına təkan vermişdir. Belə ki, 1996-2003-cü illərdə ümumi daxili məhsul 1,9 dəfə, o cümlədən 2003 cü ildə 11,2 faiz artmışdır. Ümumi daxili məhsul istehsalında qeyri-dövlət sektorunun xüsusi çəkisi yüksələn xətt üzrə artaraq 2003- cü ildə 74 faizə çatmışdır. Sənaye məhsulunun ümumi həcmində özəl bölmənin payı 54 faiz təşkil edir (lakin qazanılmış müvəffəqiyyətlərə baxmayaraq sahibkarlığın inkişafının mövcud vəziyyəti qənaətbəxş deyil. Sahibkarlığın inkişafında süni maneələr, bürokratik əngəllər hələ qalmaqdadır. Sahibkarlıq sahəsində əldə edilən təcrübə iqtisadiyyatda keyfiyyətli məhsul bolluğunun yaradılmasında, rəqabətə davamlı sahələrin inkişaf etdirilməsində və əhalinin məşğulluq səviyyəsinin artırılmasında həlledici amilə çevrilməlidir. Xüsusilə özəl sektorda strateji cəhətdən vacib və struktur formalaşdırıcı imkanlara malik olan sahibkarlıq subyektləri zəif inkişaf etmişdir. Regionlar üzrə biznes fəaliyyətinin mövcud inkişaf səviyyəsi ölkənin malik olduğu böyük potensiala uyğun gəlmir. Kiçik və orta sahibkarlıq üzrə firmaların böyük əksəriyyətinin (70%) paytaxtda və ona yaxın bölgələrdə cəmləşmişdir. Sahibkarlar arasında qarşılıqlı iqtisadi əlaqələr lazımi səviyyədə qurulmayıb. Sahibkarlığın inkişafının sürətləndirilməsi, kiçik və orta sahibkarlıq üzrə firmaların ölkədə bazar münasibətlərinin inkişafında, milli iqtisadiyyatın dünya iqtisadiyyatına sürətli inteqrasiyasında, ölkədə mövcud olan sosial və iqtisadi əsaslı çətinliklərin həll edilməsində rolunun daha da gücləndirilməsi Azərbaycanın həyata keçirdiyi iqtisadi siyasətin əsas hədəflərindən hesab edilir. Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin 2002-ci ilin aprel ayının 25-də yerli sahibkarlarla və mayın 14-də xarici iş adamları ilə keçirdiyi görüşləri buna bariz sübutdur. Həmin görüşlərin nəticəsi olaraq ölkə prezidenti Heydər Əliyev milli iqtisadiyyatın inkişafında həlledici rola malik ola kiçik və orta sahibkarlıq müəssisələrinin inkişafına yönəldilmiş bir sıra mühüm fərmanlar və sərəncamlar imzalamışdır. Onların sırasında Azərbaycan Respublikası Prezidentinin 17.08.2002-ci il tarixli 2002-2005-ci illəri əhatə edən Dövlət proqramı Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq müəssisələrinin inkişafında mühüm rol oynamışdır.

Bu Proqram ölkəmizdə sahibkarlıq fəaliyyəti üzrə tənzimlənmə sisteminin daha da təkmilləşdirilməsi, KOS-un insan resurslarının inkişafının daha da sürətləndirilməsi, müəssisələrə dövlət tərəfindən maliyyə yardımlarının artırılması, qanunvericilik bazasının yaxşılaşdırılması və ölkənin müxtəlif bölgələrində fəaliyyət göstərən sahibkarlara dəstəyin artırılması və onların inkişafının təmin edilməsi üzrə müxtəlif və çoxşaxəli tədbirləri özündə əks etdirir.

Proqramın maliyyələşdirilməsi mənbələri kimi dövlət büdcəsindən maliyyələşmələr, bələdiyyələrə məxsus maliyyə vəsaitləri, ölkə əhalisinin məşğulluğunun artırılmasına yönləndirilmiş məqsədli dövlət vəsaitləri, xarici təşkilatlara və bir sıra beynəlxalq qurumlara məxsus olan dotasiya və qrantlar, milli iqtisadiyyata qoyulan xarici mənbəli investisiyalar göstərilir. Sahibkarlığa dövlət qayğısının gücləndirilməsi ilə əlaqədar iqtisadiyyatda inhisarçılığın məhdudlaşdırılmasına və sağlam rəqabətin inkişafına nail olmaq üçün əmtəə bazarında inhisarçı mövqe tutan təsərrüfat subyektlərinə qarşı qanunvericiliklə nəzərdə tutulmuş bütün vasitələrdən istifadə ediləcəyi xüsusi vurğulanır.

Bazar iqtisadiyyatına keçidlə əlaqədar aparılan geniş miqyaslı iqtisadi islahatlar; dövlət əmlakının özəlləşdirilməsi, torpaq islahatı və idarəetmədə mütərəqqi struktur dəyişiklikləri nəticəsində ölkədə makroiqtisadi sabitlik bərqərar olmuş, regionlarda sahibkarlığın inkişafına təkan verilmişdir. Ölkənin müxtəlif regionlarının iqtisadiyyatında kiçik və orta sahibkarlıq müəssisələrinin rolu getdikcə daha da artmağa başlamışdır. Ölkəmizdə fəaliyyət göstərən təsərrüfat subyektlərinin ümumi sayında kiçik müəssisələrin xüsusi çəkisi kifayət qədər üstünlük təşkil edir. Ölkə üzrə 47951 kiçik müəssisənin 1,5 faizi Naxçıvan, 5 faizi Abşeron, 6,3 faizi Gəncə-Qazax, 2.2 faizi Şəki-Zaqatala, 4,2 faizi Lənkəran, 1,9 faizi Quba-Xaçmaz, 10 faizi Aran iqtisadi rayonunda fəaliyyət göstərir. Ölkəmizin regionlarında istehsal yönümlü təsərrüfat subyektlərinin 40,3 faizi ticarətin, 16,3 faizi kənd təsərrüfatı, 13,3 faizi sənaye, 11,1 faizi tikinti, qalan 19 faizi isə daşınmaz əmlak, kommersiya fəaliyyəti və digər xidmət sahələrinin payına düşür. Sənayenin müxtəlif sektorlarında fəaliyyət göstərən kiçik təsərrüfat subyektlərinin iqtisadi rayonlar üzrə yerləşməsi isə: Naxçıvan Muxtar Respublikasında 8,6 faiz, Abşeronda 8 faiz, Gəncə Qazaxda 8,9 faiz, ŞəkiZaqatalada 12,5 faiz, Lənkəranda 5,5 faiz, Quba-Xaçmazda 13,4 faiz, Aranda isə 6,5 faizi yerləşir. Regionlarımızın mövcud potensialının reallaşdırılması ilə sahibkarlığın inkişaf sürətinin artırılması üzrə aşağıdakı tədbirlərin reallaşdırılması olduqca zəruridir:

1. sahibkarlıq sahələrinin kreditlə təmininin genişləndirilməsi və əlverişli investisiya mühitinin formalaşdırılmasında bankların və kredit təşkilatlarının rolu artırılmalıdır;
2. istehsal sahibkarlığının inkişafını stimullaşdırmaq üçün dövlət tərəfindən qayğı və himayədarlıq gücləndirilməlidir;
3. kəndli-fermer təsərrüfatlarının fəaliyyətinin iqtisadi səmərəliliyini yüksəltmək üçün aqroservis xidməti yaxşılaşdırılmalı, kənd təsərrüfatı məhsullarının tədarük sistemi yaradılmalıdır;
4. regionlarda yerli kənd təsərrüfatı məhsullarının emal sənayesi müəssisələri yaradılmalı və müasir marketinq xidməti formalaşdırılmalıdır;
5. bazar infrastrukturları yaradılmalı və sahibkarlığın inkişafında onların rolu artırılmalıdır;
6. kiçik biznes üzrə perspektiv formalar hesab edilən texnoloji parkları formalaşdırılmalı və biznes inqibatorların yaradılmalı, sahibkarlığın maliyyələşdirilməsi mənbələri üzrə vençur kapitalından istifadəyə xüsusi diqqət ayrılmalıdır.

Rəqabət sferasının formalaşdırılması və onun müdafiə edilməsi problemi Respublikamız üçün son dərəcə vacibdir. Bu baxımdan da iqtisadiyyatın inhisarsızlaşdırılması, rəqabət mühitinin yaradılması və rəqabət müdafiəsi vacib məsələdir. Təcrübə göstərir ki, dövlətlər yalnız müəyyən şərait və zəmin olduğu halda sahibkarlıq fəaliyyətinə, bütövlükdə iqtisadiyyata müdaxilə etməlidir. İqtisadiyyatın tənzimlənməsi üçün dövlət tərəfindən istifadə edilən iqtisadi yollar həddindən artıq çoxdur, amma onlardan daha əsas olanları vergi, gəlirin və resursların yenidən bölgüsü, dövlətin sahibkarlıq fəaliyyəti, qiymətqoyma, kreditmaliyyə mexanizmləri və sair hesab edilir. Biznes mühiti, eləcə də bütövlükdə iqtisadiyyatı inkişaf etdirmək məqsədilə dövlət uyğun iqtisadi siyasət həyata keçirməlidir. Bu iqtisadi siyasət fiskal, elmi-texniki, investisiya, qiymət, ammortizasiya, kredit-pul kimi tədbirləri özündə əks etdirməlidir.

Dövlətin iqtisadiyyata müdaxilə etməsi üçün şərtlər aşağıdakılar ola bilər:

1. milli təhlükəsizlik tələbi,
2. cəmiyyətdə sosial gərginlik,

3. iqtisadiyyatda neqativ təzahürlər (istehsalın tənəzzülü, inflyasiya, yüksək səviyyədə işsizlik, struktur uyğunsuzluğu, büdcə kəsiri, məhsulun keyfiyyətinin aşağı olması, investisiya çatışmazlığı və s.)

4. ətraf mühitin korlanması.

Əlverişli biznes mühitinin, eyni zamanda investisiya mühitinin formalaşdırılması üçün dövlətin iqtisadiyyata birbaşa müdaxiləsi əvəzinə özəl sektorlar arasında rəqabəti müdafiə edən ümumi bir siyasət aparması doğru istiqamətdə yerinə yetirilmiş gərəkli addımdır.

Sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi bazar münasibətlərinin tələbləri ilə ahəngdarlıq təşkil etməlidir və bu istiqamətdə formalaşan sivil rəqabət amillərinə xüsusi diqqət yetirilməlidir. Belə yanaşma, dünya təcrübəsində olduğu kimi, bazar iqtisadiyyatı yolu ilə inkişaf edən Azərbaycan Respublikasının da qarşısına ciddi tələblər qoyur. Belə tələblər baxımından istehlakçıların seçimləri və onların hüquqlarının qorunması xüsusi zərurətdən çıxış edir. Ölkədə istehlakçıların hüquqlarının müdafiə edilməsi ilə əlaqədar müvafiq qanunvericilik sənədləri qəbul edilsə də, iqtisadi tərəqqinin miqyaslarının genişlənməsi, dünya iqtisadiyyatına ciddi təsir göstərə bilən qlobal proseslər bu sahənin qanunvericilik və hüquqi bazasının inkişaf etdirilməsini zəruriləşdirir. Məhsul növlərinin sertifikatlaşdırılması və standartlaşdırma qaydalarının daha da təkmilləşdirilməsi, məhsulun keyfiyyətinə nəzarət qaydaları və prosedurlarının müəyyənləşdirilməsi xüsusilə üstünlük verilməsi vacib amillərdən hesab edilməkdədir.

Xarici investisiyaların düzgün yönləndirilməsi ölkə iqtisadiyyatı üçün xüsusi əhəmiyyət kəsb edir. İnfrastruktura - yollara, nəqliyyat şəbəkələrinə, kommunal xidmətlərin paylaşdırılması sistemlərinə, su avadanlıqlarına, telekommunikasiya sistemlərinə, sosial aktivlik və xidmətlərə, o cümlədən, gömrük şəbəkələrinə investisiya qoyuluşu yerli və xarici yatırımçılara yerli və qlobal ticarətdən hər cəhətdən faydalanma imkanı yaradır. Buna uyğun olaraq eyni zamanda, insan kapitalına- ixtisaslı kadrların hazırlanmasına, təhsilin, peşə ilə uyğun olan təlimlərin təşkil edilməsinə və eyni zamanda əməyin mühafizəsinə investisiya qoyuluşu ölkəni qlobal cəhətdən daha rəqabətqabiliyyətli edir və göstərir.

İnvestisiya axınlarını cəlb etmək arzusunda olan ölkələr investisiyaların dəstəklənməsi fəaliyyəti ilə məşğul olmalıdır. İnvestisiyaların dəstəklənməsinə müvafiq siyasətin tətbiqi, ölkədə imicin inkişafının təmin etdirilməsi, yatırımların toplanması və yatırımçılara xidmətlərin göstərilməsi daxildir.

Ölkə ərazisində əlverişli biznes, həmçinin investisiya mühitinin formalaşdırılması üçün əsas təkliflər aşağıdakılardır:

1. Dövlətin sahibkarlığa dəstək və onu stimullaşdırılması üzrə siyasətinin stabil olması;
2. Güzəştli vergi rejiminin yaradılması;
3. Etibarlı və operativ bank sisteminin formalaşdırılması;
4. İnformasiya texnologiyaları və infrastruktur vasitələri ilə təminatlılığın yüksək səviyyəyə çatdırılması;
5. Süni müdaxilələrin aradan qaldırılması, firma şəbəkəsinin inkişafı;
6. İntellektual mülkiyyətin davamlı və möhkəm müdafiə sisteminin olması.

## Ədəbiyyat

1. Xarici investisiyaların qorunması haqqında (1992)Azərbaycan Respublikasının Qanunu Bakı.
2. İnvestisiya fəaliyyəti haqqında (1995)Azərbaycan Respublikasının Qanunu Bakı
3. Müəssisələr haqqında (1999) Azərbaycan Respublikasının Qanunu, Bakı
4. Sahibkarlıq fəaliyyəti haqqında" (1992) Azərbaycan Respublikasının Qanunu. Bakı
5. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Bakı
6. Bayramov, A. (2011) Biznes və Menecmentin əsasları. Bakı
7. Əhmədov, A. M. Hüseynov, C. A (2011) "İqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları, Bakı
8. 8.. Əliyev, F. B. (2003) "İnvestisiya layihələrinin təhlili və dəyərləndirilməsi
9. Əzizova, G. A. (2012)"Dövlətin investisiya-innovasiya siyasəti".Bakı.
10. Məmmədov, İ. N. (2012) "Qeyri-neft sektorunun inkişaf istiqamətləri" Bakı.

**Rəyçi: m.ü.e.d. Ömər Faruq**

Göndərilib: 04.03.2022 Qəbul edilib: 20. 04.22

ELMİ TƏDQİQAT Beynəlxalq online elmi jurnal. İmpakt Faktor: 0.543. 2022/ Cild: 2 Sayı: 4
SCIENTIFIC RESEARCH International online scientific journal. Impact Factor: 0.543. 2022 / Volume: 2 Issue: 4 e-ISSN: 2789-6919

DOI: https://www.doi.org/10.36719/2789-6919/08/87-91

**Cavid Elxan oğlu Məmmədli**
Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademıyası
magistrant
cavid_mlee@mail.ru

# SİVİL HÜQUQ VƏ ÜMUMİ HÜQUQ: HÜQUQ SİSTEMLƏRİN MÜQAYİSƏSİ

**Xülasə**
Məqalə cəmiyyətin və dövlətin bütün hüquqi təşkilini əks etdirən hüquq sisteminin növlərindən bəhs edir. Hüquq sisteminin başlıca növləri olan ümumi və sivil hüququn yaranma tarixi və keçdiyi inkişaf dövrləri daxil olmaqla, ümumi prinsipləri və fəaliyyət mexanizmləri müqayisəli təhlil edilmişdir. Bu qruplarla bağlı ABŞ, Fransa, İngiltərə və başqa xarici dövlətlərin təcrübəsinə də müraciət edilərək müqayisəli təhlil aparılmış, müsbət və mənfi tərəflər qiymətləndirilmişdir. Son olaraq mövcud olması məqsədəuyğun və effektiv hesab edilən tövsiyələr məqalənin nəticə hissəsində əks olunmuşdur.
***Açar sözlər***: *Hüquq sistemi; ümumi hüquq sistemi; anqlo-sakson hüquq sistemi; sivil hüquq sistemi; roman-german hüquq sistemi; hibrid hüquq sistemi; müqayisəli hüquq*

**Cavid Elxan Mammadli**

## Civil law and general law: a comparison of legal systems

**Abstract**
The article focuses on different types of legal systems, which reflect the complete legal structure of society and the state. The fundamental principles and processes of action, as well as the history of establishment and development periods of common and civil law, which are the two primary types of legal system, are compared. The experience of the United States, France, England, and other foreign countries was enlisted, and a comparative analysis was conducted, with positive and negative aspects assessed. Finally, the article's conclusion section reflects the eventual ideas, the existence of which is regarded expedient and effective.
***Key words:*** *Legal system; general legal system; Anglo-Saxon legal system; civil law system; Romano-Germanic legal system; hybrid legal system; comparative law*

## Giriş

Hüquq cəmiyyətin üzvləri və təşkilatları arasında münaqişələrin qarşısını almaq və qanuni/qanunsuz seqmentdə baş verdikdə onları həll etmək üçün reallığı yaradır və bunun nəticəsində cəmiyyət üzvlərinə öz aralarında münasibətlərdə davranış üçün normativ istinad nöqtələri təqdim edir. Hüquq bir intellektual sistemdir və üzvlərin münasibətlərində normaları-əsas hüquqları, əsas konstitusiya prinsiplərini, nizam-intizam qaydalarını, məhkəmə presedent hüququ normalarını özündə ehtiva edən intellektual sistemdir. Hüquq sistemləri ölkədən ölkəyə, bəzən isə bir ölkə daxilində dəyişir. Müxtəlif yollarla inkişaf etmələrinə baxmayaraq, hüquq sistemləri də tarixən qəbul edilmiş ədalət ideallarına əsaslanan bəzi oxşarlıqlara malikdir. Hüquq sistemləri hər qrup daxilində bəzi oxşar xüsusiyyətlərə malik qruplara və ya nümunələrə bölünür. Qarşılaşa biləcəyiniz əsas qruplar arasında: 1) ümumi hüquq; 2) mülki hüquq; 3) dini qanun; və 4) adət hüququ. Bir çox ölkələr hibrid sistem yaratmaq üçün eyni vaxtda bu sistemlərdən birdən çoxunu istifadə edirlər. Bu isə məsələnin problemli cəhətini üzə çıxarır.

## Ümumi hüququn yaranma tarixçəsi və təməl prinsipləri

İngilis ümumi hüququ orta əsrlərdə kralın dəyişən və mərkəzləşdirici səlahiyyətlərindən yaranmışdır. 1066-cı ildə Norman fəthindən sonra orta əsr kralları hakimiyyəti birləşdirməyə və yeni kral hakimiyyəti və ədalət institutları yaratmağa başladılar. Kral tərəfindən müəyyən edilmiş yeni hüquqi fəaliyyət formaları, hər biri müəyyən bir səhv hərəkət üçün xüsusi bir vasitə olan fərmanlar və ya kral

əmrləri sistemi vasitəsilə fəaliyyət göstərirdi. Qərarlar sistemi o qədər rəsmiləşdi ki, məhkəmələrin bu sistemə əsaslanaraq tətbiq edə biləcəyi qanunlar ədalət mühakiməsini adekvat şəkildə təmin etmək üçün çox vaxt çox sərt olurdu [1, s.35]. Bu hallarda ədalətin təminatı üçün növbəti müraciət birbaşa krala edilməli idi. Bu çətinlik kralın kanslerinin məhkəməsi olduğu üçün Kanser məhkəməsi kimi də tanınan yeni bir məhkəmə növünü, ədalət məhkəməsini doğurdu [2, s.226]. Ədalət məhkəmələri ədalətli nəticə əldə etmək üçün yalnız ümumi hüququ tətbiq etməkdənsə, bir çox mənbələrə (məsələn, Roma hüququ və təbii hüquq) əsaslanan ədalət prinsiplərini tətbiq etmək səlahiyyətinə malikdir. Beləliklə, məhkəmələr və ədalət məhkəmələri on doqquzuncu əsrin ortalarında yazı sistemi ləğv edilənə qədər ayrı-ayrılıqda fəaliyyət göstərdilər. Bununla belə, bu gün də bəzi ABŞ ştatları ayrıayrı ədalət məhkəmələrini saxlayırlar [3, s.7]. Eyni şəkildə, qanunvericilik aktlarının müasir təcrübəsində hələ də müəyyən növ qərarlar, məsələn, orderlər və çağırışlar mövcuddur. Buna misal olaraq, şəxsi qanunsuz həbsdən qoruyan *Habeas Corpus* sənədini göstərmək olar. Əvvəlcə məhbus tərəfindən və ya onun adından alınan padşahın əmri, *habeas korpus* vərəqəsi məhbusu qanuni hakimiyyət altında saxlanılıb-saxlanmadığını müəyyən etmək üçün məhkəməyə çağırırdı. *Habeas korpus* müəyyən fərdi azadlıqları (ən məşhurlarından biri odur ki, azad insan yaşıdlarının mühakiməsi olmadan həbs oluna və ya cəzalandırıla bilməz) elan edən *1215 Magna Carta* və ya *Böyük Bəyannamə* ilə eyni dövrdə hazırlanmışdır [4, s.573].

Orta əsrlərdə İngiltərədə ümumi hüquq digər ölkələrdə mülki hüquq kimi digər hüquq sistemləri ilə yanaşı mövcud idi. Kilsə məhkəmələri kanon hüququnu, şəhər və kənd məhkəmələri yerli adət hüququnu, kanseriya və dəniz məhkəmələri Roma hüququnu tətbiq edirdilər. Yalnız XVII əsrdə ümumi hüquq digər qanunlar üzərində qələbə çaldı, o zaman Parlament ingilis kralının səlahiyyətinə daimi yoxlama təyin etdi və ümumi qanunu müəyyən etmək və digər qanunları ona köməkçi elan etmək hüququnu iddia etdi. İngiltərədə milli hüquq mədəniyyətinin bu təkamülü erkən müasir dövrdə sivil hüquq ölkələrində milli hüquq sistemlərinin inkişafı ilə eyni vaxtda olmuşdur. Lakin qitədəki hüquq humanistləri və maarifçi alimlərin sivil hüquq ənənələrini, eləcə də milli qanunvericilik və adətləri bölüşməyə çalışdıqları yerlərdə bu dövrün ingilis hüquqşünasları İngiltərənin hüquqi adət və institutlarının unikallığı ilə böyük fəxr edirdilər.

Kodifikasiyaya doğru müasir Avropa hərəkatından ilhamlanan paxıllıqla qarışan bu qürur, ingilis ümumi hüququna dair ilk sistematik, analitik traktatla nəticələndi: Amerika hüququnda Blekstounun işi indi Birləşmiş Ştatların mövcudluğundan əvvəl ümumi hüquq presedentləri üçün qəti mənbə kimi fəaliyyət göstərir [5, s.227].

Amerika hüquq sistemi Şimali Amerika müstəmləkələrinə İngiltərədən gətirilən ümumi hüquq ənənəsi çərçivəsində sərt olaraq qalır. Hələ izləri sivil hüquq ənənəsi və onun yarımsferadakı əhəmiyyəti, bəlkə də Birləşmiş Ştatlarda dövlət hüquqi ənənələrində tapıla bilər. Ən çox diqqət çəkən nümunə Luiziana ştatının 1803-cü ildə Fransadan alınmasından əvvəl Fransa və İspaniya ərazisi olması nəticəsində əyalət qanununun mülki qanuna əsaslandıgı Luiziana nümunəsidir. Cənub-qərb ştatlarının bir çoxu sivil hüquq təsirinin izlərini əks etdirir. Məsələn, Kaliforniyada şəxslərə, əşyalara və hərəkətlərə aid ənənəvi Roma mülki hüquq kateqoriyalarını əks etdirən bölmələrə təşkil edilmiş dövlət mülki məcəlləsi var; buna baxmayaraq, Kaliforniya məcəlləsində olan qanun əsasən ümumi qanundur.

Amerikada presedent əsas mənbə kimi üstünlük təşkil etsə də, maraqlıdır ki, Amerika hüquq ənənəsində Roma mülki hüququnun təsiri hələ də özünü göstərir.

Qurucu atalar və onların hüquq sahəsində təhsil almış müasirləri təkcə Blekstoun kimi ingilis hüquqşünaslarının deyil, həm də görkəmli mülki hüquqşünasların və nəzəriyyəçilərin işini bilirdilər [6, s.389]. Məsələn, Tomas Cefferson Justinian's Institutes-un bir neçə nəşrinə sahib idi və 1812-ci ildə ingilis hüququ ilə paralellər haqqında qeydləri və annotasiyaları ilə ilk tərcümə edilmiş nəşrini Amerika hüquqşünasları üçün faydalı olduguna görə yüksək qiymətləndirdi.

Həqiqətən də, onun istifadəsinin məşhur nümunəsi 1805-ci ildə Pierson Posta qarşı işidir, burada Nyu-York hakimi iki ovçu arasında tülkü üzərində mülkiyyət mübahisəsi ilə baglı məsələyə qərar verərək, təbiətə və təbiətə dair Roma hüququnun prinsipinə istinad edir. Bu gün *Pierson Posta* işi tez-tez Amerika hüquq tələbələrinə öyrədilmiş ilk əmlak hüququ işlərindən biridir [7, s.221].

İngilis-sakson hüququna əsaslanan hüquq sistemi terminologiyası və prosesi ilə tanış olan bir şəxs üçün sivil hüquq sistemləri məchul və çaşdırıcı ola bilər. İngiltərənin orta əsrlərdə Avropanın qalan hissəsi ilə çoxlu mədəni əlaqələri olmasına baxmayaraq, onun hüquqi ənənəsi bir sıra tarixi səbəblərə görə qitənin digər ölkələrindən fərqli inkişaf etmişdir və fikir ayrılığına səbəb olan ən əsas səbəblərdən biri məhkəmə qərarlarının ümumi hüququn, qanunvericilik qərarlarının isə mülki hüququn əsası kimi müəyyən edilməsidir. Tarixə nəzər salmazdan əvvəl bunun nə demək olduğunu qısaca araşdıraq.

Ümumi hüquq ümumiyyətlə məcəlləşdirilməmişdir. Bu o deməkdir ki, hüquqi qaydaların və nizamnamələrin hərtərəfli toplusu yoxdur. Ümumi hüquq qanunvericilik qərarları olan bəzi səpələnmiş qanunlara əsaslansa da, o, əsasən presedentə, yəni oxşar işlərdə artıq qəbul edilmiş məhkəmə qərarlarına əsaslanır. Bu presedentlər zaman keçdikcə məhkəmələrin qeydləri vasitəsilə saxlanılır, eləcə də il kitabları (yearbooks) və hesabatlar kimi tanınan presedent hüququ kolleksiyalarında tarixən sənədləşdirilir. Hər bir yeni iş üzrə qərarda tətbiq ediləcək presedentlər sədrlik edən hakim tərəfindən müəyyən edilir. Nəticədə, hakimlərin Amerika və Britaniya qanunlarının formalaşmasında böyük rolu var. Ümumi hüquq çəkişmə prinsipi ilə fəaliyyət göstərir, iki müxalif tərəf moderatorluq edən hakim qarşısında müdafiələrini həyata keçirirlər və hüquq təhsili olmayan adi insanlardan ibarət andlılar məhkəməsi işin faktları ilə bağlı qərar çıxarır. Bundan sonra hakim münsiflər heyətinin hökmü əsasında müvafiq hökmü müəyyən edir.

Ümumi prinsiplər:

- İşi tənzimləyən qanunlar həm hakimlər tərəfindən yaradılmış hüquqi presedentə, həm də qanunverici orqanlar tərəfindən yaradılmış qanunvericiliyə əsaslanır;
- Adətən çəkişmə sistemi, burada hakim işdə qarşı tərəflər arasında qərəzsiz hakim kimi çıxış edir;
- Münsiflər heyəti faktları müəyyən edə bilər, hakim isə tətbiq olunacaq qanuna qərar verəcək;
- Prokurorların və müdafiəçilərin fəal rolu var;
- Zərərçəkmişlər şahid kimi rola malikdirlər və qurban kimi məlumat almaq və məhdud iştirak hüququna malik ola bilərlər – bununla belə, qurbanlar prosesdə tərəf deyillər.

cinayət işləri;

- ABŞ və Böyük Britaniya ümumi hüquq sistemlərinə nümunədir.

## Sivil hüququn inkişaf yolu və təməl prinsipləri

Sivil hüquq, əksinə, məcəlləşdirilmişdir. Sivil hüquq sistemlərinə malik olan ölkələrdə məhkəmə qarşısına çıxarıla bilən bütün məsələləri, tətbiq olunan proseduru və hər bir cinayətə görə müvafiq cəzanı müəyyən edən hərtərəfli, davamlı yenilənən hüquqi məcəllələr vardır. Bu cür məcəllələr hüququn müxtəlif kateqoriyalarını fərqləndirir: maddi hüquq hansı əməllərin cinayət və ya mülki təqibə məruz qaldığını, prosessual hüquq konkret hərəkətin cinayət əməli olubolmamasının necə müəyyən ediləcəyini, cinayət qanunu isə müvafiq cəzanı müəyyən edir. Sivil hüquq sistemində hakimin vəzifəsi işin faktlarını müəyyən etmək və qüvvədə olan məcəllənin müddəalarını tətbiq etməkdir. Baxmayaraq ki, hakim tez-tez rəsmi ittihamlar irəli sürür, məsələni araşdırır və iş üzrə qərar verir. O, hərtərəfli, məcəlləşdirilmiş qanunlar sistemi ilə müəyyən edilmiş çərçivədə işləyir. Mülki hüququn formalaşmasında hakimin qərarı, məcəllələri hazırlayan və şərh edən qanunvericilərin və hüquqşünasların qərarlarından daha az əhəmiyyət kəsb edir.

Mülki hüquq termini bütün Roma vətəndaşlarına tətbiq olunan qanun olan latın sözü olan *ius sivile* sözündən götürülmüşdür. Onun mənşəyi və modeli eramızın VI əsrində imperator Yustinian tərəfindən hazırlanan Roma hüququnun monumental məcmuəsində tapıla bilər. Yarandığı onilliklər ərzində bu məcmuə Qərb tərəfindən itirilsə də, yenidən kəşf edilmiş və XI əsr İtaliyasında hüquqi təlim üçün əsas olmuşdur və XVI əsrdə Corpus iuris sivilis kimi tanınmağa başlamışdır. Bütün Avropada hüquqşünasların sonrakı nəsilləri Corpus iuris civilis-də qədim Roma hüququnun prinsiplərini müasir ehtiyaclara uyğunlaşdırdılar. Katolik kilsə hüququ və ya kanon hüququnun orta əsr alimləri də mövcud dini hüquqi mənbələri orta əsr mədəniyyətinin, siyasətinin və mədəniyyətinin mərkəzi olan Kilsə üçün öz hərtərəfli hüquq və idarəetmə sistemində topladıqları üçün Roma hüququ elminin təsirinə məruz qalmışdılar [8].

Orta əsrlərin sonlarında sivil hüquq qanunları əksər universitetlərdə tədris olunurdu və Avropanın əksər hissəsi üçün ümumi olan təməl hüquqi düşüncənin əsasını təşkil edirdi.[10] Beləliklə, Roma hüququna əsaslanan orta əsr mülki hüquq ənənəsinin yaranması və təkamülü Avropa hüquqi inkişafının ayrılmaz hissəsi idi. O, qədim Romanın və əsrlər boyu görkəmli hüquqşünasların nüfuzu ilə sərmayə qoyulmuş hüquqi prinsiplər və qaydalar toplusunu təklif etdi və bütün situasiyalar üçün maddi və prosessual hüququ təmin edən hərtərəfli hüquqi məcəllənin imkanlarını təqdim etdi.

Mülki hüquq bütün Avropada tətbiq olunmağa başladıqca, artan Avropa dövlətləri öz fərdi hüquq sistemlərini birləşdirməyə və təşkil etməyə çalışdıqca yerli adət-ənənələrin hüquq mənbəyi kimi rolu getdikcə daha çox əhəmiyyət kəsb edirdi. Erkən müasir dövr boyu bu istək səpələnmiş, bir-birindən fərqli hüquqi müddəaları və yerli adət-ənənə qanunlarını sistemləşdirmək və onları mülki hüququn və təbii hüququn rasional prinsipləri ilə uyğunlaşdırmaq üçün elmi cəhdlər yaratdı [9].

Bu cəhdlərin simvolu Hollandiyalı hüquqşünas Huqo Qrotsiusun 1631-ci ildə yazdığı "Hollandiya hüquqşünaslığına giriş" əsəridir ki, bu əsər Roma hüququ ilə Hollandiya adət-ənənə hüququnu vahid bir bütövlükdə sintez edir. XVIII əsrdə maarifçi hökmdarların islahatçı istəkləri hüquqşünasların qanunları rasionallaşdırmaq, o cümlədən hərtərəfli, sistematik hüquqi məcəllələr hazırlamaq istəyi ilə üst-üstə düşürdü. Avstriyanın 1786-cı il II İosif Kodeksi və 1811-ci il Tam Mülki Məcəlləsi, 1794-cü il Prussiyanın Tam Ərazi Məcəlləsi və 1804-cü il Fransanın Mülki Məcəlləsi (Napoleon Məcəlləsi kimi tanınır). Roma hüququ ənənəsi ilə formalaşan bu cür məcəllələr bugünkü mülki hüquq sistemlərinin modelləridir. Ümumi prinsiplər:

- Qanunların əksəriyyəti presedent əsasında hakimlər tərəfindən deyil, qanunverici orqanlar tərəfindən yaradılmış qanundur;
- Münsiflər heyəti nadir hallarda istifadə olunur; hakim və ya hakimlər kollegiyası faktlar və tətbiq olunacaq qanunla bağlı qərar verir;
- Prokurorlar və müdafiəçilər daha məhdud rol oynaya bilir;
- Bir çox Avropa ölkələri, o cümlədən Fransa və Almaniya və bir sıra Meksika və Braziliya kimi Simali, Mərkəzi və Cənubi Amerika ölkələri mülki hüquq sistemlərinə misaldır.

## Nəticə

Gördüyümüz kimi əksər dövlətlərin hüquq praktikasında aparıcılıq edən hüquq sisteminin iki növü arasında fərqləri nəzərdən keçirdik, lakin bəzi məqamlarda ədalətin təminatı üçün hər iki hüquq sisteminin normalarından istifadə etmək ehtiyacı yarana bilir. Şotlandiya və Cənubi Afrika kimi qarışıq hüquq sistemləri hər iki ənənəvi ailənin aspektlərinin birləşməsi ilə klassik Ümumi Hüquq və Sivil Hüquq sistemlərindən fərqlənir. Buna görə də onlar "hibrid sistemlər" və ya "plüralist yurisdiksiyalar" kimi də tanınır və üçüncü hüquqi ailəni təcəssüm etdirir. Lakin konkret işlərlə bağlı bir hüquq sisteminin digər hüquq sisteminin prinsiplərindən istifadə etməsi həmin sistemin hibrid sistem olması demək deyil.

Ümumi hüquq ilkin olaraq hakimlər tərəfindən qanunvericilik orqanının qəbul etdiyi qanunvericilik əsasında deyil, ayrı-ayrı məhkəmə qərarları vasitəsilə işlənib hazırlanmışdır. Bu sistemdə qanunun çox hissəsi presedent adlanan hakimlərin qərarları ilə qəbul edilir. Hakimlər ümumi hüquq sistemlərində çox vacib olsalar da qanunverici orqanların hələ də oynamalı olduğu bir rol var. Ümumi hüquq sistemləri həmçinin qanunverici orqan və ya parlament tərəfindən qəbul edilən qanunlara əsaslanır və hakimlər qanunverici orqanın qanunlarının fərdi hallarda necə tətbiq olunduğunu şərh etmək roluna malikdirlər. Mülki hüquq sistemləri qanunverici orqan tərəfindən hazırlanmış hüquqi kodekslərə daha çox diqqət yetirir. Mülki hüquq normaları ümumi hüquq sistemlərində olan qanunlardan daha təfərrüatlıdır və məhkəmə qarşısına çıxarıla bilən bütün məsələləri, həyata keçirilməli olan proseduru və müvafiq cəzanı müəyyən edən davamlı yenilənən hüquqi məcəllələri ehtiva edir. Mülki hüquq sistemləri hüquqi şərhlər vermək üçün daha az hakimlərə və daha çox akademik hüquq ekspertlərinə etibar edir. Mülki hüquq sistemində hakimin rolu işin faktlarını müəyyən etmək və qanunverici orqanın yazılı qanunlarını təhlil edib tətbiq etməkdir. Buna görə də məcəllələri hazırlayan və şərh edən qanunvericilər və hüquqşünaslar mülki hüquq sistemlərində vacibdir.

## Ədəbiyyat


1. Ogus "The Contribution of Economic Analysis of Law to Legal Transplants" in The Contribution of Mixed Legal Systems to European Private Law. 35.
2. Annere E. The history of Europe law.. M., 1999, 226.
3. Reid Tulane Law Review 2003, 7.
4. Weir, Zeitschrift für Europäisches Privatrecht 1998, 573.
5. Alexy, Robert, Theorie der Grundrechte. Nomos Verlag Baden-Badenç, 1985, 227.
6. Cardozo, Benjamin N., The Nature of Juridical Process. New Haven: Yale Univ., 1921, 389.
7. Dworkin, Ronald, Is Law a System of Rules, Oxford University, London, 1977, 221.
8. Trubek, L.M. Kransberger (1998): Critical Lawyer. In: Sarat, Austin/S. Scheingold: Cause Lawyering. Political Commitments and Professsional Responsibilities. New York. Oxford University, 1998 251-276 s.
9. Anglo-amerikanischer Rechtskreis; Band III. Mitteleuropaischer Rechtskreis Tübingen: Mohr. Floyd, Timothy W. (1997): Legal Education and the Vision Thing.


**Rəyçi: h.ü.f.d. Samirə Babayeva**

Göndərilib: 04.03.2022 Qəbul edilib: 09. 04.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/08/92-98

**Seymur Teymur Bagirov**
ADA University
master degree
sbaghirov10764@ada.edu.az

# RELATIONS BETWEEN RUSSIA AND THE EUROPEAN UNION: YESTERDAY, TODAY, TOMORROW

**Abstract**

Relations between Russia and the European Union are at a crossroads. They have never been stable. There have always been ups and downs. Periods of disappointment followed moments of expectation and hope. Currently, relationships accumulate many problems, the weight of which reaches a critical threshold. The situation is aggravated by the interest shown by several political forces in the difficulties of cooperation between Moscow and Brussels. Many people try to take advantage of it. Thus, the difficulties suffered become more and more often the subject of political speculation. Prejudices, clichés and solid stereotypes have taken root in the common consciousness, preventing an impartial image of Russia and the European Union. This distortion of reality is beginning to translate into political practices that have created a vicious circle. To break this circle, great efforts are needed. We need political will, a strategic vision of the future, an understanding of the links between Russia and the European Union. We need to understand to what extent these two entities are inseparable and have mutual interests. For the moment, all these conditions are unfortunately not met. This vicious circle must be broken. This is necessary for both parties. All the other scenarios have serious consequences, both for Russia and for the European Union. Their cost is considerable. It is so high that it begins to be prohibitive. A long and meticulous job of rebuilding relations between Russia and the European Union and the development of a new appropriate legal basis taking this reality into account are to be implemented.

***Key words:*** *Russia, European Union, interest, relations, political will, reality*

**Seymur Teymur oğlu Bağırov**

## Rusiya ilə Avropa ittifaqı arasında münasibətlər: dünən, bu gün, sabah

**Xülasə**

Rusiya ilə Avropa İttifaqı arasında münasibətlər yol ayrıcındadır. Onlar heç vaxt sabit olmayıblar. Həmişə yüksəlişlər və enişlər olub. Gözlənti və ümid anlarının ardınca məyusluq dövrləri gəldi. Hal-hazırda münasibətlərdə çəkisi kritik həddə çatan bir çox problemlər toplanır. Vəziyyəti bir neçə siyasi qüvvələrin Moskva ilə Brüssel arasında əməkdaşlığın çətinliklərinə göstərdiyi maraq daha da gərginləşdirir. Beləliklə, məruz qalan çətinliklər getdikcə daha çox siyasi spekulyasiya mövzusuna çevrilir. Qərəzlər, klişelər və stereotiplər ümumi şüurda kök salaraq Rusiya və Avropa İttifaqının qərəzsiz imicinə mane olub. Gerçəkliyin bu təhrifi qapalı dairə yaradan siyasi təcrübələrə çevrilməyə başlayır. Bu dairəni qırmaq üçün böyük səylər lazımdır. Bizə siyasi iradə, gələcəyə strateji baxış, Rusiya ilə Avropa İttifaqı arasında əlaqələrin dərk edilməsi lazımdır. Biz başa düşməliyik ki, bu iki varlıq nə dərəcədə ayrılmazdır və qarşılıqlı maraqlar var. Təəssüf ki, hazırda bütün bu şərtlər yerinə yetirilmir. Bu pis dairəni qırmaq lazımdır. Bu, hər iki tərəf üçün lazımdır. Bütün digər ssenarilərin həm Rusiya, həm də Avropa İttifaqı üçün ciddi nəticələri var. Rusiya ilə Avropa İttifaqı arasında münasibətlərin bərpası və bu reallığı nəzərə alaraq yeni müvafiq hüquqi bazanın işlənib hazırlanması istiqamətində uzun və ciddi iş aparılmalıdır.

***Açar sözlər***: *Rusiya, Avropa İttifaqı, maraq, münasibətlər, siyasi iradə, reallıq*

## Introduction

Stunned by a multitude of repetitive information, muddled by speeches that explain nothing and by opinion leaders whose points of view are reproduced in millions of newspapers, the Russian and European populations are forgetting the fundamental elements (Iran’s nuclear and missle potential, 2009, p.6). The Russian language is largely derived from German, French, English and other languages whose origins can be traced back to the common heritage of the Roman Empire, consisting of its art, law, its traditions and representations. The Russian language has offered several images, words and notions to other languages. For centuries, our peoples lived alongside each other, facing, together or separately, the common evils of pandemics, invasions, natural disasters, sharing victories and great achievements. The historical destinies of Russians and Europeans are closely intertwined in a complex way. The culture that has been created has enriched them by making the spiritual, moral, humanitarian and civilizational components inseparable [Alting von Geusau, 1998, pp.44-54]. Several writers, poets, painters, composers, architects or scientists are considered in fact as Europeans and constitute the glory of European civilization. It suffices to name a few names: Chekhov, Dostoyevsky, Solzhenitsyn, Tolstoy, Tchaikovsky, Rachmaninov, Stravinsky, Kandinsky, Brodsky, Pasternak, Eisenstein, Tarkovsky, Ulanova, Plisetskaya, Oistrakh, Rostropovitch, Lobachevsky, Gagarin. At the same time, Russian culture is inconceivable without the hundreds of names offered to the world by the French, Germans, Spaniards and other European peoples and which the Russians have made their own: from Cervantes, Shakespeare and Goethe to the contemporary postmodernists. At the end of the first millennium AD, Kievan Russia partially absorbed the Byzantine civilization. A few centuries later, it was the Muscovite State which seized the Russian attributes, which had fallen from the hands of the Empire which was weakening, and which formally became its successor, the continuator of its religious and political traditions. Averre, D. [2009, pp.689-713] argues that in the early Middle Ages, Kievan Russia generously shared its knowledge and power with its European allies. The story goes that a Russian princess, who had acceded to the French throne, introduced the tradition of patronizing the arts and education. Being not only educated but scholarly, it had built monasteries and opened schools and libraries while her spouse waged war and attended to more masculine affairs of state. Russia accepted the Tatar invasion. Having protected Central and Western Europe, it gave them an opportunity, of which it was deprived, to advance, to develop rapidly and freely. A few centuries later, they gave it back a hundredfold, generously sharing with Russia the fruits of the Renaissance and the Enlightenment. Masterpieces of Russian architecture were created by French and Italian masters. The Russian Academy of Sciences was founded by Germans. After Peter the Great's reforms, his military campaigns and the capital's move to St. Petersburg, Russia became one of the major European players (Barry, 2008, pp.249-251). Several facts testify to its influence and its “banality”. Viewing the deployment of the Russian fleet with caution, Britain did not send its expeditionary force to restore order to its revolting colony across the Atlantic, which went down in history as the United States. -United of America. During the French Revolution, 300,000 French people found refuge in Russia and started a new life there [Headley, 2012, pp.427-447]. Before the Napoleonic wars, but also after its defeat and the creation of the Holy Alliance, of which it is one of the main countries, Russia participates actively in the European concert. The court of the tsars established multiple parental ties with ruling families in Europe. A little later, France, Great Britain and Russia were united in the Entente Cordiale and fought on the same side in the First World War until 1917. In the same way, during the Second World War, Russia found itself on the same side as all liberated democratic peoples. It suffered the majority of the casualties that were necessary for the victory of the anti-Nazi coalition. And now that the years of totalitarianism and the Cold War are behind her, Russia is fighting alongside other countries against terrorism. The lesson to be learned is quite obvious. Russia and the European Union are not only geographical neighbors. They are part of the family of European peoples. They have the same roots, a common culture and worldview, a common past and future. They need to be together. And it is important that they are in collusion. When they oppose, they condemn themselves and all other countries to misfortune and deprivation. When they unite their resources and their forces, they are able to overcome all misfortunes. We see it through the prism of history, but it also applies today. Whatever the problems, solving them is easier when both parties act together [Figus, 2020, pp.124-136].

## Objective beginnings of the rapprochement

Moscow and Brussels agree on many elements concerning the contemporary system of international relations, as well as on the methods and means of managing them. They are in favor of strengthening the role of the United Nations, considered as the main guarantor of the maintenance of peace and security. Both parties believe that the essential instrument of international relations is law and not force. They are of the opinion that there is no alternative to the law, that all centers of power must contribute to the management of global transformations and that unilateral actions are inadmissible. This affinity creates good bases for the coordination of common positions, the defense of interests and the realization of common actions [Haukkala, 2011, p.149-166].

Moscow and Brussels have an interest in combining their efforts to solve the multiple global problems. First, they must prevent the proliferation of weapons of mass destruction and technologies for building rockets. Russia and some European countries are part of the nuclear club. They master space conquest technologies. They determine the future development of this field. The non-proliferation regime depends on the joint efforts of Russia and the European Union. The EU-Russia summit in Samara [17-18 2007] can be an example of this. The international media constantly talk about the Euro-Russian differences on the Iranian file. In reality, it is otherwise [Kodin, 2019, pp.172-175].

The positions of Russia and the European Union are also close on the issues of climate change, the fight against poverty and development aid. After the signing of the Kyoto Protocol, Brussels launched an extensive campaign around the world, *lobbying* to speed up its ratification and entry into force [Weitz, 2006, p.6]

There is no doubt that the European Union is the main provider of development aid, it grants large sums which far exceed those of Russia. However, we must not forget the number of industrial sites that Russia had built in developing countries, nor its contribution to the training of executives in these countries. In recent years, thanks to its economic rebound, it has also erased the debts of these countries, the amounts of which amounted to tens of billions of euros. Moscow's and Brussels' approaches to development aid imply that it is not enough to provide financial and humanitarian aid, but that it is also necessary to contribute to the internal development of these countries and to build a system of international economic relations more fair.

Without close cooperation between Russia and the European Union, it seems difficult to avert and settle international conflicts. The Cold War is over. However, its end did not allow world powers to benefit from his opportunities. The world has not become more stable in terms of security [Voronov, 2010, p.37]. New devastating conflicts have been added to the conflicts of the past. Some conflicts have shown that they are only frozen. Others continue to appear on the planet and their "explosion" is only a matter of time.

The maintenance of international peace and security is, without doubt, more delicate than ever. Dozens of states are unstable, from Asia to Latin America via Africa such as, for example, the conflict around Taiwan, the partition of the Korean peninsula, the conflicts in Pakistan, in Afghanistan, in Central Asia, the occupation of Iraq, the Kurdish question, the preventive strikes against Iran, the situation in Lebanon, Palestine, Somalia, Darfur, in the African Great Lakes region, in the North-Sahara, or the rebellions in certain Latin American countries. Civil, interstate and interethnic wars kill thousands of people, generate flows of refugees and undermine the foundations of development (Wood, 2017, pp.345-350). They are awful in themselves, all the more so since they constitute a permanent threat to the peace and internal stability of countries. Closer cooperation between Russia and the European Union is therefore an international imperative.

It should be noted that within the European Union and Russia, not everything is perfect. Poverty, unemployment and social isolation affect different social categories and regions, fuel protests and generate extremist or nationalist radicalism. Illegal and massive immigration increases tensions in our societies, generates various and varied phobias, aversion and intolerance (Polikanov, 2018). All of this is happening alongside the fight against organized crime, terrorist networks, human trafficking, drug trafficking, money laundering, abuse of social good and moral degradation. For now, this fight is far from over. The number of drug addicts is increasing. Organized crime is becoming more mobile and seeking new areas. More and more financial resources are allocated to fight terrorism. However, they

could have been used for civilian purposes. National means to deal with these harmful trends are insufficient. Traditional cooperation between security services is no longer enough. To counter these trends, Russia and the European Union must go beyond mere cooperation, because organized crime, terrorism, drug trafficking and money laundering know no borders (Nevskaya, 2020, pp.91-101).

Similarly, Russia and the European Union have an objective interest in economic cooperation. European industries and services would greatly benefit from a transcontinental single market. This would increase the efficiency of economic activities, allow participants to benefit more from mass production, division of labor and growth of capitalization. This would be as advantageous for the Russians as for the Europeans. Within the Union there is a single market. The Russian market is smaller [Danilov, 2021, pp.122-124]. However, it is increasing rapidly thanks to the arrival of petrodollars. The growth rate is higher in Russia than in the Union. The citizen would benefit from economic integration insofar as he could plan his life on a continental scale. It is important to be able to choose the place of your studies, as well as your professional career. In addition to greater economic freedom, this integration will allow a large number of people to access prosperity and a better quality of life.

For the European Union and Russia, it is a “win-win” strategy. Their economies are complementary. Russia abounds in raw materials, vital for the functioning of an economy. The European Union can offer everything Russia needs to modernize its economic system and diversify its branches (risk minimization, investments, advanced technologies, infrastructure, and production chains) (Zheng, 2020, pp.14-15).

**Complicated adventures of bilateral relations**

In the days of the USSR, Moscow had an essentially negative vision of the European Community which was perceived through the prism of political and military confrontation with the United States and NATO, that is to say the forces of social progress in the world *versus* the imperialism of American politics. The European Union was analyzed according to the Marxist-Leninist paradigm that a United States of Europe was either impossible or inherently reactionary [Polanski, 2008, pp.7-9]. Consequently, the European Union was seen as the means to relay the interests of the United States and NATO on the continent and as the association of big capital for an ever more ruthless exploitation of the working class.

The countries of the socialist bloc had bilateral relations with each Member State of the European Union, but not with the Community institutions. Neither the political thaw under Khrushchev nor the policy of peaceful coexistence under Brezhnev was enough to change this ideological perception of the enemy [Lebanidze, 2020, pp.125-130]

Driven by *perestroika* and *glasnost* initiated by Gorbachev, the ideas of universal values and a common home were born. The first and only president of the USSR came to Strasbourg to deliver a speech before the Parliamentary Assembly of the Council of Europe. Under Gorbachev, Moscow recognized that the European Union was a subject of international law [Czerny, 2019, pp.101-104]. The USSR had authorized its allies to enter into trade and cooperation agreements and had done the same. However, despite the best will shown by Gorbachev and the CPSU he led, the USSR was never able to get out of a binary pattern that opposed irreconcilably opposing economic, political and social systems: on the one hand, a socialist regime defended by the USSR and its satellites of the Warsaw Pact, on the other a capitalist regime embodied by the United States,

After Russia was freed from the precepts of the USSR by Yeltsin and put an end to the totalitarian communist regime, a fundamentally different situation arose. The victory of the anti-communist revolution and the accession to power of pro-Western democrats removed the fundamental dispute in relations between Russia and the European Union. Theoretically, all the favorable scenarios were plausible, starting with the dissolution of NATO, the proclamation of Central and Eastern Europe as a neutral and non-aligned zone and even the inclusion of the young Russian democracy in the European structures [Deak et al, 2021, pp.230-232]

However, European officials were not ready for the turn of events. Moreover, Russia did not receive the economic aid necessary to carry out its post-revolutionary reforms. Thus ended the Euro-Russian honeymoon. Russia then returned to the crises caused by the disintegration of its political, economic and social space. The branches of power collided [Pavlov, 2019, pp.67-75]. The presidency, backed by

Western powers, opted for military force to dissolve the democratically elected parliament. However, after the legislative elections of December 1993, the democratic forces supporting Yeltsin failed. If the new Constitution was specially drafted with a view to a victory for the democratic forces, these did not obtain a majority in the Duma. Part of the voters supported the nationalist party of Vladimir Zhirinovsky. Domestic and foreign policy of the Kremlin complied with the vote of the electorate.

The heads of state and government of Western European countries quickly distanced themselves from what was happening in Russia. First, they were occupied with European construction, their priority being the political and economic integration of the countries of Central and Eastern Europe. Then they became hostages to economic decline and strict budgetary discipline [Lukyanov, 2008, p.115]. During this period, the partnership and cooperation agreement between Moscow and Brussels was signed, which crowned two years of tough negotiations. In terms of content, this agreement reproduced the association agreement.

Immediately afterwards, the pretext of a quarrel led the European Union and Russia to become completely angry. In order to put an end to the advanced process of decentralization, the weakened Russian central power chose to wage a “victorious little war” in Chechnya. This campaign had serious consequences for the country's domestic and foreign policy [Manchin, 2004, pp.3-7] Russia's newly formed friendly ties with the rest of the world have been weakened. Relations with the European Union have suffered the most. Almost all the trust capital accumulated up to that point has been lost. The positive agenda in bilateral relations with Brussels has been reduced to nothing. Russia has become the object of a sophisticated smear campaign. First justified because it was based on information from the Russian media, this criticism became more and more blind, preconceived, acquired. This criticism has truly never wavered since, with the exception of the period following September 11, 2001.

The West has positioned itself as a demanding teacher vis-à-vis Moscow, always unhappy with its student, but doing nothing to help him. The Kremlin's impotence has been exacerbated by several factors. No one saw a relevant solution to the Chechen affair. The economy and finances were not in an enviable situation. Production was down dramatically. The factories were no longer working. In fact, the country was in a phase of deindustrialization [Pashentsev, 2019, pp.261-264]. Social segregation was strong. The state was losing control of the economy. The domestic economic space was collapsing. Taxes were paid little or not at all. The federal budget had become derisory, the foreign debt a veritable abyss, the country was simply failing [Godzimirski, 2016, pp.100-105]. The authorities had neither the means, nor the willingness to pay employees and pensioners. According to polls at the time, the president's trust rating fell by as much as 2%, despite his merits. Yeltsin had no chance of being re-elected.

**Conclusion**. Brussels wanted to conduct the dialogue on its terms. The European Union did not want to give up criticizing and lecturing Moscow for actions that did not meet its expectations. The relationship of forces to his advantage encouraged him to act in this way. Moreover, the parties had no experience in the mutual promotion of interests. As soon as action had to be taken, the objectives pursued by the parties were no longer the same and it was therefore necessary to seek compromise. The Partnership and Cooperation Agreement, which entered into force late, could not be of much help. It did not work properly because it did not provide the tools to resolve disputes, build a culture of compromise, prevent unilateral actions and crises. With every improvement came degradation. A retreat followed each advance. Misunderstandings were frequent. Summits often came to nothing concrete or were canceled on the grounds that Moscow's actions in Chechnya were criticized or for reasons such as the lack of freedom of the press, the excessive strengthening of the power of the Kremlin, the imperialist ambitions of Russia on the post-Soviet space, Moscow's opposition to NATO enlargement. Serious differences have also emerged over Kaliningrad. Tensions peaked at the end of 2003. The European Union, by integrating the countries of Central and Eastern Europe, ignored Russian interests. To adapt to Community directives, these countries have abrogated their bilateral agreements with Russia. In response, Moscow refused to include the “new Europe” in the scope of the partnership and cooperation agreement. The diplomatic break was near. The situation has been resolved Moscow refused to include the “new Europe” in the scope of the partnership and cooperation agreement. The diplomatic break was near. The situation has been resolved Moscow refused to include the “new Europe” in the scope of the

partnership and cooperation agreement. The diplomatic break was near. The situation has been resolved *in extremis* before the official enlargement ceremony, during the signing of the protocol including these countries in the agreement.

## References


1. 'Iran's nuclear and missile potential: a joint threat assessment by US and Russian technical experts', East–West Institute, New York, May 2009, p. 6.
2. Alting von Geusau, Frans. (1998). Russia, Europe, and religious freedom. The European Legacy. 3. 44-54. 10.1080/10848779808579877.
3. Averre, D. (2009), 'Competing Rationalities: Russia, the EU and the "Shared Neighbourhood"', *Europe-Asia Studies* 61, no. 10, 689–713. doi: 10.1080/ 09668130903278918
4. Barry, Donald. (2008). Russia, Europe, and the Rule of Law. Review of Central and East European Law - REV CENT EAST EUR LAW. 33. 249-251. 10.1163/092598808X262632.
5. Czerny, Milàn. (2019). Russia-EU: a cooperative approach climate change. Revue Défense Nationale. N° 825. 101-106. 10.3917/rdna.825.0101.
6. Danilov, Dmitry. (2021). Russia-EU political relations: Evolution and prospects. Vestnik of Saint Petersburg University. International relations. 14. 121-138. 10.21638/spbu06.2021.201.
7. David, M. and T. Romanova (2015), 'Modernisation in EU–Russian Relations: Past, Present, and Future', European Politics and Society 16, no. 1: 1–10
8. Deak, Andras & Connolly, Richard. (2021). Russia-EU economic relations: from moderate pull to normative push?.
9. Figus, Alessandro. (2020). European Union and Russia: international relations evolution. Geopolitical, Social Security and Freedom Journal. 3. 124-136. 10.2478/gssfj-2020-0016.
10. Godzimirski, Jakub. (2016). Russia-EU Energy Relations: From Complementarity to Distrust?. 10.1057/9781137502766_5.
11. Haukkala, H. & Ojanen, H. (2011) The Europeanization of Finnish foreign policy: pendulum swings in slow motion, in: C. Hill & R. Wong (Eds) *National and European Foreign Policy: Towards Europeanization*, pp. 149–166 (London and New York: Routledge).
12. Headley, J. (2012), 'Is Russia Out of Step with European Norms? Assessing Russia's Relationship to European Identity, Values and Norms Through the Issue of Self-determination', *Europe-Asia Studies* 64, no. 3: 427–447.
13. Heikka, H. (2005) Republican realism: Finnish strategic culture in historical perspective, *Cooperation and Conflict*, 40(1), pp. 91–119.
14. Kodin, Evgeniy. (2019). T. Snyder. The Road to Unfreedom: Russia, Europe, America. 2019. 172-175. 10.31166/VoprosyIstorii201908Statyi21.
15. Lebanidze, Bidzina. (2020). Russia, EU and the Post-Soviet Democratic Failure. 10.1007/978-3-658-26446-8.
16. Lukyanov, Fyodor. (2008). Russia–EU: The Partnership That Went Astray. Europe-Asia Studies. 60. 1107-1119. 10.1080/09668130802181007.
17. Manchin, Miriam. (2004). The economic effects of a Russia-EU FTA. Tinbergen Institute, Tinbergen Institute Discussion Papers.
18. Nevskaya, Natalia. (2020). The Digitalization of Russia-EU trade. Contemporary Europe. 97. 91-101. 10.15211/soveurope4202091101.
19. Pashentsev, Evgeny. (2019). Global Shifts and Their Impact on Russia-EU Strategic Communication. 10.1007/978-3-030-27253-1_8.
20. Pavlov, N.V.. (2019). Germany–Russia–eu: triangle of cooperation or contradictions?. World Economy and International Relations. 63. 67-75. 10.20542/0131-2227-2019-63-5-67-75.
21. Polański, Zbigniew & Winkler, Adalbert. (2008). Russia, EU Enlargement and the Euro. European Central Bank, Occasional Paper Series. 10.2139/ssrn.1144465.
22. Polikanov, Dmitry. (2018). Russia–EU relations. 10.7765/9781526130860.00015.
23. Richard W. (2006)'Time to give up on missile defense cooperation with Russia', *Aviation Week & Space Technology* 165: 6. Aug. 2006.

24. Voronov, K. (2010) Perceptions of Russia in the European north: signs of the times, *Russian Politics and Law*, 48(6), pp. 35–50.
25. Wood, Steve. (2017). Germany, Russia, Europe: Multilevel politics and the divergent resonance of "history". International Journal: Canada's Journal of Global Policy Analysis. 72. 338-355. 10.1177/0020702017723668.
26. Zheng, Huawei. (2020). Fragile interdependence: the case of Russia-EU relations. Cambridge Review of International Affairs. 1-19. 10.1080/09557571.2020.1839018.

**Rəyçi: s.ü.f.d. Eldar Jafarov**

Göndərilib: 08.03.2022 Qəbul edilib: 15. 04.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/08/99-103

**Aytən Rafiq qızı Hacıyeva**
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası
magistrant
ayten.haciyeva1998@gmail.com

# AZƏRBAYCAN RESPUBLİKASINDA ƏQLİ MÜLKİYYƏT HÜQUQUNUN KONSTİTUSİON HÜQUQİ ƏSASLARI

**Xülasə**

Məqalə əqli mülkiyyət hüququnun anlayışı və əsaslarını konstitusion hüquqi aspektdən tədqiq etmişdir. Eyni zamanda mövzuda əqli mülkiyyət, əqli mülkiyyət obyektləri, əqli mülkiyyət hüquqları sahiblərinin maraqlarının qorunması ilə bağlı yaranan münasibətlər nəzəri olaraq şərh edilmişdir. Araşdırma zamanı Azərbaycan Respublikasının Konstitusiyanda təsbit edilmiş insan və vətəndaş hüquq və azadlıqları əqli mülkiyyət hüququ ilə qarşılıqlı əlaqələndirilmişdir. Bundan əlavə, digər qanunvericilik aktlarında əqli mülkiyyət hüquqlarının müdafiəsinin təmin edilməsi ilə bağlı normalar konstitusion müddəalarla qarşılıqlı təhlil edilmişdir.

***Açar sözlər:*** *Azərbaycan Respublikasının Konstitusiyası, konstitusiya hüququ, insan hüquqları, əqli mülkiyyət hüquqları, əqli mülkiyyət sistemi, intellektual məhsul*

**Ayten Rafig Hajiyeva**

## Constitutional legal bases of intellectual property rights in the Republic of Azerbaijan

**Abstract**

The article explores the concept and basis of intellectual property rights from a constitutional legal perspective. At the same time, the relations related to the protection of intellectual property, intellectual property objects, protection of the interests of the owners of intellectual property rights were theoretically commented on the topic. During the investigation, human and civil rights and freedoms enshrined in the Constitution of the Republic of Azerbaijan were interrelated with the right to intellectual property. In addition, the norms related to the protection of intellectual property rights in other legislative acts have been mutually analyzed with constitutional provisions.

***Key words:*** *The Constitution of the Republic of Azerbaijan, constitution law, human rights, intellectual property rights*

## Giriş

Əqli mülkiyyət anlayışının yaranması, inkişafı ilə bağlı həm hüquqi, həm iqtisadi aspektlərdə problemlər olmuş və həmişə aktual olacaqdır. Çünki əqli mülkiyyət bir institut kimi insan cəmiyyətinin mühüm dəyərlərindən biridir. Tarixən əqli mülkiyyət hüququnun qorunmasının, əqli fəaliyyətin nəticələrinin iqtisadiyyatda tətbiqinin insanın, cəmiyyətin və dövlətin inkişafında böyük faydalar verdiyi müşahidə olunub. Təsadüfi deyil ki, əqli mülkiyyət hüququ dövlət tərəfindən əsas insan və vətəndaş hüquqları və azadlıqlarından biri kimi konstitusion səviyyəyə qaldırılıb və konstitusiya quruluşunun əsaslarından birini təşkil edir.

İnkişafının hər bir mərhələsində olduğu kimi müasir dövrdə də əqli mülkiyyət subyektiv xarakterli olub fərdin intellektual fəaliyyətindən doğsa da, müəyyən mənada cəmiyyətin və hətta dövlətin də maraqlarına təmas edir. Çünki nə vaxtsa intellektual fəaliyyət nəticəsində yaranan əşyalar, predmetlər yalnız öz yaradıcılarına məxsus olub əqli əməyin nəticəsi kimi yaradıcı şəxslərin mülkiyyəti idisə, bu gün bu predmetlərdən hamı istifadə edə bilir və hamı üçün faydalı, eyni zamanda adi bir əşyaya çevrilib.

"Əqli mülkiyyət" anlayışı beynəlxalq aləmdə ilk dəfə olaraq fransa hüququnda işlədilmişdir [Əliyev E. 2014, s. 8]. Fransanın o zamankı qanunvericiliyi təbii hüquqlara əsaslanırdı. Müəlliflik və patent hüququ üzrə Fransa qanunvericiliyi əsərin, yaxud ixtiranın yaradıcısına özündən ayrılmaz, təbiətdən

verilmiş və dövlət institutlarının onu tanımasından asılı olmayan hüquqları bəxş etmişdir [İmanov K.,2013, s. 12]. Bu yanaşma ilə tam razıyıq. Təbii hüquq nəzəriyyəsinə əsasən bu hüquqlar dövlətdən asılı olmayan, insan zəkasından və təbiətindən irəli gələn ideal hüquqlardır [17]. İnsan hüquqlarının nəsillər üzrə təsnifatına görə birinci nəsil hüquqlara aid edilən təbii hüquqlar mahiyyət etibarilə universal hüquqlardır, belə ki, onlar insandan ayrılmazdır və davranış və ya inanclara bağlı deyildir. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır (maddə 24.II) [7]. Təsadüfi deyil ki, Konstitusiyamızda hüquq və azadlıqların düzülüşünə əsasən, insanın təbii hüquqlarından olan yaşamaq, azadlıq, eləcə də mülkiyyət hüququnun ardınca əqli mülkiyyət hüququ yer alır. Əqli mülkiyyət hüququ insanın təbii-mənəvi tələbatından doğan intellektual fəaliyyəti nəticəsində yaratdığı məhsul üzərindəki müstəsna səlahiyyətlərini ehtiva edir.

19-cu əsrdə Avropa ölkələrinin əksəriyyətinin qanunvericilində əqli mülkiyyət hüquqlarına (müəlliflik və patent hüququna) mülkiyyət hüququ mövqeyindən yanaşma geniş yayılmışdı [İmanov K., 2013, s. 13]. Bir çox hüquq ədəbiyyatlarında da əqli mülkiyyət hüququ mülki hüququnun tərkib elementi kimi göstərilsə də, bu yanaşma ilə razı deyilik. Fikrimizcə “əqli mülkiyyət” ifadəsini hərfi mənada təhlil etmək onun məzmununu daha aydın açıqlayacaq. Əqli mülkiyyət iki sözün, əql (ağıl) və mülkiyyət sözünün məzmunca vəhdətindən yaranan ifadədir. Ağıl (əql) ərəb mənşəli söz olub, gerçəkliyin şüurda inikasının ali forması, insanın ətraf aləmə münasibətini tənzimləmə qabiliyyətidir [3, s. 11]. Bu sözün mənasına səthi yanaşaraq qeyd edə bilərik ki, əql insanda düşünmə və dərketmə qabiliyyəti, zəka, şüur, idrak mənalarını özündə əks etdirir. Əqli sözü əqli mülkiyyət termininin tərkib elementi kimi ağıla əsaslanan, ağıla mənsub, ağılla görülən, ağılla olan mənasını ifadə edir. Mülkiyyət sözü isə hərfi mənasında mənsubiyyət, aidiyyət, yiyəlik, sahiblik çalarları olmaqla, bir şəxsə məxsus və onun ixtiyarında olan əmlak, şey anlamını özündə əks etdirir [AİL. 2006, s. 421]. Azərbaycan Respublikasının Konstitusiyasının 29-cu maddəsinə əsasən mülkiyyət hüququ dedikdə, mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək hüquqları nəzərdə tutulur. Mülkiyyət hüququndan fərqli olaraq əqli mülkiyyət hüququ insanın zəkası, intellektual əməyi nəticəsində yaradılan qeyri-maddi əmlaka sahiblik, ondan istifadə və onun barəsində sərəncam hüquqlarını özündə birləşdirir.

Əmlaka sahiblik, ondan istifadə və onun barəsində sərəncam hüquqları kateqoriyası mülkiyyət hüququ ilə oxşarlıq təşkil etsə də, intellektual məhsulla bağlı hüquqlar kateqoriyası öz təbiəti etibarı ilə ayrılmaz olan şəxsi, qeyri-əmlak hüquqlarıdır. Bu baxımdandır ki, fəlsəfi aspektdən baxdıqda, əqli mülkiyyət hüququ təbiətin yaradıcı fərdə — insana bəxş etdiyi, öz əməyinin nəticələrinə olan müstəsna, ayrılmaz hüquqdur. Doğrudur, əqli mülkiyyətin maddi əmlakla bir çox xüsusiyyətləri üst-üstə düşür. Əqli mülkiyyət də digər mülkiyyət növlərində olduğu kimi alqı-satqı edilə, icarəyə verilə, dəyişdirilə, yaxud əvəzsiz verilə bilər. Məsələn, mülki hüquqi müqavilə olan françayzinq müqaviləsinin predmetini əqli mülkiyyətdən istifadə hüquqlarının verilməsi təşkil edə bilər (maddə 731.1) [10]. Lakin əqli mülkiyyət hüququnun obyeki (intellektual mülkiyyət) mücərrəddir, o ilk əvvəl maddi olaraq mövcud olmur. Bu hüququn obyekti canlıların ən alisi olan insanın yalnız ona xas xüsusiyyətləri — ağıl, şüur, düşünmək bacarığı sayəsində dərin zehni, mənəvi və hissi proseslərdən doğaraq maddi aləmdə mücərrədləşir, predmetə çevrilir. Əqli əməyin nəticəsi, əsasən, əsər, digər yaradıcılıq məhsulu formasında maddiləşir, bununla da üçüncü şəxslər tərəfindən istifadə oluna, hətta mənimsənilə bilir. Buna görə əqli mülkiyyət obyektinin yaradıcısına qanunla onun “mülkiyyətini” qoruyan hüquqlar verilir.

Azərbaycan Respublikasında əqli mülkiyyət hüququ və onun növləri ilk dəfə Azərbaycan Respublikasının 12 noyabr 1995-ci il tarixli Konstitusiyasında təsbit edilmişdir. Konstitusiyamızın 30-cu maddəsinə əsasən, hər kəsin əqli mülkiyyət hüququ vardır və müəlliflik hüququ, ixtiraçılıq hüququ və əqli mülkiyyət hüququnun başqa növləri qanunla qorunur. Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan Respublikasında ən yüksək hüquqi qüvvəyə malik olub, Azərbaycan Respublikasının qanunvericilik sisteminin əsasıdır (maddə 147.I, 147.III) [7]. Bu baxımdan, əqli mülkiyyətlə bağlı hüquq münasibətlərini tənzimləyən fundamental normalar konstitusiyada məhdud əks olunsa da, bu münasibətləri nizamlayan konstitusion hüquq normaları əqli mülkiyyət hüquqlarını tənzimləyən hüquq normalarından daha üstün hüquqi qüvvəyə malikdir.

Əqli mülkiyyət hüquqlarını geniş əhatə edən bu normalar məhz konstitusiyanın təməl müddəalarına əsaslanır. Çünki əqli mülkiyyət hüququ əsas insan hüquqlarından biri kimi predmeti olan mənəvi-zehni məhsulların dövlət tərəfindən qorunmalı olduğu hüquqlardandır [Alkan S. 2005. s. 1]. Azərbaycan Respublikasında əqli fəaliyyətin stimullaşdırılması, əqli mülkiyyət hüququnun qanunvericiliklə qorunması dövlətin insan hüquq və azadlıqlarına böyük dəyər verdiyinin bariz nümunəsidir.

Həm Konstitusiyada, həm də əqli mülkiyyət və onun növləri ilə əlaqədar sonrakı dövrlərdə qəbul edilmiş qanunlarda *əqli mülkiyyətin* ümumi anlayışı hələ də mövcud deyil. Lakin müasir qanunvericilikdə *əqli mülkiyyət hüququnun* anlayışı geniş şəkildə öz təsbitini tapmışdır. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü bəndinə uyğun olaraq 22 may 2012-ci il tarixində qəbul edilmiş "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının qanununa əsasən əqli mülkiyyət hüquqları dedikdə, müəlliflik hüququnun obyekti olan əsərlərə, ifalara, fonoqramlara, yayım təşkilatlarının verilişlərinə, inteqral sxem topologiyalarına, məlumat toplularına, folklor nümunələrinə (ənənəvi mədəni nümunələrə), ixtiralara, faydalı modellərə, sənaye nümunələrinə, əmtəə nişanlarına, coğrafi göstəricilərə hüquqlar başa düşülür (maddə 1.0.1). Bundan əlavə müasir qanunvericilik aktları əqli mülkiyyət hüququnun tənzimlədiyi münasibətlərin dairəsini geniş şəkildə əks etdirir. Dövlət hüquq normaları vasitsilə əqli mülkiyyət hüquqlarının müdafiəsinin təmin edilməsi, əqli mülkiyyət hüquqları sahiblərinin maraqlarının qorunması və bu sahədə hüquqpozmaların, o cümlədən müvafiq əqli mülkiyyət obyektlərinin nüsxələrinin qeyri-qanuni istehsalı və yayılmasının qarşısının alınması ilə bağlı yaranan münasibətləri tənzimləyir [13].

Konstitusiya ilə hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir (maddə 60.I) [7]. Əqli mülkiyyət hüquqlarının pozulması inzibati (müəlliflik hüquqlarını və ya əlaqəli hüquqları pozma, inteqral sxem topologiyasından istifadəyə müstəsna hüququn pozulması, folklor nümunələrindən istifadə tələblərinin pozulması, məlumat toplularından qeyri-qanuni istifadə edilməsi və əmtəə nişanlarından qanunsuz istifadə) [9] və cinayət (müəlliflik hüquqlarını və ya əlaqəli hüquqları pozma, inteqral sxem topologiyasından istifadəyə müstəsna hüququn pozulması, folklor nümunələrindən istifadə tələblərinin pozulması, məlumat toplularından qeyri-qanuni istifadə, ixtiraçılıq və patent hüquqlarını pozma və əmtəə nişanlarından qanunsuz istifadə) [8] məsuliyyətinə səbəb olur. Bu kateqoriya inzibati xətalar və cinayətlər müvafiq qanunvericilik aktlarında insan və vətəndaşın konstitusiya hüquq və azadlıqları əleyhinə olan əməllər sırasında qeyd olunub. Lakin qanunverici əmtəə nişanına iqtisadi kateqoriya kimi yanaşaraq ondan qanunsuz istifadəni iqtisadi fəaliyyət sahəsində olan hüquq pozuntularına aid etmişdir [8], [9]. Çünki əqli mülkiyyət hüquqları patentin, əmtəə nişanının və ya müəlliflik hüququnun sahibinə öz işindən və ya sərmayəsindən faydalanmağa imkan yaratdığı üçün əqli fəaliyyətin maddiləşmiş obyektləri növündən asılı olaraq özündə ehtiva etdiyi yaradıcı ideyalar baxımından müəyyən kommersiya dəyərinə malikdir.

Müəlliflik hüquqlarını və ya əlaqəli hüquqları pozma (CM, maddə 165.1) və ixtiraçılıq və patent hüquqlarını pozma (CM, maddə 166.1) ilə bağlı cinayət əməllərinin təqibi *(xüsusi ittiham qaydasında cinayət təqibi)* yalnız əqli mülkiyyət hüquqlarının sahibinin — zərər çəkmiş şəxsin şikayəti əsasında həyata keçirilir və məhkəmə müşavirə otağına gedənədək zərər çəkmiş şəxs təqsirləndirilən şəxslə barışdıqda ona xitam verilir (maddə 37.2) [12]. Bu əməllərlə bağlı cinayət təqibinin başlamasının və ona xitam verilməsinin əqli mülkiyyət hüquqlarının sahibinin iradəsindən asılı olması onu deməyə əsas verir ki, bu hüquqlar insanın təbii, şəxsi hüquqlarındandır.

Bütün məhkəmələrdə işlərin icraatı açıq aparılır [7]. Lakin əqli mülkiyyət hüquqları müəyyən kommersiya dəyəri daşıdığından, məhkəmənin, açıq icraatın kommersiya sirrinin açılmasına səbəb olacağını güman etdiyi halda (maddə 127.V) [7] və ya məhkəmə baxışında iştirak edən şəxsin tələbi olarsa, ixtira sirrini qorumaq məqsədi ilə işə qapalı iclasda baxılmasına icazə verilir (maddə 10.4) [11].

İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının, eləcə də əqli mülkiyyət hüququnun həyata keçirilməsini heç kəs məhdudlaşdıra bilməz (maddə 71.II.) [7]. Bu konstitusion müddəa əsasında 14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanlara da qanun ixtiyar verir ki, valideynlərinin, övladlığa götürənlərin və ya himayəçinin razılığı olmadan müstəqil surətdə ədəbiyyat və ya incəsənət əsərinin, ixtiranın və ya qanunla qorunan digər əqli fəaliyyət nəticəsinin müəllifi hüquqlarını həyata keçirsinlər (maddə 30.2.2) [10]. Qanunun bu norması şəxsi hüquqlar kateqoriyasına aid etdiyimiz əqli mülkiyyət hüquqlarının azad təbiətindən qaynaqlanır. Eləcə də, Azərbaycan Respublikasının

Konstitusiyasına və digər qanunvericilik aktlarına əsasən vəzifəli şəxslərə xidməti vəzifəsini (səlahiyyətlərini) icra etdiyi dövrdə elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, digər ödənişli vəzifə tutmaq və ya fəaliyyət növü ilə məşğul olmaq qadağan edilir və bu hərəkətlər korrupsiyaya şərait yaradan hüquqpozmalar sayılır (maddə 9.3.1) [16], [7]. Qanunvericiliklə müəyyən edilən bu tələbdə elmi fəaliyyətin, yaradıcılıq fəaliyyətinin istisna edilməsi ona dəlalət edir ki, əqli mülkiyyət hüquqları ilə birbaşa bağlı olan bu hüquq hər kəsin eləcə də vəzifəli şəxslərin ayrılmaz şəxsi qeyri-əmlak hüquqlarıdır.

Əqli mülkiyyət hüququna konstitusiya hüquqi aspektdən baxılarkən yalnız Konstitusiyanın 30-cu maddəsi nəzərə alınmamalıdır. Konstitusiyamızda müstəqil olaraq təsbit olunmuş bir sıra hüquq və azadlıqlar əqli mülkiyyət hüququnun konstitusion hüquqi realizəsi, təmini və müdafiəsinin bazisini təşkil edir. Bu hüquq və azadlıqlara aşağıdakıları aid etmək olar: yaradıcılıq azadlığı (maddə 51), fikir və söz azadlığı (maddə 47), mədəniyyət hüququ (maddə 40), təhsil hüququ (maddə 42), məlumat azadlığı (maddə 50) və s.

Mədəniyyət, elm, təhsil və yaradıcılıq bir-birinə çox yaxın olan anlayışlardır. Təhsil mədəniyyətin bir hissəsini təşkil edir. Yaradıcılıq mədəniyyəti inkişaf etdirir və zənginləşdirir [Əsgərov Z.A. 2012, s. 240]. Bir əsərinin müəllifi əqli mülkiyyət hüququnun fonunda yaradıcılıq azadlığını realizə edərək, eyni zamanda mədəni həyatda da iştirak edir. Mədəni həyat ümumi və mürəkkəb anlayış olduğu kimi, mədəniyyət də olduqca mürəkkəb və mücərrəd anlayışdır. Mədəniyyət hüququ o dərəcədə ümumidir ki, başqa hüquq və azadlıqlarda olduğu kimi, əqli mülkiyyət hüququnun predmetinə daxil olan bir çox anlayışları mədəniyyət hüququ ilə əlaqələndirmək, əhatə etmək mümkündür. Mədəniyyət ədəbiyyat və incəsənət daxil olmaqla, cəmiyyətin və ya sosial qrupların maddi, mənəvi, intellektual və emosional xüsusiyyətlərini müəyyənləşdirən, insanların həyat tərzini, birgə yaşayış qaydalarını, mənəvi dəyərlər sistemini əhatə edən xüsusiyyətlərin məcmusudur (maddə 1.0.1) [14]. Mədəniyyət hüququnun obyektləri ilə əqli mülkiyyət hüququnun obyektləri müəyyən qədər eyniyyət təşkil edir. Mədəniyyət hüququnun obyektinə mədəni sərvətləri aid etmək olar (maddə 1.0.21) [14]. 6 fevral 1998-ci il tarixli "Mədəniyyət haqqında" Azərbaycan Respublikasinin Qanununa əsasən mədəni sərvətlər dedikdə folklor, bədii sənət və peşələr, mədəniyyət, o cümlədən ədəbiyyat və incəsənət əsərləri, nəşriyyat məhsulları, mədəniyyət sahəsində elmi tədqiqatların nəticələri və metodları, tarixi-mədəni əhəmiyyətə malik binalar, tikililər, əşyalar, tarixi-mədəni əhəmiyyətli unikal təbii ərazilər və obyektlər, məqbərələr, qoruqlar, arxeoloji komplekslər, arxeoloji və numizmatik xarakterli əşyalar və s. nəzərdə tutulur (maddə 1.0.21).

Əqli mülkiyyət obyektinin yaranması, formalaşmasının mərkəzində intellektual fəaliyyətlə vəhdət təşkil edən insanın yaradıcılıq qabiliyyəti dayanır. Hər bir fəaliyyət yaradıcı yanaşmanı, axtarışı və yeniliyi tələb edir. Yaradıcılıq hər bir fərdin müəyyən dərəcədə malik olduğu və yalnız insana məxsus olan əlamətdir [Əsgərov Z.A. 2012, s. 242]. Yaradıcılıq hüququ demokratik dövlətlərdə qanunvericiliklə qorunur və ona xüsusi diqqət yetirilir. Hər kəsin yaradıcılıq azadlığı və bu azadlığın həyata keçirilməsinin dövlət təminatı Azərbaycan Respublikası Konstitusiyası ilə də təsbit olunmuşdur (maddə 51). Yaradıcılıq ünsürləri hər yerdə, hər sahədə az və ya çox mövcuddür. Lakin elə fəaliyyət növləri vardır ki, onlar xüsusi yaradıcı, məhsuldar fəaliyyətdir, yaratmaq, qurmaq onun əsasını və daxili mahiyyətini təşkil edir. Yaradıcılıq fəaliyyəti **mədəni sərvətlərin** yaradılmasına yönəlmiş fəaliyyətdir (maddə 1.0.24) [14]. Yaradıcılıq intellektual-psixoloji fəaliyyət olub əqli mülkiyyət obyektlərinin *(mədəni sərvətlərin müəyyən kəsimini də aid etmək olar)* formalaşmasında bilavasitə təzahür edir. Bu qəbildən sayılan əqli fəaliyyətin maddiləşmiş təzahürləri yəni, əsərlər, ifalar, fonoqramlar, folklor nümunələri, ixtiralar, faydalı modellər, sənaye nümunələri, əmtəə nişanları və sair yaradıcılıq fəaliyyətinin nəticələri yaradıcılıq azadlığı təmin olunmadan meydana çıxa bilməz.

Təhsil hüququ insanın konstitusiyada təsbit olunmuş əsas sosial-mədəni hüquqlarından biridir və hər bir vətəndaşın təhsil almaq hüququ vardır (maddə 42.I) [7]. Dövlət təhsil sisteminə nəzarət etməklə bərabər, maddi vəziyyətdən asılı olmayaraq istedadlı şəxslərin təhsili davam etdirməsinə zəmanət verir (maddə 42.IV) [7]. Azərbaycan Respublikasında təhsilin əsas məqsədləri sırasında müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək durur (maddə 4.0.1) [15]. 19 iyun 2009-cu il tarixli "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən təhsil sahəsində dövlət siyasətinin əsas prinsiplərindən biri elmi yaradıcılığın daim inkişaf edən, faydalı və son nəticəyə istiqamətlənən müasir metodlarla təşkilidir (səmərəlilik prinsipi) (maddə 3.0.6). Elmi yaradıcılıq özü-özlüyündə intellektual

fəaliyyət olub, bu əqli prosesin maddi təzahürü elmi əsərlərdə, elmi tədiqiqatların nəticələrində, elm sahəsində ixtiralarda və sairdə əks olunur. Elmi yaradıcılıq məhsulları əqli mülkiyyət hüququnun əsas obyektləri sırasındadır.

İnsanın mənəvi həyatı ilə birbaşa bağlı olan fikir və söz azadlığı onun daxili ailəminin, xüsusilə də intellektual-mənəvi tərəflərinin təzahür formasıdır. Hər kəsin fikir və söz azadlığı vardır. Heç kəs öz fikir və əqidəsini açıqlamağa və ya fikir və əqidəsindən dönməyə məcbur edilə bilməz (maddə 47.I, 47.II) [7]. Hər bir şəxs yalnız öz arzusu ilə fikrini açıqlaya bilər. Dil fikrin maddiləşmiş forması olduğu kimi, söz də fikri maddiləşdirən, onu başqaları üçün qavranılan hala salan bir vasitədir [Əsgərov Z.A. 2012, s. 166]. Əlbəttə, insan öz iradəsi ilə fikrini təkcə sözlərlə yox, musiqi ilə, rənglərlə, fiqurlarla, xətlərlə, tonlarla, kompozisiyalarla və sairlə ifadə edə bilər. Belə ki, fikir bioloji ailəmin ən mükəmməl ünsürü olan insanın özünəməxsus xüsusiyyəti olub, ən müxtəlif formalarda, eləcə də intellektual məhsullarda əksini tapır. Əqli fəaliyyətin xarici ifadə forması olan intellektual əmlak bilavasitə insanın azad fikrinin təzahürüdür. Bu səbəbdən əqli mülkiyyət hüququnun təmin olunması bir çox aspektlərdən fikir və söz azadlığı ilə vəhdət təşkil edir.

## Nəticə

Ümumdünya Əqli Mülkiyyət təşkilatının Cenevrədə yerləşən mənzil-qərargahının günbəzində Doktor Arpad Boqşa məxsus dəyərli ifadələr qeyd olunmuşdur: "Bütün incəsənət əsərləri və ixtiralar insan dühasından yaranır. Bunlar insanın layiqli həyatı üçün təminat mənbəyidir. İncəsənət və ixtiraların bütün növlərinin etibarlı qorunması dövlətin borcudur" [İmanov K. 2013, s. 4]. Bu əhəmiyyətli sözlərin işığında qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının əqli mülkiyyət sahəsində dövlət siyasəti, yaradıcı, əqli əməyə ictimai münasibət müstəqil dövlətimizin hüquqi demokratik əsaslarla insan hüquq və azadlıqlarının bu vacib sahəsində düşünülmüş və uzaqgörən məramının əksidir.

## Ədəbiyyat

1. Əsgərov Z.A. (2012) Konstitusiya hüququ". Dərslik. Bakı: Bakı Universiteti nəşriyyatı.
2. Əliyev E. (2014) "Avropa əqli mülkiyyət hüququ". Bakı: "Uniprint" nəşriyyatı.
3. Əhmədov B.İ. (2017) Etimologiya lüğəti". Araşdırmalar, mülahizələr: Bakı: Altun kitab.
4. Azərbaycan dilinin izahlı lüğəti. (2006) Dörd cilddə. III cild. Bakı; Şərq-Qərb.
5. İmanov K, İsayev N. (2013) "Əqli mülkiyyət hüquqları". Məqalələr toplusu. Bakı; Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi.
6. Alkan S. (2005) Fikri mülkiyyət haqları. İstanbul: Legal Fikri ve Sənaye Haqlar Dərgisi,
7. http://e-qanun.az/framework/897 // AR Konstitusiyası
8. https://e-qanun.az/framework/46947# Toc89058513 // AR Cinayət Məcəlləsi
9. https://e-qanun.az/framework/46960#f21 // AR İnzibati Xətalar Məcəlləsi
10. https://e-qanun.az/framework/46944 // AR Mülki Məcəlləsi
11. https://e-qanun.az/framework/46945 // AR Mülki Prosessual Məcəlləsi
12. https://e-qanun.az/framework/46950 // AR Cinayət Prosessual Məcəlləsi
13. https://e-qanun.az/framework/23895 // "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" AR Qanunu
14. https://e-qanun.az/framework/25303 // "Mədəniyyət haqqında" AR Qanunu
15. https://e-qanun.az/framework/18343 // "Təhsil haqqında" AR Qanunu
16. https://e-qanun.az/framework/5809 "Korrupsiyaya qarşı mübarizə haqqında" AR Qanunu
17. https://www.encyclopedia.com/philosophy-and-religion/philosophy/philosophy-terms-and-concepts/natural-law //

**Rəyçi: h.ü.f.d. Fəxrəddin Nağıyev**

Göndərilib: 11.03.2022 Qəbul edilib: 17. 04.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/08/104-107

**Töhfə Etibar qızı Abdullayeva**
Bakı Dövlət Universiteti
magistrant
tohfa.abdullayeva1@gmail.com

# İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİL İNSTİTUTUNUN TƏSİS EDİLMƏSİNİ ZƏRURİ EDƏN AMİLLƏR

**Xülasə**

Bəşər tarixinin inkişafı boyu insan hüquqlarının təminatı və müdafiəsi beynəlxalq hüququn əsas problemlərindən olmuşdur. Hüquqi və demokratik dövlət quruculuğu müasir standartlara cavab verən hüquqların təminatı mexanizminin qurulmasını zəruri edir. Azərbaycan Respublikası 18 oktyabr 1991-ci il tarixli konstitusiya aktı ilə müstəqilliyini bərpa etdikdən sonra hüquqi dövlət ideyasının reallığa çevrilməsi baxımdan insan hüquqlarının müdafiəsi mexanizmlərinin qurulması istiqamətində mühüm addımlar atılmışdır.

Vətəndaşların hüquqlarının müdafiəsi üzrə xüsusi təsisat kimi Ombudsman demokratiyanın, vətəndaş hüquqlarının, qanunun aliliyinin, dövlət idarəçiliyində islahatların təşviqi və hüquqların pozulması halları ilə mübarizə aparan mexanizm hesab edilə bilər.

***Açar sözlər***: *hüquq, insan hüquqları, ombudsman, müdafiə*

**Tohfa Etibar Abdullayeva**

## Factors necessitating the establishment of the institution of the commissioner for human rights

**Abstract**

Throughout the history of mankind, the the provision and protection of human rights has been one of the main problems of international law. Building a legal and democratic state makes it necessary to establish a mechanism to ensure rights that meet modern standards. After the restoration of the independence of the Republic of Azerbaijan by the constitutional act of October 18, 1991, important steps were taken to establish mechanisms for the protection of human rights in order to make the idea of the rule of law a reality.

As a special institution for the protection of citizens' rights, the Ombudsman can be considered a mechanism for promoting democracy, civil rights, the rule of law, public administration reform, and combating human rights abuses.

***Key words***: *right, human rights, ombudsman, defense*

## Giriş

Azərbaycan Respublikasının Konstitusiyası təsbit edir ki, hər bir kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır. Dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir. Hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır. [1, maddə 24, 26]

Müasir dövrdə ölkəmizdə insan hüquqlarının müdafiəsi sahəsində bir sıra mexanizmlər (inzibati müdafiə, məhkəmə müdafiəsi, qanunların icrasına prokuror nəzarəti və s.) fəaliyyət göstərir. Lakin sadalanan mexanizmlər kifayət qədər səmərəli hesab edilmir. Çünki həmin mexanizmlər ayrı-ayrı situasiyalarda hüquqların müdafiəçisi kimi çıxış etsə də, insan hüquqlarının müdafiəsi sahəsində ixtisaslaşmış orqanlar deyildir.

İnsan hüquqların müdafiəsi sahəsində ixtisaslaşmış orqanların fəaliyyət göstərməsi hüquq pozuntularının qarşısının alınması və müraciətlərə qısa müddətdə baxılmasın təmin edilməsi nöqteyi-nəzərindən mühüm əhəmiyyət kəsb edir. Dünya təcrübəsində insan hüquqlarının müdafiəsi iki

səviyyədə aparılır: beynəlxalq və daxili səviyyədə. Dövlətdaxili müdafiə mexanizmlərindən əsas orqan olaraq ombudsman çıxış edir. Hazırda bu institut dünyanın 100-dən çox ölkəsində fəaliyyət göstərir.

Qədim isveç sözü olan olan "Ombudsman" "ombud" (nümayəndə, vitse) və man (şəxs) sözlərindən ibarətdir. Bir təsisat kimi Ombudsman termininə gəlincə, bu, parlament tərəfindən parlamenti təmsil etmək üçün seçilmiş şəxs və ya şəxsləri ifadə edirdi. Ombudsmanın türk dillərində qarşılığı isə vasitəçi, ictimai nəzarətçi, ictimai hakim, xalq vəkili, parlament komissarı və s. kimi müxtəlif mənalarda ifadə edilir[Sander G., 2013, s.9].

Ombudsman institutu öz təbiətinə görə, insanları hüquqlarının pozulmasından, səhlənkarlıqdan və dövlət idarəçiliyinin ədalətsiz qərarlarından qorumaqla məşğul olan müstəqil qurum və ya fiziki şəxsdir [Batalli M. 2015, s.232]

Müxtəlif ölkələrin qanunvericiliyində bu institutun adlandırılması və fəaliyyəti qaydası fərqlidir. Hazırda Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi sahəsində ixtisaslaşmış qurum olaraq İnsan hüquqları üzrə müvəkkil fəaliyyət göstərir.

Azərbaycan Respublikasının insan hüquqları üzrə Müvəkkili vəzifəsi Azərbaycan Respublikası Konstitusiyasında və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş və Azərbaycan Respublikasının dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxsləri tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi və Konstitusiya Qanunu ilə müəyyən edilmiş hallarda insan hüquqları pozuntularının qarşısının alınması üçün təsis edilir. [4, maddə 1.1.]

Azərbaycan Respublikasında insan hüquqları üzrə müvəkkil institunun təsis edilməsi tarixi zərurətdən irəli gəlmişdir.

Bildiyimiz ki, Azərbaycan 70 ildən artıq SSRİ-nin tərkibində olmuşdur. Həmin dövrdə kommunist ideologiyasının fərqli zehniyyətinə uyğun olaraq həyatın bütün sahələrində yeni qurumlar yaradılmışdır. Bu sistemdə iqtisadi həyat tamamilə dövlətin inhisarında idi. Dövlət kommunist ideologiyasının göstərdiyi məqsədlərə çatmaq üçün təkcə iqtisadi həyatı inhisara almamış, həm də həyatın digər sahələrinə də müdaxilə etmişdir. Mənəvi, mədəni və digər bütün bəşəri dəyərlər kommunist partiyasının maraqlarına yönəlmişdir. Dövlətin bütün alətləri kommunist partiyasının əlində olduğundan və partiyanın məqsədləri hər şeyin önündə olduğundan insan hüquqları məsələsi nəzarətdən kənarda qalmışdır.

SSRİ dövründə KP-nin iradəsi bütün qanunlardan öndə gəldiyi üçün SSRİ-də qəbul edilən konstitusiya qanunları qərb dövlətlərində olduğu qədər ciddi mexanizmlər yarada bilmirdi. 1935-ci ildə qəbul edilən və "Stalin Konstitusiyası" kimi tanınan SSRİ Konstitusiyası dövrün ən demokratik konstitusiyalarından biri kimi qiymətləndirilirdi. Siyasi, iqtisadi, sosial və mədəni hüquq və azadlıqlar Konstitusiyanın birinci hissəsini təşkil edirdi. Ünsiyyət azadlığından tutmuş şikayətə qədər geniş hüquq və azadlıqlar ictimaiyyətə təqdim edilmişdir [Əkbərov F. 2001, s.110-112]

Real həyatda baş verənlər isə qanunvericilikdə göstərilənlərin tam əksi idi. Rəhbərlik tərəfindən təhlükəli hesab edilən şəxslər ən kiçik ehtimallarda belə, məhkəməsiz edamlara, cəzalara məruz qalmışdır. Milyonlarla insan ya edam edilmiş, ya da sadəcə olaraq qohumları sovetlərdən əvvəl varlı və ya o dövrün hörmətli adamları olduğu üçün sistem üçün təhlükəli hesab edilmişdirlər. Xüsusilə, Stalin dövründə KP top-menecerlərinin iradəsi qanundan qat-qat yüksək olduğu üçün Konstitusiyada nəzərdə tutulan hüquq və azadlıqlar əhəmiyyətsizləşmiş, ictimai münasibətlər sistemində realizə oluna bilməmişdir.

Qanunverici orqan ildə bir dəfə toplanırdı və bu orqanın partiya idarəçiləri tərəfindən hazırlanan qanun layihələrini təsdiq etməkdən başqa heç bir funksiyası yox idi. Stalindən sonrakı dövrdə rejimin bu sərt münasibəti yumşaldılmışdır, lakin bu, yenə də Konstitusiyada nəzərdə tutulan hüquq və azadlıqların həyata keçirilməsi üçün kifayət etməmiş və insanlara təzyiqlər davam etmişdir. SSRİ-nin 1978-ci ildə qəbul edilmiş yeni Konstitusiyası əvvəlki konstitusiyada olduğu kimi, SSRİ vətəndaşlarına geniş hüquqlar vermişdir ki, bunu dünyada ən azad və demokratik konstitusiyalardan adlandırmaq olar. Bu iqtisadi və sosial hüquqlarının əksəriyyəti dövlətin iqtisadi vasitələrindən asılı olmuşdur. İqtisadiyyatı təşkil edən bütün alətlərin dövlətin inhisarında olması iqtisadi, mədəni və sosial hüquq və azadlıqların həyata keçirilməsində dövlətin üzərinə daha çox məsuliyyət gətirmişdir. 1970-ci illər SSRİ iqtisadiyyatının güclənməyə başladığı illər idi. Şübhəsiz ki, fərdlərə verilən hüquq və azadlıqların həyata keçirilməsi kommunist ideologiyasının və KP liderlərinin məqsədlərinə zidd olmamış və ona xidmət

edən dərəcədə mümkün olmuşdur. Kommunist ideologiyası ilə uyğun gəlməyən hüquq və azadlıqlar, kapitalist qərb dünyasının boş şüarları adlandırılmış və həmin hüquqların təminatından söhbət getməmişdir.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra insan və vətəndaş hüquq və azadlıllarının təmin edilməsi, hüquq müdafiə mexanizmlərinin beynəlxalq normalara uyğunlaşdırılması baxımdan zəruri islahatlar aparılmışdır.

Azərbaycan Respublikasında insan hüquqları üzrə müvəkkil institutu təsis edilməzdən öncə ilkin hüquqi bazası formalaşdırılmış və təşkilati-hüquqi xarakterli hazırlıq işləri aparılmışdır.

Prezident Heydər Əliyev tərəfindən ölkəmizdə insan hüquqları sahəsində ilk strateji dövlət sənədi olan "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" 22 fevral 1998-ci il tarixli fərman imzalanmış və daha sonra həmin ilin 18 iyununda "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq edilmişdir. Bu Proqramın qəbul olunması ölkəmizdə insan hüquq və azadlıqlarının təminatında yeni yanaşmanın tətbiqinə və bu sahədə institutlaşma prosesinin başlanmasına etibarlı zəmin yaratmışdır. İlk dəfə "İnsan hüquqları üzrə Azərbaycan Respublikasının səlahiyyətli müvəkkilli təsisatının yaradılması" da məhz bu Dövlət Proqramında təsbit olunmuşdur. [6]

Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildikdən sonra ölkədə həyata keçirilmiş hüquqi islahatlar nəticəsində insan hüquqlarının səmərəli təmini məqsədilə institusional mexanizmlər sistemi yenidən qurulmuşdur.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi ilə bağlı BMT ilə münasibətindən irəli gələn öhdəlikləri insan hüquqları üzrə beynəlxalq sistemin bir hissəsi və BMT-nin tam hüquqi üzvü kimi qəbul etdiyini müxtəlif normativ hüquqi aktlarla bəyan etmişdir. Demokratiyadan, insan haqlarından məhrum olan cəmiyyətlərin, dövlətlərin inkişafının mümkünsüz olması ideyası bərqərar olmuşdur. [ Səlimov H. 2000, s.21]

2001-ci il dekabrın 28-də Azərbaycan Respublikasının Milli Məclisində "Azərbaycan Respublikası İnsan Hüquqları Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanununun layihəsi hazırlanaraq qəbul edilmiş, bu Qanun 2002-ci il martın 5-də qüvvəyə minmişdir. Bundan əlavə, 2002-ci ildə Azərbaycanın İnsan Hüquqları üzrə Ombudsman İnstitutu təsis edilmişdir. İnstitutun yaradılması ilə bağlı Azərbaycan Respublikası Konstitusiyasına edilən dəyişikliklər həm BMT, həm də digər beynəlxalq və regional insan hüquqlarının müdafiəsi təşkilatları tərəfindən çox müsbət qarşılanmışdır.

Ombudsman təsisatının ölkədə fəaliyyətini vacib edən səbəblərdən biri də vətəndaşların vəkil, müdafiəçi və s. kimi hər hansı vasitəçi olmadan bu quruma müraciət edə bilməsidir. Müraciət edilmə prosesi olduqca aydın və rahatdır. Ombudsmana edilən müraciətlərin heç biri cavabsız qalmır, bir çox hissəsi isə müsbət nəticələnir. Müraciət edilmə prosesinin səmərəli təşkili həm də vətəndaşların problemlərinin həlli üçün xərclərin minimuma endirilməsi ilə nəticələnir [Şəfiyev K. 2001, s. 44-47]

Hazırda insan hüquqlarının müdafiəsinin daha səmərəli təşkilinə nail olmaq məqsədilə beynəlxalq təcrübə və mövcud reallıqlar nəzərə alınmaqla Ombudsmanın Aparatının və regional mərkəzlərinin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində ardıcıl islahatlar həyata keçirilir.

## Nəticə

Artıq 20 ildir ki, Azərbaycan Respublikasında fəaliyyət göstərən Ombudsman təsisatı cəmiyyətdə hüquqi şüurun, hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişafına, idarəetmənin daha da demokratikləşdirilməsi prosesinin sürətləndirilməsinə öz töhfəsini verməkdə davam edir.

Azərbaycan Respublikasında insan hüquqları üzrə müvəkkil institutunun təsis edilməsi və fəaliyyət göstərməsini zəruri edən amillərə aşağıdakıları aid edə bilərik:

1. Müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikasında demokratik, bəşəri dəyərlərə əsaslanan vətəndaş cəmiyyətinin qurulması istiqamətində zəruri addımların atılması;
2. Qloballaşan dünyanın əsas tələblərindən olan insan və vətəndaş hüquq və azadlıqlarının qorunması ilə beynəlxalq hüququn normalarına uyğunlaşma;
3. Konstitusiyada rəhbər tutulmuş insan və vətəndaş hüquq və azadlıqlarının müdafiə mexanizmlərinin genişləndirilməsi;
4. Azərbaycanın Avropa Şurasına üzv olduqdan sonra üzərinə götürdüyü öhdəliklərin həyata keçirilməsi;

5. Vətəndaşların bilavasitə müraciət edəcəkləri bir orqanın formalaşdırılması;
6. Digər hüquq müdafiə mexanizmlərinə münasibətdə daha operativ fəaliyyət göstərən qurumun təsis edilməsi zərurəti və s.

Qanunverici, icra və ya məhkəmə hakimiyyəti qollarına aid olmadan fəaliyyət göstərən, xüsusi müstəqil qurum olan insan hüquqları üzrə müvəkkil institutu qısa müddətdə insanların hüquqi maarifləndirməsi, hüquq düşüncəsi və hüquq mədəniyyəti, dövlətimizdə demokratik idarəetmənin daha da təkmilləşməsi, sabitlik və davamlı inkişafa zəmin yaratmış, habelə beynəlxalq ombudsman təsisatları arasında səmərəli fəaliyyəti, təşəbbüsləri, innovativ yanaşmaları ilə özünə layiqli yer tutmuşdur.

**Ədəbiyyat**

1. https://e-qanun.az/framework/897
2. Sander, (2013) G. Ombudsman and Local Governments. International Local Governments Congress, 12-14 June , Venice.
3. Batalli, M. (2015) Role of Ombudsman Institution over the administration. Academic Journal of Business, Administration, Law and Social Sciences, Vol. 1 No. 3. November
4. https://e-qanun.az/framework/1407
5. Əkbərov, F. (2001) İnsan Hüquqları Üzrə Parlament Müvəkkili İnstitutu: Bəzi Dövlətlərdə Təcrübəsi və Azərbaycan, Hüquq Ədədbiyyatı Nəşriyyatı, Bakı.
6. https://e-qanun.az/framework/3635
7. Səlimov, H. (2000) İnsan Hüquqlarının Qorunması Üçün Avropa Mexanizmləri, İnam Plüralizm Mərkəzi Nəşriyyatı, Bakı 2000.
8. Şəfiyev, K. (2001) Azərbaycan Respublikasının İnsan Hüquqları Üzrə Müvəkkili Barəsində Qanunvericiliyinin Şərhi, Hüquq Ədəbiyyatı Nəşriyyatı, Bakı.

**Rəyçi: h.ü.f.d. Əmir Əliyev**

Göndərilib: 12.03.2022 Qəbul edilib: 18. 04.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/08/108-112

**Təhminə Rafiq qızı Verdiyeva**
Bakı Slavyan Universiteti
magistrant
tehmine_103@mail.ru

# AZƏRBAYCAN TELEVİZİYA JURNALİSTİKASININ YARANMA TARİXİ VƏ MÜASİR DURUMU

**Xülasə**

Jurnalistika informasiya və məlumatların toplanması, işlənməsi və auditoriyaya çatdırılmasıdır. Jurnalistikanın dörd informasiya vasitəsi var. Onlardan biri televiziyadır. Televiziya cəmiyyətin inkişafında ən mühüm amillərdən biridir. Azərbaycan telejurnalistikasının tarixi çox zəngindir. Bu haqda məqalədə çox məlumatlar var. Televiziya jurnalistikanın spesifik bir sahəsi və aparıcı qoludur. Məqalədə əsas məqsəd televiziyanın yaranmasını və bu gün necə inkişaf etməsini araşdırmaq, təhlil etməkdir. Həmin məqsədə nail olmaq üçün təqdim edilən dissertasiya işində qarşıya konkret vəzifələr qoyulmuşdur.

***Açar sözlər:*** *jurnalistika, televiziya, televiziyanın cəmiyyətdə rolu, məlumat azadlığı, keyfiyyətli verilişlər*

**Tahmina Rafig Verdiyeva**

## The history of Azerbaijan tv journalism and today's journalism

**Abstract**

Journalism is gathering, processing, and dissemination of news and information related to the news to an audience. There are four information means journalism. One of them is television. Television is one of the most important factors in the development of society. The history of Azerbaijani television journalism is very rich. There is a lot of information about this in the article. Television is a specific field and a leading branch of journalism. The main purpose of the article is to study and analyze the origin of television and how it develops today. In order to achieve this goal, the dissertation set specific tasks.

***Key words:*** *journalism, television, the role of TV in society, freedom of information, qualitative programs*

## Giriş

XXI əsr bəşər tarixinin inkişaf mərhələləri içərisində inqilabi dəyişiklərə, müxtəlif sahələrin müasirləşməsinə, texnologiyanın inkişafına şərait yaradan bir əsr oldu. Bu əsr informasiya sənayesinin qurulmasını təmin edən səciyyəvi xüsusiyyətə malikdir. Cəmiyyətin ayrı-ayrı sferalarında informasiya və telekommunikasiya texnologiyalarının geniş vüsət alması müsbət dəyişikliklərə səbəb olub. Bəşəriyyətin həyatında informasiyanın əldə edilməsi, istehsalı, ötürülməsi və qiymətləndirilməsi bütün tarixi mərhələlərdə mühüm əhəmiyyət kəsb edib. Buna görə də XXI əsrdə informasiya bütün sahələrdə önəmli rol oynadı.

Ötən əsrin 80-ci illərindən qurulmağa başlayan informasiya cəmiyyəti qısa zamanda dinamik inkişaf tempi ilə insanların həyatına nüfuz edib. Siyasi-iqtisadi, ictimai-mədəni sahələrdə də biliyin əhəmiyyəti özünü qabarıq şəkildə göstərib. Ayrı-ayrı dövrlərdə min illər boyu davam edən cəmiyyətin formalaşması və təşəkkülü prosesi infomasiyanın formalaşma istiqamətini müəyyənləşdirib. İctimai sahələr olan informasiya cəmiyyəti, informasiya növlərinin istehsalı, işlənməsi, ötürülməsi, saxlanılması və bunun üçün tələb olunan texnoloji vasitələr sürətlə inkişaf edir və digər sahələrin də inkişafına zəmin yaradır. Bu səbəbdən irəli gələrək həmin sahələr təkanverici qüvvə rolunu oynayır. Eyni zamanda, informasiya ilə əlaqədə olmayan biznes sahələrindəki işgüzarlığın və səmərəliliyin artırılmasında da müstəsna xidmətlər həyata keçirərək strateji rəqabətin artmasına gətirib çıxarır. Açıq cəmiyyətin qurulmasına şərait yaradan cəmiyyətin informasiyalaşması müxtəlif prinsipləri ortaya qoyur: burada ədalətlilik, şəffaflıq fərqli fikirlərə hörmət prinsipləri əsas meyar hesab olunur. İnkişafın

göstəricilərindən biri də sağlam rəqabət mədəniyyətinin formalaşmasıdır. Cəmiyyətin inkişafında və maariflənməsində Kütləvi İnformasiya Vasitələri (KİV) özünəməxsus rola malikdir. Bununla yanaşı, dövrünün aynasına çevrilən kütləvi informasiya vasitələri jurnalistikanın bütün sferalarda özünü göstərməyinə şərait yaradan ən böyük amildir. Bir sözlə, hər kəs bu şəffaf aynaya baxaraq həqiqətləri öyrənir, maariflənir və əylənir. İnsanların diqqət mərkəzində olan ölkə daxilində, eləcə də ölkədən kənarda baş vermiş hadisələr bütün dövrlərdə müxtəlif vasitələr sayəsində öyrənilib. Kütləvi informasiya vasitələri (KİV) yarandıqdan sonra isə bu hadisələri cəmiyyətə çatdırmaq vəzifəsini onlar yerinə yetiriblər. Bu vəzifə yalnız baş verən proseslər haqqında məlumat verməklə bitməyib. İctimai-siyasi hadisələri analitik təhlil etmək kütləvi informasiya vasitəsinin əsas vəzifələrindən biridir. KİV-in tamaşaçı, dinləyici və ya oxucu auditoriyasına necə təsir etməsi, həmin vəzifənin necə icra olunması isə müxtəlif araşdırmaların mövzusu olub. Kütləvi informasiya vasitələrinin yaranması dünyada uzun tarixi bir yol keçib.

Məlumatlandırmaq – cəmiyyəti informasiya ilə təmin etmək və insanlara yetəri qədər informasiya aşılayan funksiya KİV-in ilkin funksiyasıdır. Baş verən hadisələr insanların daim maraq dairəsini əhatə edir. Bu səbəbdən irəli gələrək həmin marağı əsas tutan KİV buna laqeydlik göstərməyərək öz vəzifəsini həyata keçirmiş olur. Cahangir Məmmədli “Jurnalistikaya giriş” kitabında bu funksiya barədə yazır: “Təsəvvür edin ki, hansısa qəzet, yaxud telekanal informasiyadan imtina etmişdir. Bu qəzetin oxucusu, bu telekanaların auditoriyası güclü xəbər xidməti təşkil etmiş digər qəzet və telekanallardan mütləq sayca xeyli aşağı olacaqdır” [Məmmədli C.Ə., 2001, s. 146].

Maarifləndirmək – Maarifçilik işi jurnalistikada müxtəlif vasitə və üsullarla həyata keçirilərək analitik janrlarda, xüsusilə də publisistikada özünü daha qabarıq şəkildə göstərir.

Əyləncə - Əyləncəni tam şəkildə anlamaq və ifadə etmək üçün professor Cahangir Məmmədlinin fikrinə nəzər salmaq yerinə düşər: “Ən yaxşı əyləncə funksiyası “əyləncə-qavrama” üsulu ilə həyata keçirilir” [Məmmədli C.Ə. 2001, s. 219].

Azərbaycanın milli mənəvi dəyərlərinin qorunmasında, onun dilinin, ictimai həyatının inkişafında televiziyanın rolu böyükdür. 90 il bundan əvvəl 1926-cı il noyabrın 6-da Azərbaycan radiosu fəaliyyətə başlayıb. O gündən sözügedən tarix radio işçilərinin peşə bayramı kimi qeyd olunur. Azərbaycan televiziyası radiodan 30 il sonra, yəni 1956-cı il fevralın 14-də fəaliyyətə başlayıb. Azərbaycan dövləti və ölkəmizin milli mənəvi dəyərlərinin qorunmasında, onun dilinin, ictimai həyatının inkişafında cəmiyyət keyfiyyətcə yeni inkişaf dövrünü yaşayır, ictimai həyatın bütün sahələri yeniləşir, dünya standartlarına cavab verən informasiya-kommunikasiya texnologiyaları tətbiq olunur, insanların rifahı yüksəlir. Vüsət alan inkişaf prosesləri təbii olaraq, kütləvi informasiya vasitələrindən də yan keçməyib. Azərbaycanda demokratik mediasistem 1980-ci illərin sonundan yaranıb, 1990-cı illərin əvvəllərindən isə ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişi ilə öz inkişafında yeni vüsət alıb. O dövrdə fəlsəfi-nəzəri fikirdə qeyd olunurdu ki, “əhalinin şüurlu təbəqəsinə xidmət edən insanların təfəkkür mədəniyyətini inkişaf etdirən, həqiqətən millətin tərəqqisinə xidmət edən mətbuat, TV yaratmaq vacib bir işdir”. Bunu nəzərə alan Heydər Əliyev göstərirdi ki, “müstəqil, demokratik və hüquqi dövlət quruculuğu prosesini yaşayan Azərbaycan dövlətinin ictimai-siyasi həyatının bütün sahələrində olduğu kimi, mətbuat və informasiya sahəsində də demokratiya prinsiplərinə dönmədən əməl olunur”.

XX əsrdə ikinci dəfə müstəqillik əldə etdikdən sonra Azərbaycanda demokratikləşmə milli inkişafın vacib faktoru kimi strateji seçim və dövlət siyasətinin prioritetinə çevrilib. 1995-ci ildə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası insan hüquqlarının, fikir plüralizminin, söz və məlumat azadlığının, vətəndaş cəmiyyəti institutlarının formalaşdırılması və inkişafına etibarlı zəmin yaradıb. Azərbaycanda kütləvi informasiya vasitələrinin, xüsusilə televiziya və radio kanallarının inkişaf tarixi göstərir ki, onlar Azərbaycan ədəbi dilinin yaranması və inkişafında, xalqımızın maariflənməsində, mədəniyyətimizin, milli-mənəvi dəyərlərimizin təbliğində, dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyalarının yayılmasında əvəzsiz rol oynayıblar. Müstəqillik dövründə Azərbaycanda teleradio yayımı böyük inkişaf yolu keçib, nəzərəçarpacaq uğurlar əldə edib. Cəmiyyətdə liberal dəyərlərin, demokratikləşmə prosesinin dərinləşməsi, həmçinin fikir plüralizmi, söz və məlumat azadlığının güclənməsi media qurumlarının müstəqilliyini, sərbəst fəaliyyətini şərtləndirən mühüm amillər olublar.

Televiziya insanın minillik xəyalı, arzusu, onun istəklərinin gerçəkləşməsidir. Çünki hər şeyi uzaqdan görmək və göstərmək istəyi hələ min il əvvəllər yaranıb, bəşəriyyətin bu istəkləri qədim yunan əsatirlərindən tutmuş əfsanəvi Şərq nağıllarınadək bütün xalqların yaradıcılığında öz əksini tapıb.

İnformasiya cəmiyyətini, informasiya növlərinin istehsalı, işlənməsi, ötürülməsi, saxlanılması və bunun üçün tələb olunan texnoloji vasitələrin məcmusu olan ictimai sahə kimi dəyərləndirmək mümkündür. Sürətlə inkişaf edən bu sahə, digər sahələrin də inkişafına zəmin hazırlamaqla bərabər, təkanverici qüvvə rolunu da oynayır. Eyni zamanda, informasiya ilə əlaqədə olmayan digər biznes sahələrindəki işgüzarlığın və səmərəliliyin artırırlmasında müstəsna xidmətlər həyata keçirir. Bu da strateji rəqabətin artmasına gətirib çıxarır. Sağlam rəqabət mədəniyyətinin formalaşması, cəmiyyətin bütün sahələrindəki dinamik inkişafın göstəricilərindən biridir [Şahverdiyevin A. 2006, s. 227].

Dünyada KİV-in yaranması uzun bir tarixi yol keçib. Televiziya sintetik sənət sahəsidir: burada həm ədəbiyyata, həm təsviri sənətə, həm teatra, həm kinoya, həm də musiqiyə aid olan keyfiyyətlər özünü göstərir. Bu televiziyanın təbiətidir. Bu gün texnoloji inkişafı və geniş yayım imkanları ilə böyük nailiyyətlər qazanmış Azərbaycan televiziyası mövcud tərəqqiyə nail olmaq üçün uzun bir yol keçib. Ölkəmizdə televiziyanın inkişaf tarixini bir sıra mühüm əlamətlərə görə fərqləndirmək olar:

1) Lazımi texniki səviyyənin yaradılması, kütləvi verilişlərə başlamaq və yayımın təkmilləşdirilməsi;

2) Kütləvi kommunikasiyanın xüsusi növü kimi televiziya sisteminin idarə olunmasının və fəaliyyətinin təşkili, ekran yaradıcılığının spesifik sahəyə çevrilməsi və telepublisistikanın formalaşması;

3) Televiziyanın cəmiyyət həyatına təsirinin güclənməsi və jurnalistikanın təməl prinsiplərinin ön plana çəkilməsi; [Babayev N.H., 1972, s. 269].

Məhz bu prinsipial əlamətlərə görə Azərbaycan televiziyasının inkişaf tarixini üç dövrə bölmək olar:

I. Başlanğıc dövr (1953-1960-cı illər);
II. Kütləvi verilişlər dövrü (1960-1980-ci illər);
III. İctimai həyata nüfuzun güclənməsi dövrü (1980-ci ildən bugünədək);

KİV-in bu sahəsi ənənəvi jurnalistika ilə ekranın ifadə vasitələrini özündə birləşdirərək gerçəkliyin özünəməxsus şəkildə ifadəsinə nail olur. Jurnalistika faktı kimi televiziya gerçəklik haqqında informasiyanı görüntü (təsvir), söz və səs effektlərinin köməyi ilə tamaşaçıya çatdırır. Bu zaman təsvir və canlı insan nitqi vasitəsilə hadisənin audiovizual obrazını yaratmaqla tamaşaçını bir növ hadisənin iştirakçısına çevirmək keyfiyyəti televiziyanın əsas xüsusiyyəti kimi özünü göstərir. Əslində bu məqam televiziyanı başqa kommunikasiya vasitələrindən (qəzet, kino, teatr və s.) fərqləndirən əsas cəhətdir. Ona görə də bu sahədə televiziya sənətinin sintetizminə, teleyayım prosesində yaradıcılığın kollektiv xarakterinə, əsas yaradıcı peşələrə, onların funksiyaları və televiziya verlişinin yaranması prosesində qarşılıqlı fəaliyyətə, müəllif (reportyor, müxbir, şərhçi, icmalçı, ssenarist), redaktor, rejissor, operator, rəssam, diktor və s. işinin xarakterinə xüsusi diqqət yetirmək lazım gəlir. Televiziyanın kütləvi informasiya vasitələri sisteminə daxil olması bəşər həyatına inqilabi dəyişikliklər gətirdi, insanların çox uzaqlarda baş verən hadisələri əyani görmək imkanlarını artırdı. İkinci dünya müharibəsindən sonra planetdə gedən siyasi proseslərlərdə və informasiya müharibəsində televiziya həlledici rol oynadı. Televiziyanın vizuallıqla bağlı olan spesifikası, onun ekranlılığı, hər şeydən əvvəl, qavrayış şəraitinin və xarakterinin müəyyənləşməsinə öz təsirini göstərdi. Televiziya qavrayış və sürətini tamaşaçıya özü diqtə edir. Mətbuatla müqayisədə televiziyada informasiyanın (geniş mənası) tez keçiciliyi onun çatışmayan cəhəti kimi qiymətləndirilməməlidir. Bu da faktdır ki, televiziya tamaşası diqqətinin həmişə bütünlüklə ona yönəldilməsini tələb etmir. Bir sıra hallarda tamaşaçılar ekrana əsas məşğuliyyətləri və ya söhbətləri fonunda baxırlar. Televiziyanın funksiyalarını belə qruplaşdırmaq olar:

a) İnformasiya;
b) əyləndirmə (rekreativ) və s.

Cəmiyyətdə yönəldici, əlaqələndirici, mühüm vasitəçi rolunu oynayan televiziya yayım imkanları, üstünlükləri və əhatəliliyi sayəsində əhəmiyyətli fəaliyyət göstərir. İctimai nəzarəti əlində saxlayan televiziya yayımı informasiyanın qavranılmasına xüsusilə diqqət edir [Vəliyev Ş.Q. Azərbaycan ədəbiyyatı və mətbuatından araşdırmalar, 2006-2010, Bakı, Elm və təhsil, 2011, s. 106-107].

Televiziya yayımı ilk günlərdən iki qismə – ictimai-siyasi və bədii yayıma ayrılsa da, hazırda televiziya təcrübəsində aşağıdaкı yayım tiplərini müəyyənləşdirməк olar:

1. İnformasiya (xəbər) proqramları;
2. Publisistik proqramlar;
3. Mədəni-maarifçilik və elmi-tədris proqramları;
4. Bədii-əyləncəli proqramlar;
5. İdman proqramları;

6. Reklam proqramları;

Tədqiqatçılar televiziyanın gerçəyin, aktual hadisələrin, ayrı-ayrı sosial qrupların praktik fəaliyyət nəticələrinin, sosial qiymətinin kütləvi şüura translyasiya sistemini özündə ehtiva etdiyini deməklə, yayım fəaliyyətinin əsasını kütləvi şüura təlqini təşkil etməsi fikrini təsdiq edirlər. Bu gerçəklə razılaşaraq, televiziyanın təlqin etdiyi materialın dəyərlərin mahiyyətinə tabe olmasını yayımçılar qarşısında vacib şərt kimi qoymaq hesabına anomaliyaları sığortalamaq olar [Zeynalov N.N., 1974, s. 57-58].

Televiziya milyonlarla insana təsir edərək onların dünyagörüşünü biçimləndirir, sosial–siyasi və mədəni baxışları təyin edərək yönəldir. Televiziya təkcə məlumatverən, xəbəryetirən deyil, həm də ev əyləncəsini quran vasitədir. Bütün sosial qruplara, yaşlara ünvanlanan yayım evdə hər kəsi öz ətrafına toplamaq məqsədi daşıyır. Məhz bu da onun sosial, kulturoloji, bədii əhəmiyyətini artırır, qoyulan tələbləri qaldırır [Məhərrəmli Q.M., s. 128].

## Nəticə

Tədqiqat işində aktual mövzu olan Azərbaycan televiziya jurnalistikasının yaranması və bu günü araşdırılıb. İki fəsildən ibarət olan tədqiqat işinin birinci fəslində, əsasən, Azərbaycan televiziya jurnalistikasının yaranması, Azərbaycanda televiziyanın yayıma başlaması, jurnalistikanın spesifikası, televiziya yayımının əsasları, efir yaradıcılığının forma və məzmunu, texniki televiziya yayımının əsasları barədə məlumat verilir. Müəyyənləşdirilib ki, Azərbaycanda televiziya nə zaman yarandı. Azərbaycanda televiziyanın yaranması televiziya jurnalistikasının əsasını qoydu. Bununla yanaşı, televiziyanın yayıma başlaması tarixi öyrənildi. Yayımın əsasları, televiziya jurnalistikasının spesifikası araşdırılıb. Texniki televiziya yayımının əsasları barədə öyrənildi. Aydınlaşdı ki, Azərbaycan televiziya jurnalistikasının yaranması bütün sahələrə müsbət təsir göstərdi. Bu kütləvi informasiya vasitəsi ictimaiyyətlə əlaqədə olan ən geniş yayılmış vasitəyə çevrildi. Efir yaradıcılığının forma və məzmunundan bəhs edərək, bunun televiziya jurnalistikasında nə qədər önəmli bir proses olduğu öyrənildi. Televiziya yayımında hansı prosedurlara diqqət etmək lazım olduğu müəyyənləşdirildi. Burada rejissor işi, montaj, operator və s. kimi peşələrin hansı işləri görməsini və bunun yayıma necə təsir etdiyi haqda bildik. Azərbaycançılıq ideyasının təbliğ edilməsində, milli-mənəvi dəyərlərimizin qorunmasında, Azərbaycan dilinin, mədəniyyətinin, ölkəmizlə bağlı tarixi həqiqətlərin yayılmasında televiziyanın mühüm rolundan danışıldı. Yeni dövrün tələblərinə uyğun olaraq cəmiyyətin aktual problemlərinə diqqəti artırmaq, tamaşaçıların və dinləyicilərin informasiya tələbatını ödəmək, müxtəlif peşə sahibi, həmçinin sosial təbəqədən olan insanların zövqünə, maraqlarına cavab verən proqramlar hazırlamaq televiziya qurumlarının fəaliyyət sferasının ən əsas əlamətləridir. Həmin qurumların fəaliyyət işi araşdırılıb.

Dissertasiya işinin ikinci fəslində isə Azərbaycan televiziya jurnalistikasının bu günü, müasir dövrdə olan hazırki vəziyyəti haqqında məlumatlar yer alıb. Burada müxtəlif mətbuat orqanlarından götürülmüş nümunələrlə müasir dövrdə ictimai-siyasi hadisələrin necə təhlil olunduğu göstərilir. Həmçinin müasir dövr televiziya jurnalistikasının yaradıcılığının nəzəri əsasları, Azərbaycan televiziya jurnalistikasının proqram tipologiyası barədə müxtəlif araşdırma məlumatları əksini tapıb. Müasir dövrdə Azərbaycan tamaşaçısı ölkəmizdə, o cümlədən dünyada baş verən hadisələr, proseslər haqqında televiziyalardan obyektiv formada, yüksək peşəkarlıqla, hərtərəfli olaraq şərh edilən informasiyanı keyfiyyətli verilişlər, proqramlar sayəsində öyrənir və bu baxımdan maariflənməyə doğru can atır. Müasir dövrdə hansı proqramlara üstünlük verilir, o cümlədən hansı verilişlər insanların diqqətini cəlb edə bilir. Dissertasiyanın ikinci fəslində bu kimi suallara cavab axtarılıb.

Məqalədə Azərbaycan televiziya jurnalistikasının inkişaf tarixi haqqında danışılıb, həmçinin bu günü haqqında müxtəlif mülahizələr qeyd edilib. Ümumilikdə götürdükdə isə tədqiqat nəticəsində müəyyən oldu ki, Azərbaycanda televiziya jurnalistikası sahəsi yüksək səviyyədə inkişaf edir. Bunun səbəbi isə müasir dövrdə yeni media platformalarının yaranması və onların həm az maliyyə tələb etməsi, həm sürətli və hər zaman əlçatan olmasıdır. Sosial şəbəkələr, onlayn televiziyalar, elektron KİV-lər, bloqlar və s. yeni media alətləri yaranaraq ictimaiyyətin onlarla əlaqəsini asanlaşdırır, həmçinin qısa zaman ərzində nəhəng auditoriyaya çıxış imkanını təmin edir. Azərbaycanda televiziya jurnalistikası sahəsinin sürətlə inkişaf etməsinə baxmayaraq, hələ də çox sayda problemlər mövcuddur. Xüsusilə, kadr problemi bütün təşkilatlarda özünü göstərir. Vəziyyətin yaxşılaşdırılması üçün universitetlərdə televiziya sahəsinin nəzəriyyəsini öyrənməklə yanaşı, praktikasına da xüsusi önəm vermək lazımdır.

Çünki bu zaman nəzəriyyəni bilən tələbə həmin təcrübədən istifadə edərək peşəkar jurnalistika sahəsinə onun sayəsində addım ata bilər. Buna görə də həmin sahənin nəzəriyyəsini bilən, o cümlədən təcrübəsi olan mütəxəssislər dəvət edilməli və tələbələrin bu sahədə biliyinin artırılmasında iştirak etməlidirlər. Jurnalistika təhsili verən ali təhsil müəssisələrində yeni media texnologiyalarının tədrisini təkmilləşdirməklə jurnalistlərin peşəkarlığını yüksəltmək vacibdir. Ali təhsil müəssisələrinin jurnalistika fakültələri üçün yeni media texnologiyaları ilə bağlı əsas və seçmə fənlər blokundan, onların məzmunundan (tədris proqramları, sillabuslar, tədris-tematik planlar və s.) və digər zəruri tədris materiallarının nümunələrindən ibarət yeni tədris modeli hazırlamaq lazımdır. Televiziya jurnalistikasının bir fənn kimi konkret məqsəd və vəzifələri müəyyən edilərək peşəkar jurnalist yetişdirməli, onlara bu peşənin sirrlərini öyrətməlidir. Tələbələrdə televiziya jurnalistikasının üstünlükləri və xüsusiyyətləri haqqında təsəvvür formalaşdırılmalıdır [8].

Dissertasiya işində Azərbaycan televiziyasının müasir dönəmi sistemli analiz olunaraq yayım vahidlərinin janrı mövzu və daşıdığı funksiya əsasında təsnifatlandırılaraq qoyulan meyarlardan irəli gələn yaradıcı tələblərə münasibəti araşdırılıb. Son illərin elmi axtarışları nəticəsində "Dünya teleyayımı fəaliyyətinin yaratdığı estetik, sosial, kulturoloji problemlərin cəmiyyətdə yeri" mövzusu əsasında ölkəmizdə bu proseslərin real mənzərəsi yaradılaraq televiziya verilişlərinin istər yaradıcı-estetik tərəfləri, istərsə də mədəni-sosial təsir imkanları konkret misalların tədqiqi ilə üzə çıxarılaraq nümunələrlə qeyd olunub. Araşdırmanın nəzəri və təcrübi metodlarından istifadə edərək televiziya jurnalistikası nəzəriyyəsinin ümumi prinsipləri, analizin göstəriciləri, təhlilin real mənzərəsi və diqqətdən kənarda qalan tərəfləri, bu sahədə yaranan problemlərin kompleks təhlili verilib. Dissertasiya işi televiziya jurnalistikası nəzəriyyəsinin yeni vəzifələrinin həlli məqsədini daşıyaraq sənətşünaslığın, estetikanın, sosiologiyanın, kulturologiyanın nailiyyətləri əsasında əldə olunmuş və onların sübuta yetirilmiş nəticələrinə söykənir [9].

Dissertasiyanın predmeti televiziyanın yaranması, televiziyaya aid olan onun, metodologiyası daxilində ümumi mövcud xüsusiyyətlər və münasibətlər kateqoriyası, tipik cəhətləri - onun durumu, bu günü, inkişaf tendensiyası, insan və cəmiyyətlə münasibətlər kateqoriyası təşkil edir. Dissertasiya mövzusunun hazırlanması zamanı müxtəlif dillərdə - Azərbaycan, rus, ingilis dilli mənbələr, internet resursları, elektron vəsaitlərdən istifadə edilib. Tədqiqatın elmi yeniliyi də əsas rol oynayır. Televiziya jurnalistikasının mahiyyəti, cəmiyyətə təsiri, teleyayım quruluşu, onun formaları, analiz mexanizmləri, iştirak edən komponentlərin əsasları, nəzəri tərəfləri tapılaraq meydana çıxarılmış teleyayım işi haqqında ətraflı qeyd olunmuşdur. Dissertasiya, əsasən təsviri metodla aparılmış, struktur, funksional təhlil metodlarından da istifadə edilmişdir. Televiziyanın yaranması və bu günü nəzərdən keçirilərkən, ümumi formada inkişafının müəyyənləşdirilməsi aparılarkən, konkret faktlar nəzərdən keçirilərkən müqayisə və təhlil üsullarından istifadə edilmişdir. Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş mənbələrin, elmi-nəzəri ədəbiyyatın siyahısından ibarətdir. Burada Azərbaycan jurnalistikasından, Azərbaycan televiziya jurnalistikasının tarixindən bəhs edilir və bu materiallar dərs vəsaiti kimi istifadə oluna bilər.

## Ədəbiyyat


1. Məmmədli, C.Ə. (2001) Jurnalistikaya giriş. Bakı. Bakı Universiteti.
2. Məmmədli, C.Ə. (2001) Jurnalistikaya giriş. Bakı. Bakı Universiteti.
3. Azərbaycan mətbuat tarixi: Ali məktəb tələbələri üçün dərslik (2006) (A.Şahverdiyevin red.) Bakı: Təhsil.
4. Babayev,N.H. (1972) Jurnalistika məsələləri, Bakı: s. 269
5. Vəliyev, Ş.Q. (2011) Azərbaycan ədəbiyyatı və mətbuatından araşdırmalar , 2006-2010, Bakı, Elm və təhsil,106-107
6. Zeynalov, N.N. (1974) Azərbaycan mətbuat tarixi. I cild, Bakı: ADU nəşr. 57-58
7. Məhərrəmli Q.M. (2003) İctimai televiziya. Bakı: Bakınəşr.
8. http://modern.az/articles/6372/1/
9. https://dilanova.wordpress.com/tag/televiziya-dili/


**Rəyçi fil.e.d. Qulu Məhərrəmli**

Göndərilib: 01.03.2022 Qəbul edilib: 19.04.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/08/113-118

**Amin Həsən oğlu Rəşidov**
Azərbaycan Dövlət İqtisad Universiteti
magistrant
arashidov2020@ada.edu.az

# İŞĞALDAN AZAD OLUNMUŞ İNZİBATİ ƏRAZİLƏRDƏ BİZNESİN İNKİŞAFINA DƏSTƏK MƏQSƏDLİ TƏDBİRLƏR

**Xülasə**

Azərbaycan Respublikasının Ermənistanın işğalından azad edilən ərazilərinin bərpası, mədəni-tarixi abidələrin bərpası və layiqli yaşayış şəraitinin yaradılması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Sahibkarlar üçün işğaldan azad olunmuş ərazilərdə xidmət sahəsi, həmçinin ticarət və müxtəlif növ xidmət sahələrində biznes qurmaq və fəaliyyət göstərmək imkanları var. İşğaldan azad edilmiş ərazilərin inkişafı üçün vergi təşviqlərinin tətbiq olunması nəzərdə tutulmuşdur. Eləcə də yeni istehsal sahələrinin qurulmasına görə kapital qoyuluşlarına uyğun olaraq mənfəət vergisinə güzəştlərin verilməsi, turizmin inkişafı üçün vergi təşviqlərinin təmin olunması planlaşdırılır.

***Açar sözlər:*** *Azərbaycan, biznes, güzəşt, vergi, tədbir*

**Amin Hasan Rashidov**

## Measures to support business development in the liberated administrative territories

**Abstract**

Large-scale measures are being taken to restore the territories of the Republic of Azerbaijan liberated from Armenian occupation, restore cultural and historical monuments and create decent living conditions. Entrepreneurs have the opportunity to set up and operate businesses in the liberated areas, as well as in trade and various services. Tax incentives are planned for the development of the liberated territories. It is also planned to provide income tax exemptions in accordance with capital investments for the construction of new production facilities, to provide tax incentives for the development of tourism.

***Key words:*** *Azerbaijan, business, discount, tax, event*

## Giriş

Aparıcı iqtisadi-maliyyə institutları və reytinq mərkəzləri Azərbaycandakı sistemli iqtisadi siyasəti, islahatları yüksək qiymətləndirir. Dünya İqtisadi Forumu tərəfindən nəşr edilən "Qlobal Rəqabətlilik İndeksi 2019" hesabatında Azərbaycan 2018-ci illə müqayisədə 11 pillə irəliləyərək, 141 ölkə arasında 58-ci yeri tutub. Qlobal rəqabətlilik hesabatı dünya miqyasında mötəbər hesabat olmaqla, beynəlxalq təşkilatlar, investor və sahibkarlar, müstəqil beyin mərkəzləri tərəfindən istinad mənbəyi kimi istifadə olunur.

"Biznesin dinamikliyi" və "innovasiya" üzrə Azərbaycan müvafiq olaraq 8 və 3 pillə irəliləyərək ölkəmizin biznes mühitinin inkişafı istiqaməti üzrə aparılan intensiv islahatlara adekvat cavab verib. Sahibkarlıq risklərinin tənzimlənməsi, ölkə üzrə müflisləşmə, biznesə başlamaq üçün sərf olunan zaman, elm-tədqiqat xərcləri, patent müraciətləri, tədqiqat institutlarının sayı və keyfiyyəti, biznesdə innovativ yeniliklərin tətbiqi üzrə Azərbaycan dünya ölkələri arasında yüksək bal əldə edib. Yalnız biznesin dinamikliyi üzrə Azərbaycan 141 ölkə arasında 31-ci mövqedə qərarlaşıb.

Dünyanın nüfuzlu beyin mərkəzlərindən olan İrs Fondu tərəfindən hazırlanan "İqtisadi Azadlıq İndeksi 2021" hesabatında Azərbaycanın mövqeyi 6 pillə yaxşılaşaraq 172 ölkə arasında 38-ci yerdə qərarlaşıb. Azərbaycan iqtisadi azadlıq üzrə mümkün 100 baldan 70,1 bal toplayıb. Hesabata görə, Azərbaycan Avropa regionunda 45 ölkə arasında 23-cü yerdədir, onun ümumi balı regional orta göstəriciyə bərabər, dünya üzrə orta göstəricidən yüksəkdir. Hesabatda ölkəmiz Fransa, İspaniya, İtaliya

və Polşa kimi inkişaf etmiş ölkələri qabaqlayıb və indeks üzrə ən çox irəliləyən ölkələr sırasında yer alıb. İqtisadiyyatda əsasən bank, əmlak, monetar, vergi, fiskal və digər istiqamətlərdə qeydə alınan inkişaf trendləri dünyada Azərbaycan iqtisadiyyatına inamı gücləndirir [Təkin A. 2021, s. 25].

Dünya Bankının "Doing Business" hesabatında son illərdə ölkəmizdə reallaşan islahatlar vurğulanaraq, nümunəvi islahatlar kimi nəzərə alınıb. Azərbaycanın "Doing Business 2021" hesabatındakı mövqeyi daha da yaxşılaşıb. Məsələn, Azərbaycan Dünya Bankının "Doing Business 2021" hesabatında 10 ən islahatçı ölkənin sırasında yer alıb. Hesabatda ölkənin qlobal reytinq sıralamasında mövqeyi 191 ölkə arasında 28-ci yerdə qərarlaşıb ki, bu da əksər postsovet, Mərkəzi Asiya və Şərqi Avropa regionu üzrə ölkələrin mövqeyindən daha yaxşı göstəricidir.

"Moody's Investors Service" şirkəti isə 2021-ci ildə Azərbaycan iqtisadiyyatının təxminən 4 faiz artacağını proqnozlaşdırıb. Bu proqnoz əsas beynəlxalq təşkilatların (BMT, Dünya Bankı) və beynəlxalq kredit agentliklərin ("Standard and Poor's" və "Fitch Ratings") gözləntilərindən daha yüksək olub.

Alman-Azərbaycan Xarici Ticarət Paltasının təşkilatçılığı ilə təqdimatı olmuş "Azərbaycanda Xarici Biznes: Biznes Mühiti sorğusu 2021" hesabatı da ölkəmizdə investisiya mühiti və həyata keçirilən iqtisadi islahatların səmərəliliyi haqqında fikir ortaya qoyur. 2021-ci ilin may-iyul aylarında keçirilmiş sorğunun nəticələrinə əsaslanan və sorğu iştirakçılarının cavablarını özündə əks etdirən hesabat ölkədəki investisiya mühitinə diqqət ayırmaqla xarici şirkətlərin Azərbaycandakı fəaliyyətinə fokuslanıb. Hesabatda Azərbaycanın sosial-iqtisadi sahədə qazandığı nailiyyətlər, ölkənin investisiya yatırımı üçün cəlbediciliyi əcnəbi iş adamları tərəfindən xüsusi olaraq vurğulanır. Hesabatın hazırlanması məqsədilə Azərbaycanda fəaliyyət göstərən və 30 ölkəni (Almaniya, Böyük Britaniya, ABŞ, İsveçrə, Türkiyə və sair) təmsil edən 270 xarici şirkətə sorğu göndərilib. Dəyərləndirmə üçün 130 etibarlı və tamamlanmış cavab seçilib.

Bu cür hesabatlar işgüzar dairələrin rəyinin öyrənilməsi, biznes çağırışlarının dəyərləndirilməsi, hər hansı ölkənin biznes cəlbediciliyinin səviyyəsini nümayiş etdirmək baxımından əhəmiyyət kəsb edir. Sorğuda rəyi öyrənilən respondentlərin 68 faizi Azərbaycan iqtisadiyyatının mövcud vəziyyətini sabit qiymətləndirir. Xarici şirkətlərin 57 faizi Azərbaycanda fəaliyyətini genişləndirmək və ya yeni investisiya qoymaq niyyətindədir. Respondentlərin 60 faizi Azərbaycanı əlverişli biznes məkanı kimi tövsiyə edir. Xarici iş adamları inanır ki, işğaldan azad edilmiş ərazilərimizdə bərpa işlərinin aparılması Xəzər bölgəsində təhlükəsizliyin və stabilliyin gücləndirilməsinə, beynəlxalq nəqliyyat və kommunikasiya layihələrinin həyata keçirilməsinə, Azərbaycan iqtisadiyyatının şaxələndirilməsinə töhfə verməklə yanaşı, dünyada ölkəmizin investisiya cəlbediciliyini və rəqabət qabiliyyətini artıracaq [Seyfullayev İ. 2012, s. 125-138].

Növbəti dövrlərdə də iqtisadiyyatın neftdən asılılığının minimuma endirilməsi və sahibkarlığın inkişafına əsaslanan rəqabətqabiliyyətli milli iqtisadiyyata çevrilməsi, biznes və insvestisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində tədbirləri davam etdirmək dövlətin əsas strateji hədəflərindən biridir.

44 günlük Vətən müharibəsində qələbəmizdən sonra işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işləri başlayıb. Bu işlərin əsasını nəqliyyat və kommunikasiya əlaqələrinin, vasitələrinin bərpası, bunların ən müasir tələblər əsasında qurulması və təmin edilməsi, o cümlədən yaşayış yerlərinin salınması və sair təşkil edir.

Azərbaycan Respublikasının Ermənistanın işğalından azad edilən ərazilərinin bərpası, milli iqtisadiyyata sürətli inteqrasiyası, dayanıqlı inkişafının təmin olunması, orada ən müasir infrastrukturun qurulması, mədəni-tarixi abidələrin bərpası və layiqli yaşayış şəraitinin yaradılması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Bu çərçivədə icra olunan layihələr həmin ərazilərin qısa müddət ərzində sülh və əməkdaşlıq bölgəsinə çevrilməsində və iqtisadi inkişafında mühüm rol oynayacaqdır.

Sözügedən ərazilərdə zəngin resurs və infrastruktur potensialından səmərəli istifadə, dövlət–özəl sektor tərəfdaşlığı və ən əlverişli biznes mühiti əsasında iqtisadi fəaliyyətin canlandırılması və dayanıqlı məskunlaşmanın təmin olunması ölkənin uzunmüddətli inkişaf prioritetləri ilə vəhdətdə olan tədbirlərlə dəstəklənməlidir. Dövlət investisiyaları ilə yanaşı, yerli və xarici sərmayələrin cəlb edilməsi ilə işğaldan azad olunan ərazilərdə iqtisadi və sosial infrastrukturun yenidən qurulması, əhalinin məşğulluğunun təmin edilməsi istiqamətində işlərin həyata keçirilməsi prioritetdir. Ekspertlər qeyd edir ki, işğaldan

azad edilmiş ərazilərin böyük iqtisadi potensialı və təbii ehtiyatları var. Bu da həmin ərazilərə yerli və xarici investisiyaların cəlbi, bu fonda əhalinin məşğulluğunun təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, işğaldan azad edilmiş ərazilərdə iqtisadi canlanmanın sürətləndirilməsi və investisiya cəlbediciliyinin artırılması, müasir və effektiv istehsal, ticarət və xidmət infrastrukturunun yaradılması, innovativ texnologiyaların tətbiqi, sənaye potensialının reallaşdırılması, optimal güzəştlərin və stimullaşdırıcı mexanizmlərin hazırlanması və sahibkarlıq mühitinin yaxşılaşdırılması üçün əlverişli şərait yaradılması məqsədilə Azərbaycan Respublikası prezidenti sərəncam imzalamışdır.

İşğaldan azad edilmiş ərazilərdə iqtisadi resursların və əmək resurslarının səmərəli idarə olunması, onların emal sənayesinin və xidmət infrastrukturunun yaradılmasına yönəldilməsi məqsədilə vergi güzəştləri, sosial sığorta və digər güzəştlər tətbiq ediləcək. bu, Prezident İlham Əliyevin imzaladığı "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" sərəncamda əksini tapıb.

Eyni zamanda işğaldan azad edilmiş ərazilərdə özəl təşəbbüslərin stimullaşdırılması, investisiyaların təşviqi mexanizmlərinin təkmilləşdirilməsi, həmin ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlar üçün xammal və materialların idxalı ilə bağlı gömrük və vergi güzəştləri müəyyən ediləcək. Qeyd edək ki, məqsəd işğaldan azad edilmiş ərazilərdə iqtisadi canlanmanın sürətləndirilməsi və investisiya cəlbediciliyinin artırılması, müasir və effektiv istehsal, ticarət və xidmət infrastrukturunun yaradılması, innovativ texnologiyaların tətbiqi, sənaye potensialının reallaşdırılması, optimal güzəştlərin və stimullaşdırıcı mexanizmlərin hazırlanması və sahibkarlıq mühitinin yaxşılaşdırılması üçün əlverişli şəraitin yaradılmasdır.

Qeyd edək ki, məqsəd işğaldan azad edilmiş ərazilərdə iqtisadi canlanmanın sürətləndirilməsi və investisiya cəlbediciliyinin artırılması, müasir və effektiv istehsal, ticarət və xidmət infrastrukturunun yaradılması, innovativ texnologiyaların tətbiqi, sənaye potensialının reallaşdırılması, optimal güzəştlərin və stimullaşdırıcı mexanizmlərin hazırlanması və sahibkarlıq mühitinin yaxşılaşdırılması üçün əlverişli şəraitin yaradılmasdır.

İşğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərəcək sahibkarlıq subyektlərinə (o cümlədən kiçik və orta sahibkarlara) vergi güzəştləri və tətillərinin, habelə sosial sığorta üzrə güzəştlərin verilməsi ilə bağlı təkliflər hazırlanmaqdadır. İşğaldan azad edilmiş ərazilərdə iqtisadi canlanmanın sürətləndirilməsini və investisiya cəlbediciliyinin artırılmasını, optimal güzəştlərin hazırlanmasını və sahibkarlıq mühitinin yaxşılaşdırılması üçün əlverişli şəraitin yaradılmasını əhatə edən layihələr üzərində işlər davam etdirilir.

Təhlükəsizliyə zəmanətə gəldikdə, bir fakta diqqət çəkmək kifayətdir. Dövlət başçısı hər dəfə bölgənin bu və ya digər rayonlarına səfəri zamanı müxtəlif infrastruktur layihələrin açılışına və yaxud da tikintisinə start verilməsi ilə bağlı tədbirlərdə iştirak etməklə yanaşı, Silahlı Qüvvələrin ayrı-ayrı qoşun növlərinə dair ən müasir təchizata malik hərbi hissələrin də fəaliyyətə başlamasına dair mərasimlərə qatılır, bununla da nəzərdə tutulan bütün iqtisadi perspektivləri heç bir hərbi-siyasi təhlükə gözləmədiyini nümayiş etdirir [Həsənov Ə.M. 2017, s. 48-58].

Sahibkarlar üçün işğaldan azad olunmuş ərazilərdə tikinti, turizm, istehsal, kənd təsərrüfatı məhsulları tədarükü, eyni zamanda emalı, həmçinin ticarət və müxtəlif növ xidmət sahələrində biznes qurmaq və fəaliyyət göstərmək imkanları var. Bundan əlavə, sadalanan sahələrdə hələ ki, rəqabət yoxdur, ona görə də, sərmayə qoyuluşunda birincilik daha çox qazanc gətirə bilər və gətirəcək.

Təbii sərvətlərin, faydalı qazıntıların işlənilməsi investisiyaların qoyuluşu baxımından böyük perspektiv vəd edir. Son illərdə Azərbaycanın qeyri-neft ixracında qızıl mühüm yer tutur. Həm dünya bazarlarında qızılın qiymətinin yüksəlməsi, həm də bu sahədəki şirkətlərin müasir istehsal texnologiyalarına sahib olması onu deməyə əsas verir ki, işğaldan azad edilmiş ərazilərdə qızıl yataqlarının istismarı yaxın illərdə Azərbaycan iqtisadiyyatına böyük töhfə verəcək. Genişmiqyaslı bərpa fəaliyyətləri və yeni infrastrukturun qurulması tikinti sektoru üçün yeni imkanlar açır. Bütün bunlar xarici investorları da maraqlandırır.

Ekspertlər hesab edirlər ki, Qarabağda kiçik və orta biznesin inkişafı bu yerlərdə daha da canlanmaya səbəb ola bilər. Əlbəttə ki, iri şirkətlərin fəaliyyəti vacibdir və onlar da məşğulluğun formalaşdırırılmasında böyük yer tuturlar. Lakin iqtisadi sistemin mərkəzində KOB-lar yer almalıdır.

Təbii ki, burada infrastrukturla bağlı bir sıra problemlər ola bilər, amma ən önəmlisi KOB-ların maliyyə mənbələrinə əlçatanlığının təmin edilməsidir.

Prezidentin müvafiq fərmanları ilə Cəbrayıl rayonunda Araz Vadisi İqtisadi Zonası Sənaye Parkının, həmçinin Ağdam Sənaye Parkının yaradılmasına başlanıb. İqtisadiyyat naziri Mikayıl Cabbarovun sözlərinə görə, bu sənaye parklarının rezidenti olmaq üçün sahibkarlar nazirliyə 10 layihə təqdim edib. Həmin layihələrin ilkin investisiya dəyəri 40 milyon manata yaxındır. Hazırda layihələr dəyərləndirilir. Ağdam Sənaye Parkında müxtəlif çeşidli sintetik xalça, xüsusi və fərdi geyimlər, polimer məhsulları, günəş enerjisi ilə qidalanan işıq dirəkləri və xüsusi dam örtükləri, prefabrik dəmir-beton məmulatlarının istehsalı üzrə beş layihəyə baxılır. Bu layihələr üzrə 1 100-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulur. Bu sənaye parklarının rezidentləri ölkənin bütün sənaye parklarına şamil olan güzəştlərdən istifadə etməklə yanaşı, sırf azad edilmiş ərazilər üçün nəzərdə tutulmuş güzəşt və imtiyazlardan da yararlana biləcəklər.

Qeyd edək ki, Azərbaycan torpaqlarını işğaldan azad etdikdən sonra başladığı sürətli quruculuq işlərində beynəlxalq təcrübədən ciddi yararlanır. Bu istiqamətdə müxtəlif ölkələrin bərpa təcrübəsi öyrənilir, beynəlxalq təşkilatlarla əməkdaşlıq edilir.

Təkcə azad edilmiş ərazilərimizdə yox, ümumiyyətlə, ölkədə biznes və investisiya mühitinin yaxşılaşdırılması, qeyri-neft sektorunun, regionların və sahibkarlığın inkişafı ilə bağlı görülmüş işlər, pandemiyanın Azərbaycanda biznes mühitinə təsiri və hökumətin dəstək mexanizmləri, sənaye zonalarının, həmçinin Ələt Azad İqtisadi Zonasının logistika imkanları, Milli Prioritetlərimizdən olan işğaldan azad edilmiş ərazilərimizə Böyük Qayıdış, bu ərazilərdə reallaşdırılacaq “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyaları sərmayədarlar üçün yeni biznes və investisiya imkanları açır.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqında Sərəncamının 2.1-ci bəndində nəzərdə tutulmuş, hazırda son müzakirələr mərhələsində olan “2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda iqtisadıyyatın şaxələnməsinə və investisiyaların cəlb olunmasına vergi siyasətinin effektiv dəstəyinin təmin edilməsi və investisiya mühitinin daha da yaxşılaşdırılması üçün bir sıra tədbirlər nəzərdə tutulur: İşğaldan azad edilmiş ərazilərin inkişafı üçün vergi təşviqlərinin tətbiq olunması; Yeni istehsal sahələrinin qurulmasına görə kapital qoyuluşlarına uyğun olaraq mənfəət vergisinə güzəştlərin verilməsi; Turizmin inkişafı üçün vergi təşviqlərinin verilməsi və s.

İşğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərəcək sahibkarlıq subyektlərinin böyük bir hissəsinin investisiya təşviqi sənədi ala biləcəyini nəzərə alaraq, onlar üçün qanunvericilikdə nəzərdə tutulmuş vergi güzəştlərini xatırlatmaq istərdim. İnvestisiya təşviqi sənədi almış hüquqi şəxslər və fərdi sahibkarlar həmin sənədi aldığı tarixdən 7 il müddətinə bir sıra vergiləri və rüsumları ödəməkdən azaddırlar: Hüquqi şəxslər və fərdi sahibkarlar əldə etdikləri mənfəətin (gəlirin) 50 faizinə görə mənfəət (gəlir) vergisi; Müvafiq investisiya layihəsi çərçivəsində investisiya vəsaiti hesabına əldə edilmiş əmlaklarına görə əmlak vergisi; Mülkiyyətində və ya istifadəsində olan müvafiq torpaqlarına görə torpaq vergisi; Müvafiq təsdiqedici sənəd əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalına görə ƏDV və gömrük rüsumu. İşğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bütün layihələrin investisiya təşviqi sənədi verilən layihələrə aid edilməsi məsələsi də müzakirə olunur [Bildirici Z. 1989, s. 54-65].

İşğaldan azad edilmiş ərazilərdə biznesin qurulmasına maraq göstərənlər arasında qadın sahibkarlarımız da var. Bildiyiniz kimi, 44 günlük Vətən müharibəsindən dərhal sonra işğaldan azad edilmiş ərazilərdə biznesin qurulmasına maraq göstərən yerli və xarici sahibkarlıq subyektlərinin müraciətlərinin qəbuluna başlanılıb və proses hazırda da davam etdirilir.

Ermənistanın işğalından azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa və quruculuq işləri ilə yanaşı, zəngin iqtisadi sərvətləri olan bu torpaqların milli iqtisadiyyata inteqrasiyası istiqamətində tədbirlər davam etdirilməkdədir. Strateji plana əsasən, həmin bölgədə istehsal, emal, ticarət və xidmət infrastrukturunun yaradılması, yeni texnologiyaların tətbiqi, investisiya cəlbediciliyinin təmin edilməsi nəzərdə tutulur. Bu məqsədlə sahibkarları həvəsləndirmək üçün xüsusi vergi-gömrük güzəştləri, müxtəlif iqtisadi, maliyyə və institusional stimulların tətbiqi hazırlanır.

## Nəticə

Prezident İlham Əliyevin 10 dekabr 2021-ci il tarixli "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Sərəncamına əsasən, həmin ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlar üçün xammal və materialların idxalı ilə bağlı gömrük və vergi güzəştlərinin müəyyən edilməsi barədə Vergi Xidmətinə təkliflər hazırlamaq tapşırılıb.

Hazırda Dövlət Vergi Xidməti tərəfindən həmin ərazilərin iqtisadi diaqnostikası aparılır və bu dərin təhlillər əsasında təkliflər hazırlanır. Sənədə əsasən, işğaldan azad edilmiş ərazilərin inkişafı üçün vergi təşviqlərinin tətbiq olunması, yeni istehsal sahələrinin qurulmasına görə kapital qoyuluşlarına uyğun olaraq mənfəət vergisinə güzəştlərin verilməsi, turizmin inkişafı üçün vergi təşviqlərinin təmin olunması nəzərdə tutulmuşdur.

Təkliflərə əsasən, Qarabağ və Şərqi Zəngəzurda kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olacaq mülkiyyətçilərin torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azad edilməsi nəzərdə tutulur. Bundan başqa, Qarabağ bölgəsi böyük sənaye potensialına malikdir. Sənaye zonalarının investisiya cəlbediciliyini artırmaq üçün hazırda Sənaye Texnologiyalar Parklarında, Ələt Azad İqtisadi Zonasında vergi və gömrük siyasəti təşviq edilir, azad edilmiş ərazilərdəki sənaye müəssisələri üçün də bu güzəştlər şamil olunacaqdır. Cəbrayılda yeni fəaliyyətə başlayan "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında ilk xarici investorlar qeydə alınıb, Rusiyanın "KamAZ" ASC şirkəti tərəfindən bu ərazidə ilk investisiya layihəsinin icrası yaxın günlərdə baş tutacaqdır. Həmin sərmayəçilər üçün vergi güzəştləri nəzərdə tutulubdur.

Hazırda 50-dən çox xarici şirkət işğaldan azad edilmiş ərazilərin bərpası üzrə layihələrdə iştirak etmək üçün hökumətə müraciət edib. Onların sırasında Türkiyə, Rusiya, Pakistan, Macarıstan, Qazaxıstan, Çin, İtaliya, İsrail və Cənubi Koreya şirkətləri əsas yer tutur. Və onlar üçün də vergi güzəştlərinin tətbiqi planlaşdırılır. Həmçinin yerli sahibkarların da işğaldan azad edilmiş ərazilərdə biznes qurmaq istəyi hədsiz dərəcədə böyükdür. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə (KOBİA) indiyə qədər 980 sahibkar müraciət edərək Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında işləmək niyyətlərini bildiriblər. İşğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərəcək sahibkarlıq subyektlərinə, o cümlədən kiçik və orta sahibkarların həm mənfəət, həm də gəlir vergisi üzrə güzəştlərlə əhatə olunması nəzərdə tutulur.

Yerli sahibkarlıq subyektlərinin böyük bir hissəsinin investisiya təşviqi sənədi əldə etməsini nəzərə alsaq, onlar üçün qanunvericilikdə nəzərdə tutulmuş vergi güzəştləri ilə əhatə edilməsi daha asan olacaqdır. Çünki investisiya təşviqi sənədi almış hüquqi şəxslər və fərdi sahibkarlar 7 il müddətinə bir sıra vergiləri və rüsumları ödəməkdən azaddırlar: hüquqi şəxslər və fərdi sahibkarlar əldə etdikləri mənfəətin 50 faizinə görə mənfəət (gəlir) vergisi, müvafiq investisiya layihəsi çərçivəsində investisiya vəsaiti hesabına əldə edilmiş əmlaklarına görə əmlak vergisi, mülkiyyətində və ya istifadəsində olan müvafiq torpaqlarına görə torpaq vergisi, təsdiqedici sənəd əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalına görə ƏDV və gömrük rüsumundan azaddır.

2022-ci il yanvar ayının 1-dən 3 il müddətinə kənd təsərrüfatı məhsullarının topdan və pərakəndə satışı zamanı ƏDV-nin ticarət əlavəsindən hesablanması, habelə kənd təsərrüfatı texnikalarının operativ lizinqə verilməsi və kənd təsərrüfatı məhsullarının istehsalı ilə bağlı aqrotexniki xidmətlər də ƏDV-dən azad edilibdir. Ona görə də, bu qrupa daxil olan bütün sahibkarların azad edilmiş ərazilərdə ən azı 5 növ vergi ödəməyəcəyi indidən bəllidir.

İşğaldan azad edilmiş ərazilərdə sosial sığorta və digər güzəştlər tətbiq ediləcək. Həmçinin, işğaldan azad edilmiş ərazilərə fəaliyyət göstərən sahibkarlara daha sərfəli və güzəştli bank kreditlərinin verilməsi üçün İqtisadiyyat Nazirliyinə və Mərkəzi Banka tapşırıqlar verilib. Sahibkarların təqdim etdikləri biznes-planda işğaldan azad edilmiş əraziləri nəzərdə tutan layihələrə üstünlük veriləcək və güzəştli kreditləri ilk növbədə onlar əldə edəcəklər.

Kənd Təsərrüfatı Nazirliyi Aqrar Tədqiqatlar Mərkəzinin rəhbəri Firdovsi Fikrətzadənin fikrincə, işğaldan azad olunmuş ərazilərə iqtisadi stimulların verilməsi ilk növbədə kənd təsərrüfatında əhəmiyyətli dönüş yaradacaq. Ağdam və Füzulinin işğala məruz qalmayan sahələri də nəzərə alınmaqla, azad olunmuş ərazilərdə təqribən 232.8 min hektar sahədə əkin sahələri mövcuddur. Həmçinin 430 min baş iribuynuzlu, 1,6 milyon baş xırdabuynuzlu heyvanlardan ibarət fermaların qurulması üçün potensial vardır. Regionun tarixən heyvandarlıq sahəsi üzrə mövcud olan potensialı və təbii-relyef xüsusiyyətləri

nəzərə alınmaqla, gələcək dövrdə də heyvandarlıq ağırlıqlı kənd təsərrüfatı istehsalı üstünlük təşkil edəcək. Bu bölgədə ət və süd məhsulları müəssisələri, üzümçülük, tütünçülük, baramaçılıq və arıçılıq sahələrinin bərpası və genişləndirilməsi həyata keçiriləcək. Bundan əlavə, regionda yeni aqrar layihələr, intensiv meyvəçilik sahəsinin inkişafı da nəzərdə tutulub. Proqnozlara görə, həmin torpaqlarda kənd təsərrüfatı sahələrinin inkişafını stimullaşdıran dəstək tədbirləri nəticəsində yaxın illərdə kənd təsərrüfatında real artımın 9 faizi, o cümlədən ölkə üzrə buğda istehsalının 10-12 faizi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında əldə ediləcəkdir. İlkin mərhələdə bütövlükdə bu ərazilərdə 1 milyard manatlıq əkinçilik məhsulları yetişdirmək mümkün olacaq ki, bunun da əhəmiyyətli hissəsinin buğda və taxıl olması gözlənilir.

## Ədəbiyyat

1. Təkin A. (2021), "Vergi təşviqləri və ekonomik təsirlər", Sosial elmlər jurnalı, s. 25
2. Bildirici Z. (1989), "Çeşidli ölkələrdə və ölkəmizdə vergi təşviqləri", Əskişəhər: Anadolu Universiteti nəşriyyatı, s.54-65
3. Seyfullayev İ. (2012), "Vergi güzəştlərinin səmərəliliyinin qiymətləndirilməsinin nəzəri-praktiki məsələləri", "Azərbaycanın Vergi Jurnalı", Bakı, s.125-138
4. Dadaşova R. (2020), "Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü: əsir və girovların hüquqlarının pozulması (Armenia's Military Aggression Against Azerbaijan: Violation of the Rights of Captives and Hostages)". İstanbul: Avrasiya Tədiqat Jurnalı, s.111
5. Həsənov Ə.M. (2017), "Azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasətinin mərhələləri. (Azərbaycan, türk, rus, ingilis, fransız, alman, ərəb və Çin dillərində)". Bakı :Zərdabi LTD, s. 48-58
6. Kəlbiyev Y.A. (2012), "Vergi siyasətinin konseptual əsasları və praktiki aspektləri". Bakı:Elm, s.20-25
7. Məmmədov F.Ə., M.M.Sadıqov, M.M., Musayev, A.F., Kəlbiyev, Y.A., Rzayev, Z.H. (2011), "Xarici ölkələrin vergi sistemi", Bakı: İqtisad Universiteti nəşriyyatı, s. 205
8. Özdəmir B. (2006), "Qloballaşma şəraitində türk vergi sisteminin dəyərləndirilməsi", Ankara: Maliyyə və hüquq nəşriyyatı, s. 203-211

**Rəyçi: i.ü.f.d. Adil Əhmədov**

Göndərilib: 17.03.2022 Qəbul edilib: 20.04.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/08/119-122

**Sona Əli qızı Əliyeva**
Bakı Dövlət Universiteti
magistrantı
jalva.99@bk.ru

# QANUNVERİCİLİK TƏŞƏBBÜSÜ

**Xülasə**

Əsas məqsədi qanunvericilik prosesinin ilk mərhələsi sayılan qanunvericilik təşəbbüsü hüququnun xüsusiyyətlərinin öyrənilməsinə yönəlmişdir. Tədqiqatda əvvəla qanunvericilik prosesinə müəllif tərəfindən anlayış verilmiş, qanunvericilik prosesi mərhələləri qeyd olunmuşdur. Qanunvericilik səlahiyyətinə malik orqanlar nəzərdən keçirilmişdir. Qanunvericilik prosesinin ilk mərhələsi sayılan qanunvericilik təşəbbüsü hüququnun ətraflı təhlilinə diqqət edilmişdir.Belə ki, tədqiqatda qanunvericilik təşəbbüsü hüququn mahiyyəti , spesfik xüsusiyyətləri araşdırılmışdır. AR Konstitusiyasının 48-ci maddəsinə əsasən qanunvericilik təşəbbüsü hüququna malik subyektlər təhlil edilmişdir .Qanunvericilik təşəbbüsü barədə bir sıra qanunlara nəzər salınmışdır.Həmçinin digər ölkələrdə qanunvericilik təşəbbüsü hüququna malik subyektlər qeyd olunmuşdur.

***Açar sözlər:****qanunvericilik prosesi, qanunvericilik təşəbbüsü, qanunverici hakimiyyət*

**Sona Ali Aliyeva**

## The right of legislative initiative

**Abstract**

The main purpose of the study is to study the features of the law of legislative initiative, which is the first stage of the legislative process. In the research, first of all, the author gave an explanation of the legislative process, the stages of the legislative process were noted. Legislative bodies were considered. Main attention was paid to the first stage of the legislative process - a detailed analysis of the right of legislative initiative. Thus, the study examined the essence and specific features of the legislative initiative law. According to Article 48 of the Constitution of the Republic of Azerbaijan, the subjects with the right of legislative initiative were analyzed. A number of laws on legislative initiative were considered. The subjects with the right of legislative initiative in other countries were also mentioned.

***Key words****:legislative process, legislative initiative ,legislator*

## Giriş

Qanunvericilik prosesi qanunların hazırlanması, qəbul olunması və qüvvəyə minməsinə yönəlmiş normativ olaraq müəyyən olunmuş qanunvericilik fəaliyyətidir. Əvvəla qeyd edək ki, Azərbaycan Respunlikasında qanunvericilik səlahiyyəti Azərbaycan Respublikası Milli Məclisinə məxsusdur.Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsində hakimiyyətlərin bölgüsü prinsipi ifadə olunmuşdur .Maddədə ifadə edildiyi kimi ölkəmizdə hakimiyyərin üç qolu var. Onlardan biri də qanunvericilik hakimiyyətidir və Azərbaycan Respublikası Milli Məclisinə məxsusdur.7-ci maddənin 4-cü maddəsində qeyd edilir ki, hakimiyyətin hər üç qolu (qanunverici – Milli Məclis, icra-Prezident, məhkəmə - Azərbaycan Respublikasının məhkəmələri) qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər.

Lakin bəzi ölkələrdə müəyyən şəraitdə qanunvericilik hüququ başqa orqanlara (hökumət, dövlət başçısı, parlament iclasları arasında fəaliyyət göstərən xüsusi orqanlar) verilə bilər. Məsələn, 1978-ci il İspaniya Konstitusiyasının 86-cı maddəsinə əsasən, fövqəladə və təcili hallarda hökumət fərmanlar şəklində müvəqqəti qanunvericilik aktları qəbul edə bilər.( İvanoviç L. 2021, s.4)

Qanunvericilik prosesisi aşağıda göstərilən mərhələlərdən ibarətdir :

1.Qanunvericilik təşəbbüsü , yəni qanun layihəsinin irəli sürülməsi

2.Qanun layihəsinin müzakirəsi

3.Qanunun qəbul edilməsi

4.Qanunun dərc edilməsi

Qanunvericilik təşəbbüsü dedikdə, qanunvericilik təşəbbüsü hüququna malik subyekt tərəfindən qanunyaratma orqanına qanun layihəsinin təqdim edilməsi başa düşülür.

Qanunvericiliyin birinci mərhələsi qanunvericilik təşəbbüsü hüququ , yəni qanun layihələri və başqa məsələləri AR Milli Məclisinin müzakirəsinə təqdim etmək hüququ qanun layihəsinin irəli sürülməsi mərhələsidir , konkret olaraq qanun layihəsinin Respublika parlamentinə müzakirə üçün təqdim olunmasıdır . Azərbaycan Respublikasının Milli Məclisi yeganə qanunvericilik hakimiyyəti orqanıdır ki , xüsusi prosedur əsasında qanun qəbul edir . Məhz bu səbəbə görə də yeganə subyekt olmaq etibarilə Milli Məclis qanunvericilik prosesini təşkil edir . Burada qanunvericilik proseduru Milli Məclisin özünün Daxili Nizamnaməsi əsasında yerinə yetirilən fəaliyyəti kimi çıxış edir və qanunun qəbulu ilə bitir [Məlikova M. 2019, s.193].

Qanunvericilik təşəbbüsü barədə “Normativ hüquqi aktlar haqqında “ qanuna nəzər salsaq, 38 və 39-cu maddədə qeyd edilir ki , qanunvericilik təşəbbüsü hüququ Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsi ilə müəyyən edilmiş subyektlərə mənsubdur. Normayaratma təşəbbüsünün subyektləri onlara verilmiş səlahiyyətlərə uyğun olaraq normativ hüquqi aktın layihəsinin və ya onun hər hansı struktur elementinin qəbul olunması, aktda dəyişikliklər edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi zərurəti haqqında təklifi bu Konstitusiya Qanununun 48-ci maddəsinə uyğun olaraq normayaratma orqanına təqdim etmək hüququ olan subyektlərdir. Normayaratma təşəbbüsünün subyekti olmayan dövlət orqanları və vəzifəli şəxslər, habelə fiziki və hüquqi şəxslər normativ hüquqi aktın qəbul edilməsi ilə bağlı təkliflərini və ya normativ hüquqi aktın layihəsini Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada müvafiq səlahiyyətlərə malik olan dövlət orqanlarına təqdim edə bilərlər [3].

Qanunvericilik təşəbbüsü hüququnun subyektləri Azərbaycan Respublikası Konstitusiyasının 96 - cı maddəsi ilə müəyyənləşdirilmişdir.Azərbaycan Respublikasının Kostitusiyasına əsasən Azərbaycan Respublikasının Milli Məclisinə qanunvericilik təşəbbüsü təqdim etmək hüququ aşağıdakı subyektlərə mənsubdur:

Azərbaycan Respublikasl Milli Məclisi deputatlarına

Azərbaycan Respublikası Prezidentinə

Azəebaycan Respublikası Ali Məhkəməsinə

Azərbaycan Respublikası Prokrorluğuna

Naxçıvan Muxtar Respiblikası Ali Məclisinə

Azərbaycan Respublikasının seçki hüququ olan 40 min vətəndaşına

Maddədə göstərilən subyektlərdən başqa " İnsan hüquqları uzrə müvəkkil ( ombudsman ) haqqında " AR Qanunun 1.5 - ci maddəsinə əsasən müvəkkil qanun layihəsinin AR Milli Məclisinə insan hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə qanunların qəbul edilməsinə və ya yenidən baxılmasına dair təkliflər vermək hüququna malikdir [Məlikova M.2019, s. 192] “Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında” 19996-cı il 17 may tarixli qanunun 9-cu maddəsində deputatın qanumvericilik təşəbbüsü hüququndan bəhs edilir.Qanunun 9-cu maddəsində qeyd edilir: Deputatın Azərbaycan Respublikası Konstitusiyası və qanunları ilə müəyyən olunmuş qaydada həyata keçirilən qanunvericilik təşəbbüsü hüququ vardı. Həmçinin maddədə də deputatın qanunvericilik təşəbbüsü hüququnun həyata keçirilmə formaları da qeyd edilmişdir.Buraya daxildir : yeni qanun və ya qərar layihəsinin qəbul olunmasını təklif edə bilər; qüvvədə olan qanuna və ya qərara dəyişikliklər və əlavələr edilməsi haqqında layihə təklif edə bilər; qüvvədə olan qanunun və ya qərarın ləğv edilməsi haqqında layihə təklif edə bilər; Azərbaycan Respublikasının Milli Məclisində baxılan qanun və qərar layihələrinə dəyişikliklər edilməsi haqqında təkliflər irəli sürə bilər.

Deputatın qanunvericilik təşəbbüsü hüququ onun təqdim etdiyi qanun və ya qərar layihələrinə Azərbaycan Respublikası Milli Məclisinin komitə və komissiyalarında baxılması vəbu barədə müvafiq qərar qəbul edilməsi ilə, qanunvericilik təşəbbüsü irəli sürən deputatın Azərbaycan Respublikası Milli Məclisinin və onun komitə və komissiyalarının iclaslarında çıxış etməsinə şərait yaradılması ilə təmin olunur [4]

Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında qanunun 9-cu maddəsində deputatın qanunvericilik təşəbbüsü hüququndan bəhs edilir.Maddədə göstərilir ki, deputatın Naxçıvan

Muxtar Respublikası Konstitusiyası və qanunları ilə müəyyən olunmuş qaydada həyata keçirilən qanunvericilik təşəbbüsü vardır.

Deputat qanunvericilik təşəbbüsü hüququnu aşağıdakı formalarda həyata keçirir:

- yeni qanun və ya qərar layihəsinin qəbul olunmasını təklif edə bilər;
- qüvvədə olan qanuna və ya qərara dəyişikliklər və əlavələr edilməsi haqqında təklif edə bilər;
- qüvvədə olan qanunun və ya qərarın qüvvədən düşməsi haqqında layihə təklif edə bilər;
- Naxçıvan Muxtar Respublikası Ali Məclisində baxılan qanun və qərar layihələrinə dəyişikliklər və əlavələr edilməsi haqqında təkliflər irəli sürə bilər [5]

Vətəndaşların qanunvericilik təşəbbüsü hüququ "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etmə qaydası haqqında" qanunu ilə tənzimlənir. Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndinə və 96-cı maddəsinin VI hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydasını müəyyən edir və bu sahədə yaranan münasibətləri tənzimləyir.Qanunun 1-ci maddəsində qeyd edilir : Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsinin I hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının Milli Məclisində qanunvericilik təşəbbüsü hüququ (qanun layihəsini və başqa məsələləri Azərbaycan Respublikası Milli Məclisinin müzakirəsinə təqdim etmək hüququ) Azərbaycan Respublikasının seçki hüququ olan 40 min vətəndaşına mənsubdur..Bu qanunda bir sıra məsələlər : Vətəndaşların qanunvericilik təşəbbüsü qaydasında təqdim etdiyi qanun (qərar) layihəsinə dair tələblər, Vətəndaşların qanunvericilik təşəbbüsü hüququndan istifadə ilə bağlı təşəbbüs qrupunun yaradılması, Təşəbbüs qrupunun və layihənin qeydiyyatı və s .tənzimlənir [6].

Vətəndaşın təqdim etdiyi qanun layihəsi "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 50-ci, 53-58-ci və 62.4-cü maddələrində müəyyən edilmiş tələblərə uyğun olmalıdır. Vətəndaşların qanunvericilik təşəbbüsü qaydasında təqdim etdiyi qanun layihəsində dövlət büdcəsi, dövlət rüsumu, vergilər və gömrük işi, əmək haqqının məbləği və onun ödənilməsi qaydası, cinayət və ya inzibati xətalar, ailə münasibətləri, ərazi quruluşu və inzibati ərazi bölgüsü, dövlətlərarası və Azərbaycan Respublikasının qanunlarından fərqli qaydalar nəzərdə tutan hökumətlərarası müqavilələrin təsdiq və ləğv edilməsi, seçki və referendum, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad, amnistiya, seçilməsi, təyin edilməsi və ya təsdiq edilməsi müvafiq olaraq qanunvericilik və (və ya) icra hakimiyyəti orqanlarının səlahiyyətlərinə aid edilmiş vəzifəli şəxslərin seçilməsi, təyin edilməsi və ya təsdiq edilməsi ilə bağlı məsələlər nəzərdə tutula bilməz. Vətəndaşlar tərəfindən qanunvericilik təşəbbüsü qaydasında Konstitusiya qanunlarının layihələri təqdim oluna bilməz [Hüseynəliyeva İ. 2021,s.67].

Qeyd etdik ki ,AR Prezidenti qanunvericilik təşəbbüsü hüququna malikdir.Buna misal kimi göstərə bilərik, dövlət başçısının yeni qanunvericilik təşəbbüsü olaraq, əmək pensiyasının minimum məbləğinin 25 faiz artırılaraq cari il oktyabrın 1-dən 160 manatdan 200 manata çatırılması nəzərdə tutulur. Təşəbbüsə uyğun olaraq əmək pensiyasının minimum məbləğinin əhəmiyyətli şəkildə artırılmasına dair qanunvericilik layihəsi hazırlanaraq artıq Milli Məclisə təqdim olunub[ 9]

Digər dövlətlərdə isə qanunvericilik təşəbbüsü hüququna əsasən hökumət və parlament malikdir. Amerika Birləşmiş Ştatlarında qanunvericilik təşəbbüsü hüququna yalnız parlamentin üzvləri malikdir; təkcə büdcənin layihəsini prezident təqdim edir. Bir çox dövlətlərdə bu hüquqa — ali dövlət orqanları, mərkəzi dövlət təsisatları, parlamentdaxili orqanlar, parlamentin orqan və təsisatları, seçki qrupları malikdir [8]

## Nəticə

Qanunvericilik təşəbbüsü hüququnun subyektləri qanunla verilmiş səlahiyyətlərə uyğun olaraq qanun layihəsinin və ya onun hər hansı struktur elementinin qəbul olunması, dəyişikliklər edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında təklifi bu Konstitusiya Qanununun 48-ci maddəsinə uyğun olaraq qanunyaratma orqanına təqdim etmək hüququ olan subyektlərdir.

## Ədəbiyyat

1. Yuriy İ., (2012) Xarici ölkələrdə qanunvericilik prosesi, professor Leybonun redaksiyasında dərs vəsaiti .MDMİ universiteti nəşriyyatı. 2012
2. Məlikova M.F. (2019) Hüquq nəzəriyyəsi. Bakı "Elm və təhsil" , 2019, 441 s.
3. Normativ hüquqi aktlar haqqında " qanun
4. Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında qanun
5. Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında qanun
6. Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etmə qaydası haqqında" qanun
7. Hüseynəliyeva I. (2021) Normayaratma fəaliyyəti . Metodik vəsait. Bakı "Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin mətbəəsi.
8. https://kayzen.az/blog/law/7841/qanunvericilik-prosesi.html
9. https://www.sosial.gov.az/2408

**Rəyçi: h.e.d. Şəhla Səmədova**

Göndərilib: 12.03.2022 Qəbul edilib: 19.04.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/08/123-126

**İlkin Arzu oğlu Qəmbərli**
Azərbaycan Dövlət Aqrar Universiteti
magistrant
ilkin_qemberli@bk.ru

# ƏNƏNƏVİ SƏNƏD DÖVRİYYƏSİ İLƏ ELEKTRON SƏNƏD DÖVRİYYƏSİ SİSTEMLƏRİNİN ƏSAS FƏRQLİ XÜSUSİYYƏTLƏRİ

**Xülasə**

Məqalədə Müasir İnformasiya texnologiyalarının geniş tətbiq sahələrdən biri olan Elektron sənəd dövriyyəsi sistemlərinin ənənəvi sənəd dövriyyəsi ilə fərqli xüsusiyyətlərinə toxunulmuşdur. O cümlədən, elektron Sənəd Dövriyyəsinin Biznes müəssisələrinə təklif etdiyi üstünlüklər araşdırılmışdır. Bunların işçilərin iş qabiliyyətinə nə kimi təsirləri olduğu göstərilmişdir. Bu sistemin mövcud sahəyə gətirdiyi yeniliklər açıqlanmışdır. Habelə, ESDS-in tətbiqindən yarana biləcək problemlər araşdırılmışdır. Əvvəllər istifadə olunan Ənənəvi Sənəd Dövriyyəsi metodunda olan problemlərin Elektron Sənəd Dövriyyəsi Sistemi ilə necə aradan qaldırıldığı vurğulanmışdır. Elektron Sənəd Dövriyyəsi Sisteminin işləməsi üçün tələb olunan alt-sistemlərə nümunələr çəkilmişdir. Həmçinin, ümumi sistemin və alt-sistemlərin dizaynı açıqlanmışdır.

***Açar sözlər:*** *Elektron Sənəd Dövriyyəsi Sistemləri, ənənəvi Sənəd Dövriyyəsi, sənəd, sənəd axını,problemlər,tətbiq*

**İlkin Arzu Gambarli**

## The main distinguishing features of traditional document management and electronic document management systems

**Abstract**

The article touches on the differences between electronic document management systems and traditional document management, which is one of the most widely used areas of modern information technology. In particular, the benefits of e-Document Management for Businesses were explored. The impact of these on employees' ability to work has been shown. The innovations brought by this system to the existing field have been announced. In addition, the problems that may arise from the application of ESDS were investigated. It was emphasized how the problems of the Traditional Document Management method used earlier were solved by the Electronic Document Management System. Examples of subsystems required for the operation of the Electronic Document Management System are given. The design of the overall system and subsystems is also disclosed.

***Key words:*** *Electronic Document Management Systems, Traditional Document Management, document, document flow, problems, usage*

## Giriş

Hazırda dünya ölkələrinin əksəriyyətində istifadə olunan Elektron Sənəd dövriyyəsi sistemləri (bundan sonra ESDS) şirkətlər və o cümlədən dövlət-qurumlarının kargüzarlıq sahəsindəki xərc və iş yükünü azaltması üçün dizayn edilmişdir. Kargüzarlığın ancaq insan əməyi istifadə edilərək tətbiq olunan metodu olan Ənənəvi Sənəd Dövriyyəsi isə bu sistemlərlə detallı müqayisə edilmişdir.

ESDS sənədlərlə işləmək üçün sənəd axının idarəetməsi metoduna uyğunlaşdırılmış dizayna əsaslanır.

Sənəd axınının növləri:

1. kağız iş axını ilə
2. fərdi kompüterlərdən istifadə olunan sənəd axını ilə
3. yuxarıdakı iki metoddan istifadəyə əsaslanan qarışıq metod ilə
4. elektron sənəd dövriyyəsi ilə

Ofis işləri uzun müddət müəssisələrin uçotunun əsasını təşkil edib. Sənədləşmə işləri vaxtilə bu ofislərdə aparılırdı. Bu o deməkdir ki, qeydiyyatdan keçmək üçün

daxil olan və çıxan bütün məlumat üçün kağız daşıyıcılardan istifadə edilib. Şirkətin reqlamentinə görə son tarix müəyyən edildikdən sonra sənədlərin saxlanması üçün həmin vaxtda qeydiyyat jurnallarına qeyd edilən sənədlər arxivlərə təhvil verilirdi.

80-ci illərdə kompüterlərin, sonralar isə fərdi kompüterlərin yaranması

sənədləşdirmə metodları ilə işin bir hissəsini elektron formada keçirməyə imkan yaratdı. Xüsusilə, sənədlərin hazırlanması və qeydiyyatı üçün fərdi kompüterlər istifadə edilməyə başlandı.

Məhz bu dövrdə "elektron sənəd" anlayışı meydana çıxdı - saxlanılan sənədlər

kompüterdə rəqəmsal formada təsvir edilməyə başlandı. Uzun müddət avtomatlaşdırmanın tətbiqindən sonra qarışıq sənəd axını yarandı. Bunun tətbiqi ilə elektron formada sənədlərin hazırlıq və qeydiyyatı aparıldı, lakin köçürmə, koordinasiya və təsdiq əvvəlki kimi kağız üzərində aparılmağa davam etdi. Bu da yalnız kağız variantlı sənədlərin hüquqi qüvvəyə malik olmasına səbəb oldu.

Bununla belə, bu tip sistemlərə dünyanın bəzi hissələrində rast gəlinir.

Lakin, bütün işlərin ESDS-in tətbiqinin çox mühüm taktiki faydası var.Taktiki xeyirə sənədlərin arxivləşdirilməsinə sərf olunan xərclərin kəskin azalması, kağız sənədlərin yerləşdirməsi üçün nəzərdə tutulmuş yerlərin boşalması, sənədlərin üzünün çıxarılmasına ayrılan xərclərin ixtisarı, personal və avadanlıqlar üçün nəzərdə tutulmuş xərclərin azalaması və s. aiddir[1].

Elektron sənəd dedikdə elektron imza vasitəsilə imzalanmış sənəd nəzərdə tutulur [2].

ESDS kargüzarlığın aparılmasında əsas məsələlərdən biri olan sənəd dövriyyəsi, qurum və müəssisələrdə sənədlərin yaradılması və ya alınması (daxili sənədləşmə, digər təşkilata göndərmək üçün hazırlanan sənədlər) prosesindən başlayaraq sənədin icra olunması və ya göndərilməsi prosesinə qədər keçdiyi bütün mərhələləri özündə əks etdirir.

ESDS müəssisə daxilində sənədlərin idarə olunması və sənədlərlə iş prosesini avtomatlaşdıran vahid bir sistemdir. ESDS sistemlərinə daxil olan alt sistemlər aşağıdakılardır:

- Sənədlərin hazırlanması və ya xarici informasiya mənbələrindən daxil edilməsi[ Şerebenkova A. 2005,s. 384].
- Sənədlərin əvvəlcədən təyin olunmuş fayl formatında və genişlənməsində bazada saxlanılması [Gatautis R., Mazeika A., Laud P., and Satkauskas R. 2008, s.204]
- Qurum daxili sənədlərin hərəkətinin, paylaşılmasının, məhv edilməsinin təmin edilməsi və bütün bu proseslərə nəzarət, əməliyyatların vahid qeydiyyat sisteminin təşkili.
- Sənədlərin söz və ya başlıq vasitəsilə axtarışını təmin edən axtarış sistemi.
- Sistem təhlükəsizliyini təmin edən istifadəçi giriş və administrativ giriş paneli[5].
- Sistemin bazasındakı məlumatlara əsaslanaraq avtomatik Hesabat və statistik məlumatların hazırlanması.
- Sənədə rəhbərlik tərəfindən dərkənar qoyulmasının təşkili
- Sənədlərin Elektron İmza ilə imzalanmasının təminini həyata keçirən Sertifikat sistemi [6]
- Sənədin icraçı şəxs və ya şəxslərə ötürülməsini təmin edən yönləndirilmə sistemi.
- İcraçıları sistemə daxili və ya xaricdən elektron məktub ilə sənəd gəlməsi barədə məlumatlandıran xəbərdarlıq sistemi [Dneprovskiy, M.S.2016,s. 65]
- Sənədin icra vəziyyətinə nəzarətin təmin edilməsi
- Sistemdəki bazanın həftəlik,aylıq və ya illik ehtiyat nüsxələrinin çıxarılması və onları təhlükəsiz mühitdə saxlanmasını təmin edən Nüsxələmə sistemi [8].

ESDS Ənənəvi sənəd dövriyyəsinin malik olduğu bütün əməliyyatlara sahibdir. Şübhəsiz ki, elektron sənəd dövriyyəsi bir sıra digər mühüm üstünlüklərə də malikdir. Əsas üstünlüklərə aşağıdakılar daxildir:

1. müəssisə daxilində informasiyanın emalı sürətinin əhəmiyyətli dərəcədə artması - rəqabətli bazar mühitində əhəmiyyətli üstünlüklər yaradır;
2. informasiya itkisi riskini əhəmiyyətli dərəcədə azalır və müəssisənin vahid informasiya sahəsinin yaradılması bunun sayəsində mümkün olur;
3. ESDS istifadə olunan təşkilatlarda sənədlərin hazırlanması, nəzarəti , saxlanması, əldə olunması, göndərilməsi proseslərində tələb olunan resurslara maksimal dərəcədə qənaət etməyə şərait yaradır.

4. Sənəd hazırlanması üçün nəzərdə tutulmuş nümunələrdən istifadə edərək sənədin yaradılması üçün nəzərdə tutulan vaxtı azaldır.
5. Sənədlərin qısa müddət ərzində icraçıya çatdırılmasını təmin edir.
6. Sənədlərin elektron variantda saxlanmasını və rezerv variantlarının sistemdən kənarda təhlükəsiz halda saxlanılmasını təmin edir.
7. Dəftərxana xərcləri və iş qüvvəsini azaldır.
8. Sənəd axını prosesini izləməyə şərait yaradır.
9. İşçi intizamını ciddi şəkildə artırır.
10. Sistemdə işçilərin sənədlərə çıxışını icazələr vasitəsilə tənzimləməyə şərait yaradır.
11. Sistemə daxil olan sənədlər əhəmiyyət dərəcəsinə görə ayrı-ayrılıqda qruplaşdırılır.

Geniş imkanlara və aşkar üstünlüklərə baxmayaraq, elektron sənəd dövriyyəsi sistemi bir sıra çatışmazlıqlara da malikdir.

Həmin çatışmazlıqlar aşağıdakılardır:

1. Yeni sistemin tətbiqi üçün əhəmiyyətli ilkin xərclər tələb olunur (avadanlığın, EDMS proqramlarının əldə edilməsi, kommunikasiyaların qurulması, işçilərin təlimi və ya yenidən hazırlanması)

2. İki komponentdən ibarət olan insan amili:

2.1. Müəssisə işçilərinin psixoloji münasibətləri - əgər müəssisə "sıfırdan" yaradılıbsa, bu amil daha az təsir göstərəcək, lakin əvvəllər mövcud olan kağızı əvəz etmək üçün elektron sənəd dövriyyəsi sistemi tətbiq olunarsa, onda bu vəziyyətdə stresli vəziyyətlər yaratma riski var, çünki yeni həmişə çətinliklə qəbul edilir;

2.2. İşçilərin səriştəlilik səviyyəsi - təəssüf ki, müasir müəssisələrin bütün işçiləri lazımi səviyyədə kompüter biliklərinə malik deyillər ki, bu da öz hərəkətləri ilə sistemdə nasazlıq yaratma risklərinin olmasına şərait yaradır.

3. informasiya təhlükəsizliyi problemi - təəssüf ki, elektron təhlükəsizlik sistemləri həmişə mükəmməl fəaliyyət göstərmir və heç bir müəssisə rəqəmsal kanallar vasitəsilə məlumat sızmasından sığortalanmayıb. Kağız sənədi seyfdən və ya fiziki olaraq daha qorunaqlı yerdən çıxarmaqdansa, elektron mühitdən məlumat çıxarmaq çox vaxt daha asandır.

4. texniki vasitələrin istifadəsi iş axınının əhəmiyyətli dərəcədə artmasına kömək edir,lakin, bu da nəticədə çətin həll olunan problemlərin yaranmasına səbəb ola bilir. Biznes müəssisələrində elektron sənəd dövriyyəsinin tətbiqi daha iki ciddi problemlə müşahidə edilir.

4.1. Birinci problem dildir. Bu, hazırda dünya ofis işində və iş prosesində istifadə olunan proqram və sistemlərin əksəriyyətinin ingilis dilində yazılması və eyni dildə məzmunla işləməyə yönəldilməsi ilə müəyyən edilir. Lakin, bütün işçi heyətin ingiliscə yüksək səviyyəli anlama qabiliyyətinə sahib olması demək olar ki mümkünsüzdür. Nəticədə bir növ dil maneəsi yaranır ki, elektron sənəd dövriyyəsi sistemi (ESDS) digər dillərdə daxil edilmiş məlumatların bir hissəsini "görmür" və müvafiq olaraq sistemin bəzi funksiyaları bu səbəbdən bloklanır.

4.2. İkinci problem işgüzar yazışmaların təşkili ilə bağlıdır. Bu günə qədər cüzi sayda elektron sənəd şablonları vardır ki, çox vaxt onlar müəyyən bir istifadəçinin bu sənədi necə təsəvvür etməsindən asılı olaraq tərtib olunurlar. Ona görə də elektron işgüzar yazışmaların unifikasiyasına ehtiyac var. Buna baxmayaraq, bütün aşkar çatışmazlıqlara baxmayaraq, elektron sənəd dövriyyəsinin tətbiqi müasir şəraitdə biznesin uğurlu inkişafı üçün zəruri amildir. [9]

Bununla belə, ESDS-in tətbiqində də müəyyən problemlərlə rastlaşılır.

Təcrübə göstərir ki, hazırda idarəetmə sənədlərinin ümumiyyətlə hazırlanmadığı və ya yalnız idarəetmə fəaliyyətinin müəyyən mərhələlərində istifadə olunduğu çoxlu sayda təşkilatlar, həm kiçik, həm də orta biznes müəssisələri, eləcə də ərazi baxımından uzaq filialları olan iri müəssisələr mövcuddur. Eyni zamanda, bütün idarəetmə fəaliyyəti sənədlərlə işləməyə əsaslanır və bu cür işlərin təşkili qəbul edilən qərarların səmərəliliyinə və keyfiyyətinə əhəmiyyətli dərəcədə təsir edən idarəetmə proseslərinin hissələrinin ayrı-ayrılıqda tətbiqinə əsaslanır. Tamamilə aydındır ki, ən son informasiya texnologiyaları əsrində ənənəvi sənəd dövriyyəsi sxemi bu dövrdə mövcud olan iş həcminin öhdəsindən gələ bilməz. Klassik sənədləşmə işlərinin aparılmasında, müxtəlif təşkilatların sənədləşmə fəaliyyətində, bir qayda olaraq, bir müddət sonra, eyni problemlər yaranır:

- sənədlərin, informasiyanın qaçılmaz itkisi;
- daşıyıcılarda olan sənədlərin və məlumatların üçüncü şəxslərə verilməsi və ya sızdırılması;
- məqsədi və mənbəyi aydın olmayan çoxlu sənədlərin birgə toplanması;
- sənədlərin hazırlanmasına və əlaqələndirilməsinə çox vaxt sərf olunması səbəbindən emal sürətinin , yəni yeni məlumatlara ləng reaksiyanın mövcudluğu;
- sənəd axınının artıqlığı, daxil olan və gedən yazışmaların, daxili sənədlərin işlənməsi və sənədlərlə tanışlıq üçün sərf olunan böyük vaxt itkisi;
- qəbul edilmiş qərarların uyğunsuzluğu, mənbə sənədlərin və məlumatların qərar qəbul edən şəxslərə sürətlə ötürülməsini təmin edə bilməməsi;
- İcraçılar üzərində nəzarətin olmaması, qətnamələrdən irəli gələn göstərişlərin qısa müddətdə konkret icraçılara çatdırılmasının mümkün olmaması;
- zəruri sənədin axtarışı, sənədlərin tematik seçiminin formalaşdırılması üçün iş vaxtının nizamsız bölgüsü və bu prosesin xərcləri;
- Eyni sənədin birdən çox nüsxəsini yaratmaq üçün həddindən artıq kağız və surət çıxarma xərcləri. Nəticədə, iş prosesinə lazımsız sənədlərin əhəmiyyətli bir hissəsi və onlara baxılması halları daxildir və bu da qəbul edilən qərarlar çox vaxt bir-birini təkrarlamasına, bəzən isə ziddiyyətli olmasına səbəb olur. Bu, təşkilatın faktiki nəzarətsizliyinə gətirib çıxarır ki, bu da idarəçilərin sənədlərlə şöbələrin və icraçıların keçmiş və cari fəaliyyətini, habelə konkret sənədlərin hazırlanması və baxılma tarixini izləyə bilməməsi ilə açıqlanır. Ofis işi sahəsində problemləri həll etmək üçün bir çox menecer kompüter texnologiyasından istifadəyə müraciət olunur, lakin sadə təşkilati həllərin istifadəsi şirkətin vəzifələrinin səviyyəsinə yalnız minimal səviyyədə uyğun gəlir.

## Nəticə

Ənənəvi sənəd dövriyyəsi metodu şirkətlərin iş yükünün və xərclərinin artmasına səbəb olur, lakin buna baxmayaraq işçilərin məsuliyyətində ya heç bir dəyişikliyə səbəb olmur, ya da minimal dəyişikliklər müşahidə edilir. ESDS-in tətbiqi ilə isə həm xərclər və iş yükü azaldıla, həm də işçilərin işlərinə daha məsuliyyətli olmalarına səbəb oluna bilər. Bu cür sistemlər çox sürətli işləmələri səbəbindən informasiya mənbələrinə müraciət sürəti və axtarış asanlaşır və icra müddəti azalır. Sənəd axını çox olan müəssisələr üçün bu tip sistemlərin istifadə edilməsi çox vacibdir.

## Ədəbiyyat

1. Elektron sənəd dövriyyəsi sistemi ASDİS və bu tətbiqdən istifadənin aktuallığı barədə https://cybernet.az/az/products/58
2. https://az.wikipedia.org/wiki/Elektron_s%C9%99n%C9%99d
3. Şerebenkova, Ş. « Dokumentoborot na predpriyatiya », 2005. səhifə 384.
4. Gatautis, R., Mazeika A., Laud P., and Satkauskas R., Enhancing e-Government Services through Digital Time Stamping: Time Stamping System Specifications // Communications of the IBIMA, 2008, s.204.
5. Qaevskaya, «Abzor sistem elektronnoqo dokumento oborota», http://www.cfin.ru/software/kis/edms.html
6. «Abzor sistem elektronnoqo dokumentoborota», http://www.itweekly.ru/it-news/tech/105609.html
7. M.S.Dneprovskiy, T.Y. Dubnişeva, T.Y. (2016) «Sistema elektronnoqo dokumentooborota predpriyatiya», II Mejdunarodniy studençeskiy nauçniy vestinik.№3.
8. Aseev, Q.Q. «Elektronnniy dokumentoborot»,2007
9. Mokeeva T.«Elektronnniy dokumentoborot»,2012 http://www.klerk.ru/buh/articles/313946/

**Rəyçi: t. ü.f.d. Teyyub Hacıyev**

Göndərilib: 11.03.2022 Qəbul edilib: 19.04.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/08/127-132

**Seymur Teymur Baghirov**
ADA University
master's degree
sbaghirov10764@ada.edu

# WHY ISRAEL IS OPPOSED TO A TWO-STATE SOLUTION

## Abstract

The recent failure of the America-brokered peace dialogs between Palestine and Israel depicts problems in solving the two-state solution. Such efforts have also been witnessed in finding the Israel and Hamas solution. Provided an analysis of some of the previous failures that were characterized with bloody fights, the prevalent impasses can cause desperation in finding the two-state solution between Israel and Palestine. Having come across such issues, this paper seeks to broadly analyze the two-state solution is compromised by the existence of numerous adverse factors. Such factors include the refugee problem or Palestinian Jews residing in Israel, the conflict over Jerusalem, division among the two-state leaders, boundary rivalry, among other problems. The problems that hinder two-state solution between Israel and Palestine is evaluated through a synthetic interactive or comparative case study methodology. The methodology has followed two research designs known as review and correlation research designs. From the discussion, the major finding is that there is much blame game on the ground between the leaders from two nations. Perhaps the division among the Palestinians' leadership is what triggers division to widen. Still, the research has discovered that Israel is not ready to leave Jerusalem, especially the West Bank for Palestine. Hence, my interpretation on this issue is that the nature of confrontation between these countries is likely to continue for a longer period. The problems will continue if third parties do not intervene in the wrangles as defined in the analysis below.

***Key words***: *Israel, Palestine, conflict, two-state solution, border*

**Seymur Teymur oğlu Bağırov**

## İsrail niyə iki-dövlətli həllə qarşıdır

## Xülasə

Məqalədə Fələstin və İsrail arasında Amerikanın vasitəçiliyi ilə aparılan sülh dialoqlarının son uğursuzluğu iki dövlət hallinin problemləri təsvir edilir. Bu cür səylər həm də İsrail və HƏMAS-la aparılan sülh danışıqlarında həll yollarının görmək olar. Əvvəlki uğursuzluqlardan bəziləri təhlil edilərsə, dalana dirəniş İsrail və Fələstin arasında iki dövlətli həllin tapılmasında ümidsizliyə səbəb ola bilər. Bu cür problemlərlə qarşılaşan bu məqalə vəziyyəti geniş təhlil etməyə çalışır ki, iki dövlətli həll bir sıra xoşagəlməz amillərin mövcudluğu ilə güzəştə gedir. Belə amillərə İsraildə məskunlaşan qaçqınlar və ya fələstinli yəhudilərin problemi, Qüdslə bağlı münaqişə, iki ölkə liderləri arasında fikir ayrılığı, sərhəd rəqabəti və digər problemlər daxildir. İsrail və Fələstin arasında iki dövlətin həllinə mane olan problemlər sintetik interaktiv və ya müqayisəli nümunə tədqiqat metodologiyası vasitəsilə qiymətləndirilir. Metodologiya icmal dizaynı və korrelyasiya tədqiqatı kimi tanınan iki tədqiqat dizaynını əsaslanır. Müzakirələrdən əsas nəticə odur ki, iki xalqın liderləri arasında bir sıra problemlər var. Fələstin rəhbərliyi arasındakı fikir ayrılığı vəziyyətin gərginləşməsinə səbəb olur. Bununla belə, araşdırma nəticəsində İsrailin Qüdsü, xüsusilə də İordan çayının qərb sahilindən Fələstinə keçməyə hazır olmadığı ortaya çıxıb. Ona görə də bu məsələ ilə bağlı şərh ondan ibarətdir ki, bu ölkələr arasında qarşıdurmanın xarakteri daha uzun müddət davam edəcək. Aşağıdakı təhlildə müəyyən edildiyi kimi, üçüncü tərəflər mübahisələrə müdaxilə etməsə, problemlər davam edəcək.

***Açar sözlər***:*İsrail, Fələstin, konflict, iki-dövlətlli həll, sərhəd*

## Introduction

Finding of two-state solution would set up Palestine as an autonomous country alongside Israel. Each part would be operating freely without interference from each other. The two-state solution factor is a controversial issue as both Israel and Palestine offer genuine reasons when arguing over the issues affecting their people. In practice, the solution would permit Israel to enjoy her security by letting the nation hold the Jewish population majority as its people. At the same time, Palestine would be granted her sovereign autonomy as opposed to the current supervision by the Israeli forces, especially in the West Bank region. Nations such as the U.S. need to be commended over her efforts to restore peace between Israel and Palestine on their crisis. Partaking in peace compromise for 16 years requires patience and persistence. For instance, the debate on why Israel is against the two-state solution can be traced back in 1993 when PLO and Israel established an Oslo Accord for peaceful co-existence [Lerner, 2018, pp.3-5]. However, the Oslo Accord has not materialized since numerous issues have arisen between the two countries.

While evaluating the situation between Israel and Palestine, one would readily state that the problem might last even more that it has existed. Even though there is a prospect to find the solution, more expertise is needed to strike an agreement over the matter. The porous borders of the two nations have set in disputes overextension of both nations. This has also resulted in a security dilemma that compromises the lives of many citizens. Other factors that are presented as major dilemmas in the case scenario between Israel and Palestine comprise of settlements factor, the refugee problem, the nature of Jerusalem, and the rights to access some basic human needs. The efforts of the third-party participation in the issues, America in particular, have been futile. Therefore, this research paper focuses on these parameters to establish why Israel is against the two-state solution with Palestine.

## Conceptual Framework

The issue over Israel and Palestine has posed numerous questions that remain unanswered. One would ask, why is the answer to the two-state factor quite hard to be settled? As most people view Israel as a problem in establishing the solution, there is also an urge to assess whether or not Palestine is genuine in her argument. Firstly, the issue of border dispute is a renowned factor that has led many nations into skirmishes. Before assessing how the two countries struggle over the border factor, it is vital to find a theory that describes the border issue. The international relation theories or the IR theories are known for handling territorial disputes [Lustick, I.2019, p.1-5]. IR models often provide factors that trigger confrontation and approaches to be applied while solving territorial aspects. In this case, the IR theories try to find suggestions and insights that the IR theories can provide during border uncertainties [Bao H. 2018, p.328-341]. The common territorial theories in the modern world comprise of neorealism, conventional, and neoliberalism.

Israel and Palestine have shown that both the IR models need to be applied in finding a solution to their problems. Today, an observer will readily identify that the territorial dispute is a major factor that hinders the two-state solution to be achieved. For many years, the U.S. has tried to use neorealism, conventional, and neoliberalism theories to develop a borderline between Israel and Palestine. Why is the solution not found? Such a question triggers historian scholars, humanitarian agencies, and other professionals to question the ability of these IR models. Nonetheless, territorial theories have a limit under which they must be applied. Such limits entail economic, social, and political factors of nations. In this case, the paper looks back in 1967 when a border was drawn during the Arab-Israeli skirmishes that caused more harm than good. As Israel keep on constructing structures in the land where Palestine claims to belong to them, there is a need to establish the historical, political, and economic factors behind the practice. Historians such as Bao Hsiu-Ping [2018, pp.328-340]blame Israel for putting up border barriers in the West Bank. This is a de facto border issue that compromises the sovereignty of independent Palestine. As time pass, the future of Palestine expanding remains futile since it is divided into non-contiguous sectors. Now, Israel is highly infringing on the Palestine space at the expense of her poor citizens.

From the above analysis, the IR theories such as neoliberalism emerge as a dominant factor in this case. Neo-liberalism happens as a 20$^{th}$-century model that copies insights from the 19$^{th}$-century

resurgence of economic liberalism. The pathway can be used to solve the border dispute in the Israel-Palestine two-state solution by highlighting the economic interest of each party. However, there is a multifaceted aspect of the border dispute that requires synthetic interactive methodology. The methodology has to be grounded on a series of factors in the international relation models such as constructivism, liberalism, and neo-liberalism [Shaver et al. 2019, pp.115-138]. This is because border disputes have turned out to be the riskiest global flashpoint in terms of causing deaths, loss of wealth, and hatred. They often associate with the militarized inter-state issues that have prospects of causing uncertainties.

## Jerusalem

Furthermore, Jerusalem is a city that scholars such as O'Malley Padraig view as a factor that curtails an establishment of a two-state solution. In their article "Israel and Palestine: The Demise of the Two-State Solution," it is hard to establish peace using either the constructivism, liberalism, or neo-liberalism IR theories to find a lasting solution. As most historian scholars depict, Israel has placed claim over Jerusalem as their capital, a place of worship, and a region where most cultural endeavors ensue. The situation, in this case, can be equated to a winner takes it all practice where the country with a stronger army occupies a larger space in another nation. From most analyses, it is predictable that the two-state issue if fundamentally advocating for a division of the Palestinian East region and an Israeli West state in Jerusalem. However, diplomacy might fail to convince Muslims, Jewish, and Christian believers that Jerusalem can be divided. Religious rivalry can be worse than either political, social, or economic factors. Since religion is grounded on the spiritual beliefs and faith, the condition can activate wrangles between Israel and Jerusalem than before. What does "undivided capital" as put by Jerusalem mean? Such issues have Israel to annex the Eastern part of Jerusalem where most structures have been erected.

İki ideologiya arasındakı ziddiyyət beynəlxalq və yerli maraqların toqquşmasının çox real olduğu bir ərazidə dənizdən istifadə ilə bağlı fundamental suallar doğurur. Bu məqalənin məqsədi boğaz məsələsində iştirak edən maraqları araşdırmaq və sahilyanı dövlətlərin maraqlarını vurğulayaraq, beynəlxalq boğazlardan keçid hüququ, habelə bu sahədə münaqişələrin həllini təklif etməkdir.

***Açar sözlər:*** *beynəlxalq boğazlar, tranzit hüquqları, müasir hüquqlar, müasir dövr, beynəlxalq system*

## Introduction

This article focuses on the broad principles of freedom of the high seas and the application of navigation rights, as stated in the LOSC, in certain circumstances which allow coastal states to impose certain restrictions on freedom of navigation.

These rights, including the “innocent route” and the “transit route”, are important to US trade and military operations, which are central to US national security interests. The United States is not a party

to the LOSC, but sees the provisions of the Convention as a reflection of customary international law on the rights of the seas and navigation, which is binding on all states.

This section analyzes the legal definition of safe passage of ships through territorial waters and discusses relevant LOSC articles on safe passage. It then outlines the legal definition of transit through the international strait and discusses relevant LOSC articles on transit. The right to navigate ships and airplanes from peninsular sea routes is also part of the freedom of navigation framework within the LOSC, but will not be discussed in depth here. Illegal restrictions imposed by coastal states on some of the world's hottest waters.

**The right to pass innocent**

The right of passage for foreign ships in the territorial waters of a coastal state is defined as "navigation through territorial waters for the purpose of (a) road without entering inland waters or out of inland waters. Crossing this ocean without calling the shore or port facility. Or (b) Calling inland waters or similar roadstead or port facility. Passage must be "continuous and fast", but It can be paused and anchored when it is in normal navigation or when necessary due to unusual circumstances [Bing J., 2018, s.77].

Article 19 of the LOSC declares that the passage is "innocent" unless it is biased for the peace, good order, or security of the coastal state and outlines a list of 12 other activities that are considered "biased". - This list effectively prevents multiple military operations, including weapons exercises or drills; Collection of information on coastal state bias; Launching, landing or boarding any aircraft or military device; And jamming coastal state communications. Submarines and underwater vehicles should walk on the innocent road and show their flag. It is important to note that the right of innocent passage only applies to foreign ships. Innocent planes are not entitled to pass in flight and thus the aircraft must remain on the plane during innocent passage.

Exceptions to the right to deny passage of an aircraft exist within the limited context of the "right to enter the aid", on the basis of which mariners have a long-recognized duty to be at risk or distress at sea. Provide immediate rescue assistance to those affected. The right of auxiliary entry allows the entry into the territorial sea by ship or, in certain circumstances, by air without the permission of the coastal state for limited rescue or relief purposes. This principle of customary international law is also reflected in the "obligation to provide assistance" as defined in Article 98 of the LOSC [Bing J., 2018, s.135].

The right of passage applies to the strait used for international navigation, according to the LOSC, and cannot be suspended in the event of an armed conflict. The right of passage also applies to peninsular waters, but may be subject to a temporary suspension to protect the security of the coastal state.

**Coastal state laws and regulations relating to innocent passage**

Article 24 prohibits coastal states from blocking the passage of foreign ships through territorial waters unless specifically authorized by other articles of the LOSC. Coastal states are also prohibited from discriminating between states or cargoes of different nations. However, the LOSC allows coastal states to adopt laws.

And the following is a list of conditions relating to territorial sea crossing (Juntenen P.K., 2019: 56):

Navigation Safety and Maritime Traffic Regulation;

Protection of navigational aids and facilities and other facilities or installations;

Protection of cables and pipelines;

Protection of marine living resources;

Prevention of violations of coastal state fishing laws and regulations;

Protection of the coastal state's environment and prevention, reduction and control of its pollution;

Marine scientific research and hydrographic surveys;

Prevent violations of coastal state customs, financial, immigration or sanitary laws and regulations;

Sea collision prevention including the use of designated sea lanes and traffic separation schemes; And Foreign nuclear-powered ships and vessels required to carry documents to carry nuclear or other naturally hazardous or harmful substances, and special precautions established for such ships by international treaties.

## Coastal state protection rights

A coastal state may take the necessary steps to prevent the passage of its territorial waters which is not innocent and if the suspension is necessary for security reasons, including weapons exercises, the passage of innocents through a necessary public notice. May announce a temporary suspension.

Although the text of the relevant articles of the LOSC does not explicitly authorize the passage of warships, the overall language of the LOSC makes it clear in the context of its negotiating history and traditional international law that warships Enjoy the right to sin. Passing on uninterrupted and unannounced grounds [Juntenen P.K., 2019, s.59].

However, if a warship does not comply with the rules of the coastal state in accordance with the established principles of international law and ignores the request for compliance, the coastal state will immediately release the warship from the territorial sea.

Due to the sovereign immunity of warships (which is further discussed in Chapter Six: Sovereign Immunity), it is not clear to what extent the coastal state can force a warship out of its territorial waters in this situation. Furthermore, the coastal states cannot impose transit restrictions or otherwise violate the right of passage for sovereign ships powered by nuclear power.

## Different interpretations of the innocent passage

Numerous LOSC articles that address innocence have led to different interpretations by states. For example, some coastal states interpret Article 19 (1), which allows innocent passage, to prohibit many activities that are not explicitly listed under Article 19 (2). Another question of interpretation is whether the coastal state may need foreign ships to carry cargo that passes through an impassable route that enables the coastal state to monitor the movement of ships. Some observers have argued that the provision of LOSC does not prevent the coastal state from implementing such a measure.

These contentious issues arise from the negotiations that took place before the adoption of the LOSC, which kept the interests of the naval powers at odds with the coastal states. The naval powers insisted on more freedom of navigation, but the coastal states argued for the ability to restrict movement under certain conditions to protect the interests of the coastal states.

## Right of way

The right of transit is defined as the exercise of freedom of navigation and overflight, for the purpose of continuous and rapid transit through the international strait between the high seas or part of the EEZ only. In the common modes of operation used by aircraft and aircraft for such passage.

A waiver of the right of transit declares that “if the Strait is formed by an island in a state adjacent to the Strait and its mainland, this right shall not apply” and There is a special economic zone of similar convenience in terms of navigational and hydrographic features.

The coastal state cannot obstruct or suspend transit for any purpose during peacekeeping. This applies to displacement ships, including warships of states engaged in armed conflict with another state in a state of peace with the border coastal state. The right of transit passage in peacetime, in accordance with the laws and regulations of the states bordering the Strait adopted under international law, continues to apply during armed conflict. However, during transit, fighters should not take offensive action against enemy forces, nor should they use such neutral waters as a shelter or base of operations [3].

It is important to note a few important differences between innocent transit and transit, especially in relation to military operations, and to highlight the fact that there may be fewer restrictions on transit than on innocent transit. Although there is no right of passage for an airplane, and coastal states may refuse entry to an airplane attempting to pass through airspace on its territorial waters, they do allow transit for an airplane over an international strait. Can't refuse to pass.

In addition, while coastal states may require submarines to cross the surface innocently and display their flag, they cannot prevent submarines from sinking and transiting. Another difference is that the transit passage cannot be suspended by the coastal state, while the innocent passage can be temporarily suspended.

### Duties of aircraft and aircraft during transit

Ships and aircraft that exercise the right of transit (a) will pass through or above the Strait without delay, (b) to refrain from any threat or use of force against the sovereignty, territorial integrity, or political independence of the states bordering the Strait; And (c) refrain from any activity other than these in the normal manner of their continuous and rapid transport unless necessary by force or inconvenience [Juntenen P.K., 2019: 13].

Surface warships can operate in a manner that involves sound naval exercises and force protection, including their electronic reconnaissance and naval equipment such as radar, sonar, and deep sound devices, formation steaming, and Aircraft launching and recovery.

### Laws, Regulations and Duties of Transit Border States

Foreign ships are required to obtain permission from the coastal states that cross the Strait before conducting any research or survey activities using the right of transit. States adjacent to the Strait have the power to establish seaborne and traffic separation schemes where necessary for the safe passage of ships in the Strait used for international navigation (4). Warships, auxiliaries, and government ships that operate on special government services, such as autonomous defense ships, are not legally required to comply with such maritime and traffic separation schemes during transit, but they do.

Coastal states have the power to adopt laws and regulations regarding the passage of the Strait, with reference to one of the following [8]:

(a) Navigation Safety and Maritime Traffic Regulations, as provided in Article 41.

(b) Pollution prevention, reduction and control by enforcing applicable international regulations regarding the discharge of oil, oil waste and other hazardous substances into the Strait;

(c) with regard to fishing vessels, fishing prevention, including storage of fishing equipment;

(d) Loading or unloading of any item, currency or person in violation of the customs, financial, immigration or sanitary laws and regulations of the states bordering the Strait.

It is the duty of the states bordering the Strait not to obstruct transit and to adequately publicize any threat that they are aware of passing through or above the Strait.

### Conclusion

The FON program offers a balance of diplomatic costs and benefits that include physical challenges. In some cases, the costs, disadvantages, or risks that come with excessive claims that are physically challenging may outweigh the benefits. Of course, the coastal states understand this calculation and may try to use it to their advantage as they have the incentive to force the international community to recognize their excessive maritime claims.

Continued investment in the FON program, including diplomatic protests against illegal claims and continued FON actions to challenge these claims, is essential to the protection of key maritime rights under LOSC and customary international law. The United States has urged allies such as Japan, South Korea and Australia to join the FON program, but has so far refused to operate. The United States should continue to pursue this goal because the message conveyed through FON operations will be stronger when more states send it.

### References

1. Bing J. (2018) The Regime of Straits in International Law. London, 444 p.
2. Juntenen P.K. (2019) The Åland Strait. Tress press, 455 p.
3. LOSC, Articles 17-18.
4. LOSC, Articles 19-20.
5. LOSC, Articles 53-54.
6. Nirmal M. (2014) The Legal Regime of Passage Rights Through International Straits. TT press, 523 p.
7. https://sites.tufts.edu/lawofthesea/chapter-three/#:~:text=The%20right%20of%20transit%20passage,the%20normal%20modes%20of%20operation
8. https://books.google.az/books?id=4y0raaaayaaj&q=the+right+of+transit+passage+through+or+ever+international+straits&dq=the+right+of+transit+passage+through+or+ever+international+straits&hl=tr&sa=x&redir_esc=y

**Rəyçi: h.e.d. Şəhla Səmədova**

Göndərilib: 01.03.2022 Qəbul edilib: 14. 04.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/08/170-173

**Dilbər Vətən qızı Camali**
AMEA Nəsimi adına Dilçilik İnstitutu
doktorant
dilber.mehdiyeva@gmail.com

# TÜRK VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ MÜRƏKKƏB ADLARIN ORFOQRAFİYASI

**Xülasə**

Məqalədə müasir Azərbaycan dilindəki mürəkkəb adların yazılış qaydaları təhlil olunmuş, müasir kitab və saytlardan nümunələrlə əsaslandırılmışdır. Müasir türk dilindəki mürəkkəb adların orfoqrafiya normaları tədqiqata cəlb edilmiş, Azərbaycan dili ilə oxşar və fərqli cəhətlər üzə çıxarılmışdır. Məqalədə bütün dil faktları "Azərbaycan dilinin Orfoqrafiya Normaları" ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına istinadən verilmişdir.
***Açar sözlər:*** *orfoqrafiya, dil, azərbaycan dili, türk dili, yazılış*

**Dilber Vatan Jamali**

## Orthography of compound names in Turkish and Azerbaijani languages

**Abstarct**

In the article, orthographic norms and changes in the spelling of complex names in the Azerbaijani language have been written under the guidance of spelling norms of the Azerbaijani language approved by the Resolution No. 174 of the Cabinet of Ministers of the Republic of Azerbaijan dated April 16, 2019, and by the Resolution No. 438 of certain amendments dated November 3, 2020, and substantiated on examples from contemporary books and sites. At the same time, similarities and distinctions in the spelling of compound nouns with modern Turkish have been revealed comparatively.
***Key words***: *orthography, language, Azerbaijani, Turkish, spelling*

## Giriş

İnsan cəmiyyətinin yarandığı dövrlərdə dünya dilləri az sayda olmuşdur. Daha sonra isə bir dil arasında bölünmə baş vermiş, bir dildən onlarla dillər əmələ gəlmişdir. Türk dillərinin oğuz qrupuna daxil olan Azərbaycan dili və Türk dili zənginliyi və qrammatik quruluşu ilə diqqəti cəlb edir. Qədim tarixə malik türk dilləri hər biri ayrılıqda müəyyən özünəməxsus tarixi inkişaf yolu keçmişdir. Dəyişən ictimai şərait və quruluş, elm və texnikanın inkişafı eyni zamanda dildən də yan keçməmiş və bir sıra dəyişikliklərə səbəb olmuşdur. Hər bir ölkənin öz daxili siyasətinə uyğun olaraq lazımi qurumların da müdaxiləsi ilə yazıda orfoqrafiya qaydaları formalaşır və dövlət səviyyəsində qəbul edilir. Buna görə də dillərarası fərq təbiidir. Bu səbəbdə hər bir dildə orfoqrafi qaydalar müxtəlifdir "*Bu dillər arasında XII-XIV yüzilliklərə dair bəzi fərqlər görünsə də, XV-XVI yüzilliklərdə fərqlər çoxalmış, ən geci XVII-XVIII yüzilliklərdə (mürəkkəb etnik-siyasi proseslərin nəticəsi olaraq) müstəqil dillər kimi daha çox ayrılmağa başlamış, fonetik (fonoqrafik) quruluşda, lüğət tərkibində, qrammatik kateqoriyalarda, sintaktik normalarda fərqlər əsasən həmin yüzilliklərdən meydana çıxmışdır*" [Kazımov İ., 2019, s.9].

Müasir türk dili uzun və mürəkkəb inkişaf və təkamül yolu keçmişdir. İnkişaf gedişində müxtəlif dillərin təsirinə də məruz qalmışdır. Türk dili 1923-cü ildən sonra ən yüksək mərhələyə qədəm qoymuşdur. Başlıca dönüş ili bu dilin Respublika dövrünə düşür. Ən mühüm dil islahatları məhz bu dövrdə aparılır. Türk dilinin əlifbası dəyişdirilir, ərəb qrafikası latın qrafikası ilə əvəzlənir (1928). "*Sonrakı illərdə (1932) Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Atatürkün maddi və mənəvi dəstəyi ilə «Tülk Dil Qurumu» yaradılmış, dildə özləşmə prosesi başlanmışdır. Əsas vəzifə türk dilinə keçmiş yabançı kəlmələri milli sözlərlə əvəz etmək, qarşılıq axtarıb tapmaq idi. Dili sadələşdirmək əsas vəzifə kimi qarşıda dururdu və bu proses indi də davam etməkdədir* [Kazımov İ., 2019, s.10].

*"Türk dilininə aid dilçilik ədəbiyyatında da mürürkkəb sözlər müxtəlif şəkildə şərh edilir, müxtəllif birləşmələr, qoşa sözlər, təkrarlar da mürəkkəb söz kimi qəbul edilir. Əksər ədəbiyyatlarda mürəkkəb sözlər sintaktik kateqoriya kimi izah edilir. Belə ki, Muharrem Erginin «Türk dil bilgisi» adlı əsərində Orhan Veli, Faruk Hafiz, Demirtaş, Ahmed Caferoğlu kimi Şəxs adları, «Birleşik isim, ayakkabı, yüzbaşı, açıkgöz, kırkayak» ve s. bu qəbildən olan sözlər isə «Birleşik kelime adı ilə sintaksisdə nəzərdən keçirilir"* [Zeynalov F. 2008,s. 90]. Hər bir dil istər obyektiv, istər subyektiv səbəblərdən dolayı müxtəlif orfoqrafiya qanunlarını qəbul edir. Buna bəzən də beynəlxalq qaydalar da təsir edə bilir.

Azərbaycan Dilçiliyindən fərqli olaraq Türkiyə Dilçilik tarixində "mürəkkəb adlar" müxtəlif terminlərlə adlandırılmışdır. Mürəkkəb adlar isim bəhsinin daxilində "ad ve ad soylu kelime sınıfları"adlı bölmədə öyrənilmişdir. Azərbaycan dilindən fərqli olaraq bir çox mürəkkəb adların yazılış qaydası özünəməxsus qaydalara tabe edilir.

Müasir türk ədəbi dilinin orfoqrafiya prinsipləri Türk Dil Qurumu tərəfindən hazırlanan «Yeni yazım kılavuzu»nda («Yeni orfoqrafiya soraq kitabı») təsbit edilmişdir [7] Bu prinsiplərə türk yazısında əsasən riayət edilsə də, bir qisminin istifadəsində müəyyən dərəcədə ixtiyarilik nəzərə çarpır.

Türk dilində mürəkkəb adlar "birleşik adlar" adlandırılır və fərqli yazı qaydaları tətbiq olunur. Belə ki, bunların bir çoxu Azərbaycan dilindəki orfoqrafik qaydalarla eyniyyət təşkil edir. Ad, soyad, ləqəb və təxəllüs bildirən mürəkkəb adların kımponentləri türk dilində də böyük hərflə yazılır. Bu Türk dilində də demək olar ki eynidir: *Aydemir, Akbulut, Avni Hurufi Efendi, Doktor Sadri Köksal, Nazım Hikmet, Yahya Kamal, Tepedelenli Ali Paşa, Yirmisekiz Çelebi Mehmet, Yedisekiz Hasan Paşa.ve s.* [Qorxmaz Z.,2009, s *231-232]*

Nümnələr *; Yahya Kamal Paris yıllarında Ahmet Rıza, Sami Paşazade Sezai, Mustafa Fazıl Paşa, Prens Sabahattin, Abdullah Cevdet, Abdülhak Şinasi Hisar gibi Jön Türkler'le tanıştı. Hiç dil bilmeden gittiği kentte hızlı bir şekilde Fransızca öğrendi (18).*

Azərbaycan dilində ad, soyad, təxəllüs və ləqəb bildirən sözlərin (bəy, oğlu və qızı sözlərindən başqa) birinci hərfi böyük yazılır: *Nizami Gəncəvi, İmadəddin Nəsimi, Uzun Həsən, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Bəxtiyar Vahabzadə,* (azərb.), *Ahmet Hamdi Tanpınar, Neşet Ertaş, Şeyh Muhammed Bahaüaddin, Sultan Süleyman Kanuni, Sultan Veled ve s. (türk)*

*Yavuz Sultan Selim, hem Farsça hem de Türkçe siir söyleyebiliyordu. Farsça olan Divân'i l306 yilinda Istanbul'da basilmis olup, l904 tarihinde de Alman Imparatoru Vilhelm II.'nin emri ile Paul Horn tarafindan Berlin'de yeniden nesredilmiştir (19); Çukurovaya köylüsü Kavak Osmanla inmişlerdi (3, 264); Turan Oflazoğlu Dördüncü Murat adlı tiyatro eserinde Dördüncü Muratı bir çok yönü ile ve onu hazırlayan şartları da sergileyerek başarılı bir biçimde sergilemiştir (3, 264); Deli Dumrul boyu Dede Korkut Kitabının on iki hikayesinden biridir ve hikaye kahramanı Deli Dumruldur* [Qorxmaz Z.,2009, s. *264]*

Bədii əsərlərdə heyvanlara və cansız əşyalara verilən adlar böyük hərflə yazılır: Alapaça, Badə, Bəng, Bozdar, Qırat, Məstan və s. Tarixi hadisələrin, dövrlərin, sülalələrin, eləcə də qədim yazılı abidələrin, əsər adları və s. adlarının birinci sözünün ilk hərfi böyük yazılır: *Azadlıq meydanı, Çaldıran döyüşü, Dəmir dövrü, Orxon-Yenisey abidələri, Yeddiillik müharibə və s. Belə mürəkkəb adlara fərqləndirici söz əlavə olunduqda, onun da birinci hərfi böyük yazılır: Orta Paleolit dövrü, Son Paleolit dövrü (azərb.). Türkler, Türk milleti, Türkiye Cumhuriyeti, Fransızlar, Osmanlı Devleti, Selçuklu Devleti, Osmanlı İmperatorluğu* ve s. (türk) [Qorxmaz Z.,2009, s*, s.237]*

Azərbaycan dilində ölkələrin, muxtar respublikaların, vilayət və diyarların rəsmi adlarının tərkibindəki bütün sözlərin ilk hərfi böyük yazılır: *Azərbaycan Respublikası, Birləşmiş Ərəb Əmirlikləri, İran İslam Respublikası, Naxçıvan Muxtar Respublikası* və s.

Nümunələr: *Parlamentin sədri tədbirdəki nitqində bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev BMT çərçivəsində COVİD-19-a qarşı yüksək səviyyəli qlobal bərpa paneli yaratmaq təşəbbüsü ilə çıxış edib [21];* Millət, dövlət, topluluq boy, əşirət adları, ay, gün adları da həmçinin böyük hərflə yazılır. Bunlara əlavə olaraq səmavi kitabların, fəza cisimlərinin adlarını da daxil etmək olar*: Quran, Bibliya, Əhdi-cədid, Əhdi-ətiq, İncil, Tövrat, Zəbur, Ülkər, Günəş, Ay, Yupiter, Saturn, Venera* və s. Nümunə: *Dün gece arkadaşımın babası, bize misafir geldi* ; *Okullar, her yıl Eylül ayının son Pazartesi sabahı açılır. (türk.)* [Qorxmaz Z.,2009, s *s.240 ]*

Türk dilində dil, din, məzhəb və təriqət adları cümlə daxilində də böyük hərflə yazılır: *Almanca, Azerbaycan Türkçesi, Kazak Türkçesi, Müslümanlık, Türk, Azeri, Almanlar, Musevilik, Hanefi, Şafii, Alevi Musevilik, Bektaşilik, Sünnilik, Şiilik* ve s. [Qorxmaz Z.,2009, s s.240] Bu qayda isə Azərbaycan dilinə aid deyil.

Ali dövlət vəzifələri–Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Azərbaycan Respublikasının Baş naziri, Azərbaycan Respublikası Milli Məclisinin sədri kimi yazılır. Dövlət orqanları (qurumları), birlik, cəmiyyət, akademiya, universitet, kollec, teatr, filarmoniya, siyasi partiya, tarixi günlər və s. bu kimi mürəkkəb adların bütün sözlərinin (adına, üzrə, və, yanında, qarşı və s. bu kimi yardımçı sözlərdən başqa) birinci hərfi böyük yazılır: *Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Bakı Şəhər İcra Hakimiyyəti, Ağstafa Rayon Təhsil Şöbəsi* [1, s.19] *və s.*

Nümunələr: *Bununla əlaqədar "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydalarının" təsdiq olunması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarında dəyişiklik edilməsinə zərurət yaranmışdır* [16]; *Milli Məclisin sədri məlumat verib ki, Sankt-Peterburqa səfər çərçivəsində bir sıra ikitərəfli görüşlər də keçirilib. Rusiya Federal Məclisi Federasiya Şurasının sədri xanım Valentina Matviyenko, Özbəkistan Ali Məclisi Senatının sədri xanım Tənzilə Narbayeva, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Beynəlxalq Federasiyasının Avropa üzrə direktoru xanım Birqit Bişof Ebbesen, Ümumdünya Səhiyyə Təşkilatının Avropa regional bürosunun direktoru cənab Hans Klüqe ilə aparılan danışıqlar səmərəli olub* [17];

Dövlət rəmzlərinin, həmçinin tərkibində gün sözü olan və təqvimə düşən əlamətdar günlərin adlarında bütün sözlər böyük hərflə yazılır: *Azərbaycan Respublikasının Dövlət Himni, Beynəlxalq Ana Dili Günü, Beynəlxalq Qadınlar Günü, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü [A.O.L, 2021, s.9]* və s.

Nümunələr*: Ağdam şəhərinin mərkəzində Azərbaycanın Dövlət Bayrağı ucaldılıb, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə məruzə olunubb [22]*

Azərbaycan Respublikasının səhiyyə naziri, Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri tipli mürəkkəb adlarda sahə (səhiyyə) və vəzifə (nazir) bildirən söz kiçik hərflə yazılır*: Səhiyyə naziri, Təhsil naziri, Müdafiyə naziri* və s. (azərb.). Ancaq türk dilində vəziyyət bir qədər fərqlidir. Məsələn: *Sağlık Bakanı, Ulaştırma Bakanı, Milli Eğitim Bakanı və s. (türk)*

*Nazirliklərin adı isə rəsmi dövlət qurumu olduğu üçün hər iki komponenti böyük hərflə yazılır* : *Hüquq və daxili nəzarət sektorunun müdiri E.Əzizova tapşırılsın ki, bu qərar 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilsin [23]*; *Azərbaycanda Müdafiə Nazirliyinin əsasının qoyulması 1918-ci ilə təsadüf edir [24]*

Tərkibində lisey, gimnaziya, vəqf, məktəb, fakültə, şöbə sözləri olan mürəkkəb adlarda ilk söz böyük, sonrakı sözlər kiçik hərflə yazılır*: Avropa liseyi, Dəyanət vəqfi, Humanitar fənlər gimnaziyası və s.* Türk dilində rəsmi qurum, quruluş, dərnək, təhsil müəssisələrinin adlarındakı bütün sözlər böyük hərflərlə yazılır. Məsələn: *Ankara Üniversitesi, Başbakanlık Devlet Planlama Teşkilatı Müşteşarlığı, Emekli Sandığı Genel Müdürlüğü, Milli Eğitim Bakanlığı, Yargıtay Başkanlığı (türk)*

*Nümunələr:Bursa Uludağ Üniversitesi (BUÜ) . Panelde Türk Dil Kurumu Başkanı Prof. Dr. Gürer Gülsevin ile İstanbul Üniversitesi Edebiyat Fakültesi Dekanı, Türk Dil Kurumu Bilim Kurulu Üyesi ve YÖK Genel Kurulu Üyesi Prof. Dr. Hayati Develi konuşmacı olarak yer aldı [10];* Fəxri adların özək hissəsini təşkil edən ilk söz böyük hərflə, sonrakı sözlər kiçik hərflə yazılır*: Əməkdar müəllim, Əməkdar incəsənət xadimi, Xalq şairi* və s. Qeyd. Azərbaycanın Milli Qəhrəmanı, Sovet İttifaqı Qəhrəmanı mürəkkəb adlarında hər üç söz böyük hərflə yazılır.

Orden, medal, bədii əsər, opera, balet, kinofilm, qəzet, jurnal, kinoteatr, mehmanxana, nəşriyyat, kafe, restoran və s. adları dırnaqda və birinci sözü böyük hərflə yazılır: "Azərbaycan" qəzeti, "Cücələrim" kafesi, "Bahar" mağazası, "Badamlı" mineral suyu və s. Qeyd. Dırnaqda yazılan belə adlara artırılan şəkilçi dırnaqdan kənarda yazılır: "Xalq qəzeti"nin bugünkü nömrəsi, "Yeddi gözəl"in ilk tamaşası və s.

Türk dilində saray, köşk, villa, hotel, gəmi, təyyarə, bina və s. Kimi sözlərin bütün hissələri böyük hərflə yazılır: *Beyaz Saray, Çankaya Köşkü, Beylerbeyi Sarayı, Dolmabahçe Sarayı, Hilton Hoteli, Amiral Nelson Gemisi, Kuğulupark Apartmanı, Toprak Palas, Paşa Saray* (türk) ve s. *[3, s.243]*

Dərgi, sözlük, kitap, ensiklopediya, həbsxana, adlarının bütün hissələri böyük yazılır: *Türk Dili ve Edebiyatı Dergisi, Türk İslam Ansiklopedisi Dili Araştırmaları Yıllığı, Siyasi Hikayeler, İbişin Rüyası, Füzuli Divanı, Kutadgu Bilig* ve s. [Qorxmaz Z.,2009, s. 240] Nümunələr: *Türk Dili ve Edebiyatı Dergisi (TUDED): Journal of Turkish Language and Literature, açık erişimli, hakemli, yılda iki kere Haziran ve Aralık aylarında yayınlanan, İstanbul Üniversitesi Edebiyat Fakültesi Türk Dili ve Edebiyatı Bölümü'nün resmi yayınıdır [11].*

## Nəticə

Göründüyü kimi Azərbaycan və türk dillərində orfoqrafiya normaları son illərdə yuxarıda göstərdiyimiz kimi sabitləşmişdir. Lakin hər bir dövlətin dil qanunlarından asılı olaraq bu kimi yazım qaydalarında fərqlilik və dəyişiklik özünü göstərə bilir.

.

## Ədəbiyyat

1. Azərbaycan dilinin orfoqrafiya lüğəti (2021) (7-ci nəşr), Bakı: Elm
2. Kazımov, İ.,(2019)Türk dillərinin müqayisəli müqayisəli morfologiyası, Bakı: Elm.
3. Qorxmaz, Z. (2009) Türkiyə türkcəsinin Grammatikası (şəkil bilgisi), Ankara: Türk Dil Qurumu Yayınları
4. https://www.iku.edu.tr/tr/kurulus-oykusu
5. http://bsu.edu.az/az/news/bduda_professor_irmmmd_hseynovun_anadan_olmasnn__97__illiyin_hsr_olunmu_tdbir_keirilib
6. https://xalqqazeti.com/ru/news/91705
7. https://kayzen.az/blog/turk-dili/5823/orfoqrafiya-prinsipləri html
8. https://www.unikal.org/news/163760/bmt-azerbaycanda-usaqlarla-bagli-aciqlama-verdi-narahatiq
   https://www.milliyet.com.tr/cadde/karikaturlerin-gecesi-1304138
10. https://www.haberumut.com/kultur-sanat/yunus-emre-ve-dunya-dili-turkce-buude-konusuldu-h104383.html
11. https://iupress.istanbul.edu.tr/tr/journal/tuded/home
12. https://cdn.istanbul.edu.tr/file/JTA6CLJ8T5/4B40BCE2687D420DA6CCC12A4ADDFC22
13. http://abc.az/ru/news/61763
14. http://www.e-qanun.az/framework/40386
15. https://mod.gov.az/az/mudafie-nazirliyi-481/
16. https://nk.gov.az/az/article/1951/
17. https://www.meclis.gov.az/news.php?id=3779&lang=az
18. https://www.gidahatti.com/yahya-kemal-beyatli-kimdir-yahya-kemal-beyatli-hayati-2-224334/
19. https://www.yavuzsultanselim.gen.tr/
20. https://www.cdn.istanbul.edu.tr/file/JTA6CLJ8T5/4B40BCE2687D420DA6CCC12A4ADDFC22
21. https://www.meclis.gov.az/news.php?id=3779&lang=az
22. http://abc.az/ru/news/61763
23. http://www.e-qanun.az/framework/40386
24. Zeynalov, F. (2008) Türk dillərinin müqayisəli qrammatikası, Bakı MBN nəşriyyatı

**Rəyçi: fil.ü.f.d. Şəkər Orucova**

Göndərilib: 11.03.2022 Qəbul edilib: 19. 04.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/08/174-178

**Ömər Taleh oğlu Allahverdiyev**
Gəncə Apellyasiya Məhkəməsi
Gənə/Azərbaycan
omer-allahverdiyev@bk.ru

# ÜZLƏŞDIRMƏ VƏ MƏHKƏMƏ EKSPERTİZASI İSTİNTAQ HƏRƏKƏTLƏRİNİN HƏYATA KEÇİRİLMƏSİNİN KRİMİNALİSTİK VƏ PROSESSUAL ASPEKTLƏRİ

**Xülasə**

Müasir dövrdə cinayətkarlıqla mübarizənin qarşısının alınmasında istintaqın təşkili, yeni kriminalistik taktiki metod və üsulların hazırlanması, o cümlədən cinayət-prosessual sahədə nəzərdə tutulmuş ayrı-ayrı istintaq hərəkətlərinin bəzi xüsusiyyətlərinin təkmilləşdirilməsinə ehtiyac var. Həyata keçirilən istintaq hərəkətlərindən biri də özündə baş vermiş hadisəyə görə sübut əhəmiyyətli məlumatların alınmasında rol oynayan dindirmə istintaq hərəkətidir. Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, planlaşdırılan və həyata keçirilən dindirmə istintaq hərəkətlərinin prosessual əsasları ilə bağlı ziddiyyət və kolliziyalara aydınlıq gətirilmişdir. Prosessual-hüquq normalarında mövcud çatışmazlıqların təcrübədə tətbiq zamanı yaratdığı çətinliklər şərh olunmuş, təklif və tövsiyələr irəli sürülmüşdür. Hüquqi, faktiki və prosessual əsasları bir-birindən fərqləndirilmişdir. Təşkilati-prosessual əsaslarına görə ekspertizanın növlərə bölünməsi hərtərəfli araşdırılıb. Həmçinin, mövcud qanunvericiliklə xarici ölkələrin qanunvericilikləri arasında fərqli məqamlarda araşdırılmışdır.
***Açar sözlər:*** *Anlayışlar, subyektlər, taktiki üsullar, hüquqi əsaslar, faktiki əsaslar, ekspertiza növləri*

**Omar Taleh Allahverdiyev**

## Forensic and procedural aspects of reconciliation and forensic examination

**Abstract**

In modern times, there is a need to improve the organization of the investigation in the fight against crime, the development of new forensic tactical methods and techniques, as well as some features of individual investigative actions in the field of criminal procedure. One of the investigative actions carried out is the interrogation, which plays a role in obtaining evidence-based information about the incident. The scientific novelty of the article is that the contradictions and conflicts related to the procedural basis of the planned and carried out interrogation investigative actions have been clarified. The difficulties created by the existing shortcomings in the procedural-legal norms in practice were explained, suggestions and recommendations were made. The legal, factual and procedural bases are distinguished. The division of expertise into types according to organizational and procedural bases has been thoroughly investigated. It also examines the differences between existing legislation and foreign law.
***Key words:*** *Concepts, subjects, tactical methods, legal bases, factual bases, types of expertise*

## Giriş

Azərbaycan Respublikası Konstitusiyasının ikinci bölməsi, 3-cü fəsil "Əsas hüquqlar, azadlıqlar və vəzifələr" adlandırılan bölməsində 24-71-ci maddələri "Əsas hüquq və azadlıqlar" adlandırılan fəslin 71-ci maddəsində qeyd edilmiş hüquq və azadlıqları gözləmək və təmin etmək bütün səlahiyyətli oranların vəzifə borcu kimi təsbit olunmuşdur. Cinayətlərin ibtidai araşdırılması zamanı cinayət təqibi orqanı tərəfindən həyata keçirilən müvafiq istintaq hərəkətlərinin prosessual əsası zamanı insan və vətəndaşların təmin edilməli olan hüquqları qorunmalı və gözlənilməlidir, əks halda bu, hüquq pozuntusu kimi qiymətləndirilir.

**Üzləşdirmə istintaq hərəkəti.** Cinayət Prosessual Məcəllənin 235-ci maddəsində qeyd olunur ki, əvvəl ifadələrini vermiş şəxslərin ifadələrində ziddiyyət olduğu halda iki şəxsin eyni bir zaman anında dindirilməsindən ibarətdir [5].

Məqsəd kimi aşağıdakıları qeyd etmək olar:

1.Əvvəl ifadələrini vermiş iki şəxsin ifadələrindəki ziddiyyətli halı müəyyən etmək üçün;

2.Üzləşdirmə zamanı yalnız əvvəl ifadələrini vermiş şəxslər olmalıdır.

Üzləşdirmə istintaq hərəkəti, ümumiyyətlə, kriminalistik baxımından mürəkkəbdir, çünki əgər şəxslərin ifadələri arasında ziddiyyətli hal olarsa, keçirilməsi məqsədə uyğundur. Bundan ötrü müstəntiq əvvəl ziddiyyətli halları aşkar etməlidir. Üzləşdirmə və dindirmə istintaq hərəkətində oxşar cəhəti odur ki, müəyyən şəxslər dindirilir. Bəzi müəlliflər üzləşdirməni ifadələrində mühüm ziddiyyət olan, əvvəllər dindirilmiş şəxslərin eyni zamanda növbə, həmin ziddiyyətli halları aşkar etməyi dindirilmə hesab edirlər [Colovyev A. 2002, s.10].

Cinayət Prosessual Məcəllənin 235-ci maddəsində üzləşdirmə hərəkətinə anlayış verir, "ifadələrində əhəmiyyətli ziddiyyətlər olduqda, müstəntiq əvvəl dindirilmiş iki şəxs arasında üzləşdirmə aparmaq hüququna malikdir". Üzləşdirmə dindirmə istintaq hərəkətinin xüsusi növü kimi bəzi müəlliflər tərəfindən qeyd edilsə də, lakin müstəqil istintaq hərəkətidir, çünki üzləşdirmə zamanı üzləşdiriləcək şəxslərdən əvvəl ifadələr alınıb, sadəcə, alınan ifadələr arasında ziddiyyət olduğuna görə həmin halı aradan qaldırmaq və sübutların mötəbərliliyini və yoxlanılmasını təmin etməkdir.

Qanunverici üzləşdirmənin subyektini qeyd etməyib, lakin subyekt qismində təqsirləndirilən şəxslər, şübhəli şəxslər, zərərçəkmiş şəxslər, şahidlər arasında, təqsirləndirilən şəxslə zərərçəkmiş şəxs arasında, təqsirləndirilən şəxslə şahid arasında, şübhəli şəxslə zərərçəkmiş şəxs, şübhəli şəxslə şahid arasında, zərərçəkmiş şəxslə şahid arasında keçirilə bilər, həmçinin ekspertlər arasındada üzləşdirmə aparıla bilər. Cinayət Prosessual Məcəllənin 272 və 332-ci maddələrinə görə ekspert müstəntiq tərəfindən ibtidai araşdırma zamanı, həmçinin məhkəmə iclası zamanı dindirilə bilər [Cəfərov M. 2011, s.694-695].

Əvvəl ifadələrini vermiş şəxslərin ifadələrində əhəmiyyətli dərəcədə ziddiyyətli hal olarsa, bu zaman üzləşdirmə müstəntiqin təşəbbüsü ilə həyata keçirilir. Şübhəli şəxsin, təqsirləndirilən şəxsin, zərərçəkmiş şəxsin, onların qanuni nümayəndələrinin, müdafiəçilərinin vəsatəti əsasında keçirilə bilər və müddəaları nəzərə alınaraq qeyd edilir ki, təqsirləndirilən şəxs ona qarşı ifadə vermiş şəxsləri dindirmək hüququna malikdir [7], [9].

Üzləşdirməyə çağırılacaq şəxslərin hansının 1-ci ifadə verəcəyini və ya 1-ci kimə sual veriləcəyini qanunverici müəyyən etmir. Məsələyə kriminalistik baxımından yanaşsaq, müstəntiq özü dindirmə ardıcıllığını, sualların ardıcıllığını, üzləşdirmənin predmetini, şəxslərin bir-birlərinə olan münasibətlərini, onların xarakterik cəhətlərini və s. nəzərə alıb müəyyən etməlidir.

Avropa İnsan Hüquqları Məhkəməsinin 6-cı maddəsinin pozuntusu yalnız çox nadir hallarda Avropa Məhkəməsi milli məhkəmənin mövqeyinə zidd olaraq bu nəticəyə gəlir ki, bu sübut tam şübhəli şəraitdə əldə edildiyi üçün etibarlı sayıla bilməz (Lisitsa Xorvatiyaya qarşı (Lisica v. Croatia), 47-62-cu bəndlər 25 fevral 2010-cu il Lithgow and others v. the United Kingdom (Litqou və başqaları Birləşmiş Krallığa qarşı), 8 iyul 1986-cı il). Məsələn, Laska və Lika Albaniyaya qarşı (Laska and Lika v. Albania) işdə (63-72-ci bəndlər) 20 aprel 2010-cu ildə ərizəçi barəsindəki ittiham hökmü üzləşdirmənin nəticəsinə əsaslanmışdı, həmin üzləşdirmədə ərizəçi başına ağ-göy rəngli maska-balaklava taxmış (bu işdə cinayət törətmiş şəxslərin taxdığı maskalar kimi), üzləşdirmənin qalan iştirakçıları isə qara maska taxmışdılar. Üzləşdirmənin belə təşkil edildiyi şəraitdə, təbii ki, zərər çəkmiş şəxs ərizəçini təqsirkar şəxs kimi göstərəcəkdi. Bu işdə Avropa Məhkəməsi bu nəticəyə gəldi ki, bu şəkildə təşkil olunan üzləşdirmə nəticəsində əldə edilmiş dəlil sübutedici dəyərə malik deyil və buna görə də ittiham hökmü tamamilə əsassız olub [8].

**Məhkəmə ekspertizanın aparılma əsasları.** Cinayət Prosessual Məcəllənin 264-cü maddəsinə görə, ekspertiza baş vermiş cinayət hadisəsi üzrə xüsusi biliklər tələb edildiyi halda, yəni elm, texnika, incəsənət, peşə habelə başqa sahələrdə zərurət yaranarsa təyin edilir. Ekspertizanın təyin edilməsinin faktiki və prosessual əsası var. Faktiki əsas kimi baş vermiş cinayət hadisəsi üzrə sübut edilməli olan halların müəyyən etmək üçün xüsusi bilik tələb olunduğu halda.

Prosessual əsas kimi cinayət təqibi orqanı məhkəmənin qərarı, həmçinin cinayət təqibi xüsusi ittiham əsasında həyata keçirilərsə müdafiəçinin yazılı vəsatəti əsasında keçirilir.

Hüquqi əsasını isə Məhkəmə Ekspertiza Fəaliyyəti haqqında Qanunu və Cinayət Prosessual Qanunvericiliyi təşkil edir. Məhkəmə ekspertizasının keçirilməsinin müəyyən şərtləri var.

1.Ekspertiza ekspert tədqiqatı üçün kifayət həcmdə material toplandıqdan sonra təyin edilir;

2.Cinayət prosesi orqanı ekspertizanın aparılmasının məcburi olduğu hallarda ekspertiza təyin etməyə bilməz;

3.Ekspertiza təyin edilərkən ekspertlər qarşısında həlli istintaq orqanının prokurorun və məhkəmənin səlahiyyətinə aid olan məsələlərə dair sual qoyula bilməz [Cavadov F.2018, s.768].

Ekspertiza həm cinayət işi başlanmazdan əvvəl, həm də sonra da təyin edilə bilər. Cinayət Prosessual Məcəllənin 268-ci maddəsinə istinadən şübhəli şəxsin, həmçinin təqsirli hesab edilən şəxsin hüquqlarında ekspertizanın aparılması barədə qərarla tanışlıq qeyd edilsə də, lakin zərər çəkmiş şəxs və şahidə münasibətdə isə bu hüquq qeyd olunmayıb. Fikrimizcə, qeyd olunması daha məqsədəmüvafiqdir.

Təşkilati-prosessual əsaslarına görə isə məhkəmə ekspertiza fəaliyyəti haqqında qanunda ekspertizaların keçirilməsinin bütün növləri qeyd olunmasa da, qanunun 15-ci maddəsinə istinadən aşağıdakı növləri qeyd edilib:

1) İlkin məhkəmə ekspertizası;
2) Əlavə məhkəmə ekspertizası;
3) Təkrar məhkəmə ekspertizası;
4) Komission məhkəmə ekspertizası;
5) Kompleks məhkəmə ekspertizası [6].

1. Aparılma ardıcıllığına görə məhkəmə ekspertizaları ilkin və təkrar ekspertizalar. baş vermiş cinayət hadisəsi üzrə sübut edilməli halın müəyyən etmək məqsədilə xüsusi bilik tələb edildiyi halda bu zaman ilk təyin edilən ekspertiza ilkin ekspertiza adlanır rəyi kifayət qədər aydın olmadıqda, əsaslı şübhələr olarsa, tətbiq olunan metodlar əsaslı deyilsə, prosessual əsaslar pozularsa, bu zaman təkrar ekspertiza təyin edilir.

Təkrar ekspertiza keçirilməsinin əsasları faktiki və prosessual olur. Faktiki əsaslara rəyin səhv olması, həqiqətə uyğunsuzluğu daxildir. Rəyin düzgün olmaması onun işin digər materiallarına zidd olması, ekspert tərəfindən müəyyən olunan tədqiqat metodlarının əsassızlığı, mövcud ekspertizanın müasir inkişafı səviyyəsində istifadəsi mümkün olan metodların tətbiq edilməməsi ilə xarakterizə olunur. Təkrar ekspertizanın təyin edilməsi üçün prosessual əsaslar ilkin ekspertiza zamanı, məhkəmə ekspertizasının təyin olunması və aparılmasını nizama salan hüquq normalarının pozulması faktorlarından ibarətdir. Məsələn, ekspertizanın işin nəticəsində maraqlı olan şəxsə tapşırılması və s. Faktiki və prosessual əsaslar sıx şəkildə bağlı olurlar, biri digərini şərtləndirir [Cavadov F. 2018, s.58].

2. Həcminə görə əsas və əlavə ekspertiza növlərinə bölünürlər. Əsas ekspertiza ilk dəfə təyin edilən ekspertiza növü adlanır. Əlavə də isə qanunun 17-ci maddəsinə istinadən ilkin məhkəmə ekspertiza təyin edilib, lakin ekspert tərəfindən göndərilən rəydə qarşıya qoyulmuş suallara tam şəkildə cavabı verilmədikdə, tədqiqat obyektinə dair əlavə suallar yarandıqda, həyata keçirilmiş tədqiqatın və ya ola bilər ki, rəydəki boşluğun düzəldilməsi üçün əlavə sual yaranarsa, bu zaman həmin ekspertə və ya başqa ekspertə həvalə edilir. Bəzən təcrübədə əlavə və təkrar ekspertizaların keçirilməsində qarışıqlıq olur. Təkrar ekspertiza da eyni materiallar üzrə eyni suallar verilir, həmçinin materiallarla birlikdə ilkin ekspert rəyi də verilir, yeni material və ya yeni sual verilə bilməz. Əlavə də isə eyni material, lakin fərqli sual verilir.

3. Ekspertlərin sayına görə təkbaşına və komission ekspertizalar. Təkbaşına ekspertiza da ekspertizanın aparılması müəyyən bir ekspertə həvalə edilir. Komisyon ekspertiza da ekspertizanı təyin etmiş orqan və ya eksperti idarəsinin rəhbəri müəyyən edir. Qanunun mad 19-ə görə ekspert qarşısında qoyulmuş suallar, tədqiqat obyektinin həcminin çoxluğu nəzərə alınaraq təyin edilir. Komisyon ekspertiza da ən azı 2 nəfər eyni ixtisas üzrə ekspert olmalıdır [6].

İstisna olaraq şəxs barəsində məhkəmə psixatriya ekspertizası təyin edilərkən ən azı 3 komisyon ekspert təyin edilməlidir. Cinayət Prosessual Məcəllənin 265.3-cü maddəsi mürəkkəb və təkrar ekspertizalar komisyon qaydada həyata keçirilməsi nəzərdə tutulub, həmçinin maddə 265.4-də isə komisyon ekspertizanın həyata keçirilməsi barədə qərarın icrası ekspert idarəsinin rəhbəri üçün imperativ qaydanı özündə ifadə edir.

Təcrübədə, adətən, komisyon ekspertizanı təyin etmiş orqan və ya eksperti idarəsi rəhbəri ekspertizanı keçirilməsinə ekspert rəhbəri təyin edir. Ekpertlər rəy verməmişdən əvvəl öz aralarında məsləhətləşirlər, əgər ümumi rəyə gələrlərsə sonda ekspert rəyi bütün ekspertlər tərəfindən imzalanır, lakin fikir ayrılığı olarsa bu zaman ekspert yazılı formada ayrıca rəy tərtib edir.

4. Bilik sahələrindən asılı olaraq birsahəli və kompleks ekspertizalar. Birsahəli ekspertiza da ekpsertizanın keçirilməsi müəyyən bir növlü ekspertizaya aid olur. Kompleks ekspertiza da isə cinayət təqibi üçün bir neçə fərqli ekspertizanın keçirilməsi zərurəti yaranır. Tədqiqat obyektinin mürəkkəbliyi qarşıya qoyulmuş məqsədə çatmaq üçün isə bir neçə müxtəlif elm sahələrinin tətbiqi zərurəti yaranır. Hər bir ekspertiza onun tərəfindən aparılmış tədqiqata uyğun olaraq rəy tərtib edir, onu imzalayır.

5. Aparılma yerindən asılı olaraq ekspert idarəsində və ekspert idarəsindən kənarda aparılan ekspertizalar. Cinayət Prosssual Məcəllənin 279-cu maddə ekspert idarəsini, 270-ci maddə isə ekspert idarəsindən kənarda ekspertizanın keçirilməsini tənzimləyir [5].

Ekspertizanın ekspert idarəsində keçirilməsinin mühüm xüsusiyyəti odur ki, idarədə elmi, texniki, texnologiyalar, alətlər istifadə etmək daha genişdir. Müstəntiq ekspertizanın həyata keçirilməsi barədə qərarı, tədqiqat obyektlərini ekspert idarəsinə göndərir. Ekspertiza ekspert idarəsindən kənarda keçirilərsə, müstəntiq ekspertizanın həyata keçirilməsi barədə qərarı çıxarır, sonra ekspertizanı çağırır, səlahiyyətlərini müəyyən edir, cinayət prosesi iştirakçıları ilə münasibətlərini müəyyənləşdirir, ekspertə etiraz məsələsini yoxlayır, qərarla tanış edir, hüquq və vəzifələrini izah edir. Son olaraq qərarla tanış olması barədə protokol tərtib edir. Əgər qərarda ekspertizanın kim tərəfindən aparılması göstərilməsi müəyyən edilməyibsə, bu zaman ekspert idarəsinin rəhbəri özü müəyyən edir.

Kriminalistik taktika baxımından üzləşdirmənin sonuncu mərhələsində nəticələr rəsmiləşdirilir və iki üsuldan istifadə edilir. Birinci üsulda protokol şaquli olaraq iki hissəyə bölünür. Bir tərəfdə birinci dindirilən şəxsə verilən suallar və alınan cavablar qeyd edilir,ikinci tərəfdə isə ikinci dindirilən şəxsə verilən suallar və alınan cavablar qeyd edilir. İkinci sualda isə müstəntiq sualları dindirdiyi hansı şəxsə verirsə ayrıca olaraq şəxs qeyd edilir. Üzləşdirmə bitdikdən sonra iştirakçılar protokolla tanış olur, müstəntiq və dindirmə iştirakçəıları tərəfindən imzalanır. Jarqon ifadələr və əxlaqsız sözlər protokolda əks olunmur. Əgər dindirmə zamanı hər hansı sxem, plan tərtib etmişdirsə bu müvafiq qeydiyyat aparmaqla dindirmə protokoluna əlavə olunur. Dindirmə zamanı şəxsə maddi sübut, sənəd, protokollar, audio və video yazıları təqdim olunmuşdursa əlavə edilir [Cavadov F. 2007, s.455].

## Nəticə

Üzləşdirmə istintaq hərəkəti ilə bağlı problemi məsələlər:

1.Üzləşdirmənin subyektləri barədə qanunverici heç bir norma nəzərdə tutmamışdır. Bu da düzgün deyil. Məsələn, ekspertlə üzləşdirmə aparıla bilərmi? – Bu kimi çatışmazlıqların aradan qaldırılması lazımdır.

2.Əvvəl ifadələrini vermiş şəxslərin ifadələrində əhəmiyyətli dərəcədə ziddiyyətli hal olarsa, bu zaman üzləşdirmə müstəntiqin təşəbbüsü ilə həyata keçirilir. Fikrimizcə, şübhəli şəxslərin, təqsirləndirilən şəxslərin, zərərçəkmiş şəxsin, onların qanuni nümayəndələrinin, müdafiəçilərinin vəsatəti əsasında keçirilə bilər.

3.Üzləşdirmə zamanı şəxs ifadə verilməsi ilə məlumatdan imtina edərsə, əvvəlki ifadəsinin elan edilməsi yol verilə bilərmi?

Qanunvericilikdə bu məsələ qeyri-müəyyəndir, lakin kriminalistik baxımından nəzər yetirdikdə xeyr, çünki əvvəlki ifadəsini söyləsə, bu zaman üzləşdirmə zamanı şəxsə yönəldici təsir edəcək, buna görə də üzləşdirmənin nəticələrinin mötəbər sübut kimi istifadə edilməsi mümkünsüz olacaq. Fikrimizcə, qanunda bu məsələnin də rəsmi şəkildə qeyd olunması məqsədəmüvafiqdir.

Məhkəmə ekspertizanın həyata keçirilməsi ilə bağlı problemi məsələlər:

Cinayət Prosessual Qanunvericinin mövqeyində ziddiyyət vardır. Belə ki, 143-cü və başqa maddələrin təhlili göstərir ki, ekspertizanın təyin olunması prosessual hərəkətdir. Lakin 134.2-ci maddədə ekspertiza istintaq hərəkətləri sırasında sadalanır. Göründüyü kimi, ekspertizanı bir tərəfdən istintaq hərəkətləri sırasına daxil edən qanunverici digər tərəfdən sübut mənbələrinin siyahısında ekspert rəyini ayrıca nəzərdə tutaraq, onu istintaq hərəkəti protokollarına aid etmir (Cinayət Prosessual Məcəllə maddə 124). Həmçinin, məzmun baxımdan, bu ağlasığmaz bir haldır. İstintaq hərəkətləri sırf prosessual qanunvericilik əsasında aparılır və onların mərkəzində müstəntiq dayanır. Ekspertizanın isə xüsusi metodikası vardır və bu metodika prosessual qaydalarla tənzimlənmir. Deməli, ekspertiza öz-özlüyündə nə istintaq hərəkəti, nə də prosessual hərəkət deyil. Sadəcə ekspertizanın təyin olunması prosessual tədbir hesab olunur. Bununla bağlı, qeyd olunan maddələrdə dəyişiklik edilməsi məqsədəmüvafiqdir.

Bundan əlavə, ekspert rəyinin mühüm əhəmiyyət kəsb edən sübutlardan hesab olunmasına baxmayaraq, Cinayət Prosessual Məcəllənin 127-ci maddəsinin göstərişinə görə, ekspertin rəyi

təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə üçün məcburi deyil, hər hansı başqa sübut kimi cinayət prosesini həyata keçirən orqan tərəfindən yoxlanılmalı və işin bütün halları ilə bağlı surətdə qiymətləndirilməlidir. Ekspertin rəyi ilə razılaşılmadıqda bu barədə əsaslandırılmış qərar çıxarılmalıdır.

## Ədəbiyyat

1. Cəfərov M. (2011) Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin Komentariyası redaktəsi ilə," Digesta" nəşriyyatı, Bakı.
2. Cavadov F (2007) Azərbaycan Respublikası Polis Akademiyası. Kriminalistika fənni üzrə mühazirələr toplusu/red. Bakı: Polis Akademiyasının mətbəəsi.
3. Cavadov F.(2018) Səlimov K.N., Abbasova İ.S., Mustafayev M.H., Rzayeva G.A. Məhkəmə ekspertizası: dərslik. Bakı: Nurlar.
4. Solovıyev A. (2002) Proçessualnıe psixologiçeskie i taktiçeskie osnovı doprosa na predvaritelnim sledistvii. Moskva: Yurli tinform
5. http://www.e-qanun.az
6. http://www.supremecourt.gov.az/f
7. https://www.coe.int/az/web/the-international kaleodesignerportlet lifecycle=0
8. https://rm.coe.int/1680700a2f
9. http://www.e-qanun.az/framework/1405

**Rəyçi: h.ü.f.d. Gülnaz Rzayeva**

Göndərilib: 02.03.2022 Qəbul edilib: 19. 04.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/08/179-183

**İlkin Kamal Rzayev**
Azərbaycan Turizm və Menecment Universiteti
magistrant
rzayevilkin4@gmail.com

# DAĞLIQ ƏRAZİ TURİZMİNDƏ MÜXTƏLİFLİYİN QORUNMASI PROBLEMLƏRİ

**Xülasə**

Daxili ərazilərdə, xüsusən də dağlarda turizm müxtəlif turist ehtiyaclarına və bir təyinat məntəqəsindən digərinə əhəmiyyətli dərəcədə fərqlənən spesifik yerli xüsusiyyətlərə görə mürəkkəb bir hadisədir. Nəticə etibarilə, heç bir yerdə unikal turizmin inkişafı strategiyası müəyyən edilə və qəbul edilə bilməz. Dağ ərazilərində turizmə əsaslanan ərazi inkişafı nəzərdən keçirilərkən, yerli maraqlı tərəflərin baxışını nəzərə almaq çox vacibdir.

***Açar sözlər**: turizm, dağlıq ərailər, eko-turizm, planlaşdırma, müxtəliflik*

**Ilkin Kamal Rzayev**

## Problems of protection of difference in mountainous tourism

**Abstract**

Inland, especially in the mountains, tourism is a complex event due to different tourist needs and specific local characteristics that differ significantly from one destination to another. As a result, nowhere can a unique tourism development strategy be defined and adopted. When considering tourism-based territorial development in mountainous areas, it is important to consider the views of local stakeholders.

***Key words:** tourism, mountainous areas, eco-tourism, planning, diversity*

## Giriş

Dağlar dünyada çox məşhur turizm məkanlarıdır, yalnız sahil və ada kurortlarından sonra ikinci yerdədir, dünya turizminin təxminən 15%-ni təşkil edir və hər il 70-90 milyard ABŞ dolları arasında iqtisadi təsir göstərir. Üstəlik, dağlar bütün dünyanı əhatə edir və quru səthinin 24%-ni əhatə edir. Onların xüsusiyyətləri iqlim və bitki örtüyünə, eləcə də heyvan növlərinə və insan fəaliyyətinə görə geniş şəkildə dəyişir. Buna görə də, dağlıq ərazilərdə turizmi nəzərdən keçirərkən bu sektorun mürəkkəbliyi nəzərə alınmalıdır - dağ turizmi əsasən ərazinin spesifik xüsusiyyətlərindən asılıdır və ətraf mühitin və mədəni irsin təsiri ilə geniş spektrli fəaliyyətləri əhatə edir. Turistlərin müxtəlif ehtiyacları var, məsələn, istirahət, idman, asudə vaxt, sağlamlıq və dağ məkanı həmişə istənilən cavabı verə bilməyə bilər [1].

Dağlarda turizmin inkişafı davamlı iqtisadi inkişaf təşəbbüsləri və ətraf mühitin mühafizəsi vasitəsilə insanların həyat keyfiyyətinin yaxşılaşdırılmasına diqqətin yönəldilməsi üçün mühüm amil ola bilər. Sosial-iqtisadi və ekoloji nöqteyi-nəzərdən dağlıq bölgələrdə turizm nemətdir və çoxlu imkanlar təqdim edir. Bu gün dünya əhalisinin çoxu şəhərlərdə yaşayır. Dağlar, göllər, çaylar və ya meşələr potensial macəra qaçışlarını təmsil edir. Və bu köçürmə hadisəsi turizmin əsasını təşkil edən xoş təcrübə təqdim edir. Xüsusilə dağlar müstəqil macəra axtaranlar üçün vacib hala gəldi. Turizm macəra mühitlərini əhatə etmək üçün genişləndi və dağların bu inkişaflarda mühüm rolu var.

Dağ turizm potensialı dağlıq ərazilərlə bağlı bütün fəaliyyətləri əhatə edir. Fərdi və ya kollektiv dağ gəzintisi və dırmanma, xizək sürmə, xizək sürmə, qarlı və buzlu yerdə snoubord, dağ velosipedi, yelkən və yamac paraşütü kimi qış idman fəaliyyətləri kimi geniş çeşidli idman fəaliyyətlərinə malikdir. Dağlıq ərazilərin fauna zənginliyi dağlarda ov turizmi, quşçuluq və balıqçılıq kimi fəaliyyətlər üçün imkanlar yaradır.

### 1. Dağ Turizmində Biomüxtəlifliyin Qorunması Problemləri

Dağlıq ərazilər son dərəcə kövrəkdir və onlar incə balanslaşdırılmış ekosistemlərinin pozulmasına çox həssasdır. Bu cür həssaslıq yüksək hündürlük, sərt iqlim, nazik torpaqlar, sıldırım relyef və bir çox

yerlərdə az yağıntının bitki örtüyünün böyüməsinə və yenidən böyüməsinə mane olması ilə müşahidə edilir: yüksək hündürlüklərdə ağacların yetişməsi üçün 60 ilə qədər vaxt lazımdır. Dağ bölgələri yüksək konsentrasiyalı endemik növlərin və genetik müxtəlifliyin həyati əhəmiyyətli su anbarları olmaqla yanaşı, həm də köç edən heyvanlar üçün kritik dəhliz və təbii yaşayış mühiti təbii və insan fəaliyyəti nəticəsində sıxışdırılmış və ya dəyişdirilmiş bitki və heyvanlar üçün qoruq kimi fəaliyyət göstərir.

Beləliklə, idarə olunmayan turizm (infrastruktur və obyektlərin inkişafı və turizmlə bağlı insan fəaliyyətləri də daxil olmaqla) uzaqlıq və təcrid nəticəsində yaranan narahatlıqdan qabaqcadan qorunan həssas dağ mühitlərinə yüksək dərəcədə təsir göstərə bilər.

Bu təsirlərə aşağıdakılar daxildir:

- Bitki örtüyü həm geniş miqyasda (yəni yollar, xizək zonaları və ya otel tikintisi üçün torpaqların təmizlənməsi və s.), həm də kiçik miqyasda (yəni bitkilərin toplanması, nəzarətsiz turistlər tərəfindən həssas bitki örtüyünün tapdalanması və pozulması) təsirə məruz qalır.
- Vəhşi təbiətin pozulması və vəhşi təbiətin yaşayış sahəsinin azalması: turistlər (və turizm infrastrukturu) daha da uzaq və təcrid olunmuş yüksək hündürlük ərazilərinə gedirlər. Turizm menecerləri vəhşi təbiətə baxmaq imkanlarını "satırlar" və bu, düzgün idarə edilmədikcə vəhşi təbiətin kritik ehtiyaclarına və həyat dövrlərinə müdaxilə edə bilər. Buna vəhşi təbiət geri çəkilməklə cavab verə bilər.
- Vəhşi təbiət hissələrinin ticarəti bəzən yerli əhalinin tur bələdçisi və ya hambal kimi işlədiyi və qeyri-qanuni vəhşi təbiət hissələrinin satış üçün qaçaqmalçılıq yolu ilə çıxarıldığı səhra ərazilərdə turistlərin artması ilə maskalanır.
- Turist fəaliyyətləri nəticəsində artan meşə və otlaq yanğınları da buna misaldır (Atılan siqaret kifayətdir). Yüksək yanğın təhlükələrinə öyrəşməyən ziyarətçilərin sayının artması ilə meşə yanğınları dağlıq ərazilərdə turizmin real və ciddi təhlükədir.
- Turizm üçün ağac və yanacaq odununun kəsilməsi nəticəsində meşələrin deqradasiyası: Yüksək Himalayda yerli trekking lojalarının sayının artması yerli xalqın odun kəsməsinə kömək edir və nəticədə meşələrin deqradasiyası baş verir. [Bhattarai, S. 1985, s.43] Odun yemək bişirmək və turistlərə isti duş vermək üçün istifadə olunur. Trekking işçiləri yemək bişirmək və yeri isti saxlamaq üçün yüksək hündürlükdə kolları kökündən qoparır, açıq yamaclara ciddi ziyan vururlar. [Kohler, T.,1998, s. 76] Everest bölgəsini hər il ziyarət edən hambalları v işçiləri olan turistlərin sayı yerli əhalinin sayından dörd-beş dəfə çoxdur; buna görə də meşəyə daha çox təzyiq edilir, xüsusən də meşələrin qorunmadığı parkların hüdudlarından kənarda bu baş verir. Təsirlər dağlıq ərazilərin aşağı hissələrində də özünü göstərir, yəni torpaq eroziyası və torpaq məhsuldarlığının azalması ilə nəticələnir. Bundan əlavə, yerli əhali sürətlə azalan meşədən öz odun ehtiyaclarını ödəmək üçün daha çox vaxt sərf etməyə məcbur olurlar.
- Aqromüxtəlifliyin sadələşdirilməsi: Aqrobimüxtəlifliyi təşviq edən davamlı təcrübələr turizm bazarının tələblərinə uyğunlaşdırılır, əkin nümunələri, torpaq məhsuldarlığının itirilməsi və torpaq eroziyasına zəncirvari təsir yaradır və nəticədə yaşayış yerlərinin və ekosistemlərin məhvinə səbəb olur.

Siyasət və praktiki vasitələrlə (məsələn, təlim, tərəfdaşlıq, institusional potensial və məlumatlılığın artırılması) turizm ərazilərində dağ biomüxtəlifliyinin qorunması üçün idarəetmə sistemləri və imkanları gücləndirilməlidir. Məsələn, Davamlı dağ turizminin inkişafı və dağ biomüxtəlifliyinin qorunması arasında əlaqələr haqqında maraqlı tərəflər və qərar qəbul edənlər arasında məlumatlılığın artırılması kimi. Qanunların, siyasətlərin, milli ekoloji fəaliyyət planlarının və digər hüquqi və institusional strukturların biomüxtəlifliyin qorunması standartlarının və konvensiyalarının həyata keçirilməsi və yerli problemlərin həlli üçün xüsusi ehtiyaclar üçün adekvatlığını qiymətləndirilməlidir. Dağ turizmi zonalarında bütün layihələr üçün məcburi olaraq ətraf mühitə təsirin qiymətləndirilməsini və yerində təsirlərin azaldılmasını təyin edin və lazımi imkanların, elmin və hüquqi mexanizmlərin, o cümlədən tətbiqin inkişafına dəstək verilməlidir. Dağ bioloji ehtiyatlarının mühafizəsi üçün tənzimləmə və təşviqlərlə yanaşı, resurslara qənaət etmək üçün ucuz başa gələn müvafiq texnoloji vasitələrin, o cümlədən alternativ yanacağın subsidiya və ya yardımçı olması, sobalardan istifadə edərək ucuz, az yanacaqla işlənib hazırlanması və satışının mövcudluğunu inkişaf etdirmək və dəstəklənməlidir. Davranış kodları, ziyarətçi məlumatlarının istehsalı və paylanması və təhsil imkanları vasitəsilə turistləri və tur bələdçilərini enerjiyə və resurslara necə qənaət etmək barədə maarifləndirilməlidir [7]

## 2. Dağ turizminin mədəni təsirləri

Mədəniyyətlər və ənənəvi dağ həyatının tərzləri təhsil, rabitə, əyləncə, səyahət, məşğulluq, turizm və s.-nin modernləşdirici təsirləri səbəbindən hər gün dəyişir. Turizmin dağ mədəniyyətlərinə təsirini təcrid etmək çətindir. Dağlıq ərazilərdə yaşayan xalqlar öz mədəniyyətlərinin dövləti və gələcəyi ilə bağlı söz sahibi olmalı və pay sahibi olmalıdırlar. Turizm memarlıq, rəqs və mahnı, yemək, geyim, tarixi bilik və sənətkarlıq bacarıqları kimi orijinal mədəni xüsusiyyətlərin saxlanmasına dəyər (və gəlir) verməklə onlara bu payı təmin edə bilər. Yaxşı qorunan dağ mədəniyyətləri turistlər üçün unikal cazibə ola bilər və kənarların diqqəti hətta mədəni qüruru və orijinal mədəni irsi bərpa etmək istəyini təşviq edə bilər. Bununla belə, davamlı mədəniyyət turizmi ilə mədəniyyətin həddindən artıq kommersiyalaşdırılması, yerli iştirak tələbi və orijinallığa, ədalətə və diqqətli idarəetməyə sadiqlik arasında incə bir xətt var.

Düzgün idarə olunmasa, turizm dağ mədəniyyətlərinin və onlarla əlaqəli dəyərlərin aşınmasına səbəb bilər, məsələn:

✓ Fərqli mədəni atributların və xüsusiyyətlərin, o cümlədən doğma dillərin itirilməsi, ənənəvi geyimin yox olması, ənənəvi memarlıq üslublarının məhvi, inancların və ritualların yox olması;

✓ Mədəni ənənələrin saxlanmasına təsir edən gender rollarında dəyişikliklər, məs. kişilər tərəfindən tələb olunan və ya ənənəvi olaraq qəbul edilən mədəni və ya dini təcrübələr indi laqeyd qalınması

✓ İdarə olunmayan turizm həmçinin uşaqların istismarını artırır, dilənçilik mədəniyyətini yaradır, bu da öz növbəsində qürur və iqtisadi müstəqillik hissini sarsıdır.

✓ Turizm inkişaf etməkdə olan ölkələrin yoxsul yerli icmalarına mesajında aldadıcı ola bilər. Burch yazır"... yoxsul bölgə və ya millət turistləri varlı bölgələrə və millətlərə uyğun dəyərlərin və davranışın nümayəndəsi kimi görür. Bu model heç bir zəhmət nümunəsi təqdim etmir, əksinə tənbəllik və həddindən artıq istehlakın təcrübələr olduğu görüntüsünü verir. [Maclis G. 1983 s.44]

## 3. Dağ Turizminin Sosial-İqtisadi və Siyasi Problemləri

Siyasi və hüquqi sistemlər həm hökumət, həm də ayrı-ayrı şəxslər tərəfindən dağ turizmi və mühafizəsinin həyata keçirilməsinə güclü təsir göstərir. Ölkənin siyasi "mədəniyyəti" dağ icmalarının dağ turizmində iştirak və ondan faydalanma mexanizmlərini və açıqlığı müəyyən edir.

❖ Dağ parklarında və ətraflarında yaşayan yerli əhali tez-tez turizm yükünü daşıyır, məsələn, artan zibil və təhlükəsizlik riskləri, inflyasiya və s., lakin çox ehtiyac duyulan yerli inkişaf və qorunma üçün turistlərin parka giriş haqlarından az faydalanır[8].

❖ Ənənəvi sosial-iqtisadi sistemlərin, bacarıqların və bazarların (məsələn, kooperativ əkinçilik, növbəli kreditlər, sənətkarlıq istehsalı və bazar tələbatı və s.) dağılması dağlıq ərazilərdə müxtəlif dolanışıq vasitələri üçün həyat qabiliyyətini və imkanlarını azaldıb. Dağ turizmi inkişaf etdikcə, digər dolanışıq mənbələri və bazar tələbatı azaldıqca bəzi dağ iqtisadiyyatları turizmdən hədsiz dərəcədə asılı vəziyyətə düşür. Kənd təsərrüfatı icmaları davamlı təcrübələrindən və müxtəlif məhsulların becərilməsindən imtina edir və turistlərin satın aldığı tək, çox vaxt ekzotik bitkilərin yetişdirilməsinə keçirlər. Turizm azaldıqda və ya ekzotik məhsullar uğursuz olarsa, iqtisadiyyatlar (və aqromüxtəliflik) hədsiz dərəcədə əziyyət çəkəcək.

❖ Turizm iş yerləri və investisiya imkanları təmin etdiyi halda, o, artıq əhəmiyyətli sərvətlərə malik olan ev təsərrüfatlarına və investorlara fayda gətirir. Turizmdən daha yoxsul, təhsilsiz ev təsərrüfatlarına verilən faydalar, ümumiyyətlə, qara işlərlə, bəzi əkinçilik və ərzaq istehsalı ilə və vaxt aparan sənətkarlıq istehsalından əldə edilən minimal gəlirlə məhdudlaşır. Bazar tələbi və ya biznesmenlər tərəfindən qoyulan "keyfiyyət standartları" (məsələn, yüksək standartlı yaşayış yerləri, ingilis dilli bələdçilər, hətta ətraf mühitin mühafizəsi qaydaları) yoxsul ailələrin iştirakını daha da məhdudlaşdırır. Eynilə, miqyas iqtisadiyyatı və bazar əlaqələri ümumiyyətlə regiondan kənardan gələn iri "zəncirli" otellərə və turizm xidmət təminatçılarına üstünlük verir. Kiçik miqyaslı, yerli müəssisələr rəqabət aparmaqda çətinlik çəkirlər.

❖ Turizm idarəçiliyinin olmaması (məsələn, turların sayına nəzarət, ekoloji standartların tətbiqi və s.) və məhdud bazarda turizm xidməti təminatçılarının həddən artıq təklifi həddindən artıq rəqabət və qiymət mübahisələrinə səbəb olur ki, burada xidmət keyfiyyəti, əmək təcrübələri və ətraf mühitin mühafizəsi tədbirləri geri çəkilir.

4. **Dağ Turizminin Gender Təsirləri**

Turizm yerli dağ iqtisadiyyatına daxil olduqda gender rolları və münasibətlər tez-tez dəyişir. Rəhbərlik və ya nəqliyyat işləri kişiləri uzun müddət evdən uzaqlaşdırır; bəziləri, məsələn, Nepalın Şerpaları alpinizm işlərində yüksək risklə üzləşirlər və heç vaxt evə gəlmirlər. Kişilərin yoxluğu qadınların onsuz da ağır olan məişət, uşaq tərbiyəsi, kənd təsərrüfatı və resursların toplanması ilə bağlı yüklərini xeyli artırır. Qadınlara verilən əlavə məsuliyyətlər, nisbətən aşağı sosial-iqtisadi status və onların qazanılmış əmək haqqı olmadan "iqtisadi dəyərlərinin" olmaması ilə birlikdə qadınları təhsil, karyera və siyasi iştirakdan daha da uzaqlaşdırır və ona mənfi təsir göstərə bilər.

Bəzi dağlıq ərazilərdə və mədəniyyətlərdə isə turizm daha yüksək sosial-iqtisadi status və qadınlar üçün müstəqillik qazandırmışdır. Onların qonaqpərvərlik, yemək bişirmək və səyahət edənlərə qayğı göstərmək bacarıqları turizmdə qiymətli nüanslardır. [Lama, V.1998, s.65]

5. **Dağ turizminin təsirlərinin və faydalarının ölçülməsi: bilinən və bilinməyənlər**

Bütün dünya ölkələri turizmi biomüxtəlifliyin, mədəni mühafizə və davamlı inkişaf üçün bir vasitə kimi inkişaf etdirir və ya maraqlandırır. Bununla belə, bir çoxları eyni suallar və dilemmalarla üzləşirlər, o cümlədən:

1. Təbii və mədəni sərvətlərin qorunması ilə turizmin tələblərini necə balanslaşdırmaq olar?
2. Davamlı turizm milli hökumətlərin ehtiyac duyduğu və kütləvi turizmdən asılı olduğu gəlirləri yarada bilərmi və bazar bunu dəstəkləyəcəkmi?
3. Kənd əhalisinin güzəranını yaxşılaşdıran və onları təbiətin mühafizəsinə cəlb edən turizm sənayesini necə qurmaq olar?

Onların narahatlığının səbəbləri kifayət qədər əsaslıdır: bu məqamlara toxunan nə az məlumat var, nə də öyrənmək üçün nümunə araşdırmaları. Turizmin təsirlərini, bazarlarını və konservasiya və inkişaf aləti kimi effektivliyini daha yaxşı başa düşmək üçün məhdudiyyətlərə aşağıdakılar daxildir:

- Təsirlərin dəqiq ölçülməsi və qiymətləndirilməsi qadağanedici xərclər, texnoloji və insan imkanlarının olmaması, vaxt və əlçatanlıq faktorları və standartlaşdırılmış asan həyata keçirilə bilən amillərlə məhdudlaşdırılır.
- Turizmin bioloji sistemlərə təsiri haqqında az şey məlum olduğu kimi, turizmin dağ mədəniyyətlərinə və xalqlarına təsiri çox az başa düşülür.
- Davamlı turizmin əsas prinsipi ondan ibarətdir ki, turizmdən faydalanan (məsələn, gəlir əldə edən və ya digər qeyri-iqtisadi üstünlükləri həyata keçirən) maraqlı tərəflər turistlərin görmək üçün pul ödədiyi təbii və mədəni mühiti qorumağa həvəsləndiriləcək və bununla da maraqlı tərəflərə davamlı turizm təmin ediləcək.

Bir sözlə, davamlılıq, biomüxtəliflik və mədəni mühafizə məsələlərinin həllində dağ turizminin uğuru haqqında çox şey naməlum olaraq qalır. Tədqiqatların aparıldığı yerlərdə siyasət, eləcə də yerində idarəetmə və marketinq qərarlarını məlumatlandırmaq üçün nəticələr sənədləşdirilməli və paylaşılmalıdır.

## Nəticə

Təbiətinə görə dağ turizmi hər yerdə qəbul edilə bilən standart strategiyaların müəyyən edilməsinə və həyata keçirilməsinə imkan verməyən mürəkkəb bir hadisədir. Bundan əlavə, burada tədqiq olunan ərazi kimi kiçik dağlıq əraziləri nəzərdən keçirərkən, təkcə maraqlı tərəflərin fikirləri turizm strategiyasının formalaşdırılması üçün başlanğıc nöqtəsini təşkil etməməli, həm də yerli əhali ilə ortaq baxış və əlaqəli alətlər hazırlamaq da vacibdir. Hazırkı töhfə, yerli icmanın ümumi inkişaf strategiyasına cəlb edilməsi üçün qarışıq metodlu yanaşmanın qəbulu sayəsində yerli maraqlı tərəflərin öz fikirlərini təqdim edərək müzakirələrə necə töhfə verməyə hazır olduqlarını göstərir. Əksər tədqiqat layihələri kimi, bu töhfənin müəyyən məhdudiyyətləri var ki, bu da orta vaxtda tədqiqatın mümkün yeni yollarını təmsil edə bilər.

Davamlılıq anlayışının yaranması, onun inkişaf prosesi və məqsədləri ilə bağlı məsələlər əvvəlki bölmələrdə işıqlandırılmışdır. Davamlı turizm yanaşmasının əsas məqsədi həm bugünkü cəmiyyətlərin, həm də gələcək nəsillərin ehtiyaclarını ödəməkdir.

## Ədəbiyyat

1. Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı. Dağ Bölgələrində Turizm: Ümidlər, Qorxular və Reallıqlar; Coğrafiya və Ətraf Mühit Departamenti, Cenevrə Universiteti: Cenevrə, İsveçrə, 2014Emmanuel de Kadt, "İnkişafa Turizm Pasportu" Dünya Bankı və YUNESKO üçün nəşr edilmişdir, Oxford Universiteti Nəşri, Vaşinqton, ABŞ, 1979, s. 21.
2. Bhattarai, S. Turizmin dağ ekosistemlərinə ətraf mühitə təsiri. Anonimdə (Red.). Hindukuş Himalayındakı insanlar və qorunan ərazilər, 1985 s. 54.
3. Kohler, T., & Byers, E. Dünyanın dağı: Turizm və davamlı dağ inkişafı – Dağ Gündəliyi. Coğrafiya İnstitutu, Bern Universiteti, İsveçrə, 1999
4. Lama, V.. "CBMT: Himalaylarda Qadınlar və CBMT". İcma əsaslı Dağ Turizmi Elektron Konfransına, Dağ Forumuna töhfə, 1998.
5. Maclis, G. E. və W. R. Burch. "Əcnəbilər arasında əlaqələr: turizm sistemlərində struktur və məna dövrləri", Sosioloji icmal 1983.
6. http://anl.az/el/h/hi_te.pdf
7. http://shirvan.cls.az/front/files/libraries/2474/books/588908576.pdf
8. https://www.e-derslik.edu.az/noduploads/vet_pdf/turizm-taskili.pdf

**Rəyçi: i.e.d. Çingiz İsmayılov**

Göndərilib: 03.03.2022 Qəbul edilib: 20. 04.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/08/184-188

**Tərlan Növrəs oğlu Növrəsli**
Azərbaycan Turizm və Menecment Universiteti
siyasi elmlər üzrə fəlsəfə doktoru
novrasli22@gmail.com
**Adilə İlham qızı İmanova**
Azərbaycan Turizm və Menecment Universiteti
magistrant
adilaimanova@gmail.com

# QARABAĞ İQTİSADİ RAYONUNUDA TURİZMİN İNKİŞAFINA TƏKAN VERƏN PRİORİTETLİ SAHƏLƏRİ

**Xülasə**

Müasir iqtisadi qeyri-sabitlik şəraitində turizm sektoru hələ də fəal inkişaf edir. Çünki turizm sektoru tələb və təklif baxımından günün tələblərinə uyğun gəlir. Turizmin planlaşdırılması tələb və təklif arasında tarazlığa nail olmaq üçün bir vasitədir. Bu təkcə bazarın xüsusiyyətlərini və meyllərini deyil, həm də bazarın ehtiyaclarını ödəmək üçün planlaşdırma prosesini başa düşməyə imkan verir. Bütün bunlara turizmin prioritetli sahələri imkan yaradır. Qarabağ iqtisadi rayonunda turizmin inkişafına təkan verə bilən bir sıra prioritetli turizm sahələri vardır ki, onların da inkişafı gələcəkdə regionda turizmin iqtisadiyyatın aparıcı sahəsinə çevrilməsinə köməklik edəcəkdir.

***Açar sözlər:*** *Qarabağ, turizm, SMART turizm, animasiya, qonaqpərvərlik, müalicə sağlamlıq turizmi*

**Terlan Novres Novresli**
**Adile İlham İmanova**

## Areas of priorities that increase tourism development in Karabakh economic region

**Abstract**

In the current context of economic instability, the tourism sector is still actively developing. Because the tourism sector meets the requirements of the day in terms of supply and demand. Tourism planning is a tool to strike a balance between supply and demand. This allows us to understand not only the characteristics and trends of the market, but also the planning process to meet the needs of the market. All this is made possible by the priority areas of tourism. There are a number of priority tourism areas in the Karabakh economic region that can stimulate the development of tourism, the development of which will help make tourism a leading sector of the economy in the region in the future.

***Key words:*** *Karabakh, tourism, SMART tourism, animation, hospitality, medical health tourism*

## Giriş

İqtisadiyyatın aparıcı və ən dinamik sahələrindən biri olan turizm həm də sürətli inkişaf tempinə görə əsrin iqtisadi fenomeni hesab olunur. Bu gün turizmin davamlı inkişafını təmin etmək, müasir turist tələbatını ödəyə biləcək tuirzm məhsulunu formalaşdırmaq asudə vaxtın təşkilində göstərilən xidmətlərin keyfiyyətinin daimi olaraq artırılması şərti ilə mümkündür. Turməhsulun keyfiyyətinin yüksək səviyyədə olması turizm biznesinin inkişafı üçün lazım olan zəruri şərtdir [Növrəsli T.N., 2017, s. 77-80].

Turizmin prioritet sahələri onunla əlaqəli bir çox sektorların mövcudluğuna görə dinamik və mürəkkəbdir. Bu amillər və sektorlar turizm təcrübəsinin təmin edilməsi və turizm bazarıdan gəlir əldə edilməsi ilə bağlıdır. Turizm sisteminin dinamik xarakteri, sağlam və canlı turizm sənayesini təmin etmək üçün zəruri hallarda dəyişikliklər etmək üçün təyinatların xarici və daxili mühitinin mütəmadi olaraq öyrənilməsini zəruri edir [Potapova K. K. 2016, s. 219-222].

Turizm və sosial-mədəni servis xidməti fəaliyyət növü kimi əhalinin asudə vaxtının səmərəli istifadə edilməsinə, ekskursiya,səyahət və turist marşrutlarının təşkilinə, həmçinin turistlərin başqa xidmət növlərindən istifadənin gücləndirilməsinə təkan verir. Turizm xidmətləri bilavasitə tursit təşkilatlarının fəaliyyətinin nəticəsidir. Turizm xidməti əməyin spesifik xüsusiyyətlərini və məzmunun müəyyənləşdirən milli iqtisadiyyatın müstəqil sahəsidir.Turizmdə əmək məhsuldarlığının artım sürəti üçün xidmətin səviyyəsinin yüksəldilməsi, əməyin təşkili və stimullaşdırılmasının forma və üsullarının təkmilləşdirilməsi , turizm və sosial-mədəni servis xidmətlərinin yenidən qurulması zəruridir [Növrəsli T.N. 2013, s.327-330].

Turizmdə hər şey xidmətdir. Məsələn; təyyarədə kürsü, oteldə yataq, restoranda xidmət, nəqliyyatda daşınma, dənizdən və günəşdən faydalanmaq, mənzərəyə baxmaq,təbiəti və tarixi abidələri seyr etmək kimi [Növrəsli T.N. 2013, s. 411- 416].

Qarabağ iqtisadi rayonunda turizm sənayesinin inkişafına təkan verən prioritet turizm xidməti növlərinə qonaqpərvərliyi, müalicə sağlamlıq turizmini, speleoturizmi, animasiyaları, SMART turizmi və s. aid edə bilərik.

Qonaqpərvərlik turizm xidmətinin keyfiyyət məhsulunun xüsusiyyətlərinin və ya ona aparan fəaliyyətin xüsusiyyətlərinin cəmidir. Bu adətən qiymətləndirmə ilə əlaqələndirilir (yaxşı, pis, yüksək, aşağı). Çünki keyfiyyət turistin tələblərinin, ehtiyaclarının və gözləntilərinin ödənilməsini təmin edən məhsul xüsusiyyətləri qrupu kimi müəyyən edilir [Cheglazova M.E., Nesterova M.A. 2019, s. 63-66.].

Hazırkı şəraitdə Qarabağ iqtisadi rayonunda regionunda qonaqpərvərlik turizminin inkişaf etdirilən ən bariz nümunəsi Şuşa şəhəridir. Buraya səfər edən turistlər, istər yerli, istərsə də xaricilər şəhər mühiti ilə tanış olurlar və tarixi köklərə söykənən Şuşa şəhərinin qonaqpərvərliyi ilə yaxından tanış olurlar. Burada müxtəlif şəhər ekskursiyaları təşkil olunur, yerli mətbəxt nümunələri, adət-ənənələr turistlərə çatdırılır. Məsələn, 2022-ci il mart ayında Şuşa şəhərində qarın yağması və yolların bağlanması səbəbindən turistlər Bakı şəhərinə qayıda bilmədikləri üçün yerli otellərdə gecələmə və qida ilə təmin olunmuşdur. Bu da, qonaqpərvərlik turizminin bir nümunəsi kimi qiymətləndirilə bilər. Lakin gələcəkdə Qarabağ iqtisadi rayonunun bütün şəhər və kəndlərində turizmin məhz qonaqpərvərlik nümunəsinin inkişaf etdirilməsi üçün potensial imkanların olmasını da qeyd etmək lazımdır. Çünki Azərbaycan vətəndaşları hər zaman öz qonaqpərvərlikləri ilə seçilmiş və qəbul etdikləri qonağı daim yüksək səviyyədə qarşılamışlar.

Qarabağ iqtisadi rayonunda prioritet turizm növlərindən biri müalicə sağlamlıq turizmi ilə bağlıdır.

Müalicə sağlamlıq turizmi müasir turizmin ən gəlirli növlərindən biridir və nəinki yüksək artım tempinə malikdir, həm də dünyanın çoxlu sayda ölkəsinin iqtisadi inkişafında müəyyənedici amildir. Təsadüfi deyil ki, dünyanın əllidən çox ölkəsi tibbi turizmin inkişafını milli siyasətin məqsədlərindən biri hesab edir ki, bu da səhiyyənin yeni konsepsiyasının yaranmasına şərait yaradır. Bu konsepsiyaya əsasən istənilən şəxs başqa ölkəyə müraciət edə bilər. Üstəlik, tibbin inkişaf etmiş ölkələrlə müqayisədə daha az effektiv olduğu regionların sakinləri üçün xaricə tibbi səfərlər zəruri tədbirdir. Hazırda öz infrastrukturuna: tibbi idarəetmə, akkreditasiya orqanları, tibbi turizm agentlikləri və turoperatorlar malik olan tibbi xidmətlərin qlobal bazarı artıq formalaşmışdır [Medichinskiy turizm i eksport medichinskix usluq 2021, s. 40].

Ölkəmizdə və onun regionlarında sağlamlıq turizminin inkişafının aktuallığı, turizm zonalarının rekreasiya və resurs potensialından səmərəli istifadə edilməsi xalqın sağlam imicinin formalaşması və sağlamlıq kapitalının artması, eləcə də turizmin inkişafı ilə bağlıdır.

Qarabağ iqtisadi rayonunda sanatoriya-kurort müalicəsi turizm sənayesinin inkişafı üçün perspektivli istiqamətdir ki, bu da müalicəvi iqlimin xüsusiyyətləri, unikal təbii və müalicəvi resurslar (cəlbedici landşaft zonaları, mineral sular və s.) ilə bağlıdır.

Şuşa Azərbaycanda balneoloji-iqlim müalicə ocağı kimi çox məşhurdur. Şəhərin quru və təmiz havası və ultrabənövşəyi şüaların müalicəvi xüsusiyyətlərinə görə İsveçrənin Davos sağlamlıq mərkəzindən üstün olduğu məlumdur. Digər tərəfdən, Şuşanın Turşsu və Şırlanın karbon-hidrogen mineral suları və unikal dağ mənzərələri rekreasiya potensialını artıran amillər olub. Ermənistanın işğalı ilə əlaqədar onun fəaliyyəti müvəqqəti dayandırılıb. Tərtər axını vadisində 2100-2200 m hündürlükdə yerləşən İstisu mineral su bulaqları tərkibinə və müalicəvi keyfiyyətinə görə Çexiyanın dünyada tanınan

Karlovarı termal suları ilə eyni xüsusiyyətlərə malikdir. Mədə, bağırsaq, sinir sistemi,ginekoloji və uroloji xəstəliklər müalicə olunur [Növresli T.N., s. 209].

Yaxın gələcəkdə isə bu resurslardan istifadə etməklə, müxtəlif tibbi xidmətlər, tətbiq olunan innovativ texnologiyaları, eksklüziv müalicə üsullarının mövcudluğu, xəstəliklərin müalicəsi və profilaktikasında uzunmüddətli nəticəni təmin etməyə imkan verən yüksək ixtisaslı mütəxəssislərin olması da bu sahənin inkişafının təminatçısıdır.

Termal və müalicəvi resurslardan istifadəyə əsaslanan turizm bütün dünyada kifayət qədər dinamik və tsiklik inkişaf edir. Müalicə sağlamlıq turizminin əsas xüsusiyyəti mineral sulardan, mineral ehtiyatlardan, tibbi ləvazimatlardan, o cümlədən müalicə və sağlamlıq prosedurlarından istifadə edilməsidir ki, onların həyata keçirilməsi yalnız həkimlərin aydın və ciddi nəzarəti altında mümkündür Müalicə sağlamlıq turizminə əsaslanan turizm infrastrukturunun təşkilinin əsas zonalara aşağıdakılar aid edilir [Loiko O.T., 2007, s.152 ]:

- mehmanxanalarda yerləşən müalicə istirahət və iaşə zonaları;
- idman, sağlamlıq və mədəni fəaliyyət zonaları (kitabxanalar, oyun zalları, idman qurğuları və s.);
- müalicə üçün istifadə olunan tibbi-sanitariya prosedurları və mineral sular zonaları (sulfat, bikarbonat, xlorid və s.).

Yuxarıda qeyd etdiklərimiz gələcəkdə Qarabağ iqtisadi rayonunda müalicə sağlamlıq turizminin inkişaf etdirilməsi üçün prioritet imkanların olduğundan xəbər verir. Belə ki, hələ keçmiş sovetlər dövründə Qarabağ iqtisadi rayon özünün sağlamlıq ocaqları və istirahət evləri, çoxmərtəbəli binaları, səfalı yerləri ilə şöhrət qazanmışdır. Burada 6 sanatoriya və istirahət müəssisəsi, ikiyerli nömrələrdən ibarət turist bazası fəaliyyət göstərirdi. Bu baxımdan, diyarın ən gözəl sağlamlıq ocaqlarından biri olan Şuşa şəhəri müstəsna əhəmiyyət kəsb edirdi. Şuşa kurortuna dünyanın hər yerindən minlərlə adam gəlib istirahət etmiş və müalicə olunmuşdur. Şəhərin sanatoriyalarında hər növbədə 650-700 adam müalicə olunmuşdur [İmanov R.C., s. 162].

Qarabağ iqtisadi rayonunun prioritet turizm xidməti növlərindən biri də onun speloturizm potensialı ilə bağlıdır. Biz bilirik ki, speleoturizmin əsas xüsusiyyətlərinə mağaraların relyef formaları ilə əlaqədar olaraq yeraltı marşrutların təşkilidir. Lakin bu zaman turistdən fiziki cəhətdən güclü olmalı, dözümlük nümayiş etdirməli, bütün təhlükəsizlik qaydalarına əməl etməklə speleloloqun göstərişlərini icra etməlidir.Speleoturizm müasir turizmin füsunkar, maraqlı və həyəcanverici sahələrindən biri hesab olunur.

Qarabağ iqtisadi rayonunun ərazisində xüsusi yerüstü və yeraltı relyef formaları var. Karst relyefinin yerüstü formaları - göllər, hövzələr, yeraltı karstın formaları mağaralarla təmsil olunur ki, onların da əksəriyyəti turistik əhəmiyyətə malikdir. Çünki ərazidəki mağaralar mənşəyinə, formasına və ölçülərinə görə müxtəlifdir. Onların bir çoxu təkcə region üçün deyil, eyni zamanda respublika əhəmiyyətli mağaralar kimi tanınır. Speleoloji resursların unikallığı speleoturizmin inkişaf imkanlarını müəyyən edir ki, bu da speleoturizm işinin aktuallığını müəyyən edir.

Speleoturistlərin etikasına, mağaralarda davranışlarına, yeraltı təbiətə münasibətinə xüsusi tələblər qoyulur. Bu onları maraqlandıran obyektin - mağaranın, onun ekosistemlərinin, müxtəlif növ təbii formasiyaların, mineral və buz kristallarının həddindən artıq kövrəkliyi ilə bağlıdır. Məsələn, qırılan stalaktit yalnız onlarla, hətta yüzlərlə ildən sonra bərpa olunur. Təəssüf ki, mağaraların tədqiqi nəticəsində bir çox mineral birləşmələr məhv edilmişdir.

Qarabağ iqtisadi rayonunda speloturizmi inkişaf etdirmək üçün potensial imkanlara Şuşa mağarası, Azıx mağarası, Tağlar mağarası, Zar mağarası, Qaranlıq kaha mağarası, Bayqara mağarası, Hoçaz mağarası, Xan mağarası, Qaxal mağarası və s. aid edilə bilər. Bunlardan Şuşa mağarası, Azıx mağarası və Tağlar mağarasının morfologiyası (uzunluğu, eni, hündürlüyü), meteoroloji (temperatur, rütubət) və hidroloji rejimi (quru, nəm) elmi baxımdan öyrənilmiş, onlardan turizm məqsədilə istifadə imkanları dəyərləndirilmişdir. Lakin digər mağaraların da öyrənilməsinə, onlardan turizm məqsədilə istifadəyə və speloturizm marşrutlarının təşkilinə ehtiyac duyulur [İmrani Z.T., Ağakişiyeva G.R., 2021, s. 113].

Son 30 ildə Azərbaycanda, xüsusən Qarabağ iqtisadi rayonunun siyasi-iqtisadi vəziyyəti speleoturist təklifinin inkişafında durğunluğa səbəb olmuşdur. Hazırda mağaralardan istifadə əsasən qeyri-qənaətbəxş vəziyyətdədir. Bunlarla yanaşı, speleoturizmin inkişafı üçün strateji planın olmaması da bu

sahədə çətinliklərin yaranmasına səbəb olur.Gələcəkdə speleoturizmin inkişafında dayanıqlı inkişaf meyarları əsasında daha dərindən öyrənilmiş mağaralara surfingin təşkili, eləcə də turist infrastrukturunun təklifinin yaxşılaşdırılması və bələdçi xidmətlərinin ixtisas hazırlığı nəzərə alınmaqla bu sahə inkişaf etdirilə bilər.

Qarabağ iqtisadi rayonunda prioritet turizm xidmətləri növlərindən biri də animasiya ilə bağlıdır. Animasiya, spesifik turizm məhsulunun hazırlanması üçün turizm proqramları və zəruri elementlərdən formalaşıb.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Tərlan Növrəslinin Turanimator Təlim materialları kitabında animasiya:“turistlərin asudə vaxtlarını əyləncəli şəkildə keçirmələri və müəssisəyə olan tələbi artırmaq məqsədilə həyata keçirilən fəaliyyətlərdir” [6, s. 66] kimi qeyd edilmişdir.

Animasiya proqramları təkcə istehlakçılar üçün deyil, bütün turizm sənayesi üçün vacibdir. Animasiya proqramlarının funksiyalarla (adaptiv, iqtisadi, kompensasiya, stabilləşdirici, sağlamlaşdırıcı, məlumatlandırıcı, maarifləndirici, təkmilləşdirici, reklam, psixoloji, informativ, pedaqoji) uyğunluğu turist marşrutlarına və səyahətə tələbatı artıracaqdır. Maraqlı məzmunlu turizm xidmətləri bazarı mehmanxana biznesinin nüfuzunu artırır. Bu gün turizm xidmətləri bazarında şiddətli rəqabət şəraitində heç bir tədbir animasiya proqramları əlavə edilmədən düşünülə və ya təşkil edilə bilməz [Novrasli T.N., 2016, s. 219-222.].

Animasiya bir turizm xidməti kimi turist xidmətlərinin keyfiyyətini yaxşılaşdırmaq və göstərilən xidmətlərin sayını genişləndirməklə turizm məhsulunu fəal şəkildə tanıtmaq və turizm biznesinin gəlirliliyini artırmaq məqsədi daşıyır. Bu gün animasiya dünyada turistlər üçün ən vacib xidmət sahələrindən biridir. Bu istirahət fəaliyyəti üçün xüsusi proqramların hazırlanması və həyata keçirilməsi üçün bir fəaliyyətdir. Turizmdə animasiya avanqard sahələrindən biridir. Bunlara daxildir [İbragimov E.E., Semenchenko İ.V., Larchenko E.Y., 2020, s. 363-369]:

- ənənəvi bayramlar, festivallar, karnavallar;
- turnirlər;
- tarixi-bədii yönümlü hərəkətlər;
- hərbi mövzulu tarixi rekonstruksiyalar.

Şuşa şəhəri Azərbaycanın, o cümlədən Qarabağın mədəniyyət beşiyi hesab edilir. Qarabağda mədəni dəyərlərin paylaşması və tanıdılması istiqamətində məhz Şuşa şəhəri mühüm rol oynaya bilər. Şuşa şəhərində olan otellərdə, müxtəlif təyinatlı və tarixi dəyərlərə söykənən mədəni animasiyaların inkişaf etdirilməsi yolu ilə bura gələn həm yerli, həm də xarici turistlər tanış ola bilərlər. Onlar animasiya proqramlarında yaradılan xidmətlər və canlı əyləncə növləri vasitəsilə Qarabağın tarixi kökləri, milli adət ənənələri, ərazinin tanıdılması və istirahətlərini səmərəli təşkilini həyata keçirə bilərlər.

Qarabağ iqtisadi rayonunda inkişafı tələb olunan və perspektivli hesab edilən turizm növlərindən biri də SMART turizmidir.

Turistlərin üstünlükləri turizm sənayesinin inkişafına əhəmiyyətli dərəcədə təsir edir və rəqabəti artırır. Ona görə də daimi yeniliyə ehtiyac var. Belə yeniliklərdən biri də SMART turizmi konsepsiyasıdır.

SMART turizm ağıllı elementlərin daimi və sistemli istifadəsinin turist üçün əlavə səyahət dəyərinin yaradılmasına səbəb olduğu turizm kimi müəyyən edilir. SMART turizmin təklif olunan tərifi ağıllı texnologiyalardan istifadə etməklə istehlakçı üçün turist xidmətinin əlavə dəyərinin əldə edilməsinə yönəlmişdir [Kormyagina, N. N. 2017 s. 45-57].

SMART turizmin əsas prinsiplərinə rəqəmsal oriyentasiya (turizm məhsulunun yaradılması) , yaşıllaşdırma (turizm məkanının ekologiyasının keyfiyyətini nümayiş etdirmək zərurətindən ibarətdir) və sosial təminat aiddir.

Qarabağ iqtisadi rayonunda SMART turizmin yüksək inkişaf templəri bir sıra iqtisadi, texniki və texnoloji, sosial və demoqrafik amillərlə izah olunur ki, onların arasında ehtiyacların dəyişməsini xüsusilə qeyd etmək istərdim. Aktiv turistlər həm gündəlik həyat, həm də istirahət və əyləncə ilə bağlı tamamilə yeni tələblər və üstünlüklər dəsti ilə xarakterizə olunur. Belə ki, turistlərin yeni nəsli SMART turizmdən istifadə etməyə üstünlük verir. Çünki SMART turizm hamı üçün əlçatan olan, qabaqcıl

texnologiyalarla təmin edilmiş, turizm ərazisinin davamlı inkişafına töhfə verən, ətraf mühitin və qonağın qarşılıqlı əlaqəsini və inteqrasiyasını asanlaşdıran innovativ məkanı ehtiva edir.

## Nəticə

Qarabağ iqtisadi rayonunda turizm sənayesi iqtisadi siyasətin prioritet sahələrindən biri kimi qəbul edilir. Çünki turizm sahəsinin inkişafı və onun dayanıqlı fəaliyyət göstərməsi üçün regionun əlverişli təbii-coğrafi şəraiti vardır. Buna görə də Qarabağ iqtisadi rayonunda prieritet turizm növləri tədqiq edilməli və turizm sənayesinin inkişafına təkan verən prioritetli, lakin ənənəvi turizm xidməti növlərinə qonaqpərvərlik, müalicə sağlamlıq turizmi və speleoturizmi, yeni və müasir turizm xidməti növlərinə animasiyalar və SMART turizmi bu regionda inkişaf etdirilməlidir. Gələcəkdə bu sahələrin inkişafı turizm xidmətinin davamlı təminatçısı qismində çıxış edəcək.

## Ədəbiyyat

1. İmanov, R.C. (2005) Azərbaycanın ərazi bütövlüyünə qəsd – qondarma Dağlıq Qarabağ Muxtar Vilayəti. Bakı: Adiloğlu
2. İmrani, Z.T., Ağakişiyeva G.R. Qarabağda speloturizmin inkişaf etdirilməsi imkanlari // Qarabağın biomüxtəlifliyi, torpaq və su ehtiyatları: keçmişi, bugünü və gələcəyi onlayn konfrans. Bakı: Elm 2021, s. 113.
3. Növrəsli, T.N., Özbəkzadə H.F. (2017) Turizm biznesində animasiya xidmətlarinin zəruriliyi // Sumqayıt Dövlət Universiteti Elmi xəbərlər, Cild 13, №4. Bakı.
4. Növrəsli, T.N. (2013) Azərbaycan turizm potensialının iqtisadi inkişaf üçün töhfələri // "Beynəlxalq hüquq və inteqrasiya problemləri" elmi analitik jurnalının №2(34), Bakı, 2013, səh.327-330
5. Növrəsli ,T.N. (2013) Turizm olayına genel yaklaşım. "Beynəlxalq hüquq və inteqrasiya problemləri" elmi analitik jurnalının №4(36), Bakı.
6. Növrəsli, T.N. (2018) Turanimator Təlim materialları. Bakı: 2018, s. 66
7. İbragimov, E.E., Semenchenko İ.V., Larchenko E.Y., Sovremenniy etap razvitiya animachionnogo turizma v Rossiyi,na primere kostyumirovannix turov// Prioritetnie napravleniya i problemi razvitiya vnutrennogo i mejdunarodnogo turizma, Materialı Mejdunarodnoy nauchno – prakticheskoy konferenchii. Simfepol: 2020, s. 363-369
8. Loiko, O.T. (2007) Turizm i qostinichnoe xozyaistvo. Tomsk: TPU.
9. Kormyagina, N. N. (2017) Smart turizm kak chast smart conchepchii // Marketing i logistika: nauch-praktik, No. 6 (14). magazine 2017. s. 45-57.
10. Medichinskiy turizm i eksport medichinskix usluq (2021) Moskva: Gbu "Niiozmm Dzm".
11. Novrasli, T.N. (2018) Vajnost animachionnoy deyatelnosti v turisticheskom biznese. Turizm və qonaqpərvərlik tədqiqatları beynəlxalq jurnal. Say IV, Bakı: səh. 42-51
12. Potapova, K. K. (2016) Vliyanie turizma na sechialno – ekonomicheskoe razvitie regionov // Molodoy ucheniy , No. 24. 219-222.
13. Cheglazova, M.E., Nesterova M.A. (2019) Theoretichesie osnovi jiznennego chikla turisticheskogo produkta // Problemi i perspektivi razvitiya turizma v Yujnom federalnom okruge: Sbornik nauchnix trudov. Simferopol: FGAOU VO "KFU im. IN AND. Vernadsky.
14. Növresli, T.N., (2010)"Azerbyacan Turizm Potensiyelinin Kalkınma Amaçlı Değerlendirilmesi". // Doktora Tezi. İzmir: "YÖK".

Göndərilib: 18.03.2022 Qəbul edilib: 20. 04.2022

## TƏBİƏT ELMLƏRİ

## NATURAL SCİENCES

DOI: https://www.doi.org/10.36719/2789-6919/08/189-193

**Əhməd Məmməd oğlu Qarayev**
AMEA Naxçıvan Bölməsi
kimya üzrə fəlsəfə doktoru, dosent
**Aliyə Bayram Rzayeva**
AMEA Naxçıvan Bölməsi
kimya üzrə fəlsəfə doktoru, dosent
aliye.rzaeva@mail.ru

# BİSMUT OKSİDİN SU MÜHİTİNDƏ BİSMUT SELENİDƏ TRANSFORMASİYASI ŞƏRAİTİNİN ÖYRƏNİLMƏSİ

**Xülasə**

Məqalədə bismut oksidin elementar selenlə qarşılıqlı təsirindən bismut(III) selenidə su mühitində trasformasiya şəraiti öyrənilməsi verilmişdir. Birləşmənin əmələ gəlməsinin temperaturdan, mühitin pH-dan, reduksiyaedicinin miqdarından asılılığı araşdırılmış və prosesin reaksiya tənliyi tərtib edilmişdir. Alınan maddənin fiziki kimyəvi xassələri TQ, DTA, RFA, və kimyəvi analiz metodları ilə müəyyən edilmişdir. Termoqravimetrik analizlə nümunədə Bi:Se nisbəti 90.65:49.98 təşkil etmişdir. Differensial termiki analizlə nümunənin ərimə temperaturunun $705^0C$ olduğu təyin edilmişdir. Rentgen quruluş analizi nümunənin fərdiliyini təsdiq etmişdir. Belə ki, difraktoqramda alınan piklərin intensivliyi və bucaq qiymətləri etalon qiymətlərinə uyğun gəlmişdir. Qeyd olunlara əsasən nümunənin tərkibinin $Bi_2Se_3$ formuluna uyğun gəldiyi dəqiqləşdirilmişdir.

***Açar sözlər:*** *çökdürmə, su mühiti, bismut oksid, rentgen analiz, kimyəvi analiz, bismut(III) selenid*

**Ahmed Memmed Garayev**
**Aliya Bayram Rzayeva**

## Studying of obtaining conditions of bismuth selenide in the aquatic medium

**Abstract**

The article presents the study of the transformation conditions of bismuth (III) selenium in the aquatic environment from the interaction of bismuth oxide with elemental selenium. The dependence of the formation of the compound on temperature, pH of the medium, the amount of reducing agent was studied and the reaction equation of the process was compiled. The physical and chemical properties of the obtained compounds were determined by TQ, DTA, RFA, and chemical analysis methods. By thermogravimetric analysis, the Bi: Se ratio in the sample was 90.65: 49.98. The melting temperature of the sample was determined at 705 $^0C$ by the differential thermal analysis. X-ray structure analysis confirmed the individuality of the sample. Thus, the intensity and angle values of the peaks obtained in the diffractogram corresponded to the reference values. Based on the above, it was clarified that the composition of the sample corresponds to the formula $Bi_2Se_3$.

***Key words:*** *sedimentation, aquatic medium, bismuth oxide, x-ray analysis, chemical analysis bismuth(III) selenide*

## Giriş

Hazırkı dövrdə halkogenid kristalları (S, Se və Te ilə metalların birləşmələri və P, As, Sb və Bi ilə birləşmələr) intensiv şəkildə araşdırılır. Bu alınan birləşmələrin fundamental elm üçün maraqlı olan yarımkeçirici və lyuminestsent xüsusiyyətləri ilə izah olunur. Həmçinin tətbiq üçün geniş perspektivlərə

malik olan super keçiricilər, maqnitlər, topoloji izolyatorlar, katalizatorlar və digər funksional materiallar kimi səciyyələndirilir.

Halkogenid kristallarının alınmasında bir sıra metodlardan istifadə edilir. Bunlardan ərinmiş məhlul, qaz nəqli metodu, bir başa ampula, sulu məhlullardan kristal böyüməsi, hidrotermal sintez və s. metodlar mövcuddur. Sulu məhlullardan kristal böyüməsi və hidrotermal sintez metodları yüksək temperatur, mürəkkəb konstruksiylı avadanlıqlar və xüsusi şərait tələb etmədiyindən, işlərimizdə bu üsullardan istifadə etməyi nəzərdə tutmuşuq.

Selenidlərin məhlulda sintezində selenin bir sıra birləşmələrindən (natrium selenid, natrium selenesulfat, natrium selenit, kalium selenosianat, hidrogen selenid və elementar selen) istifadə edilir.

Elementar selen qatı natrium sulfit məhlulunda həll olaraq natrium selenosulfat əmələ gəlir [3]. Selen kalium sianiddə həll olaraq kalium selenosianat əmələ gətirir. Əmələ gələn ağ rəngli iynəvari hiqroskopik kristallar su, spirt və asetonda yaxşı həll olurlar [Karyakin 1974, 407 s.]. Elementar seleni qatı nitrat turşusunda həll etdikdə selenit turşusu əmələ gəlir. Tərəfimizdən elementar selenin adi şəraitdə (295 K) natrium borhidriddə və hidrazin monohidratda həllolması müəyyən edilmişdir [Elmi əsərlər, 2018, s.180-183; Beynəlxalq Elmi Konfransı, 2018, s.129]. Qeyri su mühitində ($C_nH_{2n+2}$ karbohidrogenləri həllediciləri kimi istifadə olunur, üzvi həlledicilər) metal duzları ilə amorf selenin qarşılıqlı təsirindən 150-200$^0$C temperaturda, 4-8 saat müddətində metalın selenə 1: (1-4) nisbətində metal selenidlərinin alınması üsulu işlənmişdir [ Perov, Patent RF 2186722, 2002.5].

Müəlliflər tərəfindən bismut selenidin hidrotermal metodla alınması şəraiti öyrənilmişdir. $Bi_2Se_3$-ün sintezi üçün 1 mmol təmiz bismut nitrat pentahidrat $Bi(NO_3)_3{\cdot}5H_2O$ və 1.5 mmol selen tozu (molar nisbətdə 2: 3) götürülərək teflon küveytə tökülür. Mühitin pH-na nəzarət etmək üçün 4 mmol natrium hidroksiddən və 2 mmol etilendiamintetraasetat turşusundan istifadə edilir. Teflon küveyt dimetil farmamid ilə ümumi həcmin 80%-i qədər doldurulur. Homogen reaksiya qarışığı əldə etmək üçün 30 dəqiqə ulturasentrufuqada qarışdırılır və ağzı sıx bağlanaraq avtoklava qoyulur. Sonra nümunə avtoklavda 140 və 200 $^0$C temperaturda 24 saat saxlanılır. Sintezdən sonra avtoklav otaq temperaturuna qədər soyumağa buraxılır. Reaksiya nəticəsində alınan qara çökünü süzülmüş, bir neçə dəfə etanol və distillə suyu ilə yuyularaq, nümunənin toz şəklində alınması üçün 4 saat ərzində vakuumda 100 $^0$C-də qurudulmuşdur. 24 saat ərzində 140 və 200 $^0$C temperaturda hazırlanan nümunələr $Bi_2Se_3$-1 və $Bi_2Se_3$-2 kimi adlandırımışdır. Materialların termoelektrik xassələri ölçülmüşdür [Watanabe, 1983. p. 1256].

Slack [Slack, FL; 1995] görə yüksək hərəkilik daşıyıcıları olan yarımkeçiricilər termoelektrik materiallar kimi ən yaxşı hesab olunur. Bismut(III) selenid optik qeydiyyat sistemində [Kadel, 2011; 6(1): 57], fotoelektrokimyəvi qurğularda [Waters, 2004, p. 3289] və termoelektrik cihazlarda [Bayaz, 2003. p. 441] tətbiq olunan yarımkeçiricidir [Mishra, 1997, p. 461]. Son illərdə bismut xalkogenidlərinin otaq temperaturunda bir sıra xassələrinin öyrənilməsinə diqqət xeyli dərəcədə artmışdır [Venkatasubramanian, 2001. p. 597]. Sulu məhlullardan kristal böyüməsi və hidrotermal sintez metodları yüksək temperatur, mürəkkəb konstruksiyalı avadanlıqlar və xüsusi şərait tələb etmədiyindən, işlərimizdə bu üsullardan istifadə etməyi nəzərdə tutmuşuq. Bu baxımdan ilk dəfə olaraq su mühitində bismut oksidin bismut selenidə çevrilməsi şəraiti öyrənilmişdir.

## Təcrübi hissə

Stexometrik nisbət gözlənilməklə müyyən miqdar bismut oksid üzərinə uyğun miqdarda elementar selen tozu tökülür. Sonra qarışıq üzərinə müəyyən miqdarda hidrazin monohidratın məlum qatılıqlı məhlulu əlavə edilir və qızdırılır. Məhlul qaynama həddinə çatdıqda sarımtıl rəngli $Bi_2O_3$-in tədricən bismut selenidə transformasiyası baş verir. Məhlulda selenin miqdarının azaldığı görünür (selen hidrazin monohidratda həll olur). Sonda qara rəngli $Bi_2Se_3$-in əmələ gəldiyi müəyyən edilmişdir.

Təcrübələr miqdari olaraq belə aparılmışdır. 46.6 mq bismut(III)oksid 23.7 mq sərbəst selenlə qarışdırılır və üzərinə 5 ml 1:4-ə nisbətində durulaşdırılmış hidrazin monohidrat məhlulu əlavə edilir. Qarışıq qaynama temperaturuna kimi qızdırılır. Prosesin sonunda 64.1 mq $Bi_2Se_3$ alınmışdır. Bu nəzəri miqdarla eynilik təşkil edir.

Çevilmə prosesinin reaksiya tənliyini aşağıdakı kimi getdiyini göstərmək olar.

$$Bi_2O_3 + 3Se + 3N_2H_2 \rightarrow Bi_2Se_3 + 3N_2 + 3H_2O$$

Bu zaman qara rəngli və kristallik çöküntü alınır. Çöküntüdə bismut və selenin vəsfi təyini göstərdi ki, hər iki element çöküntünün tərkibinə daxil olmuşdur. Hidrazin monohidrat qüvvətli əsasi mühitə malik olduğundan onun durulaşmış məhlulu da əsasi mühit yaradır. Bu səbəbdən proses əsasi mühitdə getdiyi məlum olur.. Reaksiyanın gedişində əsas faktor reduksiyaedici kimi hidrazin monohidrat olduğundan, birləşməninin əmələ gəlməsinə reduksiyaedicinin ($N_2H_2.H_2O$) miqdarının təsiri öyrənilmiş və nəticələr cədvəl 1-də verilmişdir.

*Cədvəl 1.*

**Bismut selenidin əmələ gəlməsinə mühitin, hidrazin monohidratın miqdarından asılılığı $C_{N2H2.H2O}$ = 10%, tem-r. 363-373 K**

| № | $Bi_2O_3$ mq | Se, mq | $N_2H_2.H_2O$, ml | Çöküntünün nəzəri küt.mq | Çöküntünün təcrübi küt.mq | Çöküntünün formulu |
|---|---|---|---|---|---|---|
| 1 | 93.2 | 47.4 | 2+5ml su | 131.0 | 135.41 | $Bi_2Se_3 + Bi_2O_3$ |
| 2 | - | - | 3+5ml su | - | 132.22 | $Bi_2Se_3$ |
| 3 | - | - | 5+5ml su | - | 132.06 | $Bi_2Se_3$ |
| 4 | - | - | 7+5ml su | - | 131.50 | $Bi_2Se_3$ |
| 5 | - | | 10+5ml su | - | 131.25 | $Bi_2Se_3$ |

Cədvəldəki rəqəmlərdən göründüyü kimi birinci təcrübədə selen bismut oksidi tam çevirə bilməmişdir, yəni hidrazin məhlulunun miqdarı kifayət etməmişdir. Sonrakı təcrübələrdə hidrazin məhlulunun miqdarı kifayət etmiş və təcrübi qiymətlər nəzəri qiymətlərə çox yaxın olmuşdur. Sonuncu iki təcrübədə çöküntünü kütlələri eyni olsa da çöküntü məhluldan çətin ayrılır. 2 və 3-cü təcrübələrdə alınan çöküntü $Bi_2Se_3$-dən ibarət olmuşdur. Çöküntülər süzülür, distillə suyu ilə təmiz yuyulur və 383 K temperaturda qurudulur. Prosesin gedişinə temperaturun təsiri öyrənilmiş və müəyyən edilmişdir ki, otaq temperaturunda reaksiyanın sürəti çox aşağı olur lakin temperatur artdıqca reaksiyanın sürəti də artır və məhlulun qaynama temperaturunda proses bir neçə dəqiqəyə başa çatır.

Su mühitində alınan bismut(III) selenid hava iştirakı ilə derivatoqrafda (NETZSCH STA 449F3) termiki analiz olunmuşdur. Nəticələr şəkil 1-də verilmişdir.




Şəkil 1. Bismut(III) selenidin termoqramı

Şəkil 1-dən göründüyü kimi 38 mq $Bi_2Se_3$ nümunəsində (Bi-24.25mq, Se- 13.75 mq) 200 $^0$C-ə qədər temperaturda tərkibdə heç bir dəyişiklik baş vermir. 200-300 $^0$C temperaturda 1.35 mq kütlə artımı selenin oksidinin əmələ gəlməsi hesabına baş vermişdir. Temperaturun 300-850 $^0$C həddində meydana çıxan kütlə itkisi 13.86 mq-dır. Bu isə bismut(III) selenidin oksidləşməsindən sonra əmələ gələn selen oksidin sublimasiyası ilə əlaqədərdir. Qalan qalıq isə bismutun payına düşür (24.14 mq). Hesablamalarla müəyyən edilmişdir ki, bismutun selenə olan kütlə nisbəti Bi:Se 90.65:49.98 kimidir. Bütün bunlar bismut selenidin formulunun $Bi_2Se_3$ müvafiq gəldiyini göstərir.

Birləşmənin ərimə temperaturu NTR-73 pirometrində təyin edilmiş və nəticələr şəkil 2-də verilmişdir.




Şəkil 2. Bismut(III) selenidin DTA əyrisi

Analizin nəticəsinə görə məlum olmuşdur ki, nümunənin ərimə temperaturu 705$^0$C təşkil edir. Eyni zamanda birləşmənin rentgenfaza analizi də birləşmənin $Bi_2Se_3$ olduğunu təsdiq etmişdir (şək. 2).




Şəkil 2. Bismut(III) selenidin difraktoqramı.

Şəkildən göründüyü kimi piklərin yerinin və intensivliyinin standarta uyğun gəlməsi maddənin fərdiliyini (JCPDS 01-078-3528) və kristal quruluşa malik olduğunu göstərir.

Birləşmənin kimyəvi analizi bu qayda üzrə aparılmışdır. Nümunə nitrat turşusu ilə parçalanır, duzlar qarışığı ayrılana qədər buxarlandırılır. Sonra distillə suyu və bir neçə damcı xlorid turşusu məhlulu əlavə edilərək ölçü kolbasına keçirilir. Bismut ionları ammonyakla bismut hidroksid formasında çökdürülür. Ayrılan çöküntü süzülür, distillə suyu ilə yuyulur və 350$^0$C-də mufel sobasında paçalanır. Əmələ gələn $Bi_2O_3$ çəkilir və kütləsi müəyyənləşdirilir. Süzüntüdə olan selenit ionları hidroksilamin metodu ilə təyin edilir. Alınan nəticələr cədvəl 2-də verilmişdir.

*Cədvəl 2.*

**Bismut(III) selenid nümunəsinin kimyəvi analizi**

| $Bi_2Se_3$ nümunəsi, q | Komponentlər, q | | | |
|---|---|---|---|---|
| | bismut | | selen | |
| | nəzəri. | prakt. | nəzəri. | prakt. |
| 0.6552 | 0.4180 | 0.4011 | 0.2371 | 0.2209 |

Qeyd: dörd təcrübənin nəticəsinin orta qiyməti.

Alınan nəticələrdən görünür ki, təcrübədə tapılan qiymətlər nəzəri hesablamalara uyğun gəlir. Bu da alınan bismut(III) selenidin tərkibinin $Bi_2Se_3$ formuluna müvafiq olduğunu göstərir. Həmçinin bismut(III) selenidin sıxlığı piknometrik metodla (6.78q/sm$^3$) təyin edilmişdir.

## Nəticə

Beləliklə, bismut(III) oksidin bismut(III) selenidə transformasiyası ilk dəfə olaraq məhlulda (su mühitində), 80 - 90$^0$C temperaturda yerinə yetirilmiş və fiziki-kimyəvi analizlərlə tərkibinin $Bi_2Se_3$ formuluna uyğun gəldiyi təsdiqlənmişdir. Bütün bunlar bismut(III) selenidin kimyəvi reaktiv, yarımkeçirici material və nazik təbəqə alınmasında xammal kimi istifadə edilməsinə imkan verə bilər

## Ədəbiyyat

1. Elementar selenin natrium borhidriddə həllolması şəraitinin tədqiqi (2018) NDU, Elmi əsərlər, “Qeyrət”, 2018, № 3,(92) , s.180-183.
2. Elementar selenin hidrazinhidratda həllolması şəraitinin araşdırılması. // Akademik M. Nağıyevin 110 illik yubileyinə həsr olunmuş “Nağıyev qiraətləri” Beynəlxalq Elmi Konfransı, Bakı – 2018, s.129.
3. Spravocnik ximika, ximiya i ximikeskaya texnoloqiya, http://www.chem.info/index/.
4. Karyakin Yu.V., Anqelov .İ.İ. Kistıye ximikeskiye veşestva. Moskva, Ximiya, 1974, 407 s.
5. Perov E.İ., Moşenskaya N.V. (2002) Sposob polukeniya selenida metallar
6. Bayaz A.A, Giani A, Foucaran A, Pascal-Delannoy F, Boyer A. Thin Solid Films. 2003. p. 441.
7. Mishra SK, Satpathy S, Jepsen OJ. J (1997) Phys Condens Matter. p. 461.
8. K. Kadel, Latha Kumari, WZ Li, Jian Yu Huang, and Paula P Provencio.(2011) Synthesis and thermoelectric properties of $Bi_2Se_3$ nanostructures. Nanoscale Res Lett.6(1): 57.
9. Slack GA. CRC Handbook of Thermoelectric. (1995) CRC Press, Boca Raton, FL.
10. Venkatasubramanian R, Siivola E, Colpitts T, O'Quinn B. Nature. 2001. p. 597.
11. Watanabe K, Sato N, Miyaoko S. J Appl Phys. (1983) . p. 1256.
12. Waters J, Crouch D, Raftery J, O'Brien P. Chem Mater. (2004). p. 3289.

Göndərilib: 09.03.2022 Qəbul edilib: 17.04.2022

## TEXNİKA ELMLƏRİ

## TECHNICAL SCIENCES

DOI: https://www.doi.org/10.36719/2789-6919/08/194-198

**Yusif Firdovsi oğlu Məmmədzadə**
Azərbaycan Texniki Universiteti
magistrant
yusifmemmedzade37@gmail.com

# ELEKTROMOBİL VƏ HİBRİD ENERJİ QURĞULU AVTOMOBİLLƏRİN İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ EKOLOGİYAYA TƏSİRİ

**Xülasə**

Avtomobilləşmə səviyyəsinin və sənayenin inkişafı ilə əlaqədar olaraq işğaldan azad olunmuş ərazilərdə ekologiyanı yaxşı vəziyyətdə saxlamaq mühüm layihələrdəndir. Son zamanlar neft məhsularının sürətlə bahalaşması və avtoəqıylat vasitələrinin ətraf mühitə 63%-ə qədər böyük ziyan vurması ekoloji cəhətdən təmiz avtomobillərə tələbatı artırmışdır. Elektromobillər ətraf mühitin vəziyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdırmaq, innovativ məhsullar üçün yeni bazarlar yaratmaq imkanıdır.

***Açar söz:*** *Elektromobil, hibrid avtomobil, xidmətlər, ekoloji problem konstruktuksiya, istehsal*

**Yusif Firdovsi Mammadzadeh**

## Impact of electric cars and hybrid cars on the environment in the liberated areas

**Abstract**

One of the important projects is to keep the environment in good condition in the liberated areas due to the level of automation and the development of industry. The recent rapid rise in oil prices and the fact that vehicles cause up to 63% of the damage to the environment have increased the demand for environmentally friendly cars. Electric cars are an opportunity to significantly improve the environment and create a new market for innovative products.

***Key words:*** *Electric car, hybrid car, services, environmental problem design, production*

## Giriş

Aparılmış təhlillərə əsaslanaraq, işğaldan azad olunmuş rayonlar və Qarabağ regionunda düşmən işğalında olduğu müddət ərzində ətraf mühitin və meşələrin qəsdən yandırılması, biomüxtəlifliyinə zərər dəyməsi, ekoloji terror aktları və təbii landşaftın məqsədli şəkildə məhv edilməsi kimi ekoloji genosid halları aşkarlanmışdır. Meşələrdə və yaşıllıq massivlərində qəsdən törədilmiş yanğınlar nəticəsində bitki örtüyü, münbit torpaq qatı və digər canlı aləm məhv edilib [Ekoloji monitorinqlərin nəticələri, 09.2020]. Beləliklə, sözügedən səbəblərdən dolayı bu ərazilərin nəqliyyat sistemində ekoloji cəhətdən təmiz Elektromobil və hibrid enerji qurğulu avtomobillərə üstünlük verilməsi məqsədə uyğundur. Sistemli və ardıcıl inkişafın nəticəsi olaraq İşğaldan azad olunmuş ərazilərin iqtisadi inkişafı istehlakın artması nəqliyyat-logistika infrastrukturunun bərpası və demoqrafik artıma istiqamətlənmiş tədbirlərin həyata keçirilməsi ekoloji problemlərin kəskinləşməsi ilə nəticələnə bilər. Belə ki, avtomobil nəqliyyatı bütün növ mənfi təsirlərdə liderlik edir və aşağdakı ekoloji ziyanlara gətirib çıxarır:

- Havanın çirklənməsi-95%
- Səs-küy-49,5%
- İqlimə təsiri-68%

Bu ərazilərdə ekoloji vəziyyətin yaxşılaşdırılması və bərpası üçün əhalinin elektromobil və hibrid enerji qurğulu avtomobillərin istifadəsinə təşfiqi vacibdir.

Elektromobil və hibrid enerji qurğulu avtomobillərin inkişaf tendensiyalarına aşağıdakılar aid edilə bilər [Husain İ. 2011 s.16]

- Əsas avtomobil istehsalçılarının yüksək fəaliyyət səviyyəsi;
- Yeni prototiplərin hazırlnması;
- Xarici ölkələr ilə birgə yüksək səviyədə fəaliyyət;
- Şəhərlərdə yüksək hibrid avtomobil aktivliyi;
- Fərdi və ya kiçik şirkətlərin daxili yanma mühərrikli avtomobillərin elektrikli nəqliyyat vasitəsinə dönüşdürməsi;

İlkin olaraq ölkə daxilində elektromobillərin inkişafı və istehsalı sektorunun formalaşması üçün yeni addımlar atılmalıdır. Xarici ölkələr ilə birgə yüksək səviyyədə fəaliyyət elektromobil nəqliyyat bazarının yaradılması üçün əhəmiyyətlidir. Qərbi Avropada elektrikli nəqliyyat vasitələrin payı 12% təşkil edir və Norveç ildə satılan elektromobillətin sayın görə dünya lideridir. Xarici ölkələr ilə birgə yüksək səviyədə layihələrin həyata keçirilməsi işğaldan azad olunmuş ərazilərdə elektromobil və hibrid enerji qurğulu avtomobillərin inkişafı üçün vacib addımdır. İşğaldan azad olunmuş ərazilərdə elektromobil avtonəqliyyatının inkişafı üçün özünü tam təmin edən enerji sisteminə malikdir.

İnkişaf etmiş ölkələrdə benzinlə işləyən nəqliyyat vasitələrinin ekologiyaya vurduğu zərəri azaltmaq məqsədi ilə hibrid qurğulu avtomobillərin və elektromobillərin istehsalına çox böyük diqqət göstərilir. Bu XXI əsr dünyanın avtomobil sənayesində növbəti inqilabı hesab edilir. Elektromobillər, ənənəvi daxiliyanma mühərrikli avtomobillərin ekoloji cəhətdən təmiz və yanacaq cəhətdən daha sərfəli alternativləridir. Bu avtomobillər təkrar doldurula bilən batareyalarla təchiz olunub və bu nəqliyyat vasitəsinin daxilində yanma prosesi baş vermədiyindən xaricə zəhərli qazlar buraxılmır, bununla da avtomobil atmosferə ziyan vurmadan fəaliyyət göstərir. Elektromobillərin texniki baxımı ənənəvi nəqliyyat vasitələrinə nisbətən daha asan və daha sərfəlidir. Elektromobillər, kimyəvi cərəyan mənbələrinin elektrik enerjisindən istifadə edərək aparıcı təkərləri hərəkətə gətirən avtonəqliyyat vasitələridir. Elektromobil bir və ya bir neçə elektrik mühərrikinin köməyi ilə hərəkət edir. Yük və minik maşınlarının transmissiyasına analoji olaraq elektromobil mühərriki təkərlərlə ötürücü sistem vasitəsilə birləşir. Elektrik mühərrikləri ekoloji cəhətdən təmiz mühərriklər olub, elektromexaniki çevirici kimi elektrik enerjisini mexaniki enerjiyə çevirir. Avtonəqliyyat vasitələrində qoyulan elektrik mühərriklərində rotor elektrik cərəyanının yaratdığı maqnit sahəsinin təsiri ilə statora nəzərən fırlanır və fırlanma hərəkəti transmissiyanın köməyi ilə elektromobilin təkərlərinə ötürülür, bu adi elektrik mühərriklərinin iş prinsipi ilə eynidir. Hibrid elektromobillərdə, elektrik və adi mühərriklər kombinə olunur. Hibrid iki enerji mənbəyi ilə idarə olunan (daxili yanma mühərrikli və elektromühərrikli) avtomobildir və Hibrid, adətən müxtəlif xüsusiyyətləri birləşdirib yenilərini yaratmaq üçün istifadə edilir. Başqa sözlə, onu, mühərriklə elektromühərrikin gücünü bir yerdə istifadə etmək hesabına yanacağa qənaət imkanı verən bir nəqliyyat vasitəsi kimi müəyyən etmək olar. Hibrid qurğulu avtomobillər birdən çox güc qurğusu ilə təchiz olunmuş və ya kombinə olunmuş enerji qurğusu ilə təchiz edilmiş avtomobillərdir. Ən çox yayılmış hibrid transmissiyası özündə benzin və elektrik mühərriklərini birləşdirir. Bu tip nəqliyyat vasitələri hibrid elektromobilləri adlanır. Bu avtomobillərdə eelektrik mühərrikləri üçün enerji mənbəyi kimi qurğuşunlu (Pb), nikel-kadmiumlu (Ni-Cd), litium-ionlu (Li-ion) akkumulyator batareyaları istifadə olunur. Az yanacaq sərfindən ilə yanaşı hibrid avtomobillərinin başqa üstünlükləri də mövcuddur. Elektrik mühərriki hərəkət zamanı maksimal burucu momenti artırdığı üçün, hibrid avtomobilinin sürətlənmə dinamikası yaxşılaşır.

Elektromobillərin inkişafına təsir edən amillər aşağıda göstərilmişdir:

1. Elektrik enerjisinin inkişafına dövlət dəstəyi;
2. Elektromobil nəqliyyatı biznesinə dövlət dəstəyi;
3. Ölkə daxilində elektromobil istehsalı;
4. Enerji doldurma stansiyaları üçün infrastrukturun yaradılması

Enerji doldurma stansiyaları üçün infrastrukturun yaradılması layihəsi inkişaf etmiş ölkələrdə daha geniş yayılıb. Məsələn, Sankt-Peterburqda məcburi bir norma var, belə ki, bütün inkişaf etmiş şirkətlər bütün binalarında şarj stansiyası quraşdırmağa təşviq olunur. Bu şirkətlərə aşağıdakılar daxildir[Borovkov, A.L., Knyaginin, V.N.2021, s.38 ]:

- İnkişaf şirkətləri;
- Avtodayanacaqlar;
- Taksi şirkətləri;
- Avtomobil satılan şirkətlər;
- Ticarət mərkəzləri;
- Avtomobil istehsalçıları;
- Avtomobillərə texniki qulluq stansiyaları;

Elektromobillərə tələbatın stimullaşdırılmsı, avtomobil bazarında böyüməsi onların payı 3-5% çatdıqda baş verə bilər. Bazarın inkişafında ən mühim hərəkət verici qüvvə aşağıdakılar ola bilər:

1. Vergi tənzimlənməsi; İşğaldan azad olunmuş ərazilərdə elektriklə işləyən nəqliyyat vasitələrinin vergilərin bir hissəsindən azad edilməsi;
2. Elektromobil və hibrid enerji qurğulu avtomobillərin daxili yanma mühərrikli avtomobillər arasındakı qiymət fərqinin subsidyalaşdırılması mexanizminin həyata keçirilməsi;
3. Elektrikli nəqliyyatdan istifadə üzrə pilot layihələrin həyata keçirilməsi;

Elektromobillərin dəyəri daxili yanma mühərrikli avtomobillərin qiymətindən yüksəkdir. Enerji saxlama texnologiyalarının inkişafı nəticəsində yaxın on ildə qiymətinin cəlbedici səviyyədə düşməsi ehtimal olunur. Respublikanın işğaldan azad olunmuş ərazilərində xüsusi ilə günəş enerjisi layihələri həyata keçirmək üçün əlverişli şərait mövcuddur. Zəngilan, Cəbrayıl, Qubadlı və Füzuli ərazisində müşahidə edilən günəş radiasiyası Naxçıvan MR-da müşahidə edilən günəş radiasiyasından sonra ölkə üzrə ən əlverişli ikinci regiondur[4].

Elektromobillərin konstruktur xüsusiyyətləri daxili yanma mühərrikli avtomobillərin konstruktuksiyasından əhəmiyyətli dərəcədə fərqlənir. Elektromobillərdə enerji mənbəyi kimi yüksək gərginlikli sabit cərəyan mənbəyi olan yüksək gərginlikli akkumulyator batareyasından istifadə olunur. Hibrid qurğulu nəqliyyat vasitələri üçün batareya səmərəliliyinə dair tələblər, elektromobillər üçün qoyulan müvafiq tələblərdən fərqlənir. Elektromobil və hibrid qurğulu avtomobillərdə tətbiq olunan mühərrik və idarəetmə sistemindən asılı olaraq fərqli akkumulyator batareyalarından istifadə olunur. Elektromobillərdə və hibrid qurğu avtomobillərin istehsalında, erkən həll tələb edən ən mühüm texnoloji məsələlərdən biri dartıcı akkumulyator batareyasında enerji sıxlığını artırmaqdır. Enerji sıxlığı, saxlama qurğusunun vahid kütləsi və ya həcminə yığılan miqdarı ilə müəyyən edilir. Səmərəlilik və xərclər elektromobil akkumulyatorunun seçilməsi zamanı nəzərə alınmalı olan əsas rekvizitlərdir. Elektrik mühərrikləri üçün enerji mənbəyi kimi qurğuşunlu (Pb), nikel-kadmiumlu (Ni-Cd), litium-ionlu (Li-ion), Nikel-metal-hidrid (Ni-MH) akkumulyator batareyaları istifadə olunur. Litium-ionlu batareyalar yüksək standart potensiyalı və elektrokimyəvi tərkibli, hər yüklənməsinə 1 saatdan az vaxt tələb olunan ən perspektivli batareya sayılır. Qurğuşunlu batareyalar elektromobil texnologiyasının daha erkən dövründə geniş yayılsalar da onların faydalı iş əmsalı az, kütləsi böyük və hər yüklənməsinə 6÷7 saat vaxt tələb olunur. Elektromobildə yerləşən akkumulyator batareyalarının kütləsi 1 tona yaxın olur və yerləşdirilməsi üçün tələb olunan sahə isə benzin və ya dizel mühərrikinin avtomobildə tutduğu sahədən 30 dəfə çox olur. Sadalanan amillər nəqliyyat vasitələrinin faydalı yükgötürmə qabiliyyətini azaldır. Elektromobil batareyası dizaynlarının əksəriyyəti silindrik və ya prizmatik formada olur. Litium-ion batareyalarının güc çərçivəsi əvvəlcə paslanmayan poladdan hazırlanırdı, baxmayaraq ki, bu material artıq alüminiumla əvəz edilmişdir. Çərçivə materialı performans tələblərinə cavab vermək üçün kifayət qədər sərt olmalıdır. Batareyanın daxili quruluşu hüceyrələrdən ibarətdir. Bu hüceyrələr daxilində kimyəvi enerji elektrik enerjisinə çevrilir. Batareyalar DC mənbələridir. Batareyanın çıxışında, invertor sabit cərəyanı üç fazalı dəyişən cərəyana çevirir. Buda öz növbəsində avtomobilin sürəti və motor-generatorun burucu momentinin dəyişməsi ilə nəticələnir. Bu cərəyanın tənzimlənən parametrləri tezlik, gərginlik və məsaməlilikdir. İnvertor çəkisinin azlığı kompakt olmasına görə fərqlənir və çoxqatlı quruluşa malikdir. İnvertorun əsas komponentləri və blok sxeminə invertorun qapağı, kondensator, cərəyan sensoru, motor-generatorun EİB, güc açarları, DC/DC konverteri və reaktor daxildir. Batareyadan elektrikin çəkildiyi vəziyyətə deşarj və ya boşalma vəziyyəti deyilir. Batareya yükləndikdə isə itirilmiş enerjini bərpa edir. Hibrid qurğulu avtomobil transmissiyasında zəif fırlanma titrəyişli yağla

işləyən və bir diskli friksion quru tipli dempfer mövcuddur. Dempfer transmissiyanın zədələnməsinin qarşısını alır. Mühərrikin burucu momenti həddindən çox artması zamanı onun səlis ötürülməsini təmin edir. Əksər hibrid qurğulu elektromobilin mühərriki 2ZR-FXE, 4 sıravi düzülüşlü silindr, 1,8 l işçi həcm, 16 klapanlı DOHC tipli qazpaylama mexanizmi ilə təchiz olunmuşdur [Fəxrəddin Ə. 2018, s.20] . Daxili istilik sistemi, soyuducu sistemləri olan işlənmiş qazların resirkulyasiya sistemləri mövcuddur. Silindrlər başlığı və porşen alüminiumdan hazırlanmışdır ki, burada əsas məqsəd çəkinin azaldılması və yığcam olmasıdır. Yanma kamerinin forması paz şəklindədir. Silindrlər başlığı blokunun əsas elementlərinə yastıq qapağı, qazpaylama valları, qazpaylama vallarının karteri, silindrlər başlığı, silindrlər bloku və pazşəkilli yanma kameri daxildir. Qazpaylama klapan mexanizminin konstruksiyası qazpaylama fazalarının tənzimlənməsi mexanizmi, valın intiqal dişli çarxı, sorma klapanlarının qazpaylama valı, çiyinlik, klapan və hidravlik kompensatordan ibarətdir. DC mühərriklərində aşağı sürətlərdə yüksək burucu moment, texnoloji yetkinlik, sadə idarəetmə quruluşu, sürətə nəzarətin asanlığı kimi xüsusiyyətləri, onları mükəmməl dartma mühərriki etsədə, belə elektrik mühərriklərində fırçaların və yayların dövri dəyişdirilməsinin təşkili, kommutatorlarının təmizlənməsi və dəyişdirilməsi ehtiyacı ilə əlaqəli texniki xidmətin yüksək əmək intensivliyi, elektromobillərdə tətbiqini məhdudlaşdırır[Ünlü N. Karahan Ş. 2003 s.101-102]. Daimi maqnitli DC mühərriki rotorun statorla eyni sürətdə fırlandığı sinxron mühərrik olub, fırçasız DC mühərrik kimidə adandırılır. Sahə sarımları olmadığından itkiləri az, səmərəliliyi yüksəkdir. Bu mühərriklərdə maqnitin mexaniki gücü böyük burucu moment (tork) yaratmağı çətinəşdirir və AC mühərriklərindən daha bahalıdır. Asinxron mühərriklərin işi zamanı elektrik qövsü meydana gəlmir, digər mühərriklərdən daha ucuz və daha az xidmətə ehtiyac var. Fırlanma sürəti sabit deyil və bu sürət, mühərrik işləyərkən sinxron sürətdən kiçikdir. Bu avtomobillərdə Transmissiyanın vəzifəsi mühərrikdən burucu momenti aparan təkərlərə ötürmək, həmçinin burucu momentin qiymətini və istiqamətini dəyişməkdir. Mühərrik və aparan təkərlər arasındakı bütün elementlər transmissiyanı təşkil edir. Hibrid avtomobillərdə elektromexaniki transmissya, elektromobillərdə isə pilləsiz ötürmə qurğusu olan elektrik transmissiya quraşdırılır. Hibrid qurğulu avtomobillərin trnsmissiyyasında dişli çarxlı ötürmələr qutusu, sinxronizator, variator qasnağı yoxdur və bunların əvəzinə motor-generator, daxili yanma mühərriki və aparan oxu birləşdirən plnetar dişli reduktor, ilişmə muftasının əvəzinə burulma rəqsləri dempferi quraşdırılmışdır. Bu transmissiya güc paylayıcı qurğu adlanır. Onun əsas elementi dişli çarx blokudur. Hibrid qurğulu avtomobil transmissiyasında zəif fırlanma titrəyişli yağla işləyən və bir diskli friksion quru tipli dempfer mövcuddur [Fəxrəddin Ə. 2018, s. 71]. Dempfer transmissiyanın zədələnməsinin qarşısını alır. Mühərrikin burucu momenti həddindən çox artması zamanı onun səlis ötürülməsini təmin edir.

## Nəticə

Tədqiqat, işğaldan azad olunmuş Qarabağ ərazisi və ətraf yeddi rayonda Elektromobil və hibrid enerji qurğulu avtomobil texnologiyasının inkişafı, səmərəliliyinin artırılması probleminin aktuallığını sübut etməyə və bir sıra nəzəri nəticələr və praktik tövsiyələr hazırlamağa imkan verdi.

Elektromobil və hibrid enerji qurğulu avtomobil texnologiyasının inkişafı aşağıdakı təsirlərə səbəb ola bilər:

- ✓ Elektromobil nəqliyyat bazarının yaradılması ölkədə onların yeni səviyəsinə keçməsinə imkan verəcək və nəticədə qlobal elektromobil istehsalı bazarına gedən yoldur, eyni zamanda müasir dövrdə elmin, istehsalın simvolu hesb edilir. Bir sıra ölkələrin milli elektrik avtomobilləri mövcuddur; Türkiyədə TOGG, Polşada İzera, Kanada Arrov və s;
- ✓ Elektromobillərin geniş tədbiqi texniki xidmət xərclərinin azalması, enerji səmərəliliyininin, nəqliyyat infrstrukurunun ömrünün artması, ətraf mühitə mənfi təsirlərin azalmasına xidmət edəcəkdir;
- ✓ Elektromobillərin regionda inkişafı ilə əlaqədar olaraq hər şəhərin mərkəzində ən azı iki sürətli enerji doldurma stansiyasının quraşdırılmasını tələb edir ;
- ✓ "M" və "R" kateqoryalı, əhəmiyyətli avtomobil yollarnın quraşdırılmasının, 2030 cu ilə qədər hər 100 km üçün doldurma stansiyasının təşkili;
- ✓ Enerji doldurma stansiylarının infrastrukturunun yaradılması, eləcədə təkmilləşdirilməsi, texnologiyalarının işlənib hazırlanmması;

## Ədəbiyyat

1. Azərbaycan Respublikası Ekologiya və Təbii sərvətlər Nazirliyi (2020) İşğaldan azad olunmuş ərazilərdə aparılan ekoloji monitorinqlərin nəticələri, 09.
2. Iqbal Husain Electric and and hybrid vehcles design fundamentals 2-ci nəşr. -s.16
3. Fəxrəddin, Ə. (2018) Hibrid avtomobillər dərs vəsaiti Aztu, Bakı : s-18,37,40
4. Azərbaycan Respublikası Energetika Nazirliyi, bərpa olunan enerji mənbələrindən istifadə-05.03.2022
5. Borovkov, A. I., Knyaginin, V. N. (2021) Elektrikli avtomobilin perspektivləri, bazarın inkişafı və Rusiyada infrastrukturlar, analitik hesabat -s.38
6. Ünlü, N., Karahan, Ş. (2003) Marmara araştırma mərkəzi Elektrikli araçlar, Gebze-2003, s. 101-109
7. Westbrook, M.H. (2001) The electric and hybrid car, London SAE
8. Zeina B., Samih A. J., Imad K. (2015) Modeling and Simulation of Series DC Motors in Electric Car. Proceedings of the Science Direct, Volume 50, Pages 460-470, doi: https://doi.org/10.1016/j.egypro.2014.06.056

**Rəyçi: t.ü.f.d. Qasım Manafov**

Göndərilib: 16.03.2022 Qəbul edilib: 19. 04.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/08/199-202

**İmran İsmət oğlu Cəfərov**
Azərbaycan Memarlıq və İnşaat Universiteti
magistrant
imran99.99@bk.ru

# PASSİV EVLƏRİN İSİDİLMƏSİNDƏ ENERJİ QƏNAƏTLİ TEXNOLOGİYALARDAN İSTİFADƏ EDİLMƏSİ

**Xülasə**

Passiv evlərin, yəni enerjiyə qənaət edən evlərin əsas xüsusiyyətləri aşağı enerji istehlakının olmasıdır. Əksər inkişaf etmiş ölkələrin öz passiv ev standartı tələbləri mövcuddur. Passiv evin rahatlıq temperaturunu saxlamaq üçün heç bir xərc tələb etməyən müstəqil enerji sistemi olmalıdır. Passiv evin isidilməsi orada yaşayan insanların və məişət texnikasının yaratdığı istilik hesabına olmalıdır. Əlavə "aktiv" istilik tələb olunarsa, alternativ enerji mənbələrindən istifadə edilməlidir. Bu enerji mənbələrinə günəş enerjisini və istilik nasoslarını misal göstərmək olar.

***Açar sözlər:*** *passiv ev, enerjiyə qənaət, istilik enerjisi, günəş enerjisi, istilik nasosu*

**Imran Ismat Jafarov**

## Use of energy saving technologies in passive house heating

**Abstract**

The main feature of passive houses, ie energy-saving houses, is low energy consumption. Most developed countries have their own passive house standard requirements. A passive house should have an independent energy system at no cost to maintain a comfortable temperature. Passive house heating should be due to the heat generated by the people living there and household appliances. If additional "active" heating is required, alternative energy sources should be used. Examples of these energy sources are solar energy and heat pumps.

***Key words:*** *passive house, energy saving, thermal energy, solar energy, heat pump*

## Giriş

Passiv evlərin yaradıcısı Almaniyanın Darmstadt şəhərində Passiv Ev İnstitutunun yaradıcısı Dr. Volfqanq Feistdir. Layihənin hazırlanması və həyata keçirilməsinə daha əvvəl Mənzil və Ətraf Mühit İnstitutunda işləyən doktor Volfqanq Veitsin rəhbərlik edirdi. İlk Passiv ev 1991-ci ildə tikilmiş və 1991-ci ilin oktyabr ayından 4 ailə üçün yaşamaq üçün təhvil verilmi.dir. 1996-cı ildən indiyədək isə 600 ikinci nəsil passiv ev mənzilləri tikilmişdir. Binaların enerji səmərəliliyinin artırılması üzrə müasir təcrübələrə Nyu-Hempşir ştatının 1972-ci ildə Mançester şəhərində tikilmiş struktur da daxildir. 1973-1979-cu illərdə Finlandiyanın Otaniemi şəhərində ECONO-HOUSE kompleksi tikilmişdir[Volodin, V.I. 2001, s.67].

Binada yerləşmənin və iqlimin xüsusiyyətlərini nəzərə alan kompleks kosmik planlaşdırma həlli ilə yanaşı, havanın günəş enerjisi ilə qızdırıldığı, istiliyi xüsusi ventilyasiya ilə toplanan xüsusi havalandırma sistemindən istifadə edilmişdir.

Həmçinin binanın ümumi istilik mübadiləsi sxeminə günəş kollektorları daxil edilib ki, bu da enerjiyə qənaət edir. Son iyirmi il ərzində həm tikinti prosesində, həm də istismar zamanı binaların termostatik idarə olunmasına çoxsaylı amillərin təsiri ilə bağlı dərin tədqiqatlar aparılmış, hesablama proqramları və tikinti texnologiyaları işlənmişdir.

Formalaşmış biliklər əsasında yalnız Almaniyada deyil, bütün Qərb ölkələrində Passiv Evləri geniş şəkildə yaymaq mümkün oldu. Bu evlərdə müasir tikinti materialları və konstruksiyalarından, ən müasir mühəndis avadanlıqlarından istifadə olunur. Bu gün bu evlər daxili iqlim rahatlığı baxımından Avropanın ən qabaqcıl evləridir. Passiv Evə girən insanın mühitində rahatlıq hissi orada olmağın ilk

dəqiqələrindən başlayır. Təmiz, isti təmiz hava, isti divarlar və döşəmələr (baxmayaraq ki, döşəmə qızdırıcısı yoxdur) yayda dağlıq ərazidə olmaq hissini oyadır.

Passiv Evin daxilində belə rahat yaşayış mühiti insan sağlamlığına faydalı təsir göstərərək, insanın bacarıqlı ömrünün xeyli uzadılmasına xidmət edir. Allergiya xəstələri üçün Passiv Evlərin faydaları haqqında Qərb mətbuatında çoxlu məlumatlar var. Buna görə də, son illərdə Avropada, xüsusən də təkrar bazarda Passiv Evlərin artan populyarlığının səbəbi enerjiyə qənaət deyil, qeyri-adi daxili iqlim rahatlığı amilidir. Passiv evlərin populyarlığına kütləvi tikinti, tikinti texnologiyasının və mühəndis avadanlıqlarının təkmilləşdirilməsi səbəbindən onların tikintisinin dəyərinin ənənəvi evlərin dəyəri səviyyəsinə enməsi də təsir etdi. Bununla belə, indi enerjiyə qənaət edən bir evin tikintisinin dəyəri hələ də adi bir bina üçün orta qiymətdən təxminən 8-10% çoxdur. Əlavə tikinti xərcləri 7-10 il ərzində özünü ödəyir. [Ray, D., Michael, D. 1982, s.67]

Passiv Evin unikallığı ondan ibarətdir ki, onu qaz şəbəkələrindən və istilik qurğularından istifadə etmədən rahatlıqla isitmək olar. Lazım olan tək şey hər evə və ya mənzilə adi miqdarda 10 kVt olan su və elektrik enerjisidir. Bu yemək bişirmək, istilik, kondisioner, havalandırma, isti və soyuq su üçün kifayətdir. [Paşçenko M.1981,s.56]

Mümkün elektrik kəsilməsi halında, Passiv Ev -15 °C xarici temperaturda gündə 1 °C soyuyur.[Senova, O.N., Evdə enerjiyə qənaət addım-addım, Sankt-Peterburq, 2008,] Bir çox cəhətdən bu, istilik akkumulyatorları ilə asanlaşdırılır, onların rolunu kütləvi yük daşıyıcı divarlar, birinci mərtəbədəki dəmir-beton döşəmə plitələri və döşəmə tavanları oynayır. Mühəndislik avadanlıqlarını müxtəlif enerji mənbələri: kaminlər, sobalar, istilik nasosları, suyun qızdırılması üçün günəş kollektorları, günəş panelləri, külək stansiyaları və s. ilə əlavə etməklə Passiv Evin enerji təhlükəsizliyini daha da artırmaq mümkündür. Bu cür enerji təhlükəsizliyi tədbirləri Passiv Ev mərkəzləşdirilməmiş enerji təchizatı, su təchizatı və məişət çirkab sularının təmizlənməsi ilə tamamilə enerjidən istifadə etmirlər.

Bəzən "passiv ev" anlayışı "ağıllı ev" sistemi ilə qarışdırılır, onun vəzifələrindən biri binanın enerji istehlakına nəzarət etməkdir. “Ağıllı ev” sistemi də fərqlidir, az enerji sərf etməklə yanaşı, özü də o qədər çox enerji istehsal edir.

Görünüş olaraq, passiv bir ev adi bir evdən fərqlənmir. Passiv ev aşağı enerjili evin məntiqi davamıdır. Onun fərqləndirici xüsusiyyətləri xüsusi rahatlıq, optimal temperatur şəraiti və yüksək daxili hava keyfiyyətidir - və bu, mümkün olan ən aşağı enerji istehlakıdır. Normal istifadədə passiv ev ildə 1 $m^2$ yaşayış sahəsinə 1,5 litr neft və ya 1,5 m3 təbii qaz (15 kVt/saat) sərf edir. Ənənəvi evlərin orta enerji istehlakı ilə müqayisədə bu, 90% qənaət deməkdir [ Senova, O.N. 2008,s44]

Obyektin enerji səmərəliliyinin göstəricisi ildə və ya istilik mövsümündə hər kvadrat metrə (kVt/$m^2$) istilik enerjisinin itirilməsidir. Orta hesabla bu rəqəm 100-120 kVt/$m^2$-dir. Bu rəqəm 40 kVt/$m^2$-dən aşağı olarsa, bina enerjiyə qənaət edən bina hesab olunur. Avropa ölkələri üçün bu rəqəm daha da aşağıdır - təxminən 10 kVt/$m^2$-dir. [. Rodkin, O.I., Enerjiyə qənaət və bərpa olunan enerji mənbələri: tədris vəsaiti, Minsk: Saxarov adına Moskva Dövlət İqtisad Universiteti, 2011]

Passiv evin memarlıq konsepsiyası aşağıdakı prinsiplərə əsaslanır:

- Yığcamlıq;
- yüksək keyfiyyətli və səmərəli izolyasiya;
- materiallarda və qovşaqlarda soyuq körpülərin olmaması;
- binanın düzgün həndəsi quruluşu;
- rayonlaşdırma, kardinal nöqtələrə istiqamətləndirmə.

Passiv evlərdə isti su təchizatı bərpa olunan enerji qurğuları ilə də təmin edilə bilər. Bunlar aşağıdakılardır:

- istilik nasosları;
- günəş su qızdırıcıları.

Binanın soyudulması problemi də müvafiq memarlıq həlli yolu ilə, əlavə soyutma tələb olunarsa, alternativ enerji mənbələri, məsələn, geotermal istilik nasosu vasitəsilə həll edilməlidir.

Passiv evlərdə üçlü şüşəli və izolyasiya edilmiş çərçivəli istilik qoruyucu pəncərələr, həmçinin divarların, damın və zirzəmilərin xüsusilə yaxşı istilik izolyasiyası olması enerji səmərəliliyini artırmaqda kömək edir. Hermetik bina örtüyü ventilyasiya zamanı arzuolunmaz istilik itkisinin qarşısını

alır və ventilyasiya qurğusunun mükəmməl işləməsini otaqda xoş təmiz hava təmin edir və istiliyin bərpası üçün əlavə olaraq buraxılan havadan istifadə edir. Qalan istilik tələbatını ödəmək üçün səmərəli məişət texnikası istifadə olunur. Bu, passiv istilik mənbələrindən (məsələn, günəş, insan, məişət texnikası), eləcə də işlənmiş hava istiliyindən istifadə edən və neft və təbii qaz kimi bahalı enerji mənbələrini faktiki olaraq aradan qaldıra bilən passiv evlə nəticələnir. Qapalı strukturların istilik müqavimətini artırarkən müşahidə edilməli olan əsas prinsiplərdən biri konstruksiyalarda tikinti materiallarının funksiyalarının ayrılmasıdır. Bu yanaşma ilə evdən gələn istiliyin xaricə çıxa biləcəyi "termal körpülərin" sayını azaltmaq mümkündür.

İkinci prinsip isə istilik izolyasiyasınən binanın bütün konturu boyunca bərabər və davamlı olaraq paylanmasıdır. Digər bir prinsip soyuq körpüləri mümkün qədər azaltmaq və zəruri hallarda əlavə istilik izolyasiyası təmin etməkdir. Eyni zamanda, binanın bütün konturunun ətrafına hermetik konstruksiya quraşdırılmalı və binanın izolyasiyası təmin edilməlidir.

Qeyd edilən prinsipləri həyata keçirərkən, lazımi istilik müqavimətini təmin edən bir kərpic divarının qiyməti bir örtüklü bir çərçivə divarından bir neçə dəfə yüksəkdir. Bunu çöldə -26 dərəcə, içəridə +18 dərəcə istilik fərqi üçün istilik maneəsi təmin edən eyni istilik keçiriciliyinə malik müxtəlif strukturların divar qalınlığının müqayisəsindən görmək olar: [Sokolov, E. Y. 2001]

Binanın istilik qorunması üçün ən problemli yerlər:

- damın və divarların artikulyasiya yerləri;
- tavan və divarların qovşağı;
- pəncərə çərçivələrinin konturları;
- divarların bünövrə ilə birləşməsi.

Aşağı istilik keçiriciliyi olan struktur materiallardan hazırlanmış istilik əlavələrindən istifadə edərək qovşaqlar yaratmaq mümkündürr. Məsələn, betondan hazırlanmış bloklar, xüsusi növ kərpiclər və s. istifadə olunur.

Aşağıdakıları tətbiq etməklə istilik itkisi azalır:

- bünövrənin bütün hündürlüyü boyunca kənardan istilik izolyasiyası;
- bünövrə dəstəyinin aşağı kənarında evin perimetri boyunca üfüqi xarici istilik izolyasiyasının quraşdırılması;
- qum yastığına bünövrə bloklarının quraşdırılması;
- yerə birinci mərtəbə plitəsinin qoyulması sxeminin tətbiqi: qum yastığı, su izolyasiyası, qalın izolyasiya;
- səthin üstündəki bünövrə blokları xaricdən və içəridən istilik izolyasiyasına malik olmalıdır.

Enerjiyə qənaət tədbirlərinin işlənib hazırlanması onların reallığına və əldə olunmasına əsaslanmalıdır. Müəyyən tədbirlərin məqbulluğunu qiymətləndirmək üçün əsas olaraq, enerji resurslarının qiymətlərinin cari və ya gələcək səviyyəsinə əsaslanan texniki-iqtisadi hesablamalar aparmaq lazımdır.

Enerji istehlakının daha sərt standartları şəraitində yeni tələblərə cavab verən evlərin istilik sistemləri onların qənaətində mühüm rol oynayır. Əhəmiyyətli enerji qənaətinə, məsələn, otaq temperaturunda dəyişikliklərə tez reaksiya verən avtomatik idarə olunan aşağı ətalət sistemlərinin istifadəsi ilə nail olmaq olar. Evin enerji istehlakına təsir edən ən mühüm amillərdən biri onun əsas nöqtələrə nisbətən yerləşməsidir. Evin enerjiyə qənaət etməsi üçün pəncərələrin əksəriyyəti cənuba baxmalıdır.

Eyni zamanda, azimutdan cənuba 30 °-ə qədər sapma günəş enerjisindən istifadəni bir qədər azaldır. Ev fərqli bir şəkildə yerləşdirilirsə, günəş işığı şüaları ilə otağa daxil olan istilik çatışmazlığını kompensasiya etmək üçün binanın divarları və damı daha səmərəli şəkildə izolyasiya edilməlidir. İşıq enerjisinin təxminən 90% -i pəncərələrin şüşəsindən nüfuz edərək otağı qızdırır. Müasir ikiqat şüşəli pəncərələr xüsusi örtüklər və inert qaz doldurulması ilə hazırlanır. Örtüklər uzun dalğalı infraqırmızı şüaları yenidən əks etdirir və onların pəncərələr vasitəsilə itkisini azaldır.

Böyük pəncərəli evlər yayda çox isti ola bilər. Bu problem başqa bir xüsusi şüşə örtüyünün istifadəsi, həmçinin avtomatik qaraltma sistemlərinin, dam örtüyünün, eyvanların istifadəsi ilə həll edilir. Onlar birbaşa günəş işığının yalnız qışda günəş az olduqda pəncərələrdən keçməsinə imkan verəcək şəkildə yerləşdirilir. Yayda evin günəşli tərəfindəki pəncərələrə ağaclar kölgə salır. Qışda günəş işığı budaqlar arasında asanlıqla evə nüfuz edir. Binanın xarici səthi nə qədər böyükdürsə, istilik itkisi də bir o qədər

yüksəkdir. Buna görə də, bir ev tikərkən, və ya yenidən qurarkən, mümkünsə, divarlardakı hər cür boşluqlardan, çıxıntılardan qaçınmalısınız. Evin şimal tərəfində isidilməmiş əlavə tikililər tikmək məntiqlidir.

Kompakt ev nəinki daha az enerji sərf edir, həm də daha az tikinti xərcləri tələb edir. İstiliyin çox hissəsi evdən onun xarici səthindən çıxır. Daxili və xarici temperaturlar arasındakı fərq nə qədər yüksək olarsa, istilik itkisi bir o qədər çox olar.

## Nəticə

Evin istilik izolyasiya dərəcəsi onun əhatə edən strukturlarının (döşəmə, divarlar, pəncərələr, dam) istilik köçürməsinə müqavimət əmsalları ilə müəyyən edilir. Nə qədər yüksəkdirsə, izolyasiyanın keyfiyyəti bir o qədər yaxşıdır. Evdəki gələcək yaşayış sahəsinin ölçüsü birbaşa xarici divarların qalınlığından asılıdır. Divarlar qalınlaşdırılarsa, məsələn, 32 sm deyil, 38,5 sm olarsa, evin yaşayış sahəsi əhəmiyyətli dərəcədə azalacaq. Beləliklə, müəyyən edilmiş qalınlığın divarları şəraitində 10x11 m sahəsi olan bir evdə yaşayış sahəsi 2,73 $m^2$ azalacaqdır. Bu o deməkdir ki, mənzilin hər kvadrat metri daha baha başa gələcək. 49 sm divar qalınlığı ilə hər mərtəbənin yaşayış sahəsi demək olar ki, 8 $m^2$ azalacaq.

## Ədəbiyyat

1. Volodin, V.I. (2001) Enerjiyə qənaət. BSTU.
2. Ray, D., McMichael, D. (1982) İstilik nasosları, M.: Energoizdat.
3. Paşçenko, M., (1981) Bina və tikililərin mühəndis avadanlıqları, Moskva: Ali məktəb
4. Senova, O.N., (2008) Evdə enerjiyə qənaət addım-addım, Sankt-Peterburq.
5. Rodkin, O.I. (2011) Enerjiyə qənaət və bərpa olunan enerji mənbələri: tədris vəsaiti, Minsk: Saxarov adına Moskva Dövlət İqtisad Universiteti.
6. Sokolov, E. Y. (2001) İstilik sistemlərinin və istilik şəbəkələrinin tətbiqi, Moskva: MEI.
7. Samoilov, M. V. (2004) Panevçik, V.V., Kovalev, A.N., Enerjiyə qənaətin əsasları: Dərslik, BREU.
8. Pospelova, T. G., (2000) Enerji qənaətinin əsasları, "UP Technoprint

**Rəyçi: t.ü.f.d Gülnar Feyziyeva**

Göndərilib: 09.03.2022 Qəbul edilib: 19. 04.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/08/203-206

**Dəyanət Lütvi oğlu Əliyev**
Azərbaycan Memarlıq və İnşaat Universiteti
magistrant
aliyevdeyanet98@gmail.com

# SUYUN YUMŞALDILMA ÜSULLARI VƏ DUZSUZLAŞDIRMA

**Xülasə**

Təbiət sularının yumşaldılması və duzsuzlaşdırılması prosesi əsas keyfiyyət göstəricilərinə görə tənzimlənir. Təbiət sularının əsas keyfiyyət xarakteristikalarına, adətən bioloji, kimyəvi və fiziki xüsusiyyətlər aiddir. Azərbaycan ərazisində axidılan suların yenidən təmizlənməsi və yumşaldılması üçün bir çox üsullar tətbiq olunur. Temperatur asılı hissəciklər,bulanıqlıq fiziki xarakteristikaya aid edilir. Suyun duzluluğ göstəricisi, codluğ göstəricisi, oksidləşmə qabiliyyəti isə kimyəvi xarakteristikasına aid edilir.Hidrobionitlər , bakteriyaların miqdarı isə bioloji göstəricilərə aid edilir.

***Açar sözlər:*** *Su yumşaldılması, təbiət suları, bioloji keyfiyyət, kimyəvi xarakteristika, fiziki xarakteristika*

**Dayanat Lutvi Aliyev**

## Methods of water softening and desalination

**Abstract**

The process of softening and desalination of natural waters is regulated by key quality indicators. The main quality characteristics of natural waters are usually biological, chemical and physical. Many methods are used to re-treat and soften wastewater in Azerbaijan. Temperature-dependent particles, turbidity refers to the physical characteristic. The salinity, hardness and oxidizing ability of water are related to their chemical characteristics. Hydrobionts and the amount of bacteria are related to biological indicators.

***Key words***: *Water softening, natural waters, biological quality, chemical characteristics, physical characteristics*

## Giriş

Səth suları və yeraltı sular istilik təchizatı sistemlərinin ehtiyaclarını ödəmək üçün istifadə edilir. Səth sularının temperaturu müxtəlif cür ola bilər. Nəzərə alsaq ki, ilin fəsilləri dəyişdikcə ətraf mühitin temperaturunda dəyişir və buda səth sularının temperaturuna birbaşa təsir edir. Suyun codluğu onun tərkibində olan kalsium ( Ca) və magnezium (Mg) ionlarının qatılıqlarının cəminə suyun tam codluğu deyilir. Vahidi kimi ekv/dm$^3$ və ya mkq/dm$^3$ götürülür. Əgər mq/dm$^3$ verilərsə ümumi codluğda kalsium ekvivalent -20,04 mq/mq-ekv, magnezium ekvivalenti isə -12,16 mq/mq-ekv götürəcik.[Feyziyev H.Q., HüseynovaH.G. ]

Yumşaldılma üsullarına:

İon mübadiləsi ilə suyun yumşaldılmasını,

Suyun azaxıntılı və axıntısız yumşaldıma üsullarını misal çəkə bilərik.

Bugün Azərbaycanda elektrik enerjisi və sənaye qurğuları üçün böyük parametrli İEM-lərdə əlavə su kimi ancaq duzsuzlaşdırılmış sudan istifadə edilir. Bu səbəbdən ən şox yayılan üsul kimyəvi duzsuzlaşdırılma üsuludur. Mənfi cəhəti isə ionitləri regenerasiya eləmək üçün istifadə olunan reagentlərin sərflərinin çox olması , ionitlərin mübadilə tuutumlarının aşağı səviyyədə alınması və həddən artıq tullantı sularının yaranmasıdır. Duzsuzlaşdırılma prosesini bahalaşdıran əlavələr həm istismar xərcləri, həm də tullantı sularını utilizə etməyə lazım olan iri kapitaldır.

Dəniz suyunun tərkibində nisbətən kiçik miqdarda (2-3,5 mq-ekv/l) olan biokarbonat ionlarının xüsusi termik bölünməsi nəticəsində magnezium hidroksid və kalsium karbonat yaranır. Bu cür yataqların yaranması qarşısının alınması və onların emal edilməsi nə texniki, nə də iqtisadi problem

yaratmır. Normal dəniz suyunu qızdırdıqda və buxarlandırdıqda kalsium sulfat yaranır. Sulfat şkalasının qarşısını almaq və aradan qaldırmaq üçün bir çox mövcud üsullar daha mürəkkəb və böyük sərmayədir. Bu yolla, dəniz suyunu distillə vasitəsi ilə duzsuzlaşdırılmasını daha çətinləşdirən birbaşa amil təmamilə şkala əmələ gəlməsi deyil, kalsium sulfatın çökməsi prosesidir. [Feyziyev G.K. 2009. s. 62 ]

İşlənmiş regenerasiya məhlulu ilə bərpa və yenidən istifadə etməklə suyun axıntısız yumşaltma proseslərini təmin etmək mümkündür.Axıntısız üsulda su şəffaflandırıcıda əhəngləşdirməyə və ya koaquliyasiyaya yada yalnız koaquliyasiyaya məruz edilərək şəffaflandırılmış su çənlərinə verilir. Əgər kationit süzgəcinin axıntı sularında azad formada turşu varsa və ya ardıcıl olaraq H-Na – kationlaşdırma vardırsa, o zaman onlar əhəng vasitəsi ilə ya da başqa qələvilərlə ( reagentlərlə) neytrallaşdırılır.

Daha sonra bu cür axıntı suları naso vasitəsi ilə şəffaflaşdırıcıya ötürülür.Onlar burada əhəng və soda məhlulu ilə emal olunaraq çənə toplanılır.

Yüksək tutuma malik Na-kation dəyişdiricilərində bəzən "yaş" duz anbarlarından istifadə edilir. İki-üç aylıq ehtiyaca hesablanılmış miqdarda (200-300 ton) texniki duz depolardan dəmir-beton saxlama çənlərinə (hüceyrələrə) göndərilir və suyla doldurulur. Regenerasiyadan daha əvvəl, doymuş 26 faizli həll olunmuş duz məhlulu, birləşmiş çirklərdən təmizlənmək üçün nasosla aydınlaşdırma süzgəclərindən keçirilərək su ejektorları tərəfindən götürülən, onlarda müəyyən faiz nisbətində azaldılmış bir ölçmə təchizatı quyusuna daxil olur. Konsentrasiya edilib yoxlanır və regenerasiya olunmuş çənə ötürülür. [A.S.Kopylov V.M.Lavıgin V.F.Oçkov 2016.s100 ]

Soda üçün artıq miqdarda dozalanma və onun turşu ilə neytrallaşdırılması variantında, soda üçün doza bu cür hesablanır.

$D_s=C_\beta+\alpha C_\beta=(1+\alpha)(C_{ilk}-Q_{ilk}+Q_\beta+D_K)$

Su kəməri suyu , həmçinin əhəng ilə emal olunmamış koaquliyasiya olunmuş su üçün ən sərfəli üsuldur.Bu üsula görə istifadə olunmuş regenerasiya qarışığının duru hissəsi və yuma suları çəndə toplanır.Və bundan sonra nasos vasitəsilə ilkin suyla qarışdırılır.İşlənmiş regenerasiya məhsulunun bir hissəsi çənə toplanır. Bu çəndə kalsiumun bir hissəsi $CaSO_4*2H_2O$ formasında çökməsi üçün lazımi şərait yaradılır. Suyun tələb olunan dərəcədə təmizlənilməsi üçün əksaxımlı ya da ikiselli-əksaxınlı süzgəclərdən istifadə etmək mütləqdir.

Duzluluğu yüksək bilinən sular üçün (9,8 mq-ekv/dm$^3$ və daha çox) və dərin yumşaldılmış sulare tələb ediləndə müəyyən dərəcədə yumşaldılmış İRM əlavə olaraq Na-kationit süzgəcinlərindən buraxılırlar. Belə Na-kationitin süzgəci natrium sulfat məhlulu ilə regenerasiya edilir. Bu süzgəccin işlənmiş regenerasiya məhlulları əsasən Na kationit süzgəclərinin İRM-nin qatılaşmış hissəsinin çəninə verilir.

2013-cü ilin yanvar ayından istifadəyə verilmiş dəniz sularının duzsuzlaşdırılması zavodu və Şirvan kollektor suyunun duzsuzlaşdırılması aparatlarında bu günədək 5,9 milyon m$^3$ əlavə su istehsal olunmuşdur. Hal-hazırda belə sulardan suvarma üçün yararlı suyun az olduğu ətraf sahələrdə salınmış 699 hektar yaşıllıqların, hətta zeytun plantasiyalarının və hər ildə $10*10^6$ artıq əkin materialları yetişdirilən tinglik ərazilərinin suvarılmasında istifadə edilir. [ 4]

Regenerasiya məhlulu kimi $Na_2SO_4$-dən istifadə ediləndə, verilən suyun şəffaflaşdırıcısına geri gələn duzların miqdarı kiçilir. Bu ona görə baş verir ki, gips azda olsa çəndə çökür. Çökülən codluq-ionlarının miqdarının çoxalması üçün çənə əlavə əhəng suspenziyasını əlavə etmək vacibdir. Bu əhəng suspenziyasının əlavə miqdarı maqneziumun codluğuna ekvivalentdir. Və yaxud da ondan daha çox olmalıdır. Bucür hallarda maqnezium çöküntü olur. kalsiumun qatılığı dərəcəsi artır və nəticədə gipsin əlavə çöküntüsü əldə edilir. Kalsium sulfat məhlulunun və maqnezium hidroksid məhlunun çökməsi prosesinin asanlaşdırılması üçün natrium sulfatla regenerasiya edilən Na kationit süzgəcinin istifadə edilmiş regenerasiya məhlulunu 6-16%-li əhəng suspenziyalı məhluldan buraxmaq daha çox məqsədəuyğundur.

Yumşaldılmış suyun pH-ını tənzimləmək üçün və filtratin turşuluğunu aradan götürmək üçün özüregenerasiya edən bufer süzgəclərindan istifadə edilir. Yumşalma prosesindən öncə H-kationit süzgəci H-kationlaşdırma rejimində işləyir. Bu halda filtrat turş olur, daha sonra filtratın turşuluğu Na-ionlarının keçməsi sayəsində azalır və o getdikcə qələvili olur.

Bəzən verilən suyun qarışıqlar vasitəsi ilə çirklənmə qiymətindən asılı olaraq şəffaflaşma prosesi bilavasitə mexaniki süzgəclərdə davam edir. Şəffaflaşdırıcı aparatda suyun ilkin koaqulyasiyası hadisəsi

reallaşmadıqda bu zaman kobud dispersiyalı qarışıqlar süzücü materiallar üzərində nazik təbəqə yaranacaq bu zaman da süzülməyə qarşı müqavimətin çoxalmasına səbəb olacaq. Şəffaflaşdırıcı aparatda ilkin koaqulyasiya zamanı qarışıqların əsas kütləsi tutulmuş olurki, bununla da süzgəclərə daxilində əsas etibarıyla xırda hissəciklər ola bilən su daxil olur. Bu yerdə süzülmə prosesi səthin üzərində yox süzücü təbəqələrin layında baş verir. Belə prosesdə süzgəcin süzücü tərkibinin həcmi tamamilə istifadə olunur. Buna görə də yüksək dərəcədə şəffaflaşma təmin olunur. Süzülmə prosesinin üstün effektivliyi mexaniki süzgəclərdə arakəsməli mühitin və su qarışığının həm hidrodinamik formada və həmçinin fiziki kimyəvi xassələrindən də asılı olur. [5]

Bufer süzgəci oval hidrogen ionlarını özünə cəlb edir, daha sonra isa həmin ionlar Na-ionları ilə əvəz olunur. Bu isə yumşaldılmış suyun qələviliyini müəyyən dərəcədə neytrallaşdırır. Yumşalmış suyun qələviliyinin təqribi qiyməti soda ilə əhəngin əlavələrinin cəminə bərabər olur. Turşunun xüsusi sərfinin qiymətindən aşağı salmaq və bufer süzgəcinə dolan kationitin hündür tüyünün aşağı salınması üçün yumşalmış suyun turş hissəsinin əvvəlini yığmaq daha sonra onu təkrarən öz tələbləri üçün istifadə etmak mütləqdir. Bu, bir tərəfdən də süzgəcin regenerasiyası üçün istifadə edilən turşunun xüsusi sərfini stexiometriya miqdarından aşağı salmağa şərait yaradır, digər tərəfdən isə bufer süzgəcinə qarışan turşunun miqdarını kiçildir. [Senyavin, MM. Ruinstein R.N., I.V. Komarova L.V.1975, s. 46]

Şirin suyun duzsuzlaşdırılması üçün kimyəvi duzsuzlaşdırma üsul, daha doğru desək, ion-mübadiləsi üsullarından geniş istifadə olunur. Ancaq son dövrlər su hövzələrinin suhazırlama qurğu və avadanlıqlarının tullantılarından çirklənmənin qarşısını almaq üçün, həmçinin də digər su duzsuzlaşdırma üsullarınında termiki, əks-osmos, elektrodializ inkişaf səbəbindən bəzi mütəxəsislər hesab edirlər ki, kimyəvi duzsuzlaşdırma üsulunun tətbiqetmə əhatəsi azaldılmalıdır. Təkmilləşdirmənin dialektikası belə ola bilər ki, ya köhnə öz yerini yenisinə verməlidir, ya da onların təsirindən elə keyfiyyət dəyişikliyinə məruz qalmalıdı ki, o təzədən öz yerini təsdiq edə bilsin. Kimyəvi duzsuzlaşdırma üsulu indi həmin vəziyyətdədir, o, mütləq, üstünlüyünü təsdiqləməlidir.

İndi suyu duzsuzlaşdırmaqdan ötrü əks-osmos texnologiyalarından daha çox istifadə edilir. Membranların daxilində daha yüksək molekullu üzvi birləşmənin çökməməsi üçün xam su natrium hipoxlorid, karbonat ərpinin çökməsinin qarşısını almaq şərti ilə saxlamaq üçün sulfat turşusu, xlorsuzlaşdırmağa görə tiosulfit natrium, membranlarin üzərində ərpin yaranmasının qarşısının almaq üçün antiərplə birlikdə emal edilir. Əks-osmos qurğularında emal edilən duzsuzlaşdırılmış suyun keyfiyyət göstəricisi IEM-lərdə yuxarı təzyiqli qazan qurğularının bəsləyicisinə qoyulan təlabatına cavab vermir. Bu səbədən əlavə olaraq H-OH və yaxud qarışıq təsirli süzgəclərdən keçirilir.Həmin bu süzgəcləri regenerasiya etmək məqsədi ilə turşuların və qələvilərin xüsusi sərfi 12-21 q-ekv/q-ekv təşkil edirdi. Baxmayaraq ki, əks-osmos qurğusundan daha əvvəl xam su emal edilir və təmizlənir, yenə də membranların çirklənməsi prosesi baş verir. Bunun üçün də bir qədər vaxtdan sonra membranları eyni çirklənmədən təmizlənməsinə ehtiyac duyulur. Xüsusən, kimyəvi təmizlənmə üsulundan istifadə edilir. Eyni zamanda membranları çirklənmədən təmizləmək məqsədi ilə limon turşusundan və reagentlərdən istifadə edilir. [Qromoqlasov A.A., Kopylov A.S. Pilşikov. A.P. Suyun təmizlənməsi: proseslər və qurğular.Energoatomizdat, 1990, s.56 ]

Qeyd edə bilərik ki, bütün tətbiq edilən texnologiyalarda kimyəvi duzsuzlaşdırma qurğularından buraxılan işlənilmiş məhlul kalsium, maqnezium və natrium duzlarından ibarətdir. Bunun üçün də bu işlənilmiş məhlulları buxarlandırmaq eləcə də utilizasiya etmək üçün qiymətli buxarlandırıcı qurğu və avadanlıqlar lazımdır.. [H.Q. Feyziyev, G.H. Hüseynova, 2012. s.56 ]

Termiki duzsuzlaşdırma qurğu və avadanlıqlarında axıntı sularının həcmi miqdarı 12-15%-dən artıq olmadığı halda, kimyəvi duzsuzlaşdırmada axıntı sularının həcmi miqdarı 25-35% və dahada artıq ola bilir. Eyni zamanda ilkin suyun duzluluğ dərəcəsi artdıqca kimyəvi duzsuzlaşmada axıntı sularının həcmidə daha sürətlə artmağa başlayır. Termiki duzsuzlaşdırmaya nəzər salsaq əgər, ilkin suyun duzluluğunun qalxması axıntı sularınında həcminin artmasına nisbətəndə olsa az təsir göstərir. Beləliklə bu fərq kimyəvi duzsuzlaşdırmanın termikiyə nəzərən tətbiqini aşağı salmaq fikrini ortaya çıxarır. Eyni zamanda qeyd etmək lazımdır ki, ancaq axıntı sularının tam həcmini deyil, həm də keyfiyyət tərkibinidə, bir sözlə axıntı sularında həm duzların,həm qələvilərin, həm turşuların və digər qatışıqların ayrı-ayrılıqda miqdarını nəzərdən keçirmək lazımdır.

## Nəticə

Belə nəticəyə gəlirik ki, içməli suyu duzsuzlaşdırmaq üçün ən effektli üsullardan kimyəvi, termiki və əks-osmos üsullarını nümunə göstərmək olar. Baxılan hallarda duzsuzlaşdırma üsullarının seçilməsinin vacib kriteriyaları həm iqtisadi həm də ekoloji effektivlikləri ilə seçilməlidir. Nəzəri formada baxış etsək kimyəvi duzsuzlaşdırma prosesində axıntı sularında duzların miqdarı əsas suda olan duzların miqdarı qüvvətli turşu anionlarına ekvivalent miqdarda artır ki, termiki duzsuzlaşdırma üsulunda isə ilkin suyun codluğuna ekvivalent miqdarda artımı baş verir.

## Ədəbiyyat

1. Feyziyev, H.Q.Hüseynova G.H. (2012) İstilik təchizatı sistemləri üçün su hazırlığı. Ali texniki sahəli universitet və məktəblər üçün üçün vəsait. Bakı
2. .Feyziyev, G.K.(2009) Suyun yumşaldılması, duzsuzlaşdırılması və duzsuzlaşdırılmasının yüksək effektiv üsulları. Ed. 2-ci, yenidən işlənmiş. Və əlavə Bakı.
3. .Kopylov, A.S., V.M.Lavıgin , V.M., V.F. (2016) Oçkov Energetikada su emalı Moskva.310 s.
4. http://eco.gov.az/az/nazirlik/tabeli-qurumlar/azerbaycan-yasillasdirma-ve-landsaft-qurulusu-aciq-sehmdar-cemiyyeti/xezer-deniz-suyunun-duzsuzlasdirilmasi-kompleksi
5. https://azkurs.org/suyun-kimyevi-duzsuzlasdrlmas-3-emal-merhelesine-esaslanr.html
6. Senyavin, M.M. R.N. Ruinstein, R.N. . Komarova L.V.(1975) İon mübadiləsi proseslərinin hesablanması və optimallaşdırılmasının əsasları M.: Nauka.
7. Qromoqlasov, A.A. Kopylov A. Pilşikov, A.P. (1990) Suyun təmizlənməsi: proseslər və qurğular.Energoatomizdat.
8. Rachinsky, V.V. (1964) Adsorbsiya və xromatoqrafiyanın ümumi dinamikasına giriş. Moskva, Nauka.

**Rəyçi: t.ü.f.d. Rəşad İsmayılov**

Göndərilib: 13.03.2022 Qəbul edilib: 19. 04.2022

ELMİ TƏDQİQAT Beynəlxalq online elmi jurnal. İmpakt Faktor: 0.543. 2022/ Cild: 2 Sayı: 4
SCIENTIFIC RESEARCH International online scientific journal. Impact Factor: 0.543. 2022 / Volume: 2 Issue: 4 e-ISSN: 2789-6919

DOI: https://www.doi.org/10.36719/2789-6919/08/207-210

**İmran İsmət oğlu Cəfərov**
Azərbaycan Memarlıq və İnşaat Universiteti
magistrant
imran99.99@bk.ru

# BİNALARIN İSİDİLMƏSİNDƏ ENERJİYƏ QƏNAƏT MƏSƏLƏLƏRİNİN HƏLLİ YOLLARI

**Xülasə**

Binaların isidilməsi zamanı enerji xərclərinin minimuma endirilməsi imkanlarının təhlili artıq şəhərsalma sənədlərinin, qəsəbələrin, ayrı-ayrı rayonların və müəssisələrin inkişafı və planlaşdırılması üzrə baş planların işlənib hazırlanması mərhələsində başlamalıdır. Layihələndirmə mövcud bina və tikililərin, eləcə də təbii obyektlərin təsirini nəzərə almaqla binaların yerə yerləşdirilməsi variantlarının qiymətləndirilməsi ilə aparılmalıdır.

***Açar sözlər:*** *enerjiyə qənaət, binaların isidilməsi, istilik enerjisi, günəş enerjisi, bərpa olunan enerji*

**Imran Ismat Jafarov**

## Solutions to energy saving problems in building heating

**Abstract**

The analysis of the possibilities of minimizing energy costs during the heating of buildings should begin at the stage of development of master plans for the development and planning of urban planning documents, settlements, individual districts and enterprises. The design should be based on an assessment of the location of the buildings, taking into account the impact of existing buildings and structures, as well as natural objects.

***Key words:*** *energy saving, heating of buildings, thermal energy, solar energy, renewable energy*

## Giriş

Qənaətin perspektivli istiqamətlərindən biri də binaların istismarında enerji və digər resursların maya dəyərinin azaldılmasıdır. Məlumdur ki, uzun müddət şəhərsalma siyasəti geniş xarakter daşıyırdı. Binaların tikintisi zamanı tikintinin maya dəyərini aşağı salan texniki həllərin tətbiqi həlledici idi. Bu yanaşma əksər hallarda tikilmiş binaların sonrakı istismarı zamanı istilik və elektrik enerjisi vahidi xərclərinin artmasına gətirib çıxardı.

Enerji resurslarının maya dəyərinin əhəmiyyətli dərəcədə artması enerjidən daha səmərəli istifadə, enerjiyə qənaət edən konstruksiya elementlərinin, materiallarının və mühəndis sistemlərinin geniş tətbiqi istiqamətində binaların layihələndirilməsi və tikintisinin köhnə prinsiplərinə yenidən baxılması zərurətinə səbəb olmuşdur.

Bu məqalənin məqsədi hazırda mövcud olan avadanlıqdan istifadə edərək binalarda enerji səmərəliliyinin artırılması yollarını təqdim etməkdir. Təqdim olunan məlumatlar müxtəlif məqsədlər üçün binaların tikintisi və yenidən qurulması ilə bağlı layihələrin qiymətləndirilməsində faydalı ola bilər. Bu məqsədə nail olmaq üçün binalarda enerji istehlakı vəziyyətinin yaxşılaşdırılması alqoritmi belədir:[Bekeşko, N.A. 1987 , s.56]

- Binalarda istilik ölçmə cihazlarını quraşdırmaq. Zamanla bina tərəfindən istilik istehlakı şəklinin ortaya çıxması mövcud vəziyyəti təhlil etməyə və istilik enerjisindən istifadənin ən səmərəli yolunu seçməyə imkan verəcəkdir;
- Balanslaşdırıcı klapanlar, daxili dövriyyə nasosları istifadə edərək daxili istilik sisteminin hidravlikasını tənzimləmək. Lazım gələrsə, istilik cihazının əlaqə sxeminə dəyişiklik etmək və daha qənaətcil radiatorlardan istifadə etmək;

- Binanın istilik yükünün hava şəraitinə uyğun tənzimlənməsi üçün avtomatik sistem qurmaq. "Hava" tənzimləməsinin istifadəsi binanın istilik istehlakını 30% -ə qədər azalda bilər, eyni zamanda onun binalarında rahatlığı artırır.
- Binanın istilik yükünü 20% -ə qədər azaltmağa imkan verən binalarda istilik cihazlarını radiator temperatur tənzimləyiciləri ilə təchiz etmək;
- Mövcud istixana qazanlarının yoxlanışını aparmaq və zəruri hallarda onları yüksək səmərəli plitə istilik dəyişdiriciləri ilə əvəz etmək;
- Bina daxilində isti su resirkulyasiyasının etibarlı işləməsini təmin etmək, hansi ki, bu da suyun istiləşməsinə sərf olunan istilik enerjisinə 25%-ə qədər qənaət etməyə imkan verəcək.
- İsti su qazanlarında temperatur tənzimləyicilərinin səmərəli işləməsini təmin etmək. Effektiv qazan temperaturu tənzimləyicisi isti su təchizatı üçün istifadə olunan istiliyin təxminən 15% -ni qənaət edir.
- İstilik məntəqələrini etibarlı və müasir bağlama və nəzarət klapanları ilə təchiz etmək;
- Zəruri hallarda binanın izolyasiyası üzrə bir sıra işlər həyata keçirmək.

Binaların tikilməsində enerjiyə qənaət tədbirləri yeni tikinti layihələrinin elə yerləşdirilməsini nəzərdə tutur ki, bu, mövcud kommunikasiyaların əhəmiyyətli dərəcədə uzanmasına səbəb olmasın, bu da istər-istəməz binaların elektrik və istilik enerjisi ilə təchizatı zamanı itkilərin artmasına, habelə su təchizatı sistemlərinin sonrakı istismarı və binaların suyun utilizasiyası zamanı xərclərin artmasına səbəb olur.

Binanın istiqaməti və yerləşdirilməsi elə seçilməlidir ki, bina üstünlük təşkil edən küləklərin istiqamətlərindən kənarda yerləşsin və nəticədə artıq tikilmiş bina və tikililərin yaratdığı "külək tunelləri"nə daxil olmasın. Layihələndirilən binalara külək yükünü azaltmaq üçün ağac plantasiyalarının potensialından da istifadə edilməlidir.

Binaların istiqaməti cənuba mümkün qədər açıq olmalıdır ki, bu da günəş radiasiyasının yay zirvələri zamanı binanın həddindən artıq istiləşməsini və qış aylarında istifadəsini azaltmağa kömək edəcəkdir.

Eyni zamanda, qışda effektiv günəş izolyasiyası ilə bitişik evlər arasındakı məsafələr nəzərə alınmalıdır, yəni binaların yerləşdirilməsi günəş işığının digər binaların fasadlarına axınına mane olmamalıdır. Binada günəş enerjisindən passiv istifadə asan idarə olunan istilik sistemi ilə birləşdirilməlidir.

Optimal yerləşdirmə ilə binanın enerji sərfiyyatını 100% qəbul etsək, onda başqa cür eyni şəraitdə oriyentasiyanın dəyişməsi binanın istismarı zamanı enerji sərfiyyatını 5-7%-ə qədər artırır. Günəş enerjisindən passiv istifadə ilə bağlı başqa bir cəhət binada otaqların rasional təşkilidir. [İvanov, G.S.,. 2001, 56]

Belə ki, işığa, istilik və günəş radiasiyasına yüksək tələbat olan otaqlar, məsələn, sinif otaqları və auditoriyalar, mənzillərdə yaşayış otaqları, inzibati binalarda insanların daimi olduğu yerlər binanın günəşli tərəfində yerləşdirilməlidir. Laboratoriya otaqları, kilerlər, pilləkən qəfəsləri kimi işıq və istiliyə daha az ehtiyacı olan otaqlar şimal tərəfdə yerləşə bilər.

Binanın istiqamətləndirilməsi zamanı enerji istehlakının səviyyəsi binanın struktur formasından və pəncərələrin sahəsindən asılıdır. Buna əsasən, pəncərə parametrləri müəyyən edilə bilər - pəncərə açılışlarının istiqaməti, onların sahəsi və şüşə xüsusiyyətləri seçilə bilər, məsələn, işığın ötürülməsini idarə etmək üçün xüsusi şüşə rəngləmə istifadə edilə bilər[ Danilov, N.İ., Şçelokov, Y.M. 2003, s.67.]

Günəş enerjisindən səmərəli istifadə edilən ev dizaynlarında cənub fasadında yüksək insolyasiyaya malik, şərq və qərb tərəflərində orta ölçülü, şimal tərəfdə isə yalnız çox kiçik və ya heç bir pəncərə olmayan böyük pəncərələr quraşdırılır. Pəncərə sahəsi nə qədər böyükdürsə, xüsusilə binanın yaxşı istilik izolyasiyası ilə izolyasiyadan istifadə etmək imkanı bir o qədər yüksəkdir.

Digər tərəfdən, pəncərələrin sahəsinin artması ilə, xarici divarlarla müqayisədə pəncərələrin istilik müqavimətinin aşağı əmsalı səbəbindən istilik itkiləri artır. Buna görə də, tələb olunan pəncərə sahəsi işıq izolyasiyasına ehtiyac əsasında məhdudlaşdırılır. Binalarda günəş enerjisindən istifadənin digər tərəfi yayda insolyasiya intensivliyinin azalmasıdır.

Yayda günəş radiasiyası səbəbindən istilik həddindən artıq ola bilər və kondisionerlər tərəfindən istehlak edilən elektrik enerjisinin əhəmiyyətli xərclərinə səbəb olur. Bu problemi həll etmək üçün hər iki yüksək texnologiyalı həllərdən istifadə olunur, məsələn, istilik radiasiyasının çox hissəsini əks etdirən xüsusi pəncərə şüşələrinin istifadəsi, eləcə də nisbətən sadə qurğular, məsələn, daşınan

deflektorlar - pəncərələrin üstündəki xüsusi əyri visorlar istifadə olunur.[Senova, O.N. 2008, s.44.] Pəncərədə deflektorun tənzimlənməsi günəş şüalarının əhəmiyyətli bir hissəsinin əks olunmasına və ya zərurət yarandıqda, zəif işıqlandırılan qapalı məkanlara birbaşa günəş işığının düşməsinə nail olmağa imkan verir.

Fərdi binaların enerji istehlakının azaldılmasını təmin etmək üçün planlaşdırma üçün aşağıdakı tələblər irəli sürülür:[Matrosov, Y. M., 2003 s.45 ]

- kompakt bina,
- tikinti formalarının yığcamlığı və rasionallığı;
- günəş enerjisindən maksimum passiv və aktiv istifadənin təmin edilməsi,
- torpaqdan səmərəli istifadə;
- səmərəli enerji təchizatı, bərpa olunan enerji mənbələrindən istifadə;
- yerüstü çirkab sularının və tullantıların utilizasiyasının səmərəli idarə edilməsi;
- İctimai nəqliyyatın mövcudluğunun təmin edilməsi.

Qeyd edək ki, bu tələblərin bir sırası artıq respublikada qüvvədə olan planlaşdırma və inkişaf standartlarında öz əksini tapıb, digər müddəalar hələ də işlənib hazırlanmasını və həyata keçirilməsini tələb edir.

Müasir binalar üçün tələblərdən biri tikinti formalarının yüksək kompaktlığıdır. Bu tələbi qiymətləndirmək üçün A/V parametrindən istifadə olunur, bu parametr binanın ümumi səthinin (A) binanın qızdırılan həcminə (V) nisbəti kimi ifadə olunur. Bu nisbət əsasən binanın istiləşməsi üçün enerji ehtiyacını müəyyən edir. Bina formalarının yığcamlığı aşağı A/V dəyərləri və daha az enerji tələbləri deməkdir. Effektiv binalarda bu nisbət təxminən 0,5-dir. Bu baxımdan, kuba yaxın binaların düzgün formalarından istifadə etmək üstünlük təşkil edir. [Sokolov, E. Y. 2001, s. 290–292]

Daha aşağı istilik ötürmə əmsalı olan ikiqat şüşəli pəncərələrin istifadəsi enerji resurslarına qənaət etməyə imkan verir. Məsələn, əvvəlki 2,3 və ya 2,6 Vt / ($m^2$-K) əvəzinə 1,6 W / ($m^2$-K) tətbiq etmək olar. [7.Eremkin, A.İ. Binaların istilik rejimi, Rostov n/a: Feniks, 2008.]

Müasir bazar, hətta Kt = 1.3-1.1 W / ($m^2$-K) ilə ikiqat şüşəli pəncərələr təklif edir. İkiqat şüşəli pəncərələr və lüks sinif (0,9-0,8 W / ($m^2$-K)) var, lakin onlar daha bahalıdır. İkiqat şüşəli pəncərələr enerjiyə qənaət etməklə yanaşı, otaqda rahatlıq yaradır. Pəncərənin dəyəri ilk növbədə çərçivənin materialından və yalnız bundan sonra şüşədən təsirlənir. [Stroi, A. F. və Skalski, V. L., 2005, 77–82]

Enerjiyə qənaət tədbirlərinə binanın yükdaşıyan konstruksiyalarının izolyasiyası, effektic izolyasiya edilmiş pəncərələrin quraşdırılması, binaların daha təkmil istilik və havalandırma sistemləri ilə təchiz edilməsi, binalarda tezlik tənzimlənməsindən istifadə və avtomatlaşdırılmış idarəetmə sistemlərinin quraşdırılması tədbirləri daxil ola bilər.

Texniki həllərin müxtəlif variantlarının və istifadə olunan avadanlıqların müqayisəsi ilə texniki və iqtisadi hesablamaların aparılması, enerji nəzarəti məlumatları da daxil olmaqla, binaların sorğusunun nəticələrinə əsasən məcburi olmalıdır. Termal görüntü cihazından istifadə edərək problemlər aşkarlanmalı və daha effektiv istilik izolyasiyası təmin etmək lazımdır. Daxili divarlara izolyasiyasına xüsusi diqqət yetirilməlidir. Əvvəllər 10 sm qalınlığında izolyasiyanın dam izolyasiyası üçün kifayət etdiyinə inanılırdısa, indi dam izolyasiyasına daha sərt standartlar tətbiq olunur.

1. Enerji səmərəli evlərin damları üçün istilik ötürülməsinə qarşı müqavimət ən azı 6$m^2$ ºC / W olmalıdır, yəni 0,04 W/$m^2$ K istilik keçiriciliyi əmsalı (tarazlıq rütubətində) olan bir materialdan hazırlanmış istilik izolyasiyasının qalınlığı ən azı 24 sm olmalıdır.[ Stroi, A. F., Skalski, V. L., 2005, 77–82.]

## Nəticə

Qənaət tədbirləri həyata keçirilərkən, binanın mövcud istismar və idarəetmə vəziyyətindən asılı olaraq, bir qayda olaraq, enerji istehlakının 5% -dən 50% -ə qədər azaldılmasına nail olunur.

Görüləcək tədbirlər arasında minimum maliyyə xərcləri ilə enerji istehlakının azaldılmasında nəzərəçarpacaq nəticələr əldə etməyə imkan verən bir sıra texniki üsulları həyata keçirmək də vardır. Buna misal olaraq ölçmə cihazlarının quraşdırılması, şüşə elementlərin izolyasiyası, istilik sistemlərinin təbii dövriyyədən məcburi dövriyyəli sistemlərə çevrilməsi, əks etdirici deflektorların quraşdırılması, közərmə lampalarının flüoresan lampalarla əvəz edilməsi, aeratorların quraşdırılmasını göstərmək olar.

Enerjiyə qənaət məsələlərinin həlli üçün avtonom sistemlərlə təchiz edilmiş, o cümlədən bərpa olunan enerji mənbələrindən istifadə edən binaların, yüksək texnologiyalı inteqrasiya edilmiş idarəetmə sistemləri olan binaların və s. geniş tətbiqi nəzərdə tutulmalıdır.

Bu texnologiyalar binalarda enerjiyə qənaət üsullarının tam siyahısı deyil, çünki bu mövzu çox geniş, çoxşaxəli və intensiv şəkildə inkişaf etdirilir. Elm və texnologiya inkişaf etdikcə bu problemlərin həllini daha da səmərəli şəkildə təmin edə biləcək yeni üsul və avadanlıqlar istər-istəməz yaranacaqdır.

## Ədəbiyyat

1. Bekeşko, N.A. (1987) Tikinti materiallarının aktiv istilik nəzarəti, Defektoskopiya. № 2.
2. İvanov, G.S. (2001) Binalarda enerjiyə qənaət , İstilik təchizatı xəbərləri. № 7.
3. Danilov, N.İ., (2003) Şçelokov, Y.M. Enerjiyə qənaət ensiklopediyası. Yekaterinburq: Energo-Press,
4. Senova, O.N. (2008) Evdə enerjiyə qənaət addım-addım, Sankt-Peterburq, 44 s.
5. Matrosov, Y. (2003) Mülki binalarda enerjiyə qənaət strategiyası: yeni yanaşmalar, Moskva:
6. Sokolov, E. Y. (2001) İstilik sistemlərinin və istilik şəbəkələrinin tətbiqi, Moskva: MEI.
7. Eremkin, A.İ. (2008) Binaların istilik rejimi, Rostov n/a: Feniks.
8. Stroi, A. F. və Skalski, V. L. (2005) İstilik şəbəkələrinin hesablanması və layihələndirilməsi, Kiyev, p. 77–82.

**Rəyçi: t.ü.f.d. Gülnar Feyziyeva**

Göndərilib: 11.03.2022 Qəbul edilib: 18. 04.2022

ELMİ TƏDQİQAT Beynəlxalq online elmi jurnal. İmpakt Faktor: 0.543. 2022/ Cild: 2 Sayı: 4
SCIENTIFIC RESEARCH International online scientific journal. Impact Factor: 0.543. 2022 / Volume: 2 Issue: 4 e-ISSN: 2789-6919

DOI: https://www.doi.org/10.36719/2789-6919/08/211-215

**İlham Şükür oğlu Əhmədov**
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
magistrant
xahmedov1@gmail.com

# ƏŞYALARIN İNTERNETİ TEXNOLOGİYASI ƏSASLI AĞILLI EVLƏR: TƏHLÜKƏSİZLİK RİSKLƏRİNİN TƏSNİFATI

**Xülasə**

Əşyaların İnterneti (IoT) insan fəaliyyətinin bütün sahələrinə tətbiq edilə bilən texnoloji yenilikdir. İnternet artıq təhsil, kommunikasiya, biznes, elm, hökumət və bəşəriyyətə böyük təsiri olan bütün bəşər tarixinin ən mühüm və güclü yaradılışlardan biridir. IoT İnternetin növbəti təkamülünü təmsil etməklə, məlumata, biliyə və nəticədə müdrikliyə çevrilə biləcəyimiz üçün məlumatları toplamaq, təhlil etmək və yaymaq qabiliyyətinə malik böyük bir sıçrayışdır. Bu kontekstdə IoT-un öyrənilməsi olduqca əhəmiyyətlidir.

Məqalədə Əşyaların İnterneti (IoT) anlayışı, ağıllı ev, ağıllı evlərdə təhlükəsizlik risklərinin təsnifatı məsələləri araşdırılmışdır.

***Açar sözlər**: İnternet, Əşyaların İnterneti (IoT), ağıllı ev, təhlükəsizlik tədbirləri, proqram təminatı*

**Ilham Shukur Ahmedov**

## Smart homes based on internet of things technology: classification of security risks

**Abstract**

The Internet of Things (IoT) is a technological innovation that can be applied to all areas of human activity. The Internet is already one of the most important and powerful creations in human history, with a profound impact on education, communication, business, science, government and humanity. Representing the next evolution of the Internet, IoT is a great leap forward in our ability to collect, analyze, and disseminate information so that we can turn it into information, knowledge, and eventually wisdom. In this context, the study of IoT is very important.

This article examines the concept of Internet of Things (IoT), smart home, classification of security risks in smart homes.

***Key words:** Internet, Internet of Things (IoT), smart home, security measures, software*

## Giriş

Hər birimizin yaşam tərzinə təsir edən İnternet günü-gündən öz əhatə dairəsini böyüdərək inkişaf edir. İlk yarandığı dövrdə İnternetin inkişafı yavaş idi. İnternet inkişaf etdikcə mövcud texnologiyalar ilə qarşılıqlı əlaqələrin yeni formaları meydana gəlməyə başlayır və insanların informasiya əlaqələrini sürətləndirir. Bu gün şəbəkələr şəbəkəsi adlandırılan internetin rabitə gücü və sürəti ilk dövrlərinə nisbətən fövqəladə səviyyələrə çatmışdır. 1969-cu ildə meydana çıxan ARPANET (Advanced Research Projects Agency Network) çox az cihaz ilə rabitə təmin edən şəbəkənin təməlini təşkil edirdi. Bu gün isə nəhəng şəbəkə sistemi olan internetə təxminən 50 milyard obyektin bağlandığı proqnozlaşdırılır. İnkişaf edən İnternet texnologiyaları ilə istənilən cihaz (obyekt) əlaqə yarada bilir. Əşyaların İnterneti (IoT) konsepsiyası, müasir simsiz rabitə texnologiyalarının inkişafı sayəsində populyarlığını artıran yeni bir konsepsiyadır. Bu konsepsiyanın əsas məqsədi dünyadakı obyektlərin bir-biri ilə ünsiyyət qurmasına imkan verərək insan həyatını asanlaşdıran tətbiqlərin inkişafıdır. İoT standart rabitə protokollarına əsaslanan və müraciət edə bilən obyektlərin internet vasitəsilə əlaqə qurma bacarığıdır [Hüseynova A. və başqaları 2001, s.37].

## Əşyaların interneti (IoT)

İngilis dilində Internet of Things (IoT) olan, Əşyaların İnterneti ilk dəfə Kevin Aşton tərəfindən 1991-ci ildə hazırlanan bir təqdimatda istifadə olunmuş bir anlayışdır. Aşağıdakı təriflərə nəzər yetirək:

- Əşyaların İnterneti (IoT) - qol saatından tutmuş, bir çox elektrik cihazlarının bir-biri ilə əlaqə saxlaması deməkdir.
- Əşyaların interneti (IoT) - fiziki cihazların, maşınların, məişət cizahlarının və başqa digər əşyaların üzərinə quraşdırılmış elektronikalar, proqram təminatları, sensorlar və qəbul edicilərlə bu əşyaların biri - birinə bağlanması və məlumat mübadiləsi etməsidir. Əşyaların birbaşa kompüter sistemlərinə çıxışı effektivliyin artmasına, yeni iqtisadi üstünlüklərin yaranmasına və insan əməyinə qənaətə gətirib çıxarmaqdadır.
- Əşyaların İnterneti (IoT) - kompüter, internet və mobil telefon rabitəsindən sonra informasiya texnologiyaları sənayesinin növbəti inqilabi inkişaf mərhələsi kimi xarakterizə olunur [Əliquluyev R. və Mahmudov R. 2011, s.29].

Başqa bir tərifə görə, Əşyaların İnterneti anlayışı yəni IoT (internet of things) texnologiyası ağıllı cihazların bir-biriləri ilə əlaqədə olmasıdır. Əşyaların İnterneti kiçik ev əşyalarından böyük şəhərlərə qədər tətbiq edilməkdədir. Burada yaranan məlumatlar big data olaraq qarşımıza çıxır. Zaman keçdikcə öz əhatə dairəsini genişləndirən IoT texnologiyasından müəssisələr daha səmərəli işləmək, müştərilərə daha yaxşı xidmət təqdim etmək, qərar verməni inkişaf etdirmək və işin keyfiyyətini artırmaq, müştəriləri daha yaxşı başa düşmək üçün istifadə edirlər [3].

Əşyaların İnterneti standart internetə çıxışı olan cihazlardan, belə ki, kompüter, noutbuk, smart telefonlar və tabletlərdən əlavə digər ənənəvi "ağıllı olmayan" əşyaların və ya gündəlik əşyaların internetə çıxışını əhatə edir. Bu əşyaların içərisinə yerləşdirilmiş yeni texnologiyalar nəticəsində artıq onlar da internet üzərindən bir-birinə qarşılıqlı təsir edə bilər, o cümlədən bu əşyalar məsafədən idarə edilə və ya monitorinqləri həyata keçirə bilərlər [4].

İnternetə bağlı olan ənənəvi cihazlardan fərqlənən cihazların internet mühitindən idarəsinin təmin edilməsi və təhlil etmək xüsusiyyəti ilə İoT mərhələsi başlamışdır. Əşyaların İnterneti cihazların məlumat mübadiləsi etdiyi, məlumat topladığı, toplanan məlumatlarla insan müdaxiləsinə və hər hansı bir məlumatın əl ilə daxil edilməsinə ehtiyac olmadan qərar qəbul etdiyi bir şəbəkə strukturu olaraq təyin edilir [Hüseynova A. 2001, s.38].

Əşyaların İnterneti texnoloji mahiyyətinə görə məişət cihazları tipli obyektlər arasında simsiz özükonfiqurasiya edən şəbəkədir. Bu konsepsiyanın meydana gəlməsi əvvəllər radiotezlik identifikasiyası (RFID) problemi ilə məşğul olan Auto-ID Center laboratoriyasının xidmətidir. Faktiki olaraq bu laboratoriya EPCglobal şirkəti ilə birlikdə RFID texnologiyalarının banisi sayılır. Həmin laboratoriya 1999-cu ildə yaradılıb, sonradan Auto-ID Labs tədqiqat qrupuna çevrilib. Hazırda Massaçusets Texnologiya İnstitutunda (ABŞ) yerləşir. Əşyaların İnterneti ideyası çox sadədir. Lakin bu ideyanın həyata keçirilməsi prosesi çox mürəkkəbdir. Yəni bütün faydalı əşyaların - kitabların, qulaqcıqların, ayaqqabıların, ev avadanlıqlarının, avtomobil hissələrinin və s. identifikasiya qurğuları ilə təchiz edildiyi bir sistemin yaradılması olduqca mürəkkəb prosesdir [Əliquluyev R. və Mahmudov R. 2011, s.32]. IoT potensialının inkişafı və geniş istifadəsi onun digər texnologiyalar ilə qarşılıqlı əlaqəsində mümkün olacaqdır. Burada ilk növbədə bulud texnologiyaları, Big Data alətləri və texnikası, süni intellekt texnologiyaları qeyd edilməlidir [Məmmədova M. və Cəbrayılova Z. 2018, s.13].

## Ağıllı evlər

Əşyaların İnterneti (IoT) - ağıllı ev proqramları işıq, istilik, ventilyasiya, əyləncə və təhlükəsizlik kimi mövzularda evlər tərəfindən göstərilən xidmətlərin vəziyyətini məsafədən idarə etmək və izləmək üçün hazırlanmışdır [6].

Son illərdə simsiz əlaqə ilə uzaqdan idarə oluna bilən portativ noutbuklar, ağıllı telefonlar və simsiz əlaqəyə malik olan tabletlər, "SmartTv"-lər və digər bu kimi cihazların sayı artdıqca İKT əsaslı məişət sənayesi qurğularına tələbat artmaqdadır. Belə ki, XXI əsrdə simsiz texnologiyalar və internetin inkişafı ilə əlaqədar olaraq evlərdə olan məişət və elektronika cihazlarını məsafədən idarə etmək mümkün oldu. Hal-hazırda lazımi proqram və aparat təminatı infrastrukturunun dəstəyi ilə smart məişət sənayesi

cihazlarından asanlıqla istifadə etmək mümkündür. Bu proses "Ağıllı ev" konsepsiyası və adi hallarda həyata keçirilə bilər. "Ağıllı ev" texnologiyaları dedikdə məişət texnikalarından, istilik və havalandırma sistemlərindən ibarət sistemlərin kommunikasiya qurğuları ilə məsafədən idarə olunması və monitorinqi üçün bir-biri ilə əlaqəli internetə qoşulmuş cihazların (IoT) istifadə edilməsi nəzərdə tutulur (Şəkil 1) [Kərimli O. 2019, s.41-42].




**Şəkil 1.** "Ağıllı ev" sistemlərinin mobil tətbiq vasitəsi ilə idarəsi və monitorinqi

### Ağıllı evlər: təhlükəsizlik risklərinin təsnifatı

İnsanlar üçün ev onların ən rahat olduğu və özlərini təhlükəsiz hiss etdikləri yerdir. Ağıllı ev texnologiyası bu fikri bir daha təsdiqləyir. Ancaq ağıllı ev texnologiyasının tez-tez gözdən qaçan bir mənfi tərəfi var - təhlükəsizlik pozuntusu. Ağıllı ev texnologiyası ev sahiblərini qabaqcıl təhlükəsizlik xüsusiyyətləri ilə təhlükəsizliyini təmin etsə də, onları kiber əlaqəli hücumlara da məruz qoyur. Bir tərəfdən ağıllı evinizin təhlükəsizliyindən zövq alırsınız, digər tərəfdən isə icazəsiz girişə görə özünüzü etibarsız hiss edirsiniz.

Ağıllı ev texnologiyası Əşyaların İnternetində (IoT) inkişaf edir. Ağıllı evdəki cihazlar protokol vasitəsilə internetə qoşulur. Bu cihazlar tərəfindən toplanan məlumat buludda saxlanılır və davranış nümunələrini anlamaq üçün təşkil edilir. Cihazlarınızda saxlanılan bütün məlumatlar səhv əllərə keçərsə siz təhlükə ilə üzləşirsiniz. Hacking sahəsində artan təcrübə ilə bu narahatlıq üçün əsaslı bir səbəbdir. Ağıllı ev texnologiyasında təhlükəsizlik pozuntusu müxtəlif yollarla baş verir və zərərin dərəcəsi təhlükə altında olana görə dəyişir. Aşağıda ağıllı ev texnologiyası riskləri açıqlanıb.

#### 1. Şəxsiyyət Oğurluğu

Hakerlər gün keçdikcə öz üsulları ilə daha yaradıcı olurlar. Ağıllı ev təhlükəsizlik cihazlarınıza icazəsiz giriş əldə etmək əvəzinə, xidmət təminatçılarınızın məlumat bazasını hədəf alırlar. Əgər sizin xidmət təminatçınızın məlumat bazası hakerlərin əlinə keçərsə sizə aid olan bank kart məlumatları, sosial müdafiə kartı nömrəniz, bank hesab nömrəniz və s. oğurlanmış sayılır. Hakerlər lazım olan məlumatları əldə edərək, sizin adınıza icazəsiz əməliyyatlar və alış-verişlər etməyə davam edirlər. Haqqında heç bir şey bilmədiyiniz bir şeyə görə böyük bir problemlə üzləşə bilərsiniz.

Ağıllı ev cihazlarının əksəriyyəti mobil telefonlarda idarə olunur. İcazəsiz girişin qarşısını almaq üçün mobil telefonunuzda təhlükəsizlik funksiyalarını aktivləşdirin. Əgər ictimai Wi-Fi şəbəkəsinə qoşulmusunuzsa, Virtual Şəxsi Şəbəkədən (VPN) istifadə edin və kompüterinizdə virus aşkarlayan proqram və təhlükəsizlik divarları quraşdırın.

#### 2. Casusluq və Monitorinq

Video və səs yazısı bəzi ağıllı ev cihazlarının funksiyasıdır. Təhlükəsizlik kameraları görüntülər çəkməklə binanızı izləməyə kömək edir - hətta sizin yoxluğunuzda da nə baş verdiyini sizə xəbər verir.

Hakerlər ağıllı ev kameralarınıza və audio cihazlarınıza icazəsiz giriş əldə edə və əmrlərini vermək üçün sistemi manipulyasiya edə bilərlər. Bunu etməklə, onlar etdiyiniz və ya dediyiniz hər şeyi izləyirlər və bundan sizə qarşı istifadə edə bilərlər.

Evdə olmadığınız zaman və ya tam məxfiliyə ehtiyac duyduğunuz zaman Wi-Fi-ı söndürməyi düşünün ki, sistem heç nə yazmasın. Təhlükəsiz Wi-Fi routerdən istifadə edərək internet bağlantınızı qoruyun.

**3. Olduğun məkanın izlənməsi**

Evinizin yeri yalnız etibarlı insanlara verdiyiniz şəxsi məlumatdır. Ağıllı ev cihazları evinizin yerini avtomatik aşkarlayan Qlobal Mövqe Təyinetmə Sisteminə (GPS) qoşulur. GPS tərəfindən toplanan yer siqnalları şəxsi xarakter daşıyır, lakin onlar buludda saxlandıqları üçün hakerlərə məruz qalırlar.

Hakerlər GPS-ə icazəsiz giriş əldə etdikdə yerinizi izləyə bilərlər. Beləliklə, hər kəsin yerinizə daxil olmasının qarşısını almağın ən yaxşı yolu GPS-i söndürməkdir. Ağıllı ev cihazlarınız üçün xüsusi şəbəkədən istifadə edin - hakerlər sizinlə eyni şəbəkəni paylaşdıqda asanlıqla təhlükəsizlik pozuntusu edə bilərlər.

**4. Məlumatların Manipulyasiyası**

Evdə bir müşahidə kamerası quraşdırmaq, sizin yoxluğunuzda belə, binalarınızı diqqətlə izləyir. Lakin bu cür məlumatların həqiqiliyi, xüsusən də peşəkar hakerlər tərəfindən dəyişdirilə bildikdə şübhə doğurur.

Ağıllı ev cihazları vasitəsilə ötürülən məlumatlar şifrələnmir. Diqqətli bir təcavüzkar evinizə girə və kameranızda heç bir sübut olmadan qaça bilər. Sadəcə olaraq, orijinal məlumatları dəyişdirilmiş versiya ilə əvəz edərək məlumatları manipulyasiya edə bilər.

Məlumatların manipulyasiyasının qarşısını almağın yaxşı yolu Fayl Bütövlüyünün Monitorinqi (FIM) ilə inkişaf etmiş təhlükəsizlik sistemindən istifadə etməkdir. Sistem kadrlar üçün avtomatik olaraq ehtiyat nüsxəsini yaradır və məlumatların manipulyasiyası aşkar edildikdə ani xəbərdarlıqlar verir. Siz sisteminizdəki kadrların tamlığını ehtiyat nüsxə ilə müqayisə edərək yoxlaya bilərsiniz.

**5. Üçüncü Tərəf Proqramlarının Zəiflikləri**

Ağıllı evə sahib olmağın üstünlüklərindən biri məsafədən girişdir. Əksər hallarda bu, üçüncü tərəfin mobil proqramlarının inteqrasiyası sayəsində mümkün olur. Hakerlərin cinayət və ya fırıldaq fəaliyyətləri üçün cihazlarınıza nüfuz etməsi tətbiqlərin qorunmadığı zamanda baş verir. Kənardan birinin sizin evdəki cihazlarınızı məsafədən idarə etdiyini biləndə şoka düşə bilərsiniz.

Üçüncü tərəf proqramlarının zəifliklərinin qarşısını necə almaq üçün quraşdırma zamanı üçüncü tərəf proqramlarına verdiyiniz icazələrə diqqət yetirin. Hesabınıza girişi daha da gücləndirmək üçün iki addımlı autentifikasiyanı aktivləşdirin. Açılan bütün bağlantıları iki dəfə yoxlayın. Əgər bağlantının etibarlılığına əmin deyilsəniz onu açmayınız [8].

IoT qurğuları və şəbəkələri təbii resurs baxımından məhdud sayılır. Şərti təhlükəsizlik həllərinin IoT əsaslı sistemlərə tətbiq edilə bilməməsi üçün əsas məhdudiyyətlər aşağıdakılardır:

- IoT qurğularında adətən aşağı sürətli Mərkəzi Prosessor (CPU, ing, Central Processing Unit) dan istifadə edildiyindən, bu qurğular daha çox batareya ilə idarə olunurlar. Müasir kriptoqrafik alqoritmlər isə sürətli hesablama tələb etdiyinə görə həmin qurğulara birbaşa ötürülə bilmir.
- Telefon və noutbuklarla müqayisədə, IoT qurğularında yaddaş məhdud həcmdədir. Şərti təhlükəsizlik arxitekturaları isə məhdud yaddaşa malik qurğular üçün nəzərdə tutulmamışdır.
- IoT qurğuları adətən rabitə qurmaq üçün aşağı səviyyəli rabitə interfeyslərindən istifadə edirlər. Aşağı sürətli kommunikasiya mühiti səbəbindən ənənəvi təhlükəsizlik sxemləri IoT əsaslı sistemlərə tətbiq edilə bilmirlər.
- Mobil IoT qurğuları əvvəlcədən konfiqurasiya edilmədən şəbəkəyə qoşula və ya qəflətən şəbəkəni tərk edə bilər. Şəbəkə topologiyalarında bu tip ani dəyişiklik mövcud təhlükəsizlik sxemlərinin fəaliyyətinə təsir edir. Nəticədə, bu sxemlər IoT mühitinə tətbiq edilə bilməz.
- IoT mühitində qurğular müxtəlif növ simsiz protokollardan (RFID, WiFi, Zigbee, Z-Wave, Bluetooth və s.) ibarətdir. Mövcud təhlükəsizlik həlləri arasında, müxtəlif qurğulara kompleks həll tapmaq çətindir [Kərimli O. 2019, s.41-42].

## Nəticə

Ağıllı ev tətbiqlərində şəxsi məlumatların sui-istifadəsi ilə bağlı təhlükəsizlik qayğıları mövcuddur. Ağıllı ev istifadəçiləri bu texnologiyanın geniş şəkildə tətbiqinin üstünlüklərini hələki aydın şəkildə görəbilmirlər. İctimaiyyətdə ağıllı ev tətbiqinin istifadə sahələri və faydaları haqqında geniş şəkildə maarifləndirmə işləri aparılmalıdır. Bununla yanaşı, ağıllı ev tətbiqində təhlükəsizlik mühitini də gücləndirmək başlıca vəzifələrdən biri olmalıdır.

## Ədəbiyyat

1. Hüseynova A. E.İslamov, R.Əhmədova, N.Tağıyeva, Əşyaların interneti: İnkişafı, komponentləri və tətbiq sahələri, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş tələbə və gənc tədqiqatçıların "Gənclər və elmi innovasiyalar" mövzusunda Respublika elmi-texniki konfransının materialları, 06-07 may, 2001, Bakı;
2. Əliquluyev R., R.Mahmudov, Əşyaların interneti: mahiyyəti, imkanları və problemləri, İnformasiya cəmiyyəti problemləri, № 2 (4), 2011, 29-40;
3. https://www.digital.gov.az/digitalazerbaijan/az/blog/38/esyalarin-internetinin-iot-internet-of-things-faydalari-nelerdir
4. https://az.wikipedia.org/wiki/%C6%8F%C5%9Fyalar%C4%B1n_interneti
5. Məmmədova M.H., Cəbrayılova Z.Q., (2018) Dəniz neft platformasında personalın fizioloji vəziyyətinin və coğrafi mövqeyinin monitorinqində əşyaların internetinin imkanları, AMEA İnformasiya Texnologiyaları İnstitutu, İnformasiya texnologiyaları problemləri jurnalı, 2018, №2, 3-17, Bakı;
6. https://tr.wikipedia.org/wiki/Nesnelerin_interneti
7. Kərimli O, (2019) "Sənaye müəssisələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi və inkişaf perspektivlər", magistr dissertasiyası, Bakı.
8. https://www.makeuseof.com/the-biggest-smart-home-security-risks-and-how-to-prevent-them/
9. Həşimov H., (2018)Əşyaların İnterneti texnologiyaları əsasında yaradılan şəbəkə mühitində hücumların təhlili, "İnformasiya təhlükəsizliyinin aktual multidissiplinar elmi-praktiki problemləri" IV respublika konfransı, 14 dekabr, Bakı.

**Rəyçi : t.ü.f.d. Vüqar Abdullayev**

Göndərilib: 13.03.2022 Qəbul edilib: 19. 04.2022

DOI: https://www.doi.org/10.36719/2789-6919/08/216-222

**Babək Yasin oğlu Əhmədli**
Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci
magistrant
axmedlibabek@gmail.com

# TAKSİMOTOR DAŞIMALARINA TƏLƏBATIN ÖYRƏNİLMƏSİ VƏ KEYFİYYƏTİN İDARƏ OLUNMASI

**Xülasə**

Əhalinin taksi daşınmalara olan tələbatının tam və vaxtı- vaxtında təmin edilməsi, günün aktual məsələlərindən biri kimi nəqliyyat işinin effektivliyinin və keyfiyyətinin artırılması kafi dərəcədə qeyd edilmişdir. Məqalədə əsas məqsədi olan daşıma prosesinin texniki səviyyəsinin yüksəldilməsinin təmin edilməsi ilə yanaşı daşınmaların planlaşdırılmasının və təşkilinin təkmilləşdirilməsi və yekunda əhalinin taksi daşımalarına olan tələbatın öyrənilməsi məqsədəuyğun dərəcədə verinə yetirilmişdir. Avtonəqliyyat müəssisələri maddi, əmək və maliyyə resurslarının istifadə üsullarının böyük və mürəkkəb müxtəlifliyi, fəaliyyət və funksiyaların növlərinin uyğunlaşması ilə səciyyələnir. Buna görə də kompleks sistemlərin işlənib hazırlanması ilk növbədə, nail olunması müəssisə tərəfindən təmin edilməli olan məqsədlər sisteminin formalaşmasını, yalnız bundan sonra effektiv metodların işlənib hazırlanmasını nəzərdə tutan sistemli yanaşma metodologiyasına əsaslanmalıdır. Taksimotor nəqliyyatının nəzəri, metodiki və praktiki məsələlərinin elmi cəhətdən işlənib hazırlanması avtonəqliyyat müəssisələrinin ixtisaslaşması və onlarda hərəkətli heyətin toplanması ilə əlaqədar olaraq xüsusi aktuallıq qazanır.

***Açar sözlər:*** *taksimotor, daşınma, nəqliyyat, sərnişin, taksi*

**Babek Yasin Ahmedli**

## Study of demond for taxi transportation and quality managamnet

**Abstract**

Sufficently was noted that the full and timely provision of the population’s demand for taxi transportetion , increasing the efficiency and quality of transport is one of the actual issues of the day.In addition to ensuring the technical level of the transportation process the main purpose of the article is to improve the planning and orqanization of transportation and finelly to study the demand of the population for taxi transportation. Motor transport enterprises ate characterifed by large and complex diversity of methods of using material ,labour and financial ressourses,addoptation of types of activites and functions.Therefore, the development of complex systems should based primarialy and the metrolgy of a systematic approach which provides for the formation of a system of goals to be achieted by the interprise and only then the development of effective methods. The scientific develoment of theoretical, methodological and prectical issues of taxi-motor transport is gaining special relevonce in connection with the specailization of motor transport enterprises and the gathering of rothing stock in them.

***Key words:*** *taxi, transportation, transport, pessenger*

## Giriş

Əhalinin daşınmalara olan tələbatının tam və vaxtı- vaxtında təmin edilməsi, nəqliyyat işinin effektivliyinin və keyfiyyətinin artırılması dövrümüzün sosial siyasətinin aktual məsələlərindən biridir. Elmi məqalənin əsas məqsədi taksimotor daşıma prosesinin texniki səviyyəsinin yüksəldilməsinin təmin edilməsi ilə yanaşı daşınmaların səmərəli planlaşdırılmasının və təşkilinin, eləcədə idarə olunmasının təkmilləşdirilməsidir. Eyni zamanda bütün nəqliyyat növləri ilə əhaliyə göstərilən xidmətin xeyli yaxşılaşdırılması nəzərdə tutulmuşdur. Sərnişinlərin mürəkkəb yerdəyişmə mexanizminin ayrılmaz və mühüm hissəsi taksimotor nəqliyyatıdır [Vasilyev N.M Factor M.S.1974, p.15]

Bir qayda olaraq, avtomobil-taksilərdən vaxt məhdud olduğu və yalnız ən qısa yolla və yüksək sürətlə məqsədə çatmağın mümkün olduğu şəraitdə istifadə olunur.

Əhalinin maddi rifah səviyyəsi ildən-ilə yüksəlir və bu, taksimotor daşınmalarının həcminin sabit şəkildə artmasına gətirib çıxarır. Hal-hazırda taksi avtomobilləri parkının böyüməsi, onların dinamik keyfiyyətlərinin yaxşılaşması müşahidə olunur. Avto-nəqliyyat müəssisələri, idarələri və birlikləri tərəfindən ardıcıl olaraq elmi-texniki işlərin tətbiqi yolu ilə taksimotor nəqliyyatının işinin yaxşılaşdırılması üzrə geniş tədbirlər proqramı həyata keçirilir. Bu metod arsenalının taksimotor daşınmalarının keyfiyyətinin və resursların effektiv istifadəsinin idarə olunmasının kompleks sistemi çərçivəsində həllinə imkan verir.

**Taksimotor daşınmalarının keyfiyyətinin idarə edilməsinin kompleks sistemi**

Hər taksimotor avtonəqliyyat müəssisəsi qarşısında əhaliyə xidmət göstərilməsi keyfiyyətinin və hərəkətli heyətin istifadəsinin effektivliyinin artırılması məsələsi durur. Göstərilən məsələlər yalnız taksimotor daşınmalarının keyfiyyətinin idarə edilməsinin kompleks sisteminin işlənib hazırlanması, tətbiqi və resurslardan effektiv istifadə olunması əsasında yüksək səviyyədə həll edilə bilər. Sərnişinlərin daşınması məsələləri texniki inkişaf, əməyin və əmək haqqının təşkili, maliyyələşdirmə, uçot, təchizat və s. məsələlər kimi mühüm və məsuliyyətlidir. Beləliklə, kompleks sistemlərin özəlliyi ondan ibarətdir ki, onlar inteqrasiya olunmuşdur, bütün xidmətlərin və ümumilikdə avtonəqliyyat müəssisəsinin maraqlarına toxunur. Qarşıya qoyulmuş məsələlərin yerinə yetirilməsi üçün onun həllinə əsaslandırılmamış intuitiv yanaşmaları istisna edən dəqiq metodik əsas lazımdır. [Rotenshteyn I.I. 1973 p. 248 ]

Taksimotor nəqliyyatının nəzəri, metodiki və praktiki məsələlərinin elmi cəhətdən işlənib hazırlanması avtonəqliyyat müəssisələrinin ixtisaslaşması və onlarda hərəkətli heyətin toplanması ilə əlaqədar olaraq xüsusi aktuallıq qazanır. Taksimotor daşınmalarının təkmilləşdirilməsində yeni mərhələni ifadə edən bu böyük və məsuliyyətli işin yerinə yetirilməsi zamanı tövsiyələrin formal tətbiqindən qaçmaq lazımdır. [Isayeve. L.S.1972 y. 55 p]

Avtonəqliyyat müəssisələri maddi, əmək və maliyyə resurslarının istifadə üsullarının böyük və mürəkkəb müxtəlifliyi, fəaliyyət və funksiyaların növlərinin uyğunlaşması ilə səciyyələnir. Buna görə də kompleks sistemlərin işlənib hazırlanması ilk növbədə, nail olunması müəssisə tərəfindən təmin edilməli olan məqsədlər sisteminin formalaşmasını, yalnız bundan sonra effektiv metodların işlənib hazırlanmasını nəzərdə tutan sistemli yanaşma metodologiyasına əsaslanmalıdır.

Beləliklə, kompleks sistem çoxfunksiyalıdır və onun ayrı-ayrı elementləri elə qurulmalı və uzlaşdırılmalıdır ki, avtonəqliyyat müəssisəsinin fəaliyyətinin bütün məqsədlər kompleksinə nail olunmasını təmin etsin. Belə halda sistemin strukturu özü qarşıya qoyulmuş məqsədlərin həyata keçirilməsini təmin edən mexanizm kimi çıxış etməlidir. [2.Ilyin O.K Rotenshteyn I.I. 1973 y. 221 p]

Yaranmış şəraitdə daşınmaların təşkili və idarə olunmasının bir sıra funksiyalarının həm idarəetmə (birləşmə) səviyyəsində, həm də avtonəqliyyat müəssisəsi səviyyəsində yerinə yetirilməsinin mümkün olduğunu nəzərə alaraq, nümunəvi layihəyə bütün göstərilən səviyyələrdə funksiyaların yerinə yetirilməsini nizamlayan metodlar sisteminin daxil edilməsi haqqında qərar qəbul edildi. Buna görə də, avtomobil nəqliyyatının idarə olunması, birləşməsi və müəssisə mətndə bundan sonra müəssisə adlandırılacaq. Konkret obyekt üçün sistemin işlənib hazırlanması zamanı metodların məqsədyönlü seçimi aparılmalıdır**.**

**Şəkil 1.1. Taksimotor daşınmalarının keyfiyyətinin yüksəldilməsi üsulları sistemi**



Taksimotor daşınmalarının keyfiyyətinin (TDK) və resursların effektiv istifadəsinin idarə olunmasının kompleks sisteminin (REİİ KS) əsas müddəalarını nəzərdən keçirək.

Taksimotor daşınmalarının keyfiyyətinin artırılması dedikdə, əhalinin taksi tutmağa sərf etdiyi vaxtın azaldılmasını və gedişin rahatlığının artırılmasını nəzərdə tutan tədbirlər kompleksinin həyata keçirilməsi başa düşülür.

Kompleks sistem sərnişinlərə xidmət göstərilməsi keyfiyyətinin zəruri səviyyəsinin və taksidən istifadənin effektivliyinin müəyyən edilməsinə, təmin edilməsinə və dəstəklənməsinə yönəlmiş qarşılıqlı **əlaqəli təşkilati, texniki, iqtisadi, sosial tədbirlərin görülməsini nəzərdə tutur (şək. 1.1).**

Müəssisədə kompleks sistemin işlənib hazırlanmasına hazırlıq zamanı bu işlərin aparılmasına dair əmr verilir və baş mühəndisin və ya müəssisənin istismar üzrə müdir müavininin başçılığı ilə ən ixtisaslı mütəxəssislərdən ibarət koordinasiya-işçi qrupun (KİQ) tərkibi təsdiqlənir. KİQ-in işinin təşkili qrup üzvlərinin vəzifələrinin, hüquqlarının və öhdəliklərinin müəyyən edildiyi əsasnaməyə, eləcə də müəssisənin rəhbəri tərəfindən təsdiqlənmiş iş planına əsasən həyata keçirilir [Kazakov G.A. 1972, p.127].

Müəssisədə standartlaşdırma, məhsulun keyfiyyətinin müəyyən edilməsi, daşınmaların və avtomobillərin TX və CT keyfiyyətinin müəyyən edilməsi, kompleks sistemin fəaliyyəti məsələlərinin işıqlandırılmasını nəzərdə tutan proqram üzrə, eləcə də sahə üzrə normativ-texniki sənədlərin öyrənilməsi üzrə texniki tədris təşkil edilməlidir. İstehsalat fəhlələri və sürücü heyəti arasında keyfiyyət və effektivlik məsələləri üzrə izahedici iş aparılmalıdır. Bu tədbir keyfiyyət məktəbləri şəklində təşkil oluna bilər.

Sistemin tətbiqindən əvvəl KİQ üzrə müvafiq plan üzrə aparılan, müəssisənin keyfiyyət və effektivlik məsələləri üzrə fəaliyyətinin yoxlanışı və təhlili həyata keçirilməlidir. Bu təhlil əsasında istehsalatın təşkilati-texniki səviyyəsinin yüksəldilməsi üzrə tədbirlər planı təşkil edilir və həmin plan sistem üçün texniki tapşırığın işlənib hazırlanması zamanı nəzərə alınır.

Müəssisənin hər bölməsi üzrə daşınmaların keyfiyyətinin və resursların effektiv istifadəsinin idarə olunması zamanı funksional əlaqələrin təhlili aparılır və bunun əsasında funksional məsuliyyətin bölgüsü, vəzifə təlimatlarının təkmilləşdirilməsi, məlumat axınlarının və keyfiyyət üzrə sənədlərin formalaşdırılması, icraçıların əməyinin qiymətləndirilməsinin təsnifatçılarının və istehsalın təşkilinin və idarə olunmasının təkmilləşdirilməsini təmin edən digər tədbirlər üzrə tövsiyələr işlənib hazırlanır. Bu iş daşınmaların keyfiyyətinin və resursların effektiv istifadəsinin idarə olunmasının kompleks sistemi şəraitində müəssisənin təşkilati-funksional strukturunun sxemi şəklində təqdim edilir [Kazakov G.A. 1972, p.134-135].

Keyfiyyətin idarə olunmasının kompleks sisteminin işlənib hazırlanmasına dair texniki tapşırıqda sistemin məqsəd və vəzifələri formalaşır və TDK və REİİ KS-ə qarşı əsas tələblər və onun yaradılması qaydası müəyyən edilir. TDK və REİİ KS-in işlənib hazırlanmasının və tətbiqinin əsas məqsədi taksimotor nəqliyyatının planlaşdırılması, təşkili və idarə olunması üsullarının təkmilləşdirilməsi, əhaliyə taksimotor daşınmaları ilə xidmət göstərilməsinin və hərəkətli heyətin istifadəsinin effektivliyinin səviyyəsinin ardıcıl yüksəldilməsi üçün onun işinin yüksək etibarlılığının təmin edilməsidir. Kompleks sistemin əsas vəzifələri sərnişinlərin taksidə gedişə vaxt sərfiyyatının azaldılmasını, əhaliyə xidmət göstərmə mədəniyyət səviyyəsinin yüksəldilməsi, daşınmaların maya dəyərinin azaldılmasını və s. nəzərdə tutur.

Texniki tapşırıqda müəssisənin xarakterisikası üçün göstəricilərin siyahısı verilir və bura hərəkətli heyətin sayı və xarakterstikası, texniki-istehsalat bazasının qurulması, sərnişin daşımanın həcmi, hərəkətli heyətin texniki xidməti və cari təmiri üçün istehsalat məkanlarının qısa təsviri və s. də daxildir. Texniki tapşırıqda həmçinin TDK və REİİ KS-də idarəetmənin məzmunu ətraflı açıqlanır.

Taksimotor daşınmalarının keyfiyyətinin idarə olunmasının kompleks sisteminin texniki layihəsində TDK və REİİ KS-in kompleks sistemin təminat vasitələrinin müəyyən edildiyi, texniki-təşkilati səviyyənin qaldırılması üzrə tədbirlər planının və s. verildiyi "Əsas müddəalar" başlıca standartı olmalıdır [Kochiyev E.C. 1982 y. 57-59 p]

**TDK və REİİ KS iş layihəsinə müəssisənin bütün istehsalat sahələrinin fəaliyyətini nizamlayan standartlar kompleksi daxildir.**

TDK və REİİ KS-in alt sistemlərini qısa nəzərdən keçirək. Quruluşca hər alt sistemdə onların vəzifələrini və icraçıları təmin edən, yerinə yetirilən funksiyaların qeyd edilməsi nəzərdə tutulur.

Daşınmalar alt sistemində olduğu kimi, zəruri funksiyalar keyfiyyət göstəricilərinin planlaşdırılması və normalaşdırılması, işlərin görülməsinin attestasiyası, istehsalın texnoloji hazırlığı və s.-dir.

Təminedici alt-sistemə müəssisənin istehsalatın kompleks sistemin tətbiqinə hazırlıq funksiyalarının yerinə yetirilməsini, keyfiyyət üzrə bölmələrin yaradılması qaydasını nizamlayan standartlar kompleksi daxildir. [5.Kochiyev E.C. 1982 y. 35-36 p]

Kompleks sistemin yaradılması, tətbiqi və fəaliyyətinin təmin edilməsi üzrə işlərin təşkili üçün ictimai orqan – daim fəaliyyət göstərən keyfiyyət üzrə komissiya yaradılır. Komissiya tərəfindən aparılan iş istehsalın təşkilinin yaxşılaşdırılmasına, əhaliyə taksimotor nəqliyyatı ilə xidmət göstərilməsi keyfiyyətinin artırılmasına, daşınmaların maya dəyərinin azaldılmasına, resursların effektiv istifadəsinə, istehsalat ehtiyatlarının maksimal istifadə olunmasına, işçilərin öz əməyinin yekun nəticələrində və müəssisənin işinin ümumi yekunlarında maraqlı olmasının gücləndirilməsinə imkan verir. Bu komissiya müəssisənin bütün bölmələrində keyfiyyətin qiymətləndirilməsi və təhlilinin nəticələrini ümumiləşdirir və həmin materialları hər həftə keçirilən Keyfiyyət və Effektivlik Gününün iclaslarında nəzərdən keçirilməsi üçün hazırlayır. Bu iclaslarda kompleks sistemin tətbiqinin və fəaliyyətinin yekunu verilir, istehsalat çıxdaşları halları, texnolji, nəqliyyat, əmək və maliyyə intizamının pozulması faktları və digər məsələlər araşdırılır, eləcə də onlarla bağlı qərarlar qəbul edilir.

## Əməyin keyfiyyətinin qiymətləndirilməsi və stimullaşdırılması

Kompleks sistemdə fəaliyyətin yekun nəticələrindən asılı olaraq, icraçıların əməyinin keyfiyyətinin qiymətləndirilməsi və stimullaşdırılması məsələlərinə mühüm əhəmiyyət verilir. Əməyin stimullaşdırılmasının düzgün və çevik sistemi mövcud istehsalat ehtiyatlarının işə salınmasına, əməyin səmərəliliyinin artırılmasına, həm hazırlıq mərhələsində, həm də yerinə yetirmə prosesində daşınmaların maya dəyərinin azaldılmasına, eləcə də bütün növ resurslara qənaət edilməsinə imkan verir.

**Texniki-mühəndis işçilərinin, istismar xidmətinin işçilərinin və taksi sürücülərinin əməyinin qiymətləndirilməsi və stimullaşdırılması üsullarını nəzərdən keçirək.**

**İstismar xidmətinin nail olduğu işin iqtisadi nəticələri üzrə kompleks göstəricinin tərkib hissələri aşağıdakı asılılıqlarla müəyyən edilir.**

Dayanacaqlardan taksi tutulması ehtimalının müəyyən edilməsi zamanı (cədv. 2.1) ictimai nəqliyyatın digər növlərinin, avtomobil-taksilərin işinin texniki-istismar göstəricilərinin və digər amillərin bu kəmiyyətə təsiri öyrənilmişdir. Lakin əldə edilmiş nəticələrin ümumiləşdirilməsi zamanı müəyyən edilmişdir ki, sakinlərin sayına görə qəbul edilmiş şəhər qrupları çərçivəsində dayanacaqlar şəbəkəsinin sıxlığı əsas təsir göstərir və bu zaman praktiki hesablamaların lazımi dəqiqliyi təmin edilir. [4.Kazakov G.A. 1972 y.111-113 p]

*Cədvəl 2.1*

| Dayanacaqların sıxlığı, vah,/km2 | Şəhər qrupu | | | |
|---|---|---|---|---|
| | I | II | III | IV |
| 0,2-dək | 0,50 | 0,48 | 0,40 | 0,31 |
| 0,2 – 0,3 | 0,56 | 0,54 | 0,46 | 0,38 |
| 0,3 – 0,4 | 0,62 | 0,60 | 0,52 | 0,45 |
| 0,4 – 0,5 | 0,68 | 0,66 | 0,60 | 0,54 |
| 0,5 – 0,6 | 0,73 | 0,72 | 0,65 | 0,60 |
| 0,6 – 0,7 | 0,80 | 0,79 | 0,72 | 0,66 |
| 0,7 – 0,8 və daha artıq | 0,81 | 0,80 | 0,73 | 0,67 |

Dayanacaqlar şəbəkəsinin sıxlığı $f=F/\sigma$ düsturu ilə hesablanır, burada F – şəhərin tikilmiş sahəsi, km2; $\sigma$ – taskimotor dayanacaqlarının sayıdır, vah.

Taksi sərnişinlərinə sifarişlər üzrə xidmət göstərilməsi ehtimalı P(a3)=S/π qiymətinə bərabərdir, burada S – sifarişlərin sayı; π – taksiyə miniklərin sayıdır.

Dayanacaqlarda və yolla hərəkət edərkən taksi tutma zamanı taksi sərnişinlərinə xidmət göstərilməsi müddətininin elementlərini nəzərdən keçirək.




**Şəkil. 2.2.** Dayanacaqlardan (1), yolla hərəkət zamanı (2), qabaqcadan (3) və təcili (4) sifarişlər üzrə taksi tutarkən sərnişinlərin vaxt sərfiyyatı diaqramı. Sərnişinlərə xidmət göstərilməsi keyfiyyətinin qiymətləndirilməsi

Əhaliyə göstərilən xidmətin keyfiyyətinin və nəqliyyatın istifadəsinin effektivliyinin artırılmasına yönəlmiş tədqiqatların fəallığı müşahidə edilirdi. Əvvəllər əhalinin daşınmalara tələbatının kəmiyyətcə ödənməsi məqsədi qoyulurdu, hal-hazırda isə sərnişin nəqliyyatının daşıma prosesinin məhz keyfiyyətinə xüsusi diqqət yetirilir.

Şəhərlərdə taksimotor daşımalarının təşkili zamanı qaçılmaz olaraq əhaliyə göstərilən xidmətin keyfiyyətinin qiymətləndirilməsi problemi ortaya çıxır. Mövcud xidmət səviyyəsini bilmək, daşıma prosesini hərtərəfli təhlil etmək və yalnız bu təhlil əsasında taksimotor nəqliyyatının əsas inkişaf istiqamətlərini müəyyən etmək lazımdır. Əhalinin daşınmalara tələbatının ödənməsinin qiymətləndirilməsi aləti çox mühümdür, çünki onun köməyi ilə taksimotor nəqliyyatının potensial resurslarını işə salmaq və beləliklə, əhaliyə göstərilən xidmətin keyfiyyət səviyyəsinin və hərəkətli heyətin istismarının effektivliyini durmadan və ardıcıl qaldırmaq olar. Şəhərlərin əhalisinə taksimotor nəqliyyatı ilə xidmət göstərilməsinin keyfiyyət səviyyəsinin qiymətləndirilməsində istifadə olunan meyarlar və yanaşmalar xüsusi məsələlərin həllində uğurla tətbiq edilə bilər, lakin onların köməyi ilə daşınma prosesinin hərtərəfli səciyyələndirilməsi çətindir.

Buna görə də əhaliyə taksimotor nəqliyyatı xidmətinin göstərilməsinin keyfiyyət səviyyəsinin qiymətləndirilməsi üçün taksi tutulmasına normalaşdırılan vaxt sərfiyyatının (tnn) faktiki məlumatlar əsasında, yəni Kk= tnn/tnf müəyyən edilən taksi tutmanın hesablanan müddətinə (tnf) nisbətindən ibarət olan göstərici təklif edilmişdir. [6.Afenasyev L.L Chukerberg S.M. 1973 y. 234 p]

Sərnişinlər tərəfindən taksinin tutulması müddətinə avtomobil-taksiyə minmə anına qədər bütün vaxt sərfiyyatları daxildir. Sərnişinlərin taksidə hərəkətə vaxt sərfiyyatı nəzərə alınmır, çünki o, daha çox daşıma prosesinin təşkilinin və idarə olunmasının səviyyəsini deyil, şəhərlərin arxitektur planlaşdırma strukturunu, hərəkətin tənzimlənməsinin təşkilini, yol şəbəkəsinin vəziyyətini və əhaliyə taksimotorla xidmətin göstərilməsinin keyfiyyətinin qiymətləndirilməsi meyarına daxil edilməsi hesablamaları çətinləşdirəcək bir sıra digər amilləri səciyyələndirir.

Əhaliyə xidmət göstərilməsinin keyfiyyətinin qiymətləndirilməsinin bu analitik göstəricisinin tətbiqi ümumilikdə il, rüb, ay, sutka, yəni istənilən dövr ərzində daşınmaların səviyyəsini səciyyələndirməyə imkan verir.

Taksinin tutulmasına vaxt sərfiyyatının müəyyən edilməsi zamanı taksimotor nəqliyyatının əsas texniki- istismar və planlaşdırma göstəriciləri nəzərə alınır və nəticələrin müqayisə olunma qabiliyyəti təmin edilir.

Əhaliyə taksimotor nəqliyyatı xidmətinin göstərilməsi keyfiyyətini səciyyələndirən göstəricilərin müəyyən edilmiş qiymətlərinə uyğun olaraq, keyfiyyətin tamamlayıcı göstəricisinin hesablanması aparılmışdır (cədv. 2.2).

Əhalisinin sayı 1,84 mln. nəfər (H); tikilmiş ərazisinin ümumi sahəsi 350 m2 (F); taksimotor dayanacaqlarının sayı 240 (σ); magistral küçələr arasındakı məsafə 0,6 km (Lm) olan şəhər əhalisinə taksimotor nəqliyyatı xidmətinin göstərilməsinin keyfiyyətinin qiymətləndirilməsinə nümunə göstərək. Əhalinin hərəkətliliyi bir sakin tərəfindən ildə 15,6 gedişdir (π). Həmin şəhərin taksimotor parkı 3500 vah. (A) təşkil edir və buraxılma əmsalı 0,850 (αb), sutkalıq ödənişli gediş məsafəsi 246 km (löd), istismar sürəti 28 km/saatdır (vi). İş gününün müddəti 11 saat (Tm), həmin vaxtdan 0,2 nəfər orta dolma zamanı sərnişin gözləyərkən ödənilmiş işsiz dayanma vaxtı 0,5 saat (tday) təşkil edir. Sərnişinlərin orta gediş məsafəsi 6 km (lort) təşkil edir. Avtomobil-taksilərə 46 min miniyin (π) payına sutkada 1104 sifariş (S) düşür. [7.Blatnov M.D. 1971 y. 120 p]

*Cədvəl 2.2*

| Xidmət səviyyəsi | Şəhərlər qrupu üçün *K* qiyməti | | | |
|---|---|---|---|---|
| | I | II | III | IV |
| Nümunəvi | 1 və daha artıq | 1 və daha artıq | 1 və daha artıq | 1 və daha artıq |
| Yaxşı | 0,798 | 0,798 | 0,783 | 0,780 |
| Qənaətbəxş | 0,476 | 0,446 | 0,433 | 0,414 |
| Qeyri-qənaətbəxş | 0,476-dan az | 0,446-dan az | 0,433-dən az | 0,414-dən az |

### Daşınmaların keyfiyyətinin planlaşdırılması

Hal-hazırda təsərrüfat mexanizminin istehsalın effektvliyinin və xalq təsərrüfatının bütün sahələrinin, o cümlədən taksimotor nəqliyyatının keyfiyyətinin yüksəldilməsinə təsirinin planlaşdırılması və gücləndirilməsinin yaxşılaşdırılması məsələlərinə böyük diqqət yetirilir.

Bu məqsədlə, eləcə də əhaliyə nəqliyyat xidmətinin göstərilməsinin keyfiyyətinin yüksəldilməsi üzrə işlərin sistemləşdirilməsi üçün şəhərlərdə əhaliyə göstərilən xidmətin keyfiyyət göstəricilərinin planlaşdırılması metodikası işlənib hazırlanmışdır. Bu metodika əhaliyə taksi- motor xidmətinin göstərilməsinin keyfiyyətinin qiymətləndirilməsi üzrə layihələrin məntiqi tamamıdır. Əhaliyə avtomobil-taksi xidmətlərinin göstərilməsinin keyfiyyət göstəricisinin plana uyğun kəmiyyəti əhalinin taksi tutmaya normalaşdırılan vaxt sərfiyyatının taksi tutmanın planlaşdırılan müddətinə nisbəti ilə müəyyən edilir. Sərnişinlərin taksi tutmaya vaxt sərfiyyatının elementlərinin müəyyən edilməsi üçün riyazi asılılıqların təhlili nəticəsində müəyyən edilmişdir ki, əhaliyə taksimotor xidmətinin göstərilməsinin keyfiyyət göstəricisinin həcminin planlaşdırılması zamanı avtomobillərin xəttə buraxılması əmsalının, gediş məsafəsinin istifadə əmsalının, iş gününün müddətinin, istismar sürətinin normalaşdırılması, eləcə də avtomobillərin dayanacaqlarda və yolla hərəkət zamanı tutulması ilə sərnişinlərə xidmət göstərilməsi ehtimalının proqnozlaşdırılması həyata keçirilməlidir.

Taksinin xəttə buraxılma əmsalının kəmiyyətinin normalaşdırılması üçün ilk növbədə taksi parkının texniki hazırlıq əmsalının asılı olduğu amillər müəyyən edilmişdir.

### Daşınmalara olan tələbin öyrənilməsi və modelləşdirilməsi

Əhalinin daşınmalara tələbinin müəyyən edilməsi üçün cədvəl, hesabat, statistik, anket, vizual metodlar istifadə olunur. Yoxlamaya başlamazdan əvvəl qarşıya qoyulmuş məqsədlər, həll edilən məsələlər və maddi və əmək resursları ilə təminat əsasında yoxlamanın aparılması metodu seçilməlidir. Məhz minimal vaxt və vəsait sərfiyyatı ilə sərnişin axınlarının və ya nəqliyyat axınlarının zəruri xarakteristikalarının əldə olunmasını təmin edən metoda üstünlük verilir. Əhalinin daşınmalara olan tələbatının hər bir metodla yoxlanması üç mərhələyə bölünə bilər: yoxlamaya hazırlıq; yoxlamanın aparılması; əldə edilmiş məlumatın emalı.

